ISSN 1810-911X

# İPƏK YOLU

## İPEK YOLU ✦ ИПЕК ЙОЛУ

TƏSİSÇİ: AZƏRBAYCAN UNİVERSİTETİ

PUBLISHED BY: AZERBAIJAN UNIVERSITY

УЧРЕДИТЕЛЬ: УНИВЕРСИТЕТ АЗЕРБАЙДЖАН

**№ 4. 2016**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə № 472*

**REDAKSİYA HEYƏTİ:**

**Akif Musayev**
***(baş redaktor)***

**Dünyamalı Vəliyev**
*(baş redaktorun müavini)*

**Ziyad Səmədzadə**
**Teymur Bünyadov**
**Akif Əlizadə**
**Asəf Hacıyev**
**Əli Nuriyev**
**Səlahəddin Xəlilov**
**Yusif Məmmədov**
**Telman Əliyev**
**Vilayət Quliyev**
**Rövşən Quliyev**
**Habil Qurbanov**
**Mais Əliyev**
**Həsən Əlibəyli**
**Tofiq Vəliyev**
**Hüseyn Hüseynov**
**Vüqar Nəzərli**
**Bijan Fəzlullahi**
*(ABŞ)*
**Murat Barkan**
**Behzat Gürkan**
*(Türkiyə)*
**Erhan Özdəmir**
*(Türkiyə)*
**Bayram Kodaman**
*(Türkiyə)*
**Mətin Özkul**
*(Türkiyə)*
**Venera Şərifzadə**
*(məsul katib)*

***Texniki heyət:***
**Zamin Əliyev**

***Korrektorlar:***
**Ayşən Hüseynova**
**Nisəxanım Babayeva**

**EDITORIAL BOARD:**

**Akif Musayev**
***(editor-in-chief)***

**Dunyamali Veliyev**
*(deputy editor-in-chief)*

**Ziyad Samedzadeh**
**Teymur Bunyadov**
**Akif Alizadeh**
**Asef Hajıyev**
**Ali Nuriyev**
**Selaheddin Khalilov**
**Yusif Mamedov**
**Telman Aliyev**
**Vilayet Quliyev**
**Rovshen Quliyev**
**Habil Qurbanov**
**Mais Aliyev**
**Hasan Alibeyly**
**Tofiq Veliyev**
**Hussein Husseinov**
**Vuqar Nazarli**
**Bijan Fezlollahi**
*(USA)*
**Murat Barkan**
**Behzat Gurkan**
*(Turkey)*
**Erhan Ozdemir**
*(Turkey)*
**Bayram Kodaman**
*(Turkey)*
**Metin Ozkul**
*(Turkey)*
**Venera Sharifzadeh**
*(secretary responsible)*

***Technical staff:***
**Zamin Aliyev**

***Correctors:***
**Ayshan Huseynova**
**Nisaxanim Babayeva**

**РЕДАКЦИОННЫЙ СОВЕТ:**

**Акиф Мусаев**
***(главный редактор)***

**Дуньямалы Велиев**
*(зам. главного редактора)*

**Зияд Самедзаде**
**Теймур Буньядов**
**Акиф Ализаде**
**Асаф Гаджиев**
**Али Нуриев**
**Салахаддин Халилов**
**Юсиф Мамедов**
**Тельман Алиев**
**Вилаят Гулиев**
**Ровшан Гулиев**
**Хабил Гурбанов**
**Маис Алиев**
**Гасан Алибейли**
**Тофик Велиев**
**Гусейн Гусейнов**
**Вугар Назарли**
**Бижан Фазлуллахи**
*(США)*
**Мурат Баркан**
**Бехзат Гюркан**
*(Турция)*
**Эрхан Оздемир**
*(Турция)*
**Байрам Кодаман**
*(Турция)*
**Метин Озкул**
*(Турция)*
**Венера Шарифзаде**
*(ответственный секретарь)*

***Технический персонал:***
**Замин Алиев**

***Корректоры:***
**Айшен Гусейнова**
**Нисаханум Бабаева**

***Redaksiyanın ünvanı:***
Bakı şəhəri, Nəsimi rayonu, Tbilisi pr. 72

***Telefonlar:***
(994 12) 431 41 12-13/16-17,
***Fax:***
(994 12) 431 41 18

İnternet ünvanımız:
***www.au.edu.az***
e-mail:
***venera.sharifzade@au.edu.az***

***Azərbaycan Universitetinin mətbəəsində çap olunmuşdur.***

***Çapa imzalanmışdır:***
09.12.2016
Tiraj 500.

# MÜNDƏRİCAT

**İQTİSAD ELMLƏRİ**


**■ İQTİSADİ NƏZƏRİYYƏ**

Sədaqət İBRAHİMOVA
Neft və qaz yataqları üzrə hasilatın sabitləşməsi və artırılması istiqamətində həyata keçirilən innovasiya tədbirləri....... 5

Gövhər MƏMMƏDOVA
Məşğulluq və işsizliyin nəzəri konsepsiyası.......14

Habil ASLANOV, Ülvi MƏMMƏDƏLİYEV
İqtisadi qloballaşma şəraitində ölkənin rəqabətqabiliyyətliliyinin təmin edilməsi .......21

**■ REAL SEKTOR**

Şəfa ƏLİYEV
Azərbaycanda sənaye sektorunun və ixrac potensialının gücləndirilməsinin konseptual istiqamətləri.......35

Təyyar MUSTAFAYEV, Pərvin PAŞAYEVA
Azərbaycanın qida sektorunda mövcud rəqabət şərtlərinə uyğun olan qiymət strategiyalarının müəyyən edilməsi.......43

Səadət ZEYNALOVA
Sənaye siyasəti və onun reallaşdırılması imkanları....... 53

İsrafil MƏMMƏDOV
Şəhər tikintisində bazar mexanizminin əsas elementləri....... 61

Natavan QORÇİYEVA
Azərbaycanda iqtisadi resurslardan istifadənin effektivlik məsələləri.......68

Rafiq QARAYEV
Sənaye sahələrinin rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin proqnoz modelləri.......76

Ruslan ƏLİYEV
Azərbaycanda gələcək yaşayış evlərinin inkişafının xarakterik xüsusiyyətləri....... 85

Natavan FEYZİYEVA
Qeyri –neft sənayesi müəssisələrində risklərin qiymətləndirilməsi metodologiyası....... 94

Ceyhun VƏLİYEV
Yüngül sənaye müəssisələrində innovasiyaların rəqabət potensialından istifadəyə təsiri.......102

**■ MALİYYƏ**

Bəyaz ABDULLAYEVA
Neft-kimya müəssisələrində daxili audit sisteminin effektivliyinin qiymətləndirilməsi.......106

**■ SOSİAL PROBLEMLƏR**

Təyyar MUSTAFAYEV
Azərbaycanda ali təhsil sisteminin fəaliyyətini tənzimləyən hüquqi əsaslar....... 113

**■ DÜNYA İQTİSADİYYATI**

Aynur ƏLİYEVA
Müasir dövrdə Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin maliyyə sabitliyinə təsiri....... 120

Tekmez Kulu KORKMAZ
TANAP layihəsi və onun strateji əhəmiyyəti....... 127

**FİLOLOGİYA ELMLƏRİ**

Günel ZEYNALLI
Rəşad Nuri Güntəkin romanlarında şəxsiyyət və cəmiyyət problemi .......134

Salatın ƏHMƏDOVA
Heydər Əliyev və sosializm realizmi ədəbiyyatının simaları....... 140

Sona VƏLİYEVA
Əfsanə və romantik metod: M.Füzulinin “ Leyli və Məcnun” poeması....... 144

**MAGİSTR TRİBUNASI**

Cavad MUSTAFAZADƏ
Uşaq nikahı, erkən nikah və yetkinlik yaşına çatmayan uşaqların nikahı anlayışlarının müqayisəli təhlili....... 152

Günay ƏLƏSKƏROVA
XIX əsr ədəbiyyatında Mark Tven və Cəlil Məmmədquluzadə yaradıcılığı....... 157

Bahar MƏMMƏDOVA
XX əsrin 50-ci illərində Amerika-yəhudi ədəbiyyatı....... 162

Nigar MƏMMƏDLİ
İngilis ədəbiyyatında kulinariya terminlərinin yaranma tarixi....... 166

Nurlanə ƏYYUBOVA
Afro-amerikan dialektinin regional variantları....... 170

“İpək yolu” jurnalına məqalələrin təqdim olunma qaydaları.......174

# CONTENTS

**ECONOMIC**

■ **ECONOMIC THEORY**
Sedaqat IBRAHIMOVA
Innovative measures implemented to stabilize and increase oil and gas production........5
Govhar MAMMADOVA
Theoretical concepts of employment and unemployment........14
Habil ASLANOV, Ulvi MAMMADALIYEV
Ensuring country's competitiveness in the context of globalization........21

■ **REAL SECTOR**
Shafa ALIYEV
The conceptual directions of strengthening the industrial sector and export potential to Azerbaijan........35
Tayyar MUSTAFAEV, Pervin PASHAEVA
Determinaton of price strategies according to competitive standards in Azerbaijan food sector........43
Seadet ZEYNALOVA
Industrial policy and its realization........53
Israfil MAMMADOV
The main elements of market mechanisms in urban planning........61
Natavan GORCHIYEVA
The effective use of economic resources in Azerbaijan........68
Rafiq QARAYEV
The forecasting models of increasing the competitiveness of industrial sectors........76
Ruslan ALIYEV
The specific progressive characters of future dwelling houses in Azerbaijan........85
Natavan FEYZIYEVA
Risk assessment methodology at the enterprises of non-oil industry........94
Jeyhun VALIYEV
The innovation and its impact on the use of competitiveness of the entreprizes of light industry........102

■ **FINANCE**
Bayaz ABDULLAYEVA
The assessement of effectiveness of internal audit system on the petrochemical enterpries........106

■ **SOCIAL PROBLEMS**
Tayyar MUSTAFAYEV
Legal bases regulating the activities of Azerbaijan's education system........113

■ **WORLD ECONOMY**
Aynur ALIYEVA
The development of Azerbaijan's trade relations with CIS countries and its impact on financial stability........120
Tekmez Kulu KORKMAZ
TANAP project and its strategical importance........127

**PHILOLOGICAL SCIENCES**
Gunel ZEYNALLI
The problem of personality and society in the novels of Reshad Nuri Guntekin........134
Salatin AHMADOVA
Heydar Aliyev and representatives of socialist realism........140
Sona VELIYEVA
The legend and romantic method: the poem of "Leyla and Majnun" by M.Fuzuli........144

**TRIBUNE FOR GRADUATE STUDIES**
Javad MUSTAFAZADA
Comparative analysis of the concepts of child marriages, early marriages and marriages of underage people........152
Gunay ALASKAROVA
The works of Mark Twen and Jalil Mammadquluzade in the literature of 19-th century........157
Bahar MAMMADOVA
American jewish literature in the fifties of the XX century........162
Nigar MAMMADLI
The history of culinary terms in English literature........166
Nurlana AYYUBOVA
Regional variants of Afro-American dialect........170

Rules of presentation of articles to the journal "Ipek yolu"........174

# СОДЕРЖАНИЕ


**ЭКОНОМИЧЕСКИЕ НАУКИ**

**■ ЭКОНОМИЧЕСКАЯ ТЕОРИЯ**
Садагат ИБРАГИМОВА
Выполненные инновационные мероприятия направленные на стабилизацию и увеличение добычи нефти и газовых месторождений....5
Гёвхар МАМЕДОВА
Теоретические концепции занятости и безработицы....14
Габил АСЛАНОВ, Ульви МАМЕДАЛИЕВ
Обеспечения конкурентоспособности страны в условиях экономической глобализации ....21

**■ РЕАЛЬНЫЙ СЕКТОР**
Шафа АЛИЕВ
Концептуальные направления усиления промышленного сектора и экспортного потенциала в Азербайджане....35
Теяр МУСТАФАЕВ, Парвин ПАШАЕВ
Установление оценочных стратегий соотвественно с условиями существующей конкуренции в пищевом секторе в Азербайджана ...43
Саадат ЗЕЙНАЛОВА
Промышленная политика и возможности её реализации....53
Исрафил МАМЕДОВ
Основные элементы рыночного механизма в городском строительстве....61
Натаван ГОРЧИЕВА
Вопросы эффективности использования экономических ресурсов в Азербайджане....68
Рафик Караев
Прогностическая модель повышения конкурентоспособности промышленных отраслей....76
Руслан АЛИЕВ
Характерные особенности развития жилища в будущем в Азербайджане....85
Натаван ФЕЙЗИЕВА
Методология оценки рисков на предприятиях ненефтяной промышленности....94
Джейхун ВЕЛИЕВ
Влияние инноваций на использование потенциальной конкуренции в предприятиях легкой промышленности....102

**■ ФИНАНСЫ**
Баяз АБДУЛЛАЕВА
Оценка эффективности системы внутреннего аудита на нефтехимических предприятиях....106

**■ СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ**
Теййар МУСТАФАЕВ
Правовые основы регулирования деятельности системы высшего образования в Азербайджане....113

**■ МИРОВАЯ ЭКОНОМИКА**
Айнур АЛИЕВА
Влияние торговых связей Азербайджана со странами СНГ на финансовую стабильность в современных условиях....120
Текмез Кулу КОРКМАЗ
Проект TANAP и его стратегическое значение....127

**ФИЛОЛОГИЧЕСКИЕ НАУКИ**
Гюнель ЗЕЙНАЛЛЫ
Проблема идентичности и общества в романах Рашад Нури Гюнтекин....134
Салатын АХМЕДОВА
Гейдар Алиев и представители литературы социалистического реализма....140
Сона ВЕЛИЕВА
Легенда и романтический метод: поэма «Лейли и Меджнун» М.Физули....144

**ТРИБУНА МАГИСТРАНТОВ**
Джавад МУСТАФАЗАДЕ
Сравнительный анализ понятий "Детский брак", "Ранний брак" и "Брак несовершеннолетних детей"....152
Гюнай АЛЕСКЕРОВА
Творчество Джалила Маммедкулузаде и Марк Твена в летературе XIX века ....157
Бахар МАМЕДОВА
Еврейская литература Америки 50-х годов XX века....162
Нигяр МАМЕДЛИ
История зарождения кулинарных терминов в Английской литературе....166
Нурлана ЭЮБОВА
Региональне варианты Афро-Американского диалекта....170

Правила приёма статей в журнал «Ipek yolu»....174

# NEFT VƏ QAZ YATAQLARI ÜZRƏ HASİLATIN SABİTLƏŞMƏSİ VƏ ARTIRILMASI İSTİQAMƏTİNDƏ HƏYATA KEÇİRİLƏN İNNOVASİYA TƏDBİRLƏRİ

**Sədaqət İBRAHİMOVA**
*ADNSU-nun asistenti, i.f.d.*

**Rəyçi:** ADNSU, "Enerji və neft-kimya sahəsi", İqtisadiyyat kafedrası. prof., i.e.d. M. Fərzəliyev

**Açar sözlər:** innovasiya, neft strategiyası, hasilatın sabitləşdirilməsi, nanotexnologiya

Məqalədə Azərbaycanda neft və qaz yataqları üzrə hasilatın sabitləşməsi və artırılması istiqamətində həyata keçirilən və vacib olan innovasiya tədbirlərinin iqtisadi əhəmiyyətinin təhlili verilmiş, innovasiyanın mahiyyəti, Azərbaycan neft strategiyasında innovasiyanın rolu və bu sahədə son illərdə respublikamızda görülmüş işlər qiymətləndirilmiş, gələcək üçün nəzərdə tutulmuş tədbirlər təklif olunmuşdur.

**Giriş:** İnnovasiya-iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İstehsalatda elmi-texniki tərəqqinin nailiyyətləri məhz innovasiyalar formasında yayılır. İnnovasiya prosesləri elmin ayrı-ayrı sahələrində yaranıb istehsal sahəsində tamamlanaraq, onun daxilində mütərəqqi, keyfiyyətcə yeni dəyişiklərə səbəb olur. İnnovasiyalar həm texnika və texnologiyaya, həm də istehsalatın və idarəetmənin təşkili formalarına aid edilə bilər. Onların hamısının arasında sıx qarşılıqlı əlaqə var və onlar istehsal güclərinin inkişafının və istehsalatın səmərəliliyinin artırılmasının keyfiyyət pillələridir. İnnovasiya fəaliyyəti istehsalata və sosial sahəyə elmi-texniki tərəqqinin nailiyyətlərini tətbiq etmək üçün investisiya fəaliyyətinin bir forması kimi də həyata keçirilə bilər.

Bütün inkişaf etmiş ölkələrin neft-qaz sektorundakı innovasiya prosesləri təsdiq edir ki, dövlət təsiri nə qədər effektiv olarsa, neft-qaz sahəsinin innovasiya inkişaf modeli bir o qədər səmərəli olar.

Dövlətin innovasiya siyasəti: Azərbaycan Respublikasının iqtisadiyyatında və sosial həyatında müstəsna əhəmiyyətə malik olan yanacaq-enerji kompleksinin daha da inkişaf etdirilməsi, əhalinin və iqtisadiyyatın enerji resursları ilə təminatının yaxşılaşdırılması və enerjidaşıyıcılardan istifadənin səmərəsinin artırılması məsələləri dövlətimizin daimi nəzarətindədir. Əhalinin və iqtisadiyyatın elektrik enerjisinə, təbii qaz və digər enerjidaşıyıcılarına olan tələbatının yüksək səviyyədə ödənilməsinə nail olmaq ən ümdə vəzifələrimizdəndir. Bunun üçün respublikanın yanacaq-enerji kompleksinin müasir tələblərə uyğun inkişafının əsas istiqamətlərini müəyyənləşdirmək; bu kompleksə daxil olan sənaye sahələrinin fəaliyyətinin səmərəliliyinin artırılması üçün müvafiq elmi-texniki və təşkilati tədbirləri həyata keçirmək; enerji resurslarının istehsalı, emalı, nəqli, saxlanılması, uçotu və istehlakı üzrə mütərəqqi texnoloji tədbirlərin həyata keçirilməsini təmin etmək vacibdir.

Ölkənin yanacaq-enerji kompleksini daha da inkişaf etdirmək məqsədilə neft və qaz hasilatı sahəsində aşağıdakı istiqamətlərdə işlərin aparılması nəzərdə tutulmuşdur: yeni yataqların axtarışı və kəşfiyyatı; aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi; işlənmədə olan yataqlarda yeni quyuların qazılması və fəaliyyətsiz quyuların bərpası; işlənmədə olan yataqlar üzrə neftvermə əmsalının artırılması məqsədi ilə yeni texnika və texnologiyaların tətbiqi; neft-qaz hasilatı, nəqli və emalı sistemlərinin tikilməsi, yenidən qurulması və modernləşdirilməsi; elm və texnikanın nailiyyətlərindən və qabaqcıl təcrübədən geniş istifadə edilməsi [1].

Göründüyü kimi, Azərbaycan dövlətinin məqsədi neft-qaz sektorunun inkişafına, xüsusilə də mövcud ehtiyatların qiymətləndirilməsi ən yeni texnika və ondan maksimum istifadə əsasında istehsalın intensivləşdirilməsi və sosial-iqtisadi inkişafın sürətləndirilməsidir. Hələ 1994-cü ildə ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış olan "Əsrin müqaviləsi"nə əsasən həyata keçirilmiş tədbirlərdən ən ümdəsi respublikanın neft sənayesinin o dövrdəki texniki vasitələrinin dünyanın aparıcı şirkətlərinə mənsub olan ən müasir texniki vasitələr və avadanlıqlarla təmin edilməsi idi. Yeni texnika və texnologiyaların qazmada və neft-qazçıxarma sahələrində geniş tətbiqi artıq öz bəhrəsini verərək Azərbaycanın neft-qaz ixracatçısı kimi aparıcı ölkələr sırasına qoşulmasına səbəb olmuşdur. Hazırda bu sahədə qarşıda duran əsas məqsəd neft və qaz yataqları üzrə hasilatın sabitləşməsi və artırılması istiqamətində tədbirlərin hazırlanıb həyata keçirilməsidir. Məqsədə nail olmağın başlıca yolu neft-qaz hasilatında innovasiyanın geniş tətbiqinin həyata keçirilməsidir.

Neft-qaz sənayesinin innovasiya fəaliyyəti elmi-texniki, intellektual potensialı səfərbər edərək, sənaye istehsalının səmərəliliyinin və digər iqtisadi inkişafa nail olmalarını əhatə edən, özündə birləşdirən kompleks təşkili, texniki, iqtisadi və sosial tədbirlər sistemidir. Məhsuldar və prosesli olmaqla texnoloji innovasiya hər iki istiqamətdə sənayedə əhəmiyyətini nümayiş etdirə bilər. Sahə elminin vəziyyəti indiki elmi-tədqiqat işlərinə, layihə-konstruktor işləmələrinə və innovasiya fəaliyyətlərinə olan tələblərə cavab vermir. Laborator avadanlıqlarının fiziki və mənəvi aşınması müasir elmi-texniki tədqiqatların aparılmasına imkan vermir. Bu baxımdan son illərdə sənayedə prinsipial olaraq texnoloji yeniləşmə, innovasiya prosesi həyata keçirilir. Məlum faktdır ki, Xəzərin yeni neftli strukturlarının mənimsənilməsinin texnoloji və iqtisadi strategiyası innovasiyalı nailiyyətlər sferasına cərəyan edir. Lakin bununla yanaşı qətiyyətlə demək olmaz ki, yeni yataqların işlənməsində konsersium tərəfdaşları bütövlüklə ən müasir və qabaqcıl texnologiyaları tətbiq edirlər. Digər tərəfdən isə onların tətbiq etdiyi innovasiyalar respublikanın hüdudları kənarında yaranır və istehsal edilir. Bu baxımdan neft-qaz sənayesində innovasiyaların yaranışı və böyük dövriyyədə çıxışı təşkil edilməlidir. Belə ki, milli neft-qaz sənayesində innovasiya sahəsində elmi axtarışların genişləndirilməsi, elmi tərəqqinin sürətləndirilməsi və innovasiyaların tətbiqi yeni maliyyə mənbələrinin təşəkkülünə təkan vermiş olar.

İnnovasiyalı fəaliyyəti həyata keçirərkən onun iqtisadi səmərəliliyinə xüsusi fikir verilməlidir. İnnovasiyalı fəaliyyətin iqtisadi səmərəliliyi onun həyata keçirilməsinə çəkilən məsrəflərlə əldə olunan nəticələr arasındakı nisbətlə xarakterizə edilir. İnnovasiyalı

fəaliyyətin birbaşa nəticəsi sahənin istehsal güclərinin artırılması, son nəticəsi isə məhsulun (iş və xidmətlərin) həcminin və mənfəətin artımıdır. İnnovasiya fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsi istehsalın intensivləşdirilməsinin mühüm istiqamətlərindən biridir.

Beləliklə, innovasiya fəaliyyəti aşağıdakıları nəzərdə tutur:

- innovasiya proqramlarının işlənib hazırlanması;
- yeni texnika və texnologiyanın layihələşdirilməsi, hazırlanması və mənimsənilməsi üzrə təşkilati-texniki tədbirlərin işlənib hazırlanması;
- sahə miqyasında vahid innovasiya siyasətinin həyata keçirilməsi;
- innovasiya fəaliyyətinin həyata keçirilməsi ilə bağlı olan proqramların maliyyə və material-enerji ehtiyatları ilə təmin olunması;
- innovasiya fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar problemlərin həlli üzrə müvəqqəti, yaradıcı qrupların yaradılması və s.

Neft-qaz sənayesində innovasiyanın inkişaf etdirilməsi zərurəti aşağıdakılarla izah oluna bilər:

Əvvəla, neft-qaz sənayesində innovasiyanın inkişaf etdirilməsi öz nəzəri bazasını M.Poznerin - texnoloji üstünlük nəzəriyyəsindən götürür. Belə ki, bu nəzəriyyəyə görə ETT-nin lideri olan ölkələr yeniliklər hazırlanması işini davam etdirməklə digər ölkələri həmişə qabaqlayır. Bu isə müvafiq ölkə və sahəyə üstünlük gətirir [2].

İkincisi, məlum olduğu kimi, Xəzərin yeni nəhəng karbohidrogen resursları istismarında çoxlu neft nəhəngləri iştirak edir. Bağlanan uzunmüddətli müqavilələr isə işlərin dünyəvi standartlara, ETT-nin yeni nailiyyətlərinə uyğun tərzdə qurulmasını şərtləndirir.

Üçüncüsü, sön dövrlərdə neft-qaz sənayesində özünü göstərən amillər hasilatın enməsi, ehtiyatların tükənməsi, mənəvi aşınma, rennovasiya prosesi və digər texniki-iqtisadi çətinliklər ETT-nin nailiyyətlərinin, yeni müasir texnologiyaların alınması zərurətini yaradır və s.

İnnovasiya fəaliyyətinin inkişaf etdirilməsi onun elmi-texniki potensialının durumu, keyfiyyət və kəmiyyət parametrləri ilə əlaqədardır. Elmi-tədqiqat işlərinin vəziyyəti, elmi tutumluluq səviyyəsi, ixtisaslı kadr potensialı, ixtiraçılıq təcrübəsi və təşəbbüskarlığı, informasiya təminatı, erqonomik vəziyyət, idarəetmə qabaqcıllığı və əsasən də maliyyə imkanlılığı ilə ölçülür. Əlbəttə, məsələyə kompleks yanaşma digər texniki-təşkilati və amillər analizini əhatə edən təhlilsiz ötüşməyəcəkdir.

İnnovasiyanın dövlət səviyyəsində dəstəklənməsi özündə yeni texnikanın yaradılması və mütərəqqi texnoloji proseslərin işlənib hazırlanması məqsədilə həyata keçirilən layihələrə, yeni vençur firmalarının yaradılmasına dövlətin maliyyə yardımını əks etdirir.

Mütəxəssislər elmi innovasiya fəaliyyəti həyata keçirən müəssisə və təşkilatların stimullaşdırılması üçün müxtəlif variantlar olduğunu bildirirlər. Azərbaycanda elmi innovasiya fəaliyyətini həyata keçirən bütün müəssisə və təşkilatların fəaliyyətinin stimullaşdırılması təklif edilir. Milli Məclisdə bu məsələ "Elm haqqında" qanun layihəsinin ikinci oxunuş üçün təkmilləşdirilmiş yeni variantına daxil edilib.

Layihədə elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri də müəyyən-

ləşdirilib. Layihəyə görə, milli innovasiya sisteminin formalaşdırılması və onun inkişafının strateji istiqamətlərinin müəyyən edilməsi, prioritetlər üzrə texnoloji inkişafa hədəflənən uzunmüddətli innovasiya proqramlarının hazırlanması və həyata keçirilməsi elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən olacaq.

Layihədə qeyd edilir ki, elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri innovasiya layihələrinin maliyyələşdirilməsi, investisiyaların cəlb edilməsi və təşviqi üzrə əlverişli şəraitin yaradılması və müvafiq təşkilati işlərin görülməsidir.

Layihəyə əsasən, elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri rəqabətqabiliyyətli, yüksək texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılmasında iştirak etməklə, dövlət sifarişi ilə yaradılmış milli innovasiya məhsullarının zəmanətli satış bazarlarının təmin edilməsi və xarici bazarlara çıxışının həvəsləndirilməsi və himayə edilməsidir [3].

İqtisadiyyatını sürətlə inkişaf etdirən Yaponiyada texniki-texnoloji məqsədlər ümumdövlət səviyyəsində həyata keçirilir, müəyyən edilmiş məqsədə nail olmaq üçün iqtisadiyyatın bütün imkanları səfərbərliyə alınır, innovasiya fəaliyyəti digər fəaliyyət növlərinə nisbətən iqtisadi cəhətdən daha geniş həvəsləndirilir.

Bu sahədə respublikada neft sənayesində hasilatın sabitləşdirilməsi və artırılması istiqamətində aşağıdakı tədbirlərin yerinə yetirilməsi məqsədəuyğundur:

- Aparıcı neft şirkətləri, beynəlxalq energetik institutlarla elmi-texniki əməkdaşlığın yüksəldilməsi;
- Yaradıcı təşəbbüsləri müdafiə etmək, qrantlar vermək, kadr hazırlığını beynəlxalq səviyyəyə yüksəltmək;
- Xarici ölkələrin kəşflərindən, ideyalarından, layihələrindən, proqramlarından və s. geniş istifadə olunması;
- Geoloji kəşfiyyat və axtarış işlərini genişləndirmək, innovasyon fəaliyyəti, elmi-texniki nailiyyətləri daha aktiv maliyyələşdirmək, azdebetli və ehtiyatları tükənmiş sahələrdə elmi-texniki işlənmələrin tətbiqini sürətləndirmək və yeni perspektivli yataqları istismara vermək;

Elm, texnika və texnologiya yeniləşdikcə, bu texniki vasitələrlə işləyə bilən savadlı kadrlara ehtiyac daha da artır. Texnikanın yenilənməsi tempi kadrların hazırlanmasından daha sürətli olduğunu nəzərə alsaq, bu, biraz çətin və uzun proses olacaqdır. Lakin hər bir prosesdə olduğu kimi bu prosesin də başlanğıc nöqtəsi, inkişaf nöqtəsi vardır və bu istiqamətdə artıq müəyyən irəliləyişlər qeydə alınıb. Əvvəla dövlətimizin dəstəyi ilə, seçilən tələbələr xaricdə təhsilə cəlb olunur və qabiliyyətli mütəxəssislər yeni texnika və texnologiyalara yiyələnmək məqsədilə bir çox ölkələrə təkmilləşdirmə kursları ilə yanaşı, həm də təcrübə mübadiləsinə məzun olunurlar. Neft sənayesi üçün savadlı kadrların yetişdirilməsi istiqamətində ADNSU-nun və Bakı Ali Neft Məktəbinin fəaliyyətini xüsusilə qeyd etmək olar. Bu tədris ocaqlarının tələbələri "istehsalat təcrübələrini" Neftqazçıxarma və Qazma idarələrində (ixtisasından asılı olaraq) keçir, yeni texnoloji qurğular və avadanlıqlarla yerlərdə tanış olurlar. Nəzərdə tutulur

ki, yeni tədris ilindən, tələbələrin buraxılış işlərinin mövzuları da, yerli mütəxəssislərin məsləhəti ilə təcrübə keçəcəyi istehsalat sahəsindəki mövcud layihə və problemlərin araşdırılmasına həsr olunsun, "İstehsalat təcrübəsi"nin müddəti artırılsın və müvafiq texnika və texnologiyalarla tanışlıq tədris laboratoriyalarından başlansın. Beləliklə istehsal sahələri ilə tədris müəssisələrinin daha sıx əməkdaşlığı nəticəsində yüksək ixtisaslı kadrların yetişdirilməsinə daha yaxşı şərait yaradılsın.

Statistikaya görə dünyada neft sərfiyyatı səviyyəsi hazırda 1994-cü ilə nisbətən 20% artmış, neftə olan tələbatın illik artımı isə 1,6% təşkil edir [4].

Neft sənayesində yataqlardan neftin tam çıxarılması ilə bağlı məsələlərin həlli əsas problemlərdəndir. Neft sənayesinin intensiv inkişafını təmin etmək üçün böyük miqdarda investisiya tələb edən aşağıdakı işlərin yerinə yetirilməsi vacibdir: neft və qaz ehtiyatlarının hazırlanması; qazma neft və qaz hasilatı üçün əsas avadanlıqların müasir tələblərə uyğun yenilənməsi; əsaslı tikinti obyektlərinin işə salınması və s.

İri təşkilatların, xüsusən də SOCAR-ın maliyyə imkanlarından səmərəli istifadə etmək və innovasiyalı tərəqqi prosesini sürətləndirməklə neft-qaz hasilatı müəssisələrində iqtisadi səmərəliliyin yüksəldilməsinə nail olmaq və müvafiq təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyini artırmaq mümkündür.

Neft-qaz hasilatı müəssisələrində texnoloji modernizasiyanın həyata keçirilməsi tədbirlərinə aşağıdakılar daxildir:

- İnnovasiya layihələrinin neft-qaz hasilatı müəssisələrində mövcud olan təşkilati, texnoloji, maliyyə-iqtisadi və s. problemlər nəzərə alınmaqla işlənib hazırlanması;
- Texnoloji yeniləşmə, çevik amortizasiya siyasətinin aparılması;
- Qazma strategiyasının müəyyənləşdirilməsi;
- Neft istehsalını böyük dövriyyədə təmin edən yeni infrastrukturun formalaşdırılması;
- İstehsal prosesinin innovasiya nailiyyətlər konteksində rekonstruksiyası.

Respublikada neft və qaz hasilatının inkişaf dinamikasına nəzər salsaq (Cədvəl 1-2) aydın olur ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nə əsasən Azərbaycan Neft Şirkəti xarici şirkətlərlə birgə fəaliyyət göstərərək, həm yeni texnika və texnologiyanın, həm də xarici ölkələrin müasir təcrübəsinin tətbiqi nəticəsində neft və qaz hasilatında artım müşahidə olunur. Azərbaycan Respublikasında neft-qaz sənayesində innovasiya fəaliyyətinin həyata keçirilməsi sahəsində son zamanlar xeyli işlər görülmüşdür. Xüsusən də layların neftverimini artırmaq məqsədilə bir sıra texnoloji metodlar işlənib hazırlanmış və istehsalata tətbiq edilmişdir.

Abşeron yarımadasında uzun müddət istismar nəticəsində çoxlu sayda sulaşmış, qeyri-rentabelli neft quyuları mövcuddur və yeni elm tutumlu texnologiyaları tətbiq etməklə quyulardakı qalıq neftin çıxarılması aktual məsələyə çevrilmişdir. Azərbaycanda neftçıxarmanın, qazma prosesinin effektivliyinin artırılmasını təmin edən və ekotarazlığı bərpa edən elmtutumlu yeni texnologiyaların işlənməsi neft sənayesinin mühüm problemlərindəndir. Bu problemlərin həlli üçün müasir nanotexnologiyanın neft sənayesində tətbiqinin böyük elmi, praktiki əhəmiyyəti var.

*Cədvəl 1.*

**2000-2014-cü illərdə Azərbaycan Respublikasında neft hasilatının dinamikası (mln.ton)**

| İllər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| SOCAR | 9 | 9 | 8,9 | 8,9 | 9 | 9 | 9 | 8,8 | 8,7 | 8,5 | 8,5 | 8,4 | 8,3 | 8,3 | 8,3 |
| Xarici şirkətlərlə birgə | 5 | 5,9 | 6,4 | 6,5 | 6,6 | 13,3 | 23,3 | 33,3 | 35,9 | 41,9 | 42,3 | 37,2 | 35,1 | 35,2 | 33,7 |
| Azərbaycan Respublikası | 14 | 14,9 | 15,3 | 15,4 | 15,6 | 22,3 | 32,3 | 42,1 | 44,6 | 50,4 | 50,8 | 45,6 | 43,4 | 43,5 | 42.0 |

*Cədvəl 2.*

**2000-2014-cü illərdə Azərbaycan Respublikasında qaz hasilatının dinamikası (mlrd.m3)**

| İllər | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| SOCAR | 5.4 | 5 | 4.6 | 4.2 | 4 | 3.9 | 4.5 | 0 | 7 | 6.9 | 7.2 | 7.1 | 6.9 | 7.1 | 7 |
| Xarici şirkətlərlə birgə | 1.1 | 1.2 | 1.3 | 1.4 | 1.3 | 3 | 4.6 | 11 | 15.7 | 14.4 | 19.2 | 18.3 | 20 | 22.3 | 22.6 |
| Azərbaycan Respublikası | 6.1 | 5.8 | 5.5 | 5.6 | 5.3 | 6.9 | 9.1 | 17.0 | 23.5 | 21.3 | 26.4 | 25.8 | 26.9 | 29.4 | 29.6 |

Neft ölkəsi kimi Azərbaycanda nanotexnologiyanın tətbiqi neft-qaz sənayesində elmi-texnoloji əsasların inkişaf etdirilməsində prioritet istiqamət götürmüşdür.

Azərbaycan alimləri nanotexnologiya sahəsində müəyyən nailiyyətlər əldə edərək, bu yeni texnologiyanı ölkəmizdə tətbiq edirlər.

Metal nanohissəciklərin neft quyularına daşıyıcılar vasitəsi ilə suspenziya halında daxil edilməsi nəticəsində aşkar edilmişdir ki, nanohissəciklər sulaşmış laylarda mövcud olan karbonatlarla reaksiyaya girərək karbon qazı yaradır və laylarda təzyiqi artırır. Bu prosesdə eyni zamanda daşıyıcı və stabilləşdirici rolunu oynayan səthi aktiv maddələr də mühitdə əlavə karbon qazı yaradır. Nəticədə turşuluğun və təzyiqin artması hesabına təbəqələşmə baş verir və neft sistemin səthinə toplaşır. Bu təbəqələşmə zamanı proses güclü axına səbəb olur, lay suxurlarının yuyulması baş verir və neft axını lay quyu sisteminin keçiricilik qabiliyyətini yaxşılaşdırır və nəticədə kollektora əlavə maye axınına şərait yaradır.

Bütün bu proseslərin nəticəsində mühitdə sinergetik effektlər yaranır. Nəticədə neftvermə əmsalı yüksəlir, belə ki, hasil olan neftin miqdarı artır, suyun miqdarı azalır və təbii ki, neftçıxarma üçün enerji sərfi xeyli aşağı düşür. Uzun müddət istismar olunmuş neft quyularının katalitik metal nanohissəcikləri vasitəsi ilə aktivləşdirilməsi praktikası böyük iqtisadi səmərə verməklə yanaşı neftçıxarmanın yeni texnoloji əsaslarının işlənməsinin sti-

mullaşdırmasına səbəb olur və karbohidrogenlərin qalıq payını azaldır. Nanotexnologiyanın tətbiqi nəticəsində neft hasilatının 2,0-2,5 dəfə artmasına, neftin çıxarılmasına sərf olunan enerjinin 15 faizə qədər qənaət edilməsinə, quyulardan çıxarılan mayedə suyun miqdarının 18-24 faizə qədər azalmasına nail olunmuşdur [5].

Mövcud nanosistemlər “Nano neft”, “Nanobitum”, “Nanohidron” və “Nanomay” ARDNŞ tərəfindən şirkətin anormal lay təzyiqi olan Qum adası, Bibiheybət, Balaxanı, Günəşli və s. yataqlarında neftin hasilatı və quyuların qazılması zamanı müvəffəqiyyətlə tətbiq olunmuşdur. Nanosistemlər quyuların divarlarının sabitliyini təmin edir, hasil olunan neftin qum və sudan ayrılması dərəcəsini artırır, layların və torpaqların çirklənməsinin qarşısını alır. Nanosistemlərin tətbiqi 20-dən çox yeni quyunun qazılmasına çəkilən istehsal xərclərinin azalmasına və köhnə mədənlərdə məhsuldarlığın artmasına gətirib çıxarmışdır.

Məlumat üçün qeyd edək ki, neft-qaz sənayesində 2014-cü ildə tətbiq edilən texnoloji innovasiyanın nəticəsində Balaxanı neftdə 12,5 min ton, Binəqədineftdə 28,0 min ton, Suraxanıneftdə 10,0 min ton, Bibiheybətneftdə 0,5 min ton əlavə neft hasil edilmişdir [6].

***Cədvəl 3.***

**İnstitut tərəfindən 2014-cü ildə yeni texnika və texnologiyanın tətbiqi üzrə yerinə yetirilən tədbirlər**

| Tətbiq obyekti | | Tədbirlərin sayı | | | | Əlavə neft/ton | |
|---|---|---|---|---|---|---|---|
| | Plan | Plan | Fakt | | | Plan | Fakt |
| | | | Tam | Qismən | Yerinə yetirilməmiş | | |
| 394 | 433 | 31 | 17 | 6 | 8 | 4960 | 37558 |

İl ərzində 394 obyektdə tətbiqi nəzərdə tutulmuş 31 adda tədbirin 20-si “Neftqazelmitədqiqatlayihə” İnstitutunun, 4-ü “Nanotexnologiyalar” departamentinin, 3-ü “Azneft” İB-nin və “NQGPK” ETİ-nin, “İzolit” zavodunun, “Kibernetika” XKB-nin, “OİL & Gas Pro Serv” - in hər birinin 1 ədəd olmaqla təklifləri əsasında formalaşdırılmışdır. 2014-cü il ərzində 386 obyektdə 16 tədbir tam, 7 tədbir qismən yerinə yetirilmişdir [6].

İl ərzində daha çox səmərə əldə olunan tədbirlər aşağıdakılardır:

- Tıxac təmizləyən qurğu 132 quyuda tətbiq olunmuş, 1870,3 ton əlavə neft əldə edilmişdir;
- Quyulardan mexaniki qarışıqların çıxarılması üçün boruarxası fəzaya yeni tərkibli maddələrin vurulması (sulfanol) “Neft Daşları” NQÇİ-də 16 quyuda tətbiq olunmuş, 2580 ton əlavə neft əldə edilmişdir;
- Polimer tərkibli (LAPROL) tamponaj materialı ilə quyudibi zonanın bərkidilməsi texnologiyası 27 quyuda tətbiq edilmiş, 1785,4 ton əlavə neft əldə edilmişdir;
- İstismar quyularında su təzahürünün elastik-bərk kütlə ilə tənzimlənməsi texnologiyası “Neft Daşları” NQÇİ-də 7 quyuda tətbiq olunmuş, 1502 ton əlavə neft əldə edilmişdir;

65 -"ПАДУС-2" parafinkəsici qurğu “Neft Daşları” NQÇİ-də 12 quyuda tətbiq olunmuş, 5469 ton əlavə neft əldə edilmişdir, N.Nərimanov adına NQÇİ-də 35 quyuda tətbiq olunmuş, 22806 ton əlavə neft əldə edilmişdir;

- Müxtəlif çıxar məhsullardan (Fəal lil, melas, süd zərdabı, şampan zavodunun çıxar məhsulu və s.) istifadə etməklə laylara mikrobioloji təsir texnologiyası 3 quyuda tətbiq olunmuş, 627,5 ton əlavə neft əldə edilmişdir;
- AQP çöküntülərinə qarşı Pirolizin yüngül qətranı reagenti 4 quyuda tətbiq olunmuş, 199 ton əlavə neft əldə edilmişdir;
- Quyudibi zonanın keçiriciliyini artırmaq üçün yeni maye tərkibli (NSA-1) reagenti 7 quyuda tətbiq olunmuş, 228 ton əlavə neft əldə edilmişdir;
- Quyudibi zonaya köpüklü sistemlə təsir üsulu 4 quyuda tətbiq olunmuş, 135 ton əlavə neft əldə edilmişdir.

Lazımı avadanlıq və reagentlərin alınmaması səbəbindən aşağıdakı 8 tədbir yerinə yetirilməmişdir:

- Laprol-3003 reagenti; - MORE reagenti; - istismar kəmərlərinin hermetikliyinin bərpası üçün avadanlıq dəsti; - AQP çöküntülərinə qarşı qoruyucu örtük kompozisiya; - NKB-lərin yeyilməsinin azalmasını təmin edən protektorlar; - mancanaq dəzgahı ilə işləyən quyuların diaqnostika və idarə edilməsi üzrə telemexanika qurğusu; - aqressiv lay sularından qorunmaq məqsədilə şüşə plastik borular; - nasosun qaz və qumdan mühafizə qurğusu.

**Nəticə:** Respublikada "İnnovasiya haqqında qanun"un qüvvəyə minməsi elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqaməti kimi innovasiya layihələrinin maliyyələşdirilməsi, investisiyaların cəlb edilməsi və təşviqi üzrə müvafiq təşkilati işlərin stimullaşdırılmasına əlverişli şərait yaranar.

Azərbaycan iqtisadiyyatının əsas xüsusiyyəti hələ də hazır məhsula, elm tutumlu məhsula yox, xammala əsaslanmasıdır. Keçən dövr ərzində biz iqtisadiyyatımızda xammal ixracından gəlirlər əldə etmişik. Lakin uzun müddətli dövrdə bunun yaxşı nəticəsi olmayacağı aşkardır. Ona görə də biz artıq zaman itirmədən yeni texnika və texnologiyaya yiyələnmiş savadlı kadrlar yetişdirməli, innovasiya tutumlu istehsala, rəqabətqabiliyyətli məhsul istehsalı və ixracına keçməliyik. Bunun üçün isə ən zəruri olan universitet-sənaye əməkdaşlığının gücünü və önəmini artırmaq və innovasiya strategiyası hazırlamaq çox vacibdir.

Neft sənayesində, xüsusilə köhnə neft rayonlarında hasilatın artırılması üçün texniki-iqtisadi tədbirlərin həyata keçirilməsi və işin səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Neft ölkəsi kimi Azərbaycanda nanotexnologiyanın tətbiqi neft-qaz sənayesində elmi-texnoloji əsasların inkişaf etdirilməsində prioritet istiqamətdir.

Son illər ARDNŞ-ın müəssisələrində dünyanın müxtəlif ölkələrinin, məşhur neftqaz şirkətlərinin innovasiyaları və yeni texnologiyalarının tətbiq edilməsi intensivləşmişdir. Bunun əsas səbəbi Azərbaycan neft və qaz sənayesinin sürətli inkişafı zəminində hər il mütəmadi olaraq beynəlxalq konfransların keçirilməsi və digər ölkələrin də bu konfranslarda fəal iştirakı olmuşdur. Yeni texnika və texnologiyaların daha mükəmməl mənimsənilməsi məqsədilə, bu sahədə fəaliyyəti daha da artırmaq və xarici şirkətlərlə təcrübə mübadiləsini genişləndirmək lazımdır.

**ƏDƏBİYYAT:**

1. "Azərbaycan Respublikasının yanacaq-enerji kompleksinin inkişafı (2005—2015-ci illər) üzrə Dövlət Proqramı", Bakı şəhəri, 14 fevral 2005-ci il.
2. М.Познер, Международная торговля и изменение технологии, Кембридж, 1975. ст.437.
3. İnnovasiya iqtisadiyyatı stimullaşdırılacaq (Trend - Aygün Asimqızı 13 May 2016).
4. Каныгин П, Энергетическая стратегия ЕС и российский экспорт энергоносителей, 2007.
5. K. Sadıxov, Neft sənayesində nanotexnologiyanın tətbiqi. Bakı, 2010.
6. http://www.socar.az/socar/assets/documents/az/socar-annual-reports/illik-hesabat2014az.pdf.

**Abstract**

**INNOVATIVE MEASURES IMPLEMENTED TO STABILIZE AND INCREASE OIL AND GAS PRODUCTION**

**Sedaqat IBRAHIMOVA**

*Ph.D. of economics, Azerbaijan State University of Oil and Industry*

**Key words:** innovation, oil strategy, the stabilization of production, nanotechnology

The economic efficiency of innovative measures implemented to stabilize and increase oil and gas production in Azerbaijan is analyzed in the article. The main focus is on the innovative activities implemented recently and the measures envisaged for the future.

**Резюме**

**ВЫПОЛНЕННЫЕ ИННОВАЦИОННЫЕ МЕРОПРИЯТИЯ, НАПРАВЛЕННЫЕ НА СТАБИЛИЗАЦИЮ И УВЕЛИЧЕНИЕ ДОБЫЧИ НЕФТИ И ГАЗОВЫХ МЕСТОРОЖДЕНИЙ**

**д.ф.э., Садагат ИБРАГИМОВА**

*ассистент Азербайджанского Государственного Университета Нефти и Промышленности*

**Ключевые слова:** инновация, нефтяная стратегия, стабилизация добычи, нанотехнология

В статье произведён анализ экономической эффективности осуществлённых необходимых инновационных мероприятий направленных на стабилизацию и увеличение добычи нефти и газа в Азербайджане. Определена сущность и роль инноваций в нефтяной стратегии Азербайджана. Оценены осуществлённые работы в этой отрасли, проделанные в стране за последние годы, были предложены мероприятия, предусмотренные на будущее.

# MƏŞĞULLUQ VƏ İŞSİZLİYİN NƏZƏRİ KONSEPSİYALARI

**Gövhər MƏMMƏDOVA**
*Azərbaycan Dövlət Aqrar Universiteti, doktorant*

**Rəyçi:** i.e.n., dos. Vüqar Nəzərov
**Açar sözlər:** Məşğulluq, işsizlik, dövlət mexanizmləri, klassik yanaşma, neoklassik yanaşma, Marks yanaşması, məşğulluğun Keyns nəzəriyyəsi, Filips əyrisi

Bazar iqtisadiyyatı çərçivəsində müxtəlif şəraitlər üçün faydalı ola bilən bu nəzəriyyələrin öyrənilməsi tam məşğulluğun təmin olunmasını iqtisadi prioritetlərdən biri kimi qəbul etmiş Azərbaycanın siyasi və elmi ictimaiyyəti üçün önəmlidir.

Məqalə əsasən keçən əsrin ortalarınadək formalaşmış məşğulluq nəzəriyyələrinin tədqiqinə həsr olunmuşdur. Bazar mexanizmlərinin mükəmməlliyinə əsaslanan klassik yanaşmanın fiaskosundan sonra onun mövcud şəraitə uyğunlaşdırılması cəhdi nəticəsində neoklassik konsepsiyalar meydana gəlmişdir. Lakin buna baxmayaraq həmin dövrdə klassik yanaşmanı tamamilə təkzib edən və dövlətin iqtisadiyyata müdaxiləsini təbliğ edən Keyns nəzəriyyəsi populyar olmuş və ABŞ administrasiyası tərəfindən tətbiq olunmuşdur. Keyns nəzəriyyəsinə görə kapitalizm özünü tənzimləyən sistem deyil, tam məşğulluq isə qanunauyğunluq yox, təsadüfdür.

Keynsdən əvvəl dövlət müdaxiləsi zəruriliyi fikrini daha sərt şəkildə Marks irəli sürmüş və kapitalizmin böhranını proqnozlaşdırmışdır. Uzun müddətdir ki, müxtəlif iqtisadi məktəblərin istifadə etdiyi Filips əyrisinin tədqiqi də məqalədə öz əksini tapmışdır.

**Giriş.** Bütün dövrlərdə əhalinin məşğulluğu hər bir ölkənin əsas qayğılarından olmuşdur. Sosial-ictimai quruluşdan, dövlətin xüsusiyyətlərindən asılı olmayaraq tam məşğulluğun təmin olunması hər bir cəmiyyətin qarşısında duran əsas sosial-iqtisadi problemdir. Vətənpərvər dövlət üçün bu, aydın məsələdir. Lakin hətta avtoritar və hətta yadellilərin özgə torpaqların zəbti nəticəsində yaratdıqları işğal rejimlərində də işsizlik arzuolunmazdır. Çünki işsizlik rejimdən onsuz da narazı olan əhalinin problemlərini artırmaqla ictimai təlatümlərlə nəticələnə bilər, bu isə istənilən dövlətin təhlükəsizliyi üçün təhdiddir. Beləliklə, hər bir cəmiyyət işləmək istəyən üzvünün işlə təmin olunmasına çalışmalıdır.

Fərdin probleminin həlli ilə yanaşı məşğulluğun təmin olunması, sözsüz ki, ölkənin iqtisadi artımına da əlavə töhfə verir. Bu isə ölkənin bütün subyektlərinin rifahının artması – ümumən əhalinin zənginləşməsi, dövlətin möhtəşəmliyinin və beynəlxalq nüfuzunun artması və biznes sektorunun satış bazarı və imkanlarının genişlənməsi deməkdir.

Beləliklə, məşğulluğun bu çox mühüm müsbət effektləri onu həmişə cəmiyyətin, xüsusən də dövlət rəhbərliyinin və iqtisadçı alimlərin diqqət mərkəzində saxlamışdır. Bu səbəbdəndir ki, məşğulluq haqqında nəzəri baxışlar uzun təkamül yolu keçərək, müxtəlif yanaşmalar meydana gətirmişdir. Tətbiqi əhəmiyyəti olan və müxtəlif hallarda faydalı olan bu nəzəriyyələrin öyrənilməsi məqsədəuyğundur.

**1. Məşğulluğun klassik nəzəriyyəsi**

Bu nəzəriyyənin əsasını iki əsas müddəa təşkil edir [1]:

- Tam məşğulluq şəraitində cəmiyyətin əldə etdiyi gəlirlər istehsal olunmuş bütün məhsulları almağa imkan verir;
- Hətta əgər xərclər bu məhsulların alınması üçün kifayət etməzsə, tezliklə qiymət, əməkhaqqı və faiz dərəcəsi kimi mexanizmlər işə düşəcək və istehsalın real həcmi, məşğulluq və real gəlirlər əvvəlki səviyyədə qalacaq (azalmayacaq).

Bu hökmlər klassik nəzəriyyənin əsas tezisi olan Sey qanununa əsaslanır. Bu qanuna görə istehsal olunan məhsullar onların məbləğində gəlir yaradır [2]. Bu o deməkdir ki, istehsalın istənilən həcmi onu almaq üçün lazım olan gəlirin əldə olunmasını təmin edir. Bu tezis heç kimi tərəfindən inkar olunmasa da, burada qənaət problemi meydana çıxır, başqa sözlə, zəmanət verilə bilməz ki, bütün gəlirlər xərclənəcək və əgər belə olarsa, məhsulların bir hissəsi satılmayacaq, istehsal azalacaq, bu isə işsizlik və gəlirlərin azalması ilə nəticələnəcək.

Lakin bu halda da klassik məktəb "çıxış yolu" təklif edir. Onların fikrincə guya hər qənaət olunan manat şirkətlər tərəfindən investisiya olunacaq və özü də son istehlak malları deyil, istehsal vasitələri istehsal olunacaq və şirkətlər arasında satılacaq. Beləliklə, Sey qanunu işləyəcək və bunun nəticəsi olaraq istehsal və məşğulluq səviyyəsi əvvəlki səviyyədə qalacaq.

Klassik məktəbin yanaşmasının kökündə kapitalizm iqtisadiyyatının özünü tənzimləməsi inamı durur və buna görə də bu sistemdə tam məşğulluq normadır və bu özünü inkişaf etdirən bir sistemdir. Buna görə də onlar hesab edirdilər ki, dövlətin iqtisadiyyata müdaxiləsi bu özünütənzimləmə mexanizmini pozmaqla yalnız ziyan verə bilər.

Beləliklə, klassiklərə görə hətta məcmu tələb azalsa belə, kapitalizmin daxili tənzimləyici mexanizmi qiymət və əmək haqqının elastikliyi vasitəsilə potensial istehsal həcmi və təbii işsizlik səviyyəsini (bu terminlər aşağıda açılır) təmin edəcək.

Qeyd edək ki, A. Smit və D. Rikardo klassik məktəbin əsas nümayəndələridir.

**2. Məşğulluğun neoklassik nəzəriyyəsi**

Kapitalizmin üzləşdiyi ilk ciddi iqtisadi böhran olan Böyük Depressiya dönəmində (1929-1933) klassik nəzəriyyənin səbatsızlığı aydın oldu. Odur ki, bu yanaşmanın tərəfdarları onu reanimasiya etməyə çalışdılar. Məşğulluq və işsizlik məsələlərinə neoklassik yanaşmanın rüşeymləri marjinalizmdə meydana gəlsə də, onun elmi konsepsiya kimi formalaşdırılması cəhdi 1933-cü ildə işıq üzü görmüş A. Piqunun "İşsizlik nəzəriyyəsi" əsərində həyata keçirilmiş və klassik yanaşmanın bu modifikasiyası sonralar neoklassik nəzəriyyə kimi qəbul edilmişdir. Piqunun əsas müddəaları aşağıdakılardır [3]:

- İstehsalda çalışanların sayı əməkhaqqı ilə tərs mütənasibdir: əməkhaqqı artdıqca məşğulluq azalır;
- Birinci Dünya müharibəsinədək əməkhaqqı və məşğulluq arasında mövcud olan tarazlıq onunla izah olunurdu ki, əməkhaqqı fəhlələr arasında azad rəqabət əsasında elə səviyyədə formalaşırdı ki, demək olar ki, tam məşğulluq təmin olunurdu;

- Birinci Dünya müharibəsindən sonra həmkarlar ittifaqlarının güclənməsi və işsizliyə görə dövlət sığorta sisteminin tətbiq olunması əməkhaqqının yüksək səviyyədə saxlanılmasına və qeyri-çevikliyinə gətirib çıxardı ki, bu da kütləvi işsizliyə səbəb oldu;
- Tam məşğulluğa nail olmaq üçün əmək haqqı səviyyəsinin azaldılması zəruridir.

Beləliklə, neoklassik modeldə əmək bazarında mükəmməl rəqabətin və çevik əməkhaqqının olması nəzərdə tutulur (Şəkil 1) və bu iki amilin nəticəsi olaraq bazar iqtisadiyyatında bütün əmək resursları istehsala cəlb oluna bilər. Burada tam məşğulluq deyəndə nəzərdə tutulur ki, öz əməyinin müəyyən miqdarını satmaq istəyən hər kəs mövcud əməkhaqqı səviyyəsində bunu edə bilər. İşsizlik tarazlığın pozulması halında - əməkhaqqının tarazlıq səviyyəsindən yüksək olduğu halda (məsələn, dövlətin və ya həmkarlar ittifaqının müdaxiləsi nəticəsində) meydana gələ bilər. Başqa sözlə, işsizlik dövlətin və ya işçilərin özlərinin seçimidir, onun aradan qaldırılması üçün isə bazarda azad rəqabət bərpa olunmalıdır.



Ə - əməkhaqqı

SL - əməyin təklifi

DL - əməyə tələb

Q-əməyin miqdarı

***Şəkil 1. Əmək bazarının neoklassik modeli***

Qeyd edək ki, məhz bu yanaşma Keyns tərəfindən aşağıda adı çəkilən əsərdə ciddi tənqidə məruz qalmışdır.

Məşğulluğa neoklassik yanaşmanın təkmilləşməsi və sistemləşdirilməsi Alfred Marşallın əsərləri ilə əlaqələndirilir.

Sonradan bu ideyalar A. Klark, D. Hilder, A. Laffer, M. Feldstayn və digərləri tərəfindən inkişaf etdirilmiş və yeni şəraitə uyğunlaşdırılmışdır [4].

Bu yanaşmada əmək bazarına bazar qanunlarına əsaslanaraq əməyin qiyməti, yəni əməkhaqqı mexanizmi vasitəsilə tənzimlənən mürəkkəb – qeyri-bircins və dinamik əlaqələr sistemi kimi baxılır. Əməkhaqqı əməyin tələb və təklifinin həcminə təsir etməklə əmək bazarında tarazlıq yaradır.

**3. Məşğulluğun Marks nəzəriyyəsi**

Marksın yanaşması kapitalizmdə yığım qanununa əsaslanır. Bu qanuna əsasən kapitalizmdə yığım elmi-texniki tərəqqini stimullaşdırır, bu isə öz növbəsində kapitalın daha da artmasını şərtləndirir. Nəticədə əsas kapitalın ümumi istehsal xərclərində xüsusi çəkisi artır, dövriyyə kapitalınınkı, o cümlədən əməyin xüsusi çəkisi isə azalır. Bu isə əməyə tələbin

azalmasına səbəb olur. Eyni zamanda həm əhalinin artımı, həm də istehsalın təmərküzləşməsi nəticəsində xırda istehsalçıların müflisləşməsi muzdlu əmək təklifini artırır. Buna görə də Marks hesab edir ki, işsizlik kapitalizmdə təkrar istehsalın qanunauyğun nəticəsi kimi meydana çıxır. Bunun ardınca gələn iqtisadi yüksəliş illərində təsərrüfat fəaliyyətinin yeni istiqamətləri meydana gəlir ki, bu da işsizlərin hesabına yaranmış əmək resurslarının bu sahələrə cəlb olunmasına səbəb olur. Bir müddət işsizlik səviyyəsi aşağı düşür, lakin sonra spiral yeni mərhələdə işə düşür. Belə bir vəziyyətdə ümumən kapitalist yığımının ümumi qanununa əsaslanaraq, Marks get-gedə əməklə kapital arasında antaqonist ziddiyyətin artması qənaətinə gəlir [5].

Elmi-texniki tərəqqinin inkişafı və əməyin ictimai bölgüsünü ön plana çəkən Marksın nəzəriyyəsi özünü doğrultdu: XIX əsrin ortalarından başlayaraq XX əsrin əvvəllərinədək istehsalda əsas kapitalın sürətli artımı həm sənaye, həm də kənd təsərrüfatında kütləvi şəkildə işçilərin işdən çıxarılması ilə nəticələndi. Bu proses Birinci Dünya müharibəsindən əvvəlki, xüsusən də sonrakı illərdə pik həddinə çataraq, Marks nəzəriyyəsinin tərəfdarlarını bütün dünyada daha da artırdı və böyük bir coğrafiyada bu ideyaların praktik reallaşmasını təmin edən cəmiyyətin (o cümlədən Azərbaycanda) formalaşmasına səbəb oldu.

Lakin sonrakı dövrlərdə, xüsusən də İkinci Dünya müharibəsindən sonra ticarətin və digər xidmət sahələrinin sürətli inkişafı geniş işsizlər ordusunun bu sahələr tərəfindən absorbsiyasını təmin edərək, inkişaf etmiş ölkələrdə işsizlik səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxardı.

1970-ci illərdən başlayaraq müasir dövrümüzədək davam edən müddət ərzində elmtutumlu sahələrin sürətli inkişafı nəticəsində bu sektorlara böyük həcmli investisiyalar qoyuluşu istehsaldakı kapital strukturunda balansı yenidən əsas kapitalın xeyrinə dəyişdirərək, işsizliyin artımının yeni dalğasını yaratdı. Hazırda elmi-texniki inqilabın yeni dalğası nəinki yeni-yeni məhsulların meydana gəlməsinə səbəb olmuşdur (məhsul innovasiyası), həm də köhnə istehsalların (məsələn, maşınqayırmanın) qabaqcıl texnologiyalarla yenidən qurulmasını şərtləndirmişdir (proses innovasiyası).

**4. Məşğulluğun Keyns nəzəriyyəsi**

Qeyd edək ki, iqtisadi nəzəriyyə tarixində görkəmli rol oynamış ingilis iqtisadçısı C.M. Keynsin 1936-cı ildə yazdığı məşhur əsəri elə belə də adlanır: “Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi” [6]. Faktiki olaraq, klassik nəzəriyyəni alt-üst edən bu əsərlə qarışıq iqtisadiyyatda məşğulluq nəzəriyyəsinin əsası qoyulmuşdur. İqtisadi inkişafın dövlət tənzimlənməsi kontekstində Keyns məşğulluğun təmin olunmasını biznes aktivliyinin artırılması və işsizliyin aradan qaldırılması problemlərinin həllinin əsas şərti hesab edirdi.

Bu nəzəriyyə klassik yanaşmadan köklü şəkildə fərqlənir. Bu konsepsiya aşağıdakı müddəalara əsaslanır:

- Kapitalizmdə tam məşğulluğu təmin edə biləcək hər hansı bir mexanizm yoxdur;
- İşsizliyin yüksək səviyyəsi və güclü inflyasiya şəraitində də iqtisadiyyat tarazlıqda ola bilər.

Keyns nəzəriyyəsinə görə kapitalizm özünü tənzimləyən sistem deyil, tam məşğulluq isə

qanunauyğunluq yox, təsadüfdür.

Klassiklərin əksinə olaraq keynsçilikdə məcmu tələbin dəyişkənliyi və qiymətlərin azalma meyilindəki qeyri-elastiklik işsizliyin artması və uzun müddət davam etməsi ilə nəticələnə bilər. Buna görə də iqtisadi tənəzzül və böhranların böyük itkilərinin qarşısını almaq üçün dövlətin makrosəviyyədə iqtisadiyyata fəal müdaxiləsi zəruridir [6].

Keynsçilər məşğulluqla inflyasiya arasında asılılığı təhlil edərkən Filips modelinə əsaslanırlar və hökm edirlər ki, məşğulluq problemi mülayim inflyasiyanın köməyi ilə həll oluna bilər. Bu, əməkhaqqının artması təsəvvürü yaradır, əslində isə real əməkhaqqı müəyyən minimal həddə tarazlanır [7].

**5. Filips əyrisi**

Məlumdur ki, bütün hökumətlər həm inflyasiyanı, həm də işsizliyi azaltmağa çalışırlar. Lakin bu iki makroiqtisadi indikatorun eyni zamanda azaldılmasının problemli olmasını, başqa sözlə inflyasiya ilə məşğulluq səviyyəsi arasında düz mütənasib əlaqənin olduğunu ilk dəfə ingilis alimi A. Filips 1958-ci ildə elmə gətirmişdir. Klassik variantda bu əyri əməkhaqqı səviyyəsi ilə inflyasiya səviyyəsi arasında əks əlaqənin olduğunu göstərir (Şəkil 2).

Burada Ə - əməkhaqqı səviyyəsi (%), başqa sözlə əməkhaqqının orta illik dəyişmə faizi, i - isə inflyasiya səviyyəsi, başqa sözlə əməkhaqqının orta illik dəyişmə faizidir.

Bu əlaqə əmək bazarının fəaliyyəti ilə bağlı keynsçi məktəb tərəfindən təklif olunan aşağıdakı üç hipotezlə təsdiqlənir:

- Nominal əməkhaqqı əmək bazarında tənzimləmə dəyişənidir;
- Əmək təklifinin artıqlığı şəraitində işçilər iş əldə etmək üçün nominal əməkhaqqının azaldılmasına razıdırlar;
- İşsizliyin yüksək olmadığı iqtisadi dirçəliş dövründə nominal əməkhaqqı çox çevik, böhran dövrlərində isə qeyri-çevikdir. Bu hipotez əyrinin qeyri-xəttiliyini təmin edir.




***Şəkil 2. Qısamüddətli dövrdə Filips əyrisi***

Filips əyrisinə əsaslanaraq, monetaristlər hökm edirlər ki:

- dövlət həm işsizlik səviyyəsi, həm də inflyasiya səviyyəsinin nəzarətdə saxlaya bilər;
- dövlətin iqtisadi siyasətinin məqsədi işsizlik səviyyəsi ilə inflyasiya arasında kompromis olan şəraitin yaradılmasıdır, belə ki, onların heç biri çox yüksək olmasın.

Beləliklə, keynsçilər Filips əyrisi boyunca bu parametrləri seçməklə iqtisadi prosesləri

tənzimləməyi təklif edirlər.

Filips əyrisinin daha bir izahı istehsal amillərinin qeyri-mükəmməl rəqabət bazarı ilə bağlıdır. Ölkədə tam məşğulluq yaxınlaşdıqca bu, həmkarlar ittifaqlarına əməkhaqqı səviyyələrini qaldırmaq imkanı verir ki, bu da məhsulun xərclərini artırır.

**ƏDƏBİYYAT:**

1. Blanchard O. Macroeconomics (Second ed.), Prentice Hall, 2000
2. Сэй Ж.-Б. Трактат по политической экономии. М.: Дело, 2000.
3. Leeson R., Schiffman D. A Reassessment of Pigou's Theory of Unemployment. / http://www.ariel.ac.il/sites/dschiffman/Reassessment.pdf
4. Блауг М. Экономическая мысль в ретроспективе. М., 1994. С. 390.
5. Маркс К. Капитал. – С-Пб.: Лениздат, 2013 г. 512 с.
6. Кейнс Дж. М. Общая теория занятости, процента и денег. – Изд-во: Эксмо, 2007.
7. Hayes M.G. The Economics of Keynes: A new guide to the General Theory. - Edward Elgar Publishing, 2008.

**Abstract**

**THEORETICAL CONCEPTS OF EMPLOYMENT AND UNEMPLOYMENT**

**Govhar Mammadova**

*Ph.D. student, Azerbaijan State Agrarian University*

**Key words:** employment, unemployment, government mechanisms, classical approach, neoclassical approach, Marxian approach, Keynesian theory of employment, Phillips' curve

Studying the theories useful to various conditions within market economy is important for political and scientific community of Azerbaijan, accepting provision of full employment as one of the main economic priorities.

The article is devoted to research of theories of employment generally created before the middle of the last century. After fiasco of the classical approach based on idea of perfection of market mechanisms, as a result of attempt of its adaptation on new conditions, the neoclassical concepts appeared. At the same time, Keynes' theory appeared and widely accepted by US administration, completely disproving classical approach and propagandizing the government intervention in economy. According to Keynes's theory capitalism isn't self-regulating system, and a full employment is not regularity, it is chance.

Before Keynes the idea of necessity of government intervention in economy was suggested by Marx in even more rigid form and predicted capitalism crisis. The Phillips' curve, which is used by various economic schools has been analyzed in the article as well.

**Резюме**

## ТЕОРЕТИЧЕСКИЕ КОНЦЕПЦИИ ЗАНЯТОСТИ И БЕЗРАБОТИЦЫ



**Гёвхар Мамедова**

*докторант Азербайджанского Государственного Аграрного Университета*



**Ключевые слова:** занятость, безработица, государственные механизмы, классический подход, неоклассический подход, Марксовский подход, Кейнсианская теория занятости, кривая Филлипса

Изучение этих теорий, полезных для различных условий в рамках рыночной экономики важно для политической и научной общественности Азербайджана, принявшей в качестве одного из основных экономических приоритетов обеспечение полной занятости.

Статья посвящена исследованию теорий занятости, сформировавшихся в основном до середины прошлого века. После фиаско классического подхода, основанного на идее совершенства рыночных механизмов, в результате попытки его адаптации на новые условия появились неоклассические концепции. Но, несмотря на это, в то же самое время стала популярной и была принята администрацией США теория Кейнса, полностью опровергающая классический подход и пропагандирующая государственное вмешательство в экономику. По теории Кейнса капитализм не является саморегулирующей системой, а полная занятость – не закономерность, а случайность.

До Кейнса идею необходимости государственного вмешательства в экономику в еще более жесткой форме выдвинул Маркс и прогнозировал кризис капитализма. В статье так же нашло отражение исследование кривой Филлипса, долгое время используемой различными экономическими школами.

# İQTİSADİ QLOBALLAŞMA ŞƏRAİTİNDƏ ÖLKƏNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN TƏMİN EDİLMƏSİ

**Habil ASLANOV**
*Bakı Dövlət Universitetinin, i.e.n., dos.*
**Ülvi MƏMMƏDƏLİYEV**
*Bakı Dövlət Universiteti, magistr*

**Rəyçi:** i.e.d., prof. Dünyamalı Vəliyev
**Açar sözlər:** iqtisadi qloballaşma, rəqabət, iqtisadi inteqrasiya, açıq iqtisadiyyat, rəqabətqabiliyyətlilik

Rəqabət və inhisar bazar iqtisadiyyatı sisteminin əsas atributlarından biridir. Rəqabət bazar münasibətlərinə əsaslanan iqtisadi sistemin səmərəliliyinin yüksəlməsinə təsir edən amillərdən biri olmaqla, iqtisadi subyektlərin bir-biri ilə azad bazar şəraitində sağlam mübarizəsini əks etdirir. Bazar iqtisadiyyatı sistemini rəqabətsiz təsəvvür etmək mümkün deyildir. Rəqabətin pozulması bazarda inhisarçılıq yaradır, çünki rəqabətin antipodu inhisardır. İqtisadiyyatın hər hansı bir sahəsində bu və ya digər bir məhsul yeganə bir bazar subyekti tərəfindən istehsal olunursa və həmin məhsulun ən yaxın əvəzedicisi yoxdursa, bu, praktiki olaraq artıq inhisar deməkdir.

Müasir tədqiqatçılar rəqabət və inhisarçılıq baxımından bazarın bir-birinə bənzəməyən aşağıdakı dörd tipini fərqləndirirlər:

- azad rəqabətin mövcud olduğu bazar;
- inhisar rəqabətinin mövcud olduğu bazar;
- oliqopoliya bazarı;
- xalis inhisarın mövcud olduğu bazar.

Azad rəqabətin mövcud olduğu bazar dedikdə, hər hansı bir əmtəənin, çoxlu sayda satıcıları və alıcılarının mövcud olduğu bazar nəzərdə tutulur. Burada çoxlu sayda bazar subyektləri yeni iqtisadi subyektlər asanlıqla bu bazarlara daxil ola bilirlər. Bazarda eynitipli məhsullar istehsal edən subyektlər bir-biriləri ilə rəqabət aparırlar. Bu bazarların səciyyəvi cəhətləri aşağıdakılardır:

- hər bir subyektin istehsal etdiyi məhsul bütün sahədə istehsal olunan məhsullarla müqayisədə çox cüzidir və elə hüdudda dəyişir ki, bu, reallaşdırılan əmtəələrin qiymətlərinə təsir göstərə bilmir;
- yeni subyektlər bu bazarlara asanlıqla daxil ola və çıxa bilirlər;
- həmin sahədə fəaliyyət göstərən subyekt tərəfindən istehsal olunan əmtəə və xidmətlərə hər hansı bir səbəb üzündən tələb azaldıqda, onu ciddi çətinliklər gözləyir.

İnhisar rəqabətinin mövcud olduğu bazar müxtəlif növ məhsul istehsal edən və satan çoxlu sayda istehsalçıların və satıcıların olması ilə səciyyələnir. Lakin hər bir subyekt rəqiblərinin əmtəələrindən fərqlənən əmtəələr istehsal etdiyi və ya satdığı üçün sahənin bütün istehsalçıları istehsal etdikləri əmtəələrin qiymətlərini dəyişdirmək imkanına malikdirlər. Burada əsas prob-

lem alıcı-satıcı sövdələşmələridir. İnhisar rəqabətinin mövcud olduğu bazarda sövdələşmələr nəticəsində satıcılar tərəfindən alıcılara əmtəələrin müxtəlif variantları təklif oluna bilər. Belə ki, eyni təyinatlı və ya oxşar məhsullar keyfiyyətlərinə, alıcıların zövqünü oxşamaq, onların tələbatını ödəmək xassələrinə görə bir-birindən fərqlənir. Alıcılar bu fərqləri görür və onlardan ən yaxşılarını, tələbatlarına daha çox cavab verənini seçib almağa çalışırlar.

Ayrı-ayrı sahələrdə bir-biri ilə rəqabət aparan az sayda istehsalçı və satıcıların mövcud olduğu bazar oliqopoliya bazarı adlanır. Burada qiymətlər və istehsalın həcmi haqqında qəbul olunan qərarlar qarşılıqlı surətdə bir-birindən asılı olur. Başqa sözlə, hər bir firmanın vəziyyətinə onun rəqibinin qəbul etdiyi qərarlar təsir edir və buna görə də o, qiymətqoyma və istehsalın həcminin müəyyən olunmasında bu qərarları hökmən nəzərə almalıdır. Əmtəələr isə bir tərəfdən, bir-birinə oxşar (məsələn, alüminium, mis, polad və i.), digər tərəfdən isə bənzərsiz (məsələn, müxtəlif markalı avtomobillər, kompüterlər və i.) ola bilər. İstehsalçıların və satıcıların sayının az olması yeni iddiaçıların bu bazara daxil olmalarına çətinlik yaradır. Adətən xalis inhisarın mövcud olduğu bazarda cəmi bir neçə və ya bir satıcı olur. Başqa sözlə, bu bazarda məhsulun və ya xidmətin yeganə satıcısı hər hansı bir bazar subyektidir. Yeni subyektlərin bu bazara daxil olmaları demək olar ki, mümkün deyildir. Burada hər bir ayrıca bazar subyektinə əmtəənin yeganə istehsalçısı olub, bütün sahə üzrə buraxılan məhsula nəzarət edir və buna görə də o, inhisarçı sayılır. Bunlar dövlət təşkilatları, tənzimlənən, yaxud da tənzimlənməyən xüsusi inhisarlar ola bilər. Müəyyən hallarda, xüsusilə bu inhisarçıların dövlət bölməsinə mənsub olması dövlətin sosial-iqtisadi siyasətinin reallaşdırılmasına xidmət edir. Bununla belə nəzərə almaq lazımdır ki, ayrı-ayrı subyekt inhisarçılığının güclənməsi ümumi iqtisadi itkilərə gətirib çıxarır. Bu itkilər sırasına aşağıdakıları aid etmək olar:

1) istehlakçılar eyni məhsulları azad rəqabət bazarlarındakı qiymətlərə nisbətən inhisarın hökmran olduğu bazarlarda daha yüksək qiymətlərlə satın alırlar;

2) firmanın inhisar hakimiyyətinə malik olmasını təmin etmək məqsədilə bir çox hallarda yüksək qiymətlərin qorunub saxlanması üçün şüurlu surətdə ayrı-ayrı məhsul və xidmət növləri istehsalı məhdudlaşdırılır;

3) inhisarçılıq əksəriyyət hallarda istehsalda texniki durğunluğa, istehsal şəraitinin və məhsulların keyfiyyətinin pisləşməsinə səbəb olur.

İqtisadiyyatda inhisarçılığın yaratdığı təzad və çətinliklər dövlətdən müvafiq antiinhisar siyasəti işləyib hazırlamağa və həyata keçirməyə, başqa sözlə, inhisarçılığın məhdudlaşdırılmasına, bütün təsərrüfat subyektləri üçün bərabər rəqabət şəraitinin yaradılmasına, haqsız rəqabətə yol verilməməsinə yönəldilmiş kompleks tədbirlər görməyə məcbur edir.

Dövlətin antiinhisar siyasəti özündə bir-biri ilə qarşılıqlı əlaqədə olan aşağıdakı iki istiqaməti birləşdirir:

1) Xüsusi antiinhisar qanunvericiliyinin işlənib hazırlanması, qəbul edilməsi və həyata keçirilməsi;

2) Müvafiq rəqabət mühitinin formalaşdırılması və bazar subyektlərinin sayının artırılması.

Birincisini inzibati, ikincisini isə iqtisadi metodlara aid etmək olar.

Hazırda dünya iqtisadi sistemində antiinhisar fəaliyyətinə və onun tənzimlənməsinə müxtəlif yanaşmalar vardır. İqtisadiyyatın antiinhisar tənzimlənməsinin iki modeli daha çox istifadə olunur. Bunlardan biri Amerikan, digəri isə Avropa modeli adlanır.

Amerikan modelində fəaliyyətin sosial-iqtisadi nəticələrindən asılı olmayaraq ümumiyyətlə inhisarçılığa yol verilmir. Antiinhisar tənzimlənməsinin bu modelində əsas etibarilə qanunla icazə verilən proseslər konkret olaraq göstərilir və onları pozanların qanunla cəzalandırılması nəzərdə tutulur.

Avropa modeli Amerikan modelindən fərqli olaraq sui-istifadə halları üzərində nəzarət qoyulması prinsipinə əsaslanır. Bu modeldə hər cür inhisarçılıq qeyri-qanuni hesab edilmir və yalnız cəmiyyət üçün sosial-iqtisadi nəticələri mənfi olan inhisarlara şamil edilir. Bu yanaşma müxtəlif bazarlarda rəqabətin vəziyyətini təhlil edərək, ona nəzarət etmək üçün xüsusi inzibati orqanlar sisteminin yaradılmasını tələb edir. Bu orqanlar bazarda yaranan inhisar hallarmı araşdırır, təhlil edir və bu proseslər sosial-iqtisadi təhlükə yaratdıqda müvafiq uyğun qərarlar qəbul edirlər.

Son dövrlərdə aparılan müşahidələr göstərir ki, bu iki model arasındakı fərqlər getdikcə azalır. Cəmiyyət üçün onların fəaliyyətinin sosial-iqtisadi nəticələri nəzərə alınmaqla həyata keçirilir.

Rəqabətin tənzimlənməsinin əsas metodu bazarın ayrı-ayrı subyektlər tərəfindən inhisarlaşdırılmasına yol verməməkdir. Bu məqsədlə müxtəlif metod və mexanizmlərdən istifadə olunur. İnhisar əleyhinə tənzimləmə siyasətinin ən təsirli vasitəsi dövlət tərəfindən hüquqi tənzimləmə mexanizminin və qanunverici, icraedici və məhkəmə hakimiyyəti orqanları sisteminin yaradılmasıdır. Dövlət inhisar əleyhinə qanunların köməyi ilə inhisarçılıq fəaliyyətinin hüquqi və inzibati yolla tənzimlənməsini həyata keçirir. İnhisar əleyhinə qanunvericilik bazar iştirakçılarının pay bölgüsünün maksimum hədlərini, qaydalarını müəyyənləşdirməklə inhisar hallarını məhdudlaşdırmağa çalışır.

Rəqabətin inzibati (qanunvericilik) yol ilə tənzimlənməsi haqsız rəqabət əleyhinə görülən tədbirlər və onlara riayət olunması üzərində dövlət tərəfindən nəzarətin həyata keçirilməsinə əsaslanır.

Antiinhisar fəaliyyətinin inzibati tənzimlənməsi geniş beynəlxalq təcrübəsinə əsaslanır və qədim tarixi vardır. Əsası XIX əsrin 90-cı illərində Amerikanın Şerman qanunu ilə (1890-cı il) qoyulmuş antiinhisar qanunvericiliyi artıq bazar iqtisadiyyatı əksər ölkələrdə tətbiq edilir. Hazırda ABŞ-da bu sahədə bir-birini tamamlayan bir sıra qanunvericilik aktları - Şerman (1890-cı il), Kleyton (1914-cü il), Federal Ticarət Komissiyası (1914-cü il), Robinson Petman (1936-cı il), habelə ABŞ Ali məhkəməsinin bir sıra qərarları - fəaliyyət göstərir.

Hazırda bazar iqtisadiyyatlı bütün ölkələrdə demək olar ki, inhisar əleyhinə qanunvericilik aktları qəbul edilmiş və onları tənzimləyən müvafiq icra orqanları yaradılmışdır. Məsələn, dünyanın inkişaf etmiş ölkələrindən biri olan Almaniyada bu funksiyanı "Kartellər üzrə Federal agentlik", Fransada "Rəqabət üzrə komissiya", Avstraliyada "Ticarət təcrübəsi üzrə komissiya" yerinə yetirir. Bu orqanlar bazar iştirakçıları arasında bəzi sövdələşmələrin aparıl-

masına icazə verir, inhisarçılıqdan zərər-çəkənlərin işlərinə baxır, meydana çıxan mübahisə və münaqişələri həll edir və s. Bu strukturlar digər hökumət strukturlarının malik olmadıqları bir sıra səlahiyyətlərə malik olurlar.

Antiinhisar siyasətinin reallaşdırılmasının əsas mexanizmlərindən biri də müxtəlif iqtisadi metodlarla bazarda azad rəqabət mühitinin yaradılması, bazar iştirakçılarının sayının artırılmasıdır. Burada ən səmərəli təsir vasitəsi ölkədə sahibkarlıq fəaliyyətinin, xüsusilə kiçik və orta sahibkarlığın, kiçik biznesin inkişaf etdirilməsi, istehsalçıların rəqabət qabiliyyətliliyinin dövlət tərəfindən qorunmasıdır.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrdə antiinhisar fəaliyyətinin qanunvericiliklə tənzimlənməsi ilə yanaşı, aşağıdakı normativ metodlardan da istifadə olunur:

- hökumət sifarişləri və kontraktları sistemi ilə;
- vergilər və vergi güzəştləri vasitəsilə;
- faiz dərəcələri vasitəsilə;
- dövlət subsidiyaları və digər büdcə xərcləri vasitəsilə. Dövlət bu vasitələrdən istifadə etməklə, bazarın müxtəlif bölmələri və seqmentlərində rəqabətin intensivləşdirilməsinə təsir göstərmək imkanına malik olur.

Azərbaycan dövlətinin antiinhisar siyasəti geniş dünya təcrübəsinə əsaslanır və digər inkişaf etmiş ölkələrdə olduğu kimi özündə inzibati və iqtisadi metodları, o cümlədən, antiinhisar qanunvericiliyi və rəqabətin qorunması metodlarını birləşdirir. Hazırda Azərbaycan Respublikasının antiinhisar qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, "Antiinhisar fəaliyyəti haqqında", "Haqsız rəqabət haqqında", "Təbii inhisarlar haqqında" Azərbaycan Respublikasının qanun və digər normativ-hüquqi sənədlərdən, Azərbaycan Respublikasının Prezidentinin fərman, hökumətin qərar və sərəncamlarından ibarətdir.

Dövlətin antiinhisar tənzimləmə sisteminə aşağıdakılar daxildir:

- inhisarçılıq anlayışı, onun keyfiyyəti və kəmiyyət xarakteristikası;
- dövlət tərəfindən tənzimlənən inhisarçılıq fəaliyyətinin növləri;
- qadağan olunan haqsız rəqabət formalarının siyahısı;
- inhisar əleyhinə mübarizə orqanları sisteminin, onların vəzifələri, funksiyaları və səlahiyyətlərinin müəyyən edilməsi;
- antiinhisar qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri.

Azərbaycan Respublikasının "Antiinhisar fəaliyyəti haqqında" Qanununda inhisarçılığın aşağıdakı növləri nəzərdə tutulmuşdur:

- dövlət inhisarçılığı;
- sahə inhisarçılığı;
- yerli inhisarçılıq;
- təsərrüfat subyektlərinin inhisarçılığı;
- maliyyə-kredit inhisarçılığı;
- bazar subyektlərinin üfüqi və şaquli sazişləri nəticəsində yaranan inhisarçılıq;
- təbii inhisarçılıq;
- patent-lisenziya inhisarçılığı;

- yerin təkindən istifadə inhisarçılığı.

Adı çəkilən qanuna istinadən dövlət inhisarçılığı o deməkdir ki, təsərrüfatçılıq edən bəzi subyektlər üçün müəyyən məhdudiyyətlər qoyulur və ya tamamilə ləğv edilir. Bunlara aşağıdakılar aiddir: təsərrüfat subyektləri üçün məhsul istehsalı və satışı üzrə tapşırıq və məcburi dövlət sifarişlərinin verilməsi; onların istehsal etdikləri və satdıqları malların qiymətləri üzərində və digər fəaliyyət sahələri üzərində nəzarətin həyata keçirilməsi və s.

Qanunda inhisarçılığın digər növləri və xüsusiyyətləri də geniş şərh edilmişdir:

- Sahə üzrə idarəetmə orqanlarının təsərrüfat subyektləri və istehlakçıların mənafelərinə zidd olaraq rəqabətin məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxara bilən qeyri-qanuni fəaliyyət göstərmələri sahə inhisarçılığı adlanır;
- Yerli inhisarçılıq rayon, şəhər və onlara daxil olan inzibati ərazi qurumlarının təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinin ziddinə olaraq rəqabətin məhdudlaşdırılmasına və ya aradan qaldırılmasına gətirib çıxara bilən qeyri-qanuni fəaliyyətləri deməkdir;
- Bazarda hökmran mövqe tutan təsərrüfat subyektlərinin rəqabətin məhdudlaşdırılmasına, digər təsərrüfat subyektlərinin və istehlakçıların mənafelərinə toxunmasına gətirib çıxaran, yaxud da gətirib çıxara bilən qeyri-qanuni fəaliyyəti təsərrüfat subyektlərinin inhisarçılığı adlanır;
- Maliyyə-kredit inhisarçılığı maliyyə bank sistemində rəqabətin məhdudlaşdırılmasına gətirib çıxaran, yaxud da gətirib çıxara bilən süni maneələr yaradılması başa düşülür;
- Rəqabətin məhdudlaşdırılmasına bazar subyektləri arası üfüqi və şaquli sazişlərin bağlanması da təsir göstərir. Bunlar ifadəsini onda tapır ki, bazar subyektlərinin öz aralarında bazarın inhisarlaşdırılmasını doğuran sazişlər bağlayırlar;
- Patent-lisenziya inhisarçılığı rəqabəti məhdudlaşdıra, yaxud da aradan qaldıra bilən qeyri-qanuni fəaliyyət növlərinə yol verilməməsini nəzərdə tutur.

Antiinhisar tənzimləmə sisteminin ünsürlərindən biri də haqsız rəqabətə yol verilməməsidir. Azərbaycan Respublikasının "Haqsız rəqabət haqqında" 2 iyun 1995-ci il tarixli Qanununda haqsız rəqabətə aşağıdakılar aid edilir:

- Rəqibin təsərrüfat fəaliyyətinin təqlidi;
- Rəqibin təsərrüfat fəaliyyətinin nüfuzdan salınması;
- Rəqibin təsərrüfat fəaliyyətinə müdaxilə;
- Haqsız sahibkarlıq fəaliyyəti;
- Haqsız işgüzarlıq davranışı;
- İstehlakçıların çaşdırılması və s.

Dövlətin antiinhisar tənzimləmə sisteminin tərkib ünsürlərindən biri də antiinhisar orqanları, onların vəzifələri, funksiyaları və səlahiyyətləridir. Azərbaycan Respublikasında antiinhisar fəaliyyətini həyata keçirən əsas dövlət orqanı Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti və onun regionlardakı qurumlarıdır. Bu dövlət orqanının əsas vəzifələri aşağıdakılardır:

- Rəqabət və sahibkarlıq əsasında bazar münasibətlərinin formalaşmasına təsir göstərilməsi;
- İnhisarçılıq fəaliyyətinin və haqsız rəqabətin məhdudlaşdırılması, qarşısının alınması və ya aradan qaldırılması;
- Antiinhisar qanunvericiliyinə əməl olunması üzərində dövlət nəzarətinin həyata keçirilməsi.

Adı çəkilən dövlət qurumu özünün fəaliyyətini bu qurum haqqında qəbul olunmuş əsasnaməyə uyğun olaraq həyata keçirir.

Antiinhisar siyasəti inhisarçılığın ümumiyyətlə ləğv edilməsini nəzərdə tutmur. Çünki iqtisadiyyatın elə sahələri vardır ki, həmin sahələrdə inhisarçılığın qalması zəruridir. Bu, ilk növbədə, rəqabətin mövcudluğunun ya iqtisadi cəhətdən səmərəli olmadığı, yaxud da ölkənin milli təhlükəsizliyinin təmin edilməsi baxımından məqsədə uyğun hesab olunmadığı sahələrə aiddir.

İqtisadiyyatın bazar rəqabətinə daxil edilməyən bu sahələri təbii və ya dövlət inhisarı adlanır.

"Təbii inhisarlar haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə uyğun olaraq təbii inhisar subyektlərinin fəaliyyət sahələri bunlardır:

- neft və neft məhsullarının magistral boru kəmərləri ilə nəqli;
- təbii qazın boru kəmərləri ilə nəqli, saxlanması və paylanması xidmətləri;
- elektrik və istilik enerjisinin ötürülməsi və paylanması xidmətləri;
- magistral və yerli dəmir yolu xətlərinin, yol qurğu və tikililərinin istismarı, hərəkəti idarəetmə və hərəkət – təhlükəsizlik fəaliyyəti, dəmir yolu stansiyaları və sərnişin vağzalları xidmətləri;
- aeroport xidməti, aeroportların uçuş zolaqları və qurğularının istismarı, hava gəmilərinə aviasiya və aeronaviqasiya xidmətləri;
- metro nəqliyyatında yolların, tunellərin və stansiyaların istismarı, hərəkəti idarəetmə və hərəkət təhlükəsizliyi fəaliyyəti.

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən təbii inhisarların tənzimlənməsində aşağıdakı metodlardan istifadə olunur:

- əmtəələrin qiymətlərinin (tariflərinin) tənzimlənməsi;
- xidmət göstərilməsi məcburi olan istehlakçıların müəyyən edilməsi və təbii inhisar subyektlərinin istehlakçıların əmtəəyə olan ehtiyacını tam həcmdə ödəyə bilmədiyi hallarda onların həmin əmtəə ilə təmin olunmasının minimum səviyyəsinin müəyyən edilməsi.

Təbii inhisarların dövlət tərəfindən tənzimlənməsi istehlakçıların və təbii inhisar subyektlərinin mənafelərinin tarazlaşdırılmasına əməl olunmasına əsaslanır.

Təbii inhisarlarla yanaşı, dövlət inhisarı da bazar rəqabətinin fəaliyyət dairəsindən çıxarıla bilər. Dövlət inhisarının subyekti kimi müəyyən fəaliyyət növü ilə məşğul olmağa icazəsi olan dövlət müəssisələri çıxış edirlər.

Hazırda bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da milli iqtisadiyyat üçün strateji

əhəmiyyət kəsb edən və ölkənin milli təhlükəsizliyinə xidmət edən bir çox sahələrdə dövlət inhisarçılığı mövcuddur. Buraya, ilk növbədə, aşağıdakı sahələri və fəaliyyət növlərini aid etmək olar:

- neft-qaz sektoru, bu və digər təbii ehtiyatların hasilatı;
- energetika sənayesi;
- hərbi sənaye kompleksi;
- kosmik tədqiqatlar və kosmik sənaye kompleksi;
- strateji əhəmiyyətli nəqliyyat sahələri (dəniz, hava, dəmiryol, metro nəqliyyatı, boru neft-qaz kəmərləri və s.);
- bəzi xidmət və kommunal təsərrüfat sahələri və s.

Beləliklə, dövlətin antiinhisar siyasəti inhisarçılığın tamamilə aradan qaldırılması demək deyildir. Bütün ölkələrdə inhisarın bəzi növləri saxlanılır və onların fəaliyyəti dövlət tərəfindən tənzimlənir. Hər bir antiinhisar siyasətinin mahiyyəti və mənası ondan ibarətdir ki, iri miqyaslı inhisarçılığın qarşısı alınsın və azad rəqabət bazarı mövcud olsun.

Milli bazar milli iqtisadiyyata əsaslanan mürəkkəb strukturlu, bazar subyeklərinin iqtisadi mənafelərinin reallaşmasına xidmət edən iqtisadi mexanizmə və idarəetmə quruluşuna malik münasibətlər sistemidir. Milli bazarın təməlini, ilk növbədə ölkənin özündə, məhsulların və xidmətlərin kütləvi istehsalı təşkil edir, o, milli iqtisadiyyata söykənir. Milli bazar isatehsalçı və istehlakçılardan ibarət olan bazar subyektlərinin səmərəli fəaliyyət üçün şərait yaratmaqla yanaşı ölkənin dünya iqtisadi məkanına çıxması da təmin etməlidir. Milli bazar yaranması ilk növbədə daxili bazarın yaranması ilə bağlıdır və o, ardıcıl mərhələlərdən keçməklə formalaşır. Birinci mərhəldə, məhəlli bazarları yaranır, ikinci mərhələdə məhəlli bazarın əsasında yerli bazarlar yaranır, üçüncü mərhələdə isə region bazarları formalaşır. Dördüncü mərhələdə region bazarlar ölkənin iqtisadi bazarlarını bir-biri ilə bağlayır və vahid milli bazarın yaranması prosesi əsasən başa çatır. Milli bazarın formalaşması prosesində onun subyektləri yaranır və obyektləri genişlənir.

Milli bazar milli iqtisadiyyatın təzahürüdür və bu mənada milli iqtisadiyyat və milli bazar elə bir ərazi, istehsal və mübadilə vahidliyidir ki, orada istehsal-tədavülü əlaqələri müəyyən iqtisadi, sosial, siyasi və mənəvi birliyə malik olmalıdır. Buna görə də müstəqil vahid milli bazarın formalaşması aşağıdakı zəruri şərtlər daxilində mümkün olur: Real müstəqil milli dövlətin olması; İctimai əmək bölgüsünün...: formalaşmış ölkədaxili strukturun olması; milli iqtisadiyyatın formalaşmış bazar strukturun olması; Bütün regionların inkişaf etmiş iqtisadiyyatının olması; İnkişaf etmiş əmtəə-pul münasibətlərinin mövcud olması və s. Müstəqil milli bazarın formalaşdırılmasının özü: a) müxtəlif mülkiyyət formaları əsasında milli sahibkarlığın inkişafı üçün şərait yaradılması; b) milli bazarın özünün daxili strukturunu təşkil edən çoxsaylı bazar növlərinin yaradılması; c) bazar infrastrukturlarının təşkil edilməsini; ç) milli bazarı tənzimləyən mexanizmlərin fəaliyyəti üçün şəraitin yaradılması və idarəetmə sisteminin qurulmasını tələb edir. Milli bazarlar əhatə etdiyi ərazi, həcmi, təşkili formaları, strukturu və qarşıya qoyulmuş məqsədlər baxımından fərqlənir. Onlar müxtəlif modelli və istiqamətli olurlar. Müstəqil milli bazarlar əsasən milli valyutaya, özünün qiymət sisteminə,

daxili qayda-qanunlara, hüquqi bazaya əsaslanmaqla fəaliyyət göstərir və tənzimlənir. Özünün keçid dövrünü yaşayan ölkələr, o cümlədən, Azərbaycan üçün müstəqil, vahid bazarın formalaşdırılması, vaxt baxımından, keçid dövründə həyata keçirilməlidir. Onun formalaşması prosesi kortəbii getməməli, bilavasitə dövlətin iştirakı və nəzarəti altında həyata keçirilməlidir. Müstəqil milli bazar qapalı ola bilməz və o, dünya bazarının nisbi tərkib hissəsi kimi fəaliyyət göstərir. Lakin milli bazar nə qədər güclü, rəqabətqabiliyyətli olsa belə, o, xarici müdaxilədən qorunmalıdır. Milli bazarın təhlükəsizliyinin təmin olunması biləvasitə dövlətin işidir.

Beynəlxalq rəqabətqabiliyyətli subyektlərin kompleks sosial - iqtisadi xarakteristikasıdır ki, müəyyən vaxt aralığında beynəlxalq bazarlar toplumunda real rəqibə münasibətdə onun üstün səviyyəsində əks olunur.

Rəqabət latın sözü (concurere) olub, «toqquşma, qarşılaşma, bəhsləşmə» mənasını verir.

Beynəlxalq rəqabətin strukturuna 3 əsas səviyyə daxildir:

- ölkələr;
- müəssisələr;
- əmtəələr.

Milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyəti mürəkkəb, kompleks, çoxsahəli bir anlayışdır. Bununla belə, o, tam mövcud dinamikliyi ilə xarakterizə olunur. Tam ümumiləşmiş şəkildə onun müəyyənləşməsini aşağıdakı kimi qeyd edə bilərik. Beynəlxalq rəqabətqabiliyyəti ölkələr səviyyəsində, ölkədə başqa ölkələrin milli sistemləri ilə qarşıdurmada ağalıq edən sosial-iqtisadi səmərəlilik sistemi göstəricisidir. Beynəlxalq rəqabətqabiliyyətinin kriteriyası kimi ölkə səviyyəsində Beynəlxalq Əmək Birjası əsasında istehsal xərclərinin optimallaşması çıxış edir.

Rəqabət üstünlüyü nəzəriyyəsi ondan irəli gəlir ki, istənilən ölkə müəyyən, bir qayda olaraq xüsusi, özünəxas rəqabət üstünlüyü dəstinə malikdir. Buna görə də dövlətin siyasəti əsasən bütün təsərrüfat subyektlərinin ədalətli rəqabət mübarizəsinin genişlənməsi üçün xoşagələn iqlim yaratmaq yolu ilə ölkələrin rəqabət üstünlüklərinin inkişafı və saxlanmasına istiqamətlənməlidir.

Bundan başqa, dövlət əsas diqqəti ölkənin ixrac potensialının inkişafına və milli istehsalın rəqabət qabiliyyətinin yüksəlməsinə yönəltməlidir. Ölkələrin rəqabət qabiliyyətinin əsas tərkib hissələrinə milli sahələrin dünya bazarında rəqabət qabiliyyəti ilə qarşılıqlı əlaqədə baxaq.

Beynəlxalq rəqabət üzrə dünyada qəbul edilmiş mütəxəssis M. Porterə görə, ölkələrin rəqabət qabiliyyəti onun ehtiyatlarından istifadənin məhsuldarlığı ilə ölçülür. Beynəlxalq rəqabət olmasaydı, onda bir ölkənin məhsuldarlıq səviyyəsi başqa ölkələrdəki vəziyyətdən asılı olmazdı. Amma beynəlxalq ticarət və istehsal amillərinin qarışması ölkənin ehtiyatlarından istifadənin məhsuldarlığının yüksəldilməsi üçün imkan verir, eyni zamanda onun artması və azalması daimi səviyyə üçün təhlükə yaradır. Rəqabət mübarizəsində müvəffəqiyyət qazanmaq istəyən ölkələr, bazarın elə sahəsində, seqmentində ixtisaslaşmalıdır ki, orada onun firmaları nisbətən rəqabətqabiliyyətli olsunlar və o malları, o xidmətləri əldə et-

məlidir ki, onların firmaları, həmin mal və xidmətlər üzrə, xarici ölkələrə güzəştə getsin.

XX əsrin ikinci yarısında biznesin beynəlmiləlləşməsi rəqabətin beynəlmiləlləşməsinə və qloballaşmasına səbəb oldu. Rəqabət aparan firmalar mallarını bütün dünyada satır, həm qlobal masştabda istehsal üçün kompanentlər və material axtarır, istehsalın səmərəliliyinin yüksəldilməsi üçün bir çox ölkələrdə istehsalı yerləşdirirlər. İstehsal amilləri daha hərəkətverici olurlar və ona görə də, dünya ticarəti təkcə mövcud olmaqla kifayətlənmir, həm də inkişaf edir. Bu, bir və eyni mal nomenklaturasından olan hazır məhsulun qarşılıqlı mübadiləsi ilə, həm də hazır məhsulun detal və hissələrinin mübadiləsi ilə, yeni beynəlxalq mübadilə tipi – sahələr daxili ticarət – yaranır ki, tədricən sahələrarası ticarəti sıxışdırır.

Beynəlxalq rəqabət isə daha çox sahələrdaxili rəqabət kimi özünü büruzə verir. Bununla belə, beynəlxalq rəqabətin müvəffəqiyyəti təkcə istehsal faktoru ilə deyil, eyni zamanda onların harada və nə qədər effektli tətbiq olunması ilə müəyyən edilir. Porterin metodologiyasına görə, beynəlxalq rəqabət qabiliyyəti xarakteristikasında milli iqtisadiyyatın 4 mərhələsi və uyğun olaraq 4 hərəkətverici stimulu ayrılır. Onlara daxildir, istehsal - investisiya, yenilikçilik və var-dövlət amilləri.

Birinci 3 mərhələ milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artımı ilə bağlıdır. Dördüncü mərhələdə rəqabət qabiliyyətinin artımı azalma tendensiyası əldə edir. Hər bir mərhələnin əsas xüsusiyyətləri həm də beynəlxalq bazarda rəqabət qabiliyyətinin birinci artımı istehsalın əsas faktorlarının təsiri ilə baş verir. Məsələn, təbii ehtiyatlar ilə, müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün münbit şəraitin yaradılması ilə, ucuz və artıq iş qüvvəsi ilə. İqtisadiyyatın rəqabət qabiliyyətinin artması mərhələsi bir çox ölkələr üçün, hər şeydən əvvəl inkişaf etməkdə olan ölkələr və keçid iqtisadiyyatlı ölkələr üçün xarakterikdir. Bu mərhələ, yəni rəqabət qabiliyyətinin inkişafı mərhələsi, Avstraliya və Kanada kimi xammal potensiallı ölkələr üçün də xarakterikdir.

Milli iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin ikinci mərhələsində onun inkişafı firmaların əsas istehsal vasitələrinin və texnologiyaların aktiv investisiya proseslərinə, beynəlxalq bazarın faydalı seqmentinin axtarılmasına əsaslanır.

Beynəlxalq rəqabət qabiliyyətinin investisiya əsasında yüksəlməsi bir qayda olaraq o sahələrdə baş verir ki, yüksək kapital tutumuna, istehsalın masştabı hesabına müəyyən qənaətə, son məhsulun yüksək standartlaşmasına köməkçi xidmətlərin və texnologiyaların yüksək olmayan inkişaf səviyyəsinə malik olurlar. Bu mərhələdə beynəlxalq rəqabət qabiliyyətinin inkişafı tamamilə dövlətdən asılıdır.

Milli iqtisadiyyatın rəqabət üstünlüyünün əldə olunmasının üçüncü mərhələsi yeni və ən yeni texniki-texnoloji baza əsasında əldə olunur. Bu mərhələdə təkrar istehsal prosesləri məhsulun çeşidi, təşkilat sistemi, satışın stimullaşması, marketinq kommunikasiyası və s. bütün rəqabətin mexanizminin daimi inkişafında yerləşir.

Yenilikçi rəqabət şəraitində dövlətin rolu ölkələr daxilində əlverişli rəqabət iqliminin yaradılmasından ibarətdir.

Dördüncü mərhələ, yəni var-dövlət əsasında rəqabət yuxarıda qeyd etdiyimiz kimi, istehsalın enmə stadiyasında tətbiq olunur.

Bu iqtisadiyyatın inkişafının var-dövlətlə şərtləndiyi halda baş verir və durğunluq başlayır. Əldə olunmuş əvvəlki həyat səviyyəsini saxlamağa səy etmək iqtisadiyyatın yüksəldilmə, investisiya və innovasiyalar vasitəsilə əldə olunmuş təzad təşkil edir. Bunun nəticəsində bir çox kompaniyalar beynəlxalq bazarda öz mövqeyini itirməyə başlayır, rəqabət mübarizəsində uduzurlar.

M.Porter təkrarən qeyd edir ki, ölkələr deyil, kompaniyalar beynəlxalq rəqabətin ön tərəfində yerləşir. Amma firmaya əsaslanan ölkə firmanın fikri ilə hərəkət edir.

Rəqabət üstünlüyü bir qayda olaraq tam hərəkətlidir. Bununla əlaqədar M.Porter milli mühitin vəziyyətinə təsir edən və ayrı-ayrı sahələrin rəqabət qabiliyyətini təmin edən 4 şərti fərqləndirir:

1.Verilmiş sahədə rəqabət üçün vacib olan amil şərti;

2.Məhsula daxili tələbat şərti;

3.Ölkədə rəqabətqabiliyyətli qarışıq və xidmət sahələrinin miqdarı;

4.Firmanın strategiya və strukturu həm də onlar arasında rəqabətin xarakteri.

Çox mütəxəssislər etiraz edirlər ki, daxili rəqabət istənilən sahənin üstünlüyünün əsas faktorudur. Amma rəqiblərin optimal miqdarının və onların bazar payının qiymətləndirilməsində vahid fikir yoxdur. Rəqabət bazar əlaqələrinə cəlb olunmuş bazarın iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri ifadə edir. O, bir tərəfdən istehsalçıların öz aralarında, ikinci tərəfdən, istehsalçılarla istehlakçılar arsında, üçüncü tərəfdən isə istehlakçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəni əks etdirir. Onlar öz aralarında rəqabət mübarizəsi yolu ilə itehsalda, satışda-alışda əlverişli şəraitə nail olmağa çalışırlar. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, inkişaf etdirməkdə maraqlı edir, çünki rəqabət mübarizəsinə dözməməkdə həmişə iflasa uğramaq təhlükəsi var. Rəqabət bazar iqtisadiyyatı şəraitində müəssisələrin, xüsusi sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin başlıca amilidir. Rəqabət nəticəsində subyektlər həmişə bir-birini ötməyə, bir-birini öz iqtisadi göstəricilərini yaxşılaşdırmağa sövq etdirir, bir-birindən geri qalmamağa çalışırlar.

Rəqabət bir tərəfdən istehsalın kifayət dərəcədə çevik olmasında istehsalçıları stimullaşdırır, digər tərəfdən bu iqtisadi mübarizəyə tab gətirməyənlərin iflasa uğramasına səbəb olur. O, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinin sürətləndirilməsini, əməyin təşkilinin mütərəqqi formalarının tətbiqini, eyni zamanda iqtisadiyyatda təşkilati və struktur dəyişikliyin aparılmasını zəruri edir. Əks təqdirdə iqtisadiyyatın dünya iqtisadi inkişafından geri qalması prosesi müşahidə olunur. Rəqabət nəticəsində məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına, dünya bazarına rəqabətqabiliyyətli məhsulla çıxmağa imkan verir. Rəqabət nəticəsində məhsulun keyfiyyətinin yaxşılaşdırılması, dünya bazarına rəqabət qabiliyyətli məhsulla çıxmağa imkan yaranır. Rəqabət nəticəsində məhsul vahidinə material məsrəfləri istehsalçı tərəfindən aşağı salınır və nəticədə həm istehsalın, həm də bütövlükdə iqtisadiyyatın səmərəliliyi yüksəlir. Bu isə nəticə etibarı ilə istehlakçıların tələbatını mövcud resurslardan səmərəli istifadə etməklə daha dolğun ödənilməsinə şərait yaradır. Digər tərəfdən rəqabət təsərüffat subyektlərini məcbur edir ki, istehsal güclərinin bir hissəsini

ehtiyyatda saxlasınlar. Daha əlverişli bazar şəraiti yaranan kimi həmin ehtiyatda olan resursları istehsala cəlb etməklə özləri üçün əlverişli istehsal bazar şəraiti yaratsınlar. Qərb ölkələrinin təcrübəsi göstərir ki, istahsal güclərinin bir hissəsinin ehtiyatda saxlanması rəqabət mübarizəsində məhv olmamaq zərurətindən irəli gəlir.

Rəqabət həmçinin istehsalçılarla istehlakçılar arasında təzahür edir. Bunun da məzmunu satıcının alıcı üzərində hökmranlığına, bazarın istehsalçıların inhisarına çevrilməsinə və s. yol verməməkdən ibarətdir.

Xarici ticarətin müasir ümumi problemlərindən biri xarici ticarəti həyata keçirən firmaların maraqları ilə milli iqtisadiyyatın maraqlarının uzlaşdırılması məsələsidir. Bu problemin həlli belə bir suala cavab verməyə imkan verir, yəni necə olur ki, hər hansı ölkədə konkret firmalar dünya ticarətində konkret sahələrdə bir sıra məhsullar üzrə müəyyən üstünlük qazana bilirlər? Bu suala cavab vermək üçün ABŞ-dan olan iqtisadçı - alim M.Porter müəyyən tədqiqatlar aparmışdır. Dünyada ixracın yarıdan çoxunu həyata keçirən, sənayecə inkişaf etmiş ölkələrinin 10 ən iri kompaniyasının təcrübəsini ümumiləşdirərək o, “millətin beynəlxalq rəqabətqabiliyyətliliyi” konsepsiyasını irəli sürdü. Beynəlxalq ticarətdə ölkənin rəqabətqabiliyyətliliyi bir-biri ilə qarşılıqlı təsirdə və asılılıqda olan 4 əsas amillə müəyyən olunur:

- istehsal amilləri şəraiti ilə;
- tələb şəraiti ilə;
- xidmət və ona yaxın olan sahələrin vəziyyəti ilə;
- konkret situasiyaya uyğun firmanın strategiyası ilə;

M. Porter istehsal amillərinin klassik nəzəriyyəsinin tərafdarı olduğundan o bu amilləri nəinki məhdudlaşdırmır, hətta yenilərini, hansı ki, istehsal prosesində meydana çıxır, onları da (iş qüvvəsinin çatışmadığı şəraitdə əmək məhsuldarlığının artması, məhdud resursların – torpağın və digər təbii ehtiyatların məhdudluğu şəraitində ehtiyatlara qənaət edən kompakt texnologiyaların tətbiq olunması) daxil edir.

Firmanın inkişafı üçün müəyyənedici olan ikinci mühüm komponent tələbdir. Belə ki xaricdəki potensial şəraitlə qarşılıqlı təsirdə daxili tələbin vəziyyəti firmanın şəraitinə həlledici təsir göstərir. Burada firmanın xaricə çıxmasına təsir göstərə bilən milli xüsusiyyətlərdə (iqtisadi, mədəni, etnik, təhsil) nəzərə alınmalıdır. M. Porterin yanaşmasında ayrıca şirkətin fəaliyyəti üçün daxili bazarın tələbi müəyyənedici hesab olunur.

Üçüncü komponent - istehsalın, xidmət göstərən və ona yaxın olan sahələrin vəziyyəti və inkişaf səviyyəsi, müvafiq avadanlıqlarla təchiz olunması, maliyyə, kommersiya strukturları və mal göndərənlərlə sıx əlaqələrin mövcudluğu.

Dördüncüsü, rəqabət şəraiti və firmanın strategiyası. Firma tərəfindən seçilmiş strategiya və müvafiq çevikliyi olan təşkilatı struktura beynəlxalq ticarətə müvəffəqiyyətlə qoşulmağın vacib şərtidir. Ciddi stimul daxili bazarda kifayət qədər rəqabətin olmasıdır. Dövlətin yardımı ilə süni hökmranlıq düzgün qərar olmayıb, vəsaitlərdən səmərəsiz və talançı istifadə edilməsidir.

Müxtəlif ölkələr üçün bu amillərin müxtəlif kombinasiyası mümkündür ki, M. Porter, buna uyğun olaraq hər bir ölkənin həyat tsklininin 4 mərhələsini fərqləndirmişdir:

1) istehsal amilləri mərhələsi (factor - driven economy). Bu mərhələdə olan ölkələr əsasən malik olduqları istehsal amillərindən - ucuz iş qüvvəsi, daha münbit əkin sahələri və s. istifadə etdiklərinə görə rəqabət aparırlar;

2) investisiya mərhələsi (investment - driven economy). İqtisadiyyatın rəqabət qabiliyyətliliyi dövlətin və milli firmaların investitsiya aktivliyinə əsaslanır ki, bu zaman milli istehsalçıların xarici texnologiyalara adaptasiyası və onları təkmilləşdirmək qabiliyyəti həlledici əhəmiyyət kəsb edir. İnvestisiyaların həcminin artması yeni, qabaqcıl amillərin yaradılmasına və müasir infrastrukturun inkişafına gətirib çıxarır;

3) yeniləşmə mərhələsi (innovation - driven economy). Bu mərhələ geniş sahələr timsalında, bir - biri ilə qarşılıqlı təsirdə olan 4 amilin mövcudluğundan irəli gələn rəqabət üstünlüyü ilə xarakterizə olunur. Milli şirkətlərin müvəffəqiyyətlə rəqabət apardığı sahələrin məcmusu əsaslı artaraq genişlənməkdədir;

4) sərvət mərhələsi (prosperiti - driven economy). İstehsalın səviyyəsinin aşağı düşməsi. İqtisadiyatın hərəkətverici qüvvəsi əldə olunmuş sərvətə xidmət edir. Ölkə və onun şirkətləri beynəlxalq rəqabətdə öz mövqelərini tədricən verərək, bütün gücü öz mövqelərini saxlamağa yönəldirlər. Halbuki, aktiv investitsiyalar etmədiklərindən hakimiyyət orqanlarının dəsdəklədiyi konservativ strategiya yeridirlər.

Bu bölgüyə uyğun olaraq M. Porter ölkələrə onların iqtisadi siyasətlərinə uyğun aşağıdakı məsləhətləri formula edir:

1. İstehsal amilləri mərhələsində olan ölkə iqtisadiyyatları üçün:
- siyasi və makroiqtisadi sabitliyin yaradılması və saxlanılması, qanunun aliliyinə nail olunması;
- fiziki infrasruktrun və ümumi təhsilin yüksək səviyyəsinə nail olunması;
- bazarların açıqlığı;
- dünya səviyyəli texnologiyanın assimilyasiya edilməsi üçün şəraitin yaradılması.

2. İnvestisiya mərhələsində olan ölkə iqtisadiyyatı üçün:
- elmi - tədqiqat və fiziki infrastruktur güclərinin təkmilləşdirilməsinə investitsiyaların qoyulması;
- xarici texnologiyanı qabaqlayan və dəyərlilərin yaradılması zəncirinin bütün mərhələləri (hasilatdan başlayaraq son məhsul istehsalına qədər) üzrə istehsal güclərinin genişlənməsi üçün imkanların yaradılması.

3. Yeniləşmə mərhələsində olan ölkə iqtisadiyyatları üçün:
- dünya səviyyəli tədqiqat resurslarının (təşkilati, infrastruktur, iş qüvvəsi) yaradılması;
- milli şirkətlər üçün nadir strategiyanın və dünyada ən yeni innovasiyaların yaradılması üçün şəraitin yaradılması.

M. Porterrin nəzəri baxışları xarici ticarətdə ölkənin əmtəələrinin rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə Avstraliyada,Yeni Zelandiyada və ABŞ –da 1990-cı illərdə hazırlanan dövlət səviyyəli məsləhətlərin əsasını təşkil edirdi.

Bir sıra iqtisadçılar M. Porterin nəzəri baxışlarının inkişaf etdirilməyə ehtiyac olduğunu göstəriridilər və qeyd edirdilər ki, bu nəzəri konsepsiya ölkənin rəqabət qabiliyyətinin inkişaf

etdirilməsi istiqamətində təkmilləşdirilməlidir.

Ölkənin beynəlxalq rəqabət qabiliyyətinin artırılması nəzəriyyəçi-iqtisadçılardan başqa bir sıra ölkələrin hakimiyyət orqanları ilə yanaşı beynəlxalq təşkilatları da maraqlandırırdı. Məs. 80 – 90-cı illərin sonunda ABŞ – da rəqabət qabiliyyəti üzrə Şura, Avropa komissiyasında rəqabət qabiliyyəti üzrə Məsləhət Qrupu yaradıldı.

**ƏDƏBİYYAT:**

1. R.Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı, 2005, 430 səh.
2. A.P Qradov. Milli iqtisadiyyat. Bakı, 2008.420s.
3. Ü.Əliyev. Keçid dövrünün milli iqtisadi problemləri. Bakı-2008, 287 səh.
4. Əli Həsənov. Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005, 630 səh.
5. Məmmədov R. Ölkənin iqtisadi rəqabət üstünlükləri anlayışının nəzəri təkamülü. Bakı-2010, 326 səh
6. A.M.Məhərrəmov, H.H.Aslanov. Xarici iqtisadi fəaliyyətin tənzimlənməsi. Bakı-2008, 389 səh.
7. V.Sençaqov. İqtisadi təhlükəsizlik: geosiyasət, qloballaşma, özünüqoruma və inkişaf, Bakı-2008, 217 səh.
8. Ş.Hacıyev, Ə.Bayramov. Beynəlxalq iqtisadiyyat, Bakı-2005, 146 səh.
9. H.Ballahverdiyev, K.Qafarov, Ə.Əhmədov. Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsinin Əsasları. Bakı-2006, 195 səh.
10. M.C.Atakişiyev. Azərbaycan 2020: milli iqtisadiyyatın inkişafı və səmərəli yüksəlişin problemləri. Bakı-2012, 348 səh.

## Abstract

## ENSURING COUNTRY'S COMPETITIVENESS IN THE CONTEXT OF GLOBALIZATION

**Habil ASLANOV**
*Ph.D. on economic, asc. prof. Baku State University*
**Ulvi MAMMADALIYEV**
*Graduate student, Baku State University*

**Key word:** economic globalization, competition, economic integration, open economy, competitiveness

One of the most important features of modern economic globalization, market economy and free competation among producers is the presence of goods. In fact, competition between entrepreneurs is the most important measure of market relations. The article studies competition and competitiveness.

**Резюме**

## ОБЕСПЕЧЕНИЕ КОНКУРЕНТОСПОСОБНОСТИ СТРАНЫ В УСЛОВИЯХ ЭКОНОМИЧЕСКОЙ ГЛОБАЛИЗАЦИИ

**Габил АСЛАНОВ**

*к.э.н., доц. БГУ*

**Ульви МАМЕДАЛИЕВ**

*магистр, БГУ*

**Ключевые слова:** экономическая глобализация, конкуренция, экономическая интеграция, открытая экономика, конкурентоспособность

Одним из важнейших принципов современной экономической глобализации, рыночной экономики и свободной конкуренции среди производителей является наличие товара. Наиболее важной мерой деловой активности является конкуренция в рыночных условиях. В статье изучены способы повышения конкурентоспособности.

# AZƏRBAYCANDA SƏNAYE SEKTORUNUN VƏ İXRAC POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNİN KONSEPTUAL İSTİQAMƏTLƏRİ

**Şəfa ƏLİYEV**
*Sumqayıt Dövlət Universiteti, i.e.n., prof.*

**Rəyçi:** i.e.n., dos. AMEA, Xidmət sahəsinin inkişaf problemləri şöbəsinin müdiri, Aqil Əsədov

**Açar sözlər:** Azərbaycan, sənaye, sənaye sektoru, sənaye potensialı, milli iqtisadiyyat, ixrac potensialı, konseptual istiqamətlər

**Giriş.** Azərbaycanda sənaye sektorunun potensialının artırılması üçün hasilat sənayesinin potensialından daha səmərəli istifadənin təşkili müasir dövrdə mühüm vəzifələrdən biri hesab olunur. Belə ki, neftqaz hasilat sənayesinin emal bazasının modern müəssisələr şəbəkəsi ilə gücləndirilməsinin intensivləşdirilməsi, ölkədə mövcud digər faydalı qazıntıların emal şəbəkəsinin yaradılması, bu istiqamətdə səmərəli tədbirlərin görülməsi ölkəmizdə sənaye sektorunun potensialının gücləndirilməsinə və ixracın həcminin, həm də qeyri-neft məhsulları ixracının həcminin artmasına imkan verə bilərdi. Ölkədə sənaye potensialının gücləndirilməsi üçün ənənəvi sənaye sahələrinin müasir standartlar səviyyəsində qurulması və həmin sahələr üzrə rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması, Bakı şəhərinin müxtəlif rayonlarında yerləşmiş neftqaz və neftkimya avadanlıqları maşınqayırma müəssisələrinin bazasında onların köçürülməsi şərtilə sənaye klasteri təyinatlı iri texnoparkın təşkilinə baxılması (Bakının mərkəzindən ən azı 30-50 km məsafədə), Bakıda məişət avadanlıqları, cihazqayırma müəssisələrinin şəhərdən köçürülməsi şərtilə bu istiqamətdə müasir texnoparkın təşkili (şəhərdən ən azı 30-50 km məsafədə), Sumqayıt sənaye mərkəzində yaradılması nəzərdə tutulan iri texnoparklarla yanaşı, xüsusi iqtisadi zonaların sənaye təyinatlı modellərindən birinin pilot-layihə kimi təşkili və bu məqsədlə müvafiq müsabiqənin keçirilməsi, ölkənin iqtisadi rayonlarının hər birində sənaye sahələrinin müxtəlif təyinatlarını birləşdirən komplekslər və regionlar üçün prioritet istiqamətlər nəzərə alınmaqla, ən azı bir regional sənaye sahələrinin inkişafı zonalarının-sənaye parklarının təşkil edilməsi müasir dövrün aktual məsələlərindən və həllini gözləyən problemlərindən, reallaşdırılması kifayət qədər zəruri görünən geniş miqyaslı və səmərəli tədbirlərdən hesab oluna bilər.

Qeyd edək ki, sənaye sahələrinə xarici investorların gəlməsinin intensivləşdirilməsi və iri kapitalın, müasir texnologiyaların bu sahələrə cəlb olunmasının sürətləndirilməsi üçün qanunvericilik aktlarının təkmilləşdirilməsi, stimullaşdırıcı mexanizimlərin işlənib hazirlanması da vacib məsələlərdəndir. Bundan əlavə, ölkənin müvafiq nazirliklərinin və mərkəzi icra orqanlarının sənaye sahələrinin inkişafında rolunun gücləndirilməsi və onların fəallığının artırılması zərurəti qalmaqdadır. Ölkədə sənaye sahələrinin inkişafına və modernləşdirilməsinə cavabdehlik daşıyan nazirliklərin (məsələn, İqtisadiyyat və Sənaye Nazirliyi, Vergilər

Nazirliyi, Əmlak Komitəsi və s.) məsuliyyət hissinin artırılmasının zərurət kimi olması, struktur baxımdan təkmilləşdirmələrin vacibliyi diqqət çəkir. Bundan əlavə, Azərbaycanda qeyri–neftqaz ÜDM-in artırılması və büdcə daxilolmalarının diversifikasiyası məsələləri də sənaye sektorunun bu sahədə payının artırılmasını və onun potensialının genişləndirilməsini şərtləndirir.

**Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi konteksində sənaye sektoru sahələrinin inkişafının müasir problemləri**

**DETERMINATION OF PRICE STRATEGIES ACCORDING TO COMPETITIVE STANDARDS IN AZERBAIJAN'S FOOD SECTOR**

**Tayyar MUSTAFAEV**
*Ph.D. on economy, Qafqaz University*
**Pervin PASHAEVA**
*Ph.D. student of Qafqaz University*

**Keyc words:** competition, the food industry, pricing, food sector in Azerbaijan, marketing system in food sector in Azerbaijan

Nowadays, the world changes very rapidly and is transformed into a global market. Technology development affects this change closely. The companies are required to comply with these changes in order to survive, on the other hand they need to develop a variety of strategies in order to cope with stronger competitors. The companies combat their rivals by developing pricing strategies. Good planning and implementing of this strategy is very important. The aim of this study in Azerbaijan food industry is implementing new price-setting on the samples of three firms. 15 questions are designed and answered by marketing managers of the companies. Marketing programs, competitive situation and the implementation methods of the new price setting strategies are identified and analyzed in this research.

# SƏNAYE SİYASƏTİ VƏ ONUN REALLAŞDIRILMASI İMKANLARI

**Səadət ZEYNALOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,*
*Sənaye iqtisadiyyatı və menecment kafedrası i.ü.f.d., dosent*

**Rəyçi:** ADNSU-nun Sənaye iqtisadiyyat və menecment kafedrasının müdiri prof. Q.Ə. Səfərov

**Açar sözlər:** sənaye siyasəti, rəqabət, müəssisə, iqtisadiyyat, texnologiya

Sənaye müəssisələrinin rəqabət qabiliyyətinin artırılması baxımından sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas istiqamətlərindən biridir. Müasir sənaye müəssisələrinin yaradılması təkcə iqtisadi baxımdan deyil, həm də əhalinin məşğulluğu, gəlir səviyyəsi, urbanizasiya, ixtisaslı kadrların cəlb edilməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu yanaşma əsas götürülərək məqalədə yeni sənaye müəssisələrinin yaradılmasının müxtəlif aspektləri əks olunmuşdur.

Sənaye siyasətinin əsasını iqtisadi artım, innovasiya-investisiya problemlərinin optimal həll edilməsi təşkil edir. Bu iki aspekt bir-biri ilə qarşılıqlı əlaqədədirlər. İxtiraların, yeni texnologiyaların və innovasiyaların tətbiqi xeyli kapital qoyuluşu tələb edir. İnnovasiyanın məhdudluğu öz növbəsində elmi-texniki, istehsal-iqtisadi, idarəetmə və informasiya tərəqqisinin miqyasının əhəmiyyətli surətdə genişləndirilməsini tələb edir. Təsadüfi deyildir ki, dünya bazarında qazanılmış təcrübə, toplanmış biliklər əsas üstünlüyə malikdirlər.

Bu aspektdə problemlərin tədqiqi yeni məlumatlar bazasının araşdırılmasını zəruri edir. Məhz bu baxımdan tədqiq olunan məsələnin çox aktual olduğunu qeyd etmək olar.

Qeyd etmək lazımdır ki, Azərbaycanda mülkiyyət münasibətlərinin tamlığı böyük mülkiyyət sahibi olan dövlətin iştirakı olmadan mümkün deyildir. Çünki, hələlik iqtisadi münasibətlər sistemində dövlət mülkiyyətinin yeri müəyyən edilməmişdir.

Dövlət mülkiyyətinin idarəetmə sisteminin yaradılmasının birinci mərhələsi istehsal məsrəflərinin azaldılması hesabına iqtisadi səmərəliliyinin artırılmasıdır. Ona görə də, aşağıdakı məqsədlərə çatmaq üçün bəzi obyektlər dövlət mülkiyyətinə təhkim edilməlidirlər:

- dövlət tərəfindən müəssisələrin fəaliyyətinə nəzarət onun normal fəaliyyət göstərməyinə təsir etməklə milli təhlükəsizliyi, ayrı-ayrı regionlarda sosial-siyasi vəziyyətini təmin edir;
- müəssisələrin və şirkətlərin dövlət tənzimlənməsinin təmin edilməsi bütövlükdə iqtisadiyyatın inkişafına həlledici təsir göstərir.

Göstərmək lazımdır ki, əksər hallarda Azərbaycan məhsullarının dünya bazarına çıxışını yalnız məhsulların yüksək keyfiyyətli olması deyil, eyni zamanda onların ucuz olması şərtləndirir. Azərbaycan mallarının ucuzluğu dünya bazarı qarşısında olan maneələri aradan qaldıra bilər.

Beləliklə, hazırda Azərbaycan müəssisələrinin rəqabət strategiyası məsrəflərin azaldılmasına əsaslanır ki, bu, dünya bazarında müvəffəqiyyət gətirə bilər. Deməli, məhsul

isiehsalına sərf edilən məsrəflərin azaldılması və ucuzlaşdırılması sənaye siyasətinin mühüm elementi olmalıdır.

Sənaye siyasətinin mühüm tərkib hissəsi kiçik biznesin dövlət tərəfindən yardım edilməsidir ki, bu da innovasiya üçün əlverişli şərait yaradır. Bu, sferada istehsal məsrəflərinin azaldılması üçün əlverişli imkanlar vardır. Bu eyni zamanda dövlət vəsaitlərinin xərclənməsi, vergilərin toplanması əhalinin alıcılıq qabiliyyətini artırır. Beləliklə, gəlirlərin müəyyən hissəsinin dövlətə verilməsi ümumi tələbatın həcmini azaltmır, lakin onun strukturunu dəyişdirir. Vaxtdan və vergilərin xarakterindən asılı olaraq sahənin inkişafına və strukturuna təsir edir, gəlirlərin müəyyən hissəsinin dövlətə verilməsi tələbatın ümumi həcmini dəyişmir, lakin onun strukturu dəyişir ki, bu da öz növbəsində istehsalın sahə strukturunun dəyişməsinə səbəb olur. Zaman kəsiyindən və tutulan vergilərin xarakterindən asılı olaraq sahənin inkişafına və onun strukturuna təsir göstərir. Beləliklə, sənaye siyasəti formalaşdırılan zaman vergi siyasətinin tətbiqinin sadələşdirilməsi, onun stimullaşdırıcı müdafiə funksiyasının gücləndirilməsi tələb olunur.

Sənaye siyasətinin mühüm elementi maliyyə-kredit siyasətidir. Məlumdur ki, geniş təkrar istehsalın əsasını resurslar, investisiya, əsas kapital, əsas istehsal fondları təşkil edir. Həmçinin müəssisələrin vəsaitləri, bank kreditləri, qiymətli kağızlar, digər şirkətlərin vəsaitləri və dövlət büdcə vəsaitləri mühüm rol oynayırlar.

Dünya təcrübəsi göstərir ki, sənaye siyasətinin formalaşmasında iki obyekti seçmək lazımdır. Bu, bir tərəfdən real sektorun dövlət tənzimlənməsi qaydalarının, yollarının müəyyən edilməsi və reallaşması, digər tərəfdən - istehsalın səmərəliliyinin yüksəlməsi üçün sahibkarlıq fəaliyyətinin inkişafına təsir etməkdən ibarətdir. Bu aspektlərin sintezi ümumi iqtisadi, milli məqsədlərin yerinə yetirilməsini təmin etməkdən ibarətdir.

Bundan başqa sənaye siyasətinə horizontal və vertikal istiqamətdən baxılmalıdır. Horizontala görə, sənaye siyasəti sənayenin inkişafına əlverişli şərait yaradan imkanların yaradılmasına istiqamətlənmişdir. Onun tədbirləri bir seçici əhəmiyyət daşımır, lakin bazarın bütün subyektlərinə bu və ya digər dərəcədə bərabər təsir etməklə, iqtisadi, institutsional təşkilati və hüquqi şərait yaradır. Sənayenin inkişafına makroiqtisadi səviyyədə təsir edən amillər sırasına Vergi Məcəlləsini, Torpaq Kodeksini, Əmək Məcəlləsini və s. göstərmək olar. Göstərilən normativ sənədlər sənayenin və bütövlükdə iqtisadiyyatın real sektorunun inkişafı üçün iqtisadi və hüquqi bazanı əhəmiyyətli dərəcədə dəyişdirir. Bu tədbirlərin məqsədi formal olaraq bütün bazar subyektləri üçün xarici şəraitin (iqtisadi və hüquqi) bərabərləşməsidir. Bununla əlaqədar olaraq dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində maliyyə sabitliyinə nail olmaqdır. Bunun əsasında dövlət müəyyən mənada təsərrüfatda qayda yaradır və iqtisadi həyata vergi, pul, valyuta və gömrük həcmi, əmək qanunvericiliyi, texniki və ekoloji standartlara təsir edir. Vertikal sənaye siyasəti bazarın müəyyən qrup obyektlərinə, müəssisələrə, istehsalın ayrı-ayrı növlərinə və ya bütöv sahələr və regionlara məqsədyönlü təsir vasitəsi kimi çıxış edir. Onun fəaliyyəti vertikal xarakterli olur: mərkəzdən başlayaraq iqtisadiyyatın bütün iyerarxiyası üzrə istehsalın ilkin mərhələsinə (müəssisəyə) qədər həyata keçir və bu mənada o, əsasən makroiqtisadi xarakter daşıyır.

Fikrimizcə, ilk öncə horizontal sənaye siyasəti olmalıdır ki, bu, faktiki olaraq vertikal siyasətin nəticəsidir və ondan maksimum asılıdır.

Beləliklə, sənaye siyasəti eyni zamanda həm horizontal, həm də vertikal üzrə formalaşmalıdır. Dövlət ixrac istiqamətli yüksək texnologiyalı istehsal sahələrinin inkişafına hərtərəfli yardım etməlidir.

İqtisadiyyatın, o cümlədən sənayenin müasirləşdirilməsi üçün Azərbaycanda onun inkişafı müasir meyillər və yeni təşəbbüslər nəzərə alınmaqla həyata keçirilir. Ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal sahələrinin yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi, sənayenin innovasiyalar əsasında inkişafının təmin olunması istiqamətində ardıcıl işlər görülür.

Qeyri-neft sənayesinin ixrac potensialının artırılması, enerjidən səmərəli istifadə edən, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli, elmtutumlu və innovativ məhsulların istehsalının genişləndirilməsi və yeni istehsal sahələri üçün ixtisaslı kadrların hazırlanması məqsədilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" işlənib hazırlanmışdır.

Bunun nəticəsidir ki, 2015-ci ildə ölkə üzrə 250-dən çox sənaye müəssisəsi yaradılmışdır və onların da böyük əksəriyyəti Bakıda və Abşeron iqtisadi rayonunda tikinti materialları, elektrotexniki avadanlıqlar, yarımfabrikatlar, metal konstruksiyalar və geyim istehsalı müəssisələri, elektrik yarımstansiyaları və s. fəaliyyətə başlayıb. Sumqayıtda beton məmulatları, tekstil, plastik qablar, karton və texniki avadanlıqlar istehsalı müəssisələri istifadəyə verilib [1].

Dövlətin sənaye siyasətinin əsas istiqamətlərindən biri də sənaye və texnologiyalar parklarının, eləcə də sənaye məhəllələrinin yaradılmasıdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman və Sərəncamları ilə 2011-ci ildə Sumqayıt Kimya Sənaye Parkı və Balaxanı Sənaye Parkı, 2012-ci ildə Yüksək Texnologiyalar Parkı yaradılıb. Görülən işlərin davamı kimi ölkədə yeni sənaye zonalarının yaradılması ilə bağlı tədbirlər həyata keçirilir [2].

Ölkəmizdə xidmət sektorunun iqtisadiyyatda xüsusi çəkisinin sürətlə artmasına baxmayaraq, sənaye iqtisadiyyatının bütün sahələrinin inkişafı əsas stimullaşdırıcı amil olaraq qalır. Dünya enerji istehlakında 40 faiz paya malik olan sənaye sektorunun inkişafı bir tərəfdən iqtisadiyyatın resurs sahələrinin, digər tərəfdən isə sənayeyönümlü xidmətlərin inkişafını şərtləndirir. Bundan əlavə, sənaye yeni iş yerlərinin yaradılması üçün vacib mənbədir.

Bu gün qlobal iqtisadiyyatda sənayenin inkişafı bir sıra: məhsullardan istifadə silsiləsinin sürətlənməsi və intensivləşməsi, araşdırma və inkişafda təmərküzləşmə, istehlakçı tələbinin ərazi-coğrafi quruluşunun dəyişməsi və istehsal zəncirlərinin mürəkkəbləşməsi kimi amillərdən asılıdır.

Hazırda dünya sənayesindəki meyillər çərçivəsində beynəlxalq bazarlarda qeyri-müəyyənliyin artması istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrin hökumətlərini iqtisadi tənzimləmə fəaliyyətini artırmağa sövq edir. Tarixi təcrübəyə görə sənayenin inkişafı dörd əsas istiqamət üzrə təşviq edilir. Bu istiqamətlərə dövlətlərin tarif, fiskal imtiyazlar və ya subsidiyalar vasitəsilə, kredit bazarına təsir göstərərək dövlət və özəl resursları sənaye

layihələrinə yönəldən maliyyə, iqtisadi aktivlikdə birbaşa iştirak edən istehsalçı və hökumət satınalmaları vasitəsilə strateji sənaye sahələrinə bazarı təmin edən istehlakçı qismində fəaliyyətləri daxildir. Sonuncu istiqamətlərdə sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi təcrübəsi geniş yayılmışdır. Himayə tədbirlərinin həyata keçirilməsində sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və onların beynəlxalq bazarlara çıxışını asanlaşdırmaq əsas məqsəd kimi çıxış edir. Himayə tədbirləri investisiyaların təşviqi və biznes mühitinin yaxşılaşdırılması, beynəlxalq ticarət və ixracın təşviqi, bacarıqların artırılması və insan resurslarının inkişafı, onların peşə-ixtisas səviyyəsinin artırılması,müvafiq infrastrukturun qurulması, xüsusi iqtisadi zonalar, sənaye parkları və sənaye klasterlərinin yaradılması, iqtisadi fəaliyyət sahələrinin inkişafı, texnologiyaların transferinin dəstəklənməsi və innovasiyaların təşviqini əhatə edir. Son illərdə Azərbaycanda həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində sənayeləşmə prosesi daha da sürətlənmişdir. Neft-qaz strategiyasının reallaşdırılması ölkənin dayanıqlı maliyyə resurslarının formalaşmasına və bununla da mövcud sənaye potensialından səmərəli istifadə imkanlarının genişləndirilməsinə şərait yaratmışdır.

Statistikaya görə son 10 ildə sənaye istehsalı 3.4 dəfə, o cümlədən mədənçıxarma sənayesi 3,4 dəfə, emal sənayesi 2,3 dəfə, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı 5,5 dəfə, su təchizatı, tullantıların təmizlənməsi və emalı 3,6 dəfə artmışdır. 2014-cü ildə sənayedə 32,1 milyard manatlıq məhsul və xidmətlər istehsal olunmuş, ümumi istehsalın 73 faizi mədənçıxarma, 20,2 faizi emal, 6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,8 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahələrinin payına düşmüşdür. Ötən dövr ərzində sənaye müəssisələrində istər əsas fondların, istərsə də əsas kapitala qoyulmuş investisiyaların həcmində dinamik artım müşahidə olunmuşdur. Sənaye sektorunda əsas kapitala yönəldilmiş investisiya 2005-ci illə müqayisədə 2014-cü ildə 1,8 dəfə artaraq 7 milyard manatı keçmiş və iqtisadiyyat üzrə əsas kapitala yönəldilmiş ümumi investisiyanın 32,1 faizini təşkil etmişdir. 2014-cü ildə sənaye üzrə əsas kapitala qoyulmuş investisiyaların 77,6 faizi mədənçıxarma sənayesinə, 8 faizi emal sənayesinə, 7.9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 5,3 faizi isə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsinə yönəldilmişdir (bax: Cədvəl 1).

***Cədvəl 1.***

**Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat*)**

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| Bütün sənaye | 4 176 | 4 276 | 5 370 | 6 040 | 7 500 | 7 640 |
| Xarici investisiyalar | 3 350 | 1 917 | 2 125 | 2 668,0 | 3 996,0 | 4 269,0 |
| Daxili investisiyalar | 826 | 2 359 | 3 245 | 3 372,0 | 3 504,0 | 3 371,0 |
| Mədənçıxarma sənayesi | 3 730 | 2 952 | 3 244 | 3 857 | 5 095 | 5 948 |
| Xarici investisiyalar | 3 210 | 1 883 | 1 894 | 2 493 | 3 866 | 4 185 |
| Daxili investisiyalar | 520.6 | 1 069 | 1 350 | 1 364 | 1 229 | 1 763 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Emal sənayesi | 115.8 | 510.2 | 847.9 | 861,2 | 888,9 | 644.6 |
| Xarici investisiyalar | 35.9 | 1.1 | 0.2 | 0,1 | 0,2 | 0.9 |
| Daxili investisiyalar | 79.9 | 509.1 | 847.7 | 861,1 | 888,7 | 643.7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 299.8 | 422.6 | 768.9 | 565,8 | 489,4 | 423.7 |
| Xarici investisiyalar | 98.4 | 23.0 | 188.2 | 91,2 | 89,0 | 75.8 |
| Daxili investisiyalar | 201.4 | 399.6 | 580.7 | 474,6 | 400,4 | 347.9 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 30.0 | 391.5 | 508.5 | 755,7 | 1 026,0 | 623.3 |
| Xarici investisiyalar | 5.8 | 10.3 | 42.0 | 83,9 | 40,2 | 7.5 |
| Daxili investisiyalar | 24.1 | 381.2 | 466.5 | 671,8 | 985,9 | 615.8 |

***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, 2015***

2014-cü ilin göstəricilərinə əsasən sənaye sektoruna qoyulmuş investisiyanın 4269,0 milyon manatı, yəni 55,9 faizi xarici investisiyaların, 3371,0 milyon manatı, yəni 44,1 faizi isə daxili investisiyaların payına düşmüş, sənaye üzrə əsas fondların dəyəri 2959,4 milyon manat və ya iqtisadiyyatda mövcud olan əsas fondların 31,7 faizini təşkil etmişdir.

2014-cü ildə sənayedə çalışanların sayı 197,2 min nəfər olmuş və onların 45,1 faizi dövlət, 54,9 faizi isə qeyri-dövlət sektorunda olmaqla, 18,6 faizi və ya 36,7 min nəfəri mədənçıxarma sənayesində, 53,3 faizi və ya 108,3 min nəfəri emal sənayesində, 15 faizi və ya 29,5 min nəfəri elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 13,1 faizi və ya 25,8 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində fəaliyyət göstərmişdir (bax: Diaqram 1).




***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, 2015***

**Diaqram 1. Sənayedə muzdlu işçilərin sayı (iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə), min nəfər***

Sənaye müəssisələrində orta aylıq nominal əməkhaqqı son 10 ildə 3,5 dəfə artaraq 694,8 manata, o cümlədən dövlət bölməsində 564,9 manata, qeyri-dövlət bölməsində 806,4 manata çatmışdır. 2014-cü ildə orta aylıq əməkhaqqı mədənçıxarma sənayesində 1741 manat, emal sənayesində 473,4 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində 488,9 manat, su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində 331,5 manat təşkil etmişdir (bax: Diaqram 2).




***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, 2015***

**Diaqram 2. Sənayedə işləyənlərin orta aylıq nominal əmək haqqı (iqtisadi fəaliyyət və mülkiyyət növləri üzrə, manat*)**

Ölkə başçısı, cənab İlham Əliyev öz çıxışlarında iqtisadiyyata daxili kapital qoyuluşunun artırılmasının müsbət hal olduğunu qeyd etmiş və ölkəyə xarici sərmayənin cəlb edilməsinin vacibliyini vurğulamışdır.

Sənayenin inkişafının əsas səciyyəsi innovasiya yönümlü yeni texnologiyalara üstünlük verilməsidir. Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi 2010-cu illə müqayisədə 2014-cü ildə artım müşahidə olunsa da, 2013-cü illə müqayisədə azalma olmuşdur. Sənaye məhsulunun 68,4 faizi mədənçıxarma, 25,1 faizi emal, 5,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.Sənayedə qeyri-dövlət sektorunun payı 79 faiz, dövlət sektorunun payı isə 21 faiz olub (bax: Cədvəl 2).

***Cədvəl 2.***

**Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, faktiki qiymətlərlə, milyon manat***

| Göstəricilər | İllər | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
| Bütün sənaye | 9308,8 | 27978,2 | 35026,9 | 34565,0 | 33898,1 | 32110,3 |
| Dövlət sektoru | 2736,5 | 5574,9 | 6817,1 | 6874,9 | 6397,5 | 6 747.6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Qeyri-dövlət sektoru | 6572,3 | 22403,3 | 28209,8 | 27690,1 | 27500,6 | 25362,7 |
| Mədənçıxarma sənayesi | 5672,7 | 20862,5 | 26894,3 | 25607,2 | 24655,3 | 21980,9 |
| Emal sənayesi | 3073,1 | 5735,7 | 6392,4 | 7031,8 | 7243,8 | 8071,6 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 480,8 | 1225,5 | 1555,9 | 1724,3 | 1773,9 | 1824,4 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 82,2 | 154,5 | 184,3 | 201,7 | 225,1 | 233,4 |

***Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları, 2015***

ARDSK-nın məlumatlarından da göründüyü kimi, ölkədə xüsusən qeyri-neft sənaye sektoru üzrə həm məhsul istehsalı, həm də bu sahədə çalışanların say və əməkhaqlarının artımında ciddi inkişaf tempi var.

Azərbaycanda həm ənənəvi, həm ixrac imkanları baxımından sənayenin, xüsusi ilə yüngül sənayenin ixrac imkanları genişdir: Yüngül sənaye nəinki daxili bazar, hətta qonşu ölkələri emal olunmuş hazır məhsullarla təmin etmək imkanına malikdir və Azərbaycanda aqroparkların yaradılması nəzərdə tutulur. Artıq istehsal olunan aqrar məhsullar emal edilərək qonşu ölkələrin bazarlarına çıxış imkanları əldə edə bilər. Xüsusən Rusiya bazarı yeyinti sənayesi üçün olduqca əhəmiyyətli bazarlardan biridir. Azərbaycan yeyinti məhsulları, kimya sənayesinin məhsulları ilə daha çox Rusiya bazarlarına çıxmaq imkanlarına malikdir [3].

Apardığımız nəzəri-statistik təhlilə uyğun olaraq belə qənaətə gəlmək olar ki, ölkəmizdə sənaye müəssisələrinin yaradılması perspektivləri geniş, bunun üçün ehtiyatlar çoxdur. Tənzimləmə alətlərindən istifadə etməklə sənayenin quruluşunun təkmilləşdirilməsi istiqamətlərində tədbirlər iqtisadiyyata öz töhfələrini verməklə yanaşı, yeni sənaye müəssisələrinin yaradılması üzrə işlərin davam etdirilməsinin əhəmiyyəti qalmaqdadır. Fikrimizcə, aşağıda göstərilən sahələr üzrə sənaye müəssisələrinin yaradılmasına üstünlük vermək lazımdır: neftmaşınqayırması, emal (son məhsulun istehsalı üzrə), yüngül, tikinti materiallarının istehsalı.

Bu sənaye sahələrinin regionlarda inkişaf etdirilməsi ilk öncə istehsal sahələrinin inkişafına, az da olsa işsizlik probleminin aradan qaldırılmasına, regionlardan əhali axınının qarşısının alınmasına, həmçinin inkişafına gətirib çıxara bilər.

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olur ki, Azərbaycanda sənayenin inkişafı üçün hələ çox böyük perspektivlər qalmaqdadır və ölkə başçısının qəbul etdiyi müvafiq proqram və qərarlarla bu perspektivlər gerçəkləşəcək. Azərbaycanda sənaye sahələrini ikişaf etdirmək, sənaye müəssisələrində rentabellik səviyyəsini artırmaq, sənaye müəssisələrində daxili bazarlarla yanaşı, xarici bazarlara çıxışı təmin etmək prioritet təşkil edən vəzifələrdəndir.

Yuxarıdakıları yekunlaşdıraraq aşağıdakı vəzifələri qeyd etmək olar:

1. Azərbaycanda hazırda müəssisələrin rəqabət strategiyası mənfəətin azaldılmasına əsaslanır ki, bu da sənaye siyasətinin mühüm elementidir;

2. Sənaye siyasətinin formalaşmasında bir tərəfdən real sektorun dövlət tənzimlənməsi qaydalarının reallaşması, digər tərəfdən istehsal səmərəliliyinin yüksəlməsi aspektlərinin sintezi ümumi iqtisadi və milli məqsədləri təmin edir;

3. Tənzimləmə alətlərindən istifadə etməklə sənayenin quruluşunun təkmilləşdirilməsi istiqamətlərini nəzərə almaqla Azərbaycanda neftmaşınqayırması, emal (son məhsulun istehsalı

üzrə), yüngül, tikinti materiallarının istehsalı sahələrinin yenidən yaradılması böyük iqtisadi səmərə verərdi.

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı.

2. Azərbaycan 2020: "Gələcəyə baxış" İnkişaf Konsepsiyası.

3. http://azertag.az/xeber, İqtisadiyyat, Bakı, 16 yanvar 2016

4. http://www.anl.az/down- Azərbaycan qəzeti, 14 Avgust 2014

5. http://president.az/articles- Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı

6. http://arxiv.az/az/azerbaijan-news- Azərbaycan, 11.06.2015

7. http://m.lent.az/news- moder.az, 28 oktyabr 2014

**Abstract**

**INDUSTRIAL POLICY AND ITS REALIZATION**

**Seadet ZEYNALOVA**

*Ph.D. of economics, Azerbaijan State University of Oil and Industry*

**Key words:** industrial policy, competition, enterprise, economy, technology

Development of industry is one of the main directions of economic policy in terms of increasing the competitiveness of industrial enterprises in the country. Modern industrial enterprises are not only economic, but also have great importance in terms of attracting employment, level of income, urbanization, skilled personnel. The article reflects in various aspects of the creation of new enterprises on the basis of this approach.

**Резюме**

**ПРОМЫШЛЕННАЯ ПОЛИТИКА И ВОЗМОЖНОСТИ ЕГО РЕАЛИЗАЦИИ**

**Саадат ЗЕЙНАЛОВА**

*д.ф.по э., доцент кафедры Экономики промышленности и менеджмента АГУНП*

**Ключевые слова:** промышленная политика, конкуренция, предприятие, экономика, технология

Развитие индустрии с точки зрения повышения конкурентоспособности промышленных предприятий в стране является одним из основных направлений экономической политики. Создание современных производственных предприятий происходит не только с экономической точки зрения, но и занятости, уровня доходов, урбанизации, привлечения квалифицированного персонала имеет большое значение. На основе такого подхода в статье находит свое отражение создание новых предприятий в различных аспектах.

# ŞƏHƏR TİKİNTİSİNDƏ BAZAR MEXANİZMİNİN ƏSAS ELEMENTLƏRİ

**İsrafil MƏMMƏDOV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant*

**Rəyçi:** dos., i.e.n. Nəriman Böyükkişi
**Açar sözlər:** problem, iqtisadiyyat, aşağısalma, dəyər, obyekt, şəhər, tikinti

**Giriş.** Şəhər tikintisi bazarında konyukturun qiymətləndirilməsinin müxtəlif metodlarının tətbiq edilməsi mümkündür. Tələb və təklifin proqnozlaşdırıcı metodunun seçilməsi, hər şeydən əvvəl, obyektin spesifikasından, proqnozlaşdırmanın dövrü və vəzifələrindən, həmçinin obyekt üzrə informasiyaların mövcudluğundan asılıdır. Metodların işlənməsi dərəcəsi və əhəmiyyəti də böyük rol oynayır. Proqnozlaşdırmada çoxamilli modellərin proqnozlaşdırılması tələbin təbiətinə uyğundur və qeyri – bərabərliyi ilə fərqlənir və çox halda ehtimal xarakteri daşıyır. Ancaq bilməliyik ki, modelin əmsallarının müəyyən edilməsi üçün informasiyaların tələb olunan həcmi nəzərdə tutulan amillərin miqdarından və istifadə olunan bərabərləşdirmədən birbaşa bağlıdır.

**1. Modellərin proqnozlaşdırılması.**

Mürəkkəb qeyri – xətli çoxamilli modellər tələbin inkişafını yaxşı təsvir edir, informasiyaların böyük həcmini tələb etmir və hazırda mövcud mənbələrdən təmin olunmur. Qısa müddətdə tələb olunan informasiyaların tam həcminin məqsədyönlü yığımı bahalı məsələdir. Ona görə də məsələn, bələdiyyələrin səviyyəsi üçün ilk növbədə biramilli modellərin istifadə edilməsi məqsədyönlüdür, məsələn, elastik əmsallara əsasən tələbin proqnozlaşdırılması modeli. İnformasiyalar yığıldıqca ən mürəkkəb çoxamilli modellər istifadə oluna bilər. Bu metod aşağıdakı üstünlükləri ilə şərtləndirilir:

- elastik əmsalların müəyyən edilməsi üçün zəruri məlumatların az miqdarda olması;
- modelin nisbi sadəliyi, əsasında məlumatların işlənməsi. (Elektron hesablama maşınlarında riyazi hesablamalar istifadə olunmadan orta ixtisaslı mütəxəssislər yerinə yetirilə bilər).

İnformasiyalar yığıldıqca ən mürəkkəb çoxamilli modellər istifadə oluna bilər.

**2. Tikinti bazarında tələbin, təklifin və qiymətin qarşılıqlı təsiri.**

Bu işdə şəhər tikintisi bazarında tələbin, təklifin və qiymətin qarşılıqlı təsirinin təhlili mənzil bazarında və tikinti xidmətləri bazarında verilir.

Mənzil bazarının mövcud xüsusiyyətləri bazar qiymətlərinin müəyyən həqiqiliyinin kifayət olan qədər müəyyən edilməsinə imkan vermir, çünki o, digər bazarlarda baş verir. Mənzil bazarının başlıca xüsusiyyətləri ondan ibarətdir ki, adi adam həmin bazarda xüsusi alış və satış əməliyyatı aparmır, qiymətin əmələ gəlməsi təbiətinə malik deyil, çox halda özünün xüsusi təqdim edilməsi və prioritetinə yönəlir. Mənzil bazarında orta statistik alıcı əldə etməkdə,

investisiyalaşdırmada heç bir təcrübəyə malik deyil. Mənzil bazarı üçün fasiləsiz tələb və təklifin əyrisinin klassik formalaşması və onların kəsişməsi nöqtəsi müvafiq olaraq yoxdur. Mənzil bazarında həmin kəsişmə nöqtəsi özünün bölüşdürmə qanunu sahəsində yaradılır. Ona görə də mənzilin (evin) qiymətinin həqiqi və dəqiq müəyyən edilməsi mənası, prinsipcə mümkün deyil. Ancaq müxtəlif tipli yaxınlaşmalara görə, yəni ehtimal olunanın statistik bölüşdürülməsi mümkündür. Həmin bölüşdürmənin öyrənilməsinə əsaslanan və onlara düşən ehtimalın hər hansı şərtlərinə verilmiş və ən ehtimal tələbin və ən ehtimal təklifin formal əyriləri və müvafiq olaraq onların kəsişmə zonası əmələ gələ bilər. O isə sövdələrin ən ehtimal qiyməti olacaqdır. Müəyyən dərəcədə marketinq belə virtual nəticəyə yönəlmədir nə vaxt bir qeyri – müəyyənlik kimi mənzilin qiyməti haqqında danışırıqsa, bu o demək deyil ki, bizim biliklərimiz onun haqqında düzgün deyil və ya qiymətin müşahidə edilməsinə və tədqiqinə bizim alətimizin təsiri yoxdur. Bu onun təbiətinin mahiyyətini əks edir.

İqtisadi konsepsiyanın işlənməsi layihənin bazar potensialını əks edir. Bura investisiyanın miqyası və səmərəlilik şəraiti, qiymətlər, bazardan çıxış üsulları, sosial mənzil proqramının reallaşdırılmasından gözlənilən mənfəət, kiçik və orta biznes obyektlərinin formalaşması və s. daxildir.

Marketinqin planlaşdırılmasında nəzarət göstəricilərinə aşağıdakılar daxildir: satış (realizasiya) həcmi; mənfəətin həcmi; kapital qoyuluşu; cari xərclər; reklam xərcləri [2, səh.287].

Tikinti bazarının və mənzil bazarının konyukturu həm şəhər səviyyəsində, həm də baxılan əraziyə tətbiq edilməklə marketinq tədqiqatının nəticəsini xarakterizə edir. Həmin tədqiqatın məqsədi – ərazidə proqnozlaşdırılan dövrdə investisiya proqramının bazar imkanlarının reallaşdırılmasının ən səmərəli üsullarını aşkar etməkdir. Qismən, mənzillər üçün aşağıdakı amillər nəzərdə tutulur:

- mənzil bazarında tələb və təklifin nisbəti;
- əhalinin ayrıca qruplarının ödəmə qabiliyyətindən asılı olaraq mənzilə tələbatın təmin edilməsinin xarakteri və şərtləri;
- tələbin təmin edilməsinin strukturu və formaları;
- baxılan ərazidə tələbin səviyyəsinə tətbiq edilməklə mənzil obyektlərinin bazar qiymətlərinin dəyişməsi;
- tikinti məhsulunun mövcud qiymət əmələgəlməsi və qiymətlərin dəyişilməsi tendensiyası;
- regionun (şəhərin) oxşar qiymət zonalarında maliyyələşdirmənin müxtəlif mənbələri üzrə evlərin (mənzillərin) istifadəyə verilməsi nisbəti;
- həmin ərazinin tikintisinin maliyyələşdirilməsinin büdcədənkənar mənbələrinin cəlb edilməsi imkanları, formaları və şərtləri;
- xarici investorlara inflasiya proseslərinin və investisiya aktivliyinin səviyyəsinin təsiri.

Marketinqin strategiyası müsabiqəyə əsasən (auksionlarda, tenderlərdə) kommersiya strukturlarının tikinti obyektlərinin investisiyalaşdırılması üçün cəlb edilməsinin şərtlərini müəyyən edir. Oxşarlara əsasən torpaq sahələrinin uzunmüddətli icarə hüququnun alınmasına və kommersiya mənzillərinin dəyərlərinə bələdiyyə əlavələrinə çevik qiymət siyasətinin son

nəticəsinin təsiri baxılır.

Ərazinin inkişafının konkret üstünlükləri biznes – planda aşkar edilməli və layihənin reallaşdırılmasının strategiyasında istifadə olunmalıdır. Onlara aiddir:

- həmin rayonda yeni işçi yerlərinin yaradılması;
- mənzil probleminin həll edilməsinin sürətləndirilməsi;
- əhalinin mədəni – məişət xidmətinin yaxşılaşdırılması;
- mövcud fondların çoxlu həcminin istifadəsi.

Maliyyə nəticələrinin proqnozlaşdırılmasında layihənin iqtisadi və maliyyə tərəfi ümumiləşdirilir: ərazidə yerləşən, şirkətlərin və idarələrin fəaliyyətinin nəticəsində alınan, xalis mənfəət; büdcə daxilolmaları üçün vergi bazasının formalaşması; biznesin mənfəətliliyinin uzunmüddətliliyi; gəlirlərin və xərclərin tarazlaşdırılması üçün zəruri vaxt.

Marketinq strategiyası mənzil bazarında mövcud olan, obyektiv şərtlərə uyğun, sistemin seçilməsinin təhlilini və qiymətəmələ gəlməsinin fəaliyyət sisteminin məqsədyönlü tədqiqatında daxil edilir (bazar subyektlərinin investisiya imkanları nəzərə alınmaqla) [3, səh.190].

Qiymət əmələgəlmənin müasir sisteminin əsasında podratçıların (yarımpodratçıların), sifarişçinin (investorun) və digər investisiya prosesi iştirakçılarının qarşılıqlı maraqlarının uçotuna əsaslanan, müqavilə qiymətinin konsepsiyası qoyulubdur.

Beləliklə, qiymətlərin səviyyəsi çoxlu obyektiv və subyektiv amillərdən asılıdır və konkret şərtlərə və məhdudiyyətlərə görə müəyyən edilir, onlardan başlıcaları: tələb və təklifin konyukturu; xüsusi xərclərin qiymətləndirilməsi; rəqiblərin əmtəələrinin və qiymətlərinin təhlili; mənzil bazarı mexanizminin əsas elementləri – tələb, təklif və qiymət.

“Bütün bazarlar baxmayaraq açıqdan – açığa müxtəlifdirlər, ümumi iqtisadi mahiyyəti vardır. Tələb və təklifin modeli həqiqəti sadələşdirir, məhz həmin mahiyyətin xüsusiyyətləri diqqəti təmərküzləşdirir” [1, səh.343].

Qiymət tələb və təklifi müəyyən edir, tələb və təklif qiyməti müəyyən edir, tələbin payı təklifi müəyyən edir, təklif isə tələbi müəyyən edir.

Tələb, təklif və qiymət əks mütənasib asılılığında olurlar, yəni eyni tipli məhsul bazarında qiymət nə qədər çoxdursa, tələb o qədər də aşağıdır və təklif isə yuxarıdır.

Taraz qiymətində təmin olunmamış satıcılar və təmin olunmamış alıcılar yoxdur. Onlardan heç biri əmtəənin əldə edilməsi və satılması haqqında imkanların olmaması haqqında şikayət edə bilməzlər.

Təsəvvür edək ki, həmin əmtəəyə qiymət bəzi səbəblərə görə dəyişilə bilər. Belə halda alıcıların bir hissəsi əmtəəni əldə edə bilməzlər, deməli, satıcıların bir hissəsi onu sata bilməzlər. Qiymətlərin aşağı düşməsi tələb və təklifi tarazlaşdırar.

Ona görə də qeyd etmək lazımdır ki, hətta bir satıcının qiymətləri aşağı salması digər satıcıları məcbur edir ki, onun yolu ilə getsin, çünki əks halda alıcılar hər şeydən əvvəl əmtəəni ən aşağı qiymətə təklif edən satıcıdan alacaqlar.

Beləliklə, nə vaxt bazar qiyməti tarazlıqdan yüksəkdirsə, onda o alıcıların əmələ gəlməsinə və satıcıların təmin olunmasına səbəb olur. Qiymətlərin aşağı salınması, əksinə defisiti (çatış-

mazlığı) və alıcıların təmin olunmamasını əmələ gətirir. Ancaq əgər tələb artarsa, təklif isə aşağı düşərsə, onda nəticədə tələb təklifdən yüksək olar. Mənzillərin çatışmazlığı əmələ gəlir, onda insanlar təkcə onları əldə etməyi yox, həm də ödəməqabiliyyətli tələbi istəyirlər.

Mənzillərin çatışmazlığı onun səmərəli bölüşdürülməsi zəruriliyini tələb edir. Ona görə də əgər əvvəlcə mənzili ancaq pul müəyyən edirdisə, indi isə mövcud mənzilləri məhz kimin alacağı müəyyən edir, deməli digər sistem əmələ gəlməlidir - yəni mənzillərin alıcıları arasında bölüşdürülməsi.

Praktikada onu göstərir ki, müəyyən bir inzibati sistem əmələ gəlir – məsələn, hər hansı bir mənzil vasitəçisi olan müəssisə (Rieltor şirkəti) – və adam mənzil almaq üçün növbəyə durur. Belə halda aydındır ki, daşınmaz əmlakın sahibkarlarının güclü tamahı əmələ gəlir və mənzillərin bölüşdürülməsindən yan keçir, çünki onların təklif etdikləri mənzillərinin miqdarını yuxarı qiyməti üzrə sata bilərlər. Ona görə də mənzil haqqının tənzimlənməsi qara bazarın əmələ gəlməsinə səbəb ola bilər, nəticədə mənzillərə keçmişdəki situasiyaya nisbətən (tənzimlənməyə) ən yüksək qiymətlər təklif ediləcəkdir. Onun qarşısını olmaq üçün nəzarət edən aparat genişləndirilməlidir, bu isə öz növbəsində resurslar tələb edəcək və digər işlərdən kənarlaşdıracaqdır.

Bununla bağlı, fikrimizcə, mənzil bazarının dövlət tənzimlənməsinin əsas funksiyalarını ayırmaq lazımdır. Onlara aiddir:

- mənzillərin maliyyələşdirilməsi sisteminin formalaşması üçün hüquqi mühitin təkmilləşdirilməsi;
- ipoteka bazarının əsas iştirakçılarının təşəkkülü üçün şəraitin yaradılması və onların institusional potensialının gələcək inkişafı;
- dövlətin mənzil siyasətinin təkmilləşdirilməsi;
- ipotekaya aid olan mülki məcəllənin müddəalarını “İpoteka haqqında” qanuna uyğun düzəldilməsi;
- ipoteka mənzil kreditləşdirilməsinə cəlb edilən, bank əməkdaşlarının peşəkar vərdişlərinin yüksəldilməsi;
- banklar tərəfindən ipoteka mənzil kreditlərinin tərtib edilməsi və verilməsinin standart metodlarının və üsullarının işlənməsi və gələcək təkmilləşdirilməsi;
- ölkədə mənzilin maliyyələşdirilməsi sisteminin formalaşması üçün zəruri qanunvericilik paketlərinin hazırlanması və qəbulu planının praktiki reallaşdırılması;
- ipoteka mənzil kreditləşdirilməsinin inkişafı üçün vergi əmələgəlməsinin stimullaşdırılması rejiminin yaradılması imkanının təhlili;
- qiymətli kağızlar bazarının inkişafı.

Daşınmaz əmlak bazarının dövlət tənzimlənməsinin mühüm forması, fikrimizcə, iqtisadi proqramlaşdırma, reallaşdırma məqsədləri; tənzimləmə metodları və üsulları olmalıdır. Mənzil bazarının və yeni mənzil tikintisinin əsasları mənzil fondunun özəlləşdirilməsi proqramında qoyulubdur.

Əhalinin aşağı ödəmə qabiliyyətinə görə bazarın daralması dövlətdən təkcə gəlirlərin artmasının təmin edilməsi üzrə qüvvələrini yox, həm də ipotekanın tipi üzrə investisiya

resurslarının cəlb edilməsi sisteminin yaradılmasını tələb edir. Tikinti məhsulunun maya dəyərinin aşağı salınması üzrə qüvvələrə, yeni tikintinin resurs qənaətliyi texnologiyası və materialların işlənməsi sahəsində elmi-tədqiqat və konstruksiya işlərinin maliyyələşdirilməsinə kiçik və orta tikinti şirkətlərinin gücləri çatışmır.

Azərbaycanda, xüsusilə Bakı şəhərində mənzilə tələbat son illərdə, əhalinin təbii artımı və daxili miqrasiyası nəticəsində çox sürətlə artdı. 1980-ci illər ərzində Bakının əhalisi 1,1 milyon adam təşkil edirdi. 1993-cü ildə Dağlıq Qarabağda Ermənistan ilə silahlı münaqişə və daxili miqrasiya nəticəsində Bakının əhalisi 1,7 milyon qədər yüksəldi. Hal-hazırda rəsmi statistika Bakı şəhərinin əhalisinin sayını 2,5 milyon adam təsdiqləyir. Ancaq qeyri – rəsmi qiymətləndirmə üzrə Bakının əhalisi 3 milyon adamdan çoxdur.

Son üç ildə (2012 – 2015-ci illər) Bakıda 1,6 milyon $m^2$ ümumi mənzil sahəsi tikilməsinə baxmayaraq, mənzil bazarında qiymətlərin artması davam edir. Bu onu göstərir ki, mənzilə olan tələb hələlik təmin olunmayıbdır. Həmin dövrdə yeni mənzillərin qiymətlərinin artması 5 – 10% arasında dəyişilirdi.

Yuxarıda qeyd edildiyi kimi, mənzilə tələb yüksək olaraq qalır və yaşayış daşınmaz əmlakın qiymətlərinin artmasının saxlanması aşağıdakı səbəblərə görə mümkündür:

- əhalinin şəxsi gəlirləri yüksək templə artır, çoxları özlərinin azad maliyyə vəsaitlərinin uzunmüddətli qoyuluşunu yaşayış daşınmaz əmlakına qoyurlar, bu, investisiyalar üçün əhalinin alternativ alətlərinin olmaması ilə bağlıdır, hələlik bank sisteminə bəzilərinin inamı aşağıdır;
- tikintinin cari tempi yaşayış daşınmaz əmlakına artan tələbə uyğun deyil, xüsusilə Bakı şəhərində, çünki regionlardan gələnlərin aktiv axını müşahidə olunur.

Mənzil şəraitinin yaxşılaşdıırlması üçün və ya yaşayış evlərinin və ya öz mənzillərinin təmiri üçün əlavə resursların cəlb edilməsinə olan tələbatın öyrənilməməsi, mənzillərin potensial alıcıları arasında tam sorğuların aparılmasının mürəkkəbliyi ilə bağlıdır və ölkədə belə sorğular aparılmayıbdır. Belə sorğuların olmaması ipoteka mənzil kreditlərinə potensial tələbin proqnoz həcminin müəyyən edilməsi üçün ciddi maneə törədir.

Tələbin proqnozlaşdırılması mənzil bazarında fəaliyyət göstərən qüvvələri müəyyən etməyə və başa düşmək qabiliyyətinə və həmin qüvvələrin inkişafının gələcək tendensiyasını göstərməyə əsaslanır. Onun üçün dinamik sıraların, habelə proqnozlaşdırma situasiyasının nisbəti üzrə ekspertlərin təcrübəsinin, biliklərinin və qiymətləndirilməsinin istifadəsinə, intuitiv metodların öyrənilməsinə əsaslanan proqnozlaşdırmanın formal metodlarını istifadə edirlər.

Qeyd etdiyimiz kimi təklifin və tələbin qarşılıqlı təsiri qiyməti müəyyən edir. Mənzilin dəyəri vardır, əgər o, hər hansı istifadəçi və ya onların qrupları üçün faydalığa malikdirsə.

Ancaq faydalılıq, başlıca meyar olmaqla, mənzili dəyərinə təsir edən vahid amil deyil. Mənzil (ev), məsələn, nisbi cəhətdən həmçinin defisit olmalıdır. Təklif – müəyyən qiymətlər üzrə bazar əlverişli olan, mənzil obyektlərinin sayıdır. Tələbin əsası – maliyyələşdirmənin zəruri mənbələrinə malik olan, potensial alıcıların, mənzilləri əldə etmək arzularıdır.

Bir halda ki, mənzil bazarı təkmilləşdirilməyibdir, təklif və tələb həmişə qiymətə diktə

edə bilməz, yəni alqı – satqıya. Satış qiymətlərinin əldə edilməsinin əsas rolu sövdələrin şərtlərinin, iştirakçıların sayını, maliyyələşdirmənin dəyərini və digər amillərin razılaşdırılmasını bacarmaqdır.

Uzun müddətli planda təklif və tələb – qiymətlərin dəyişilməsinin müəyyən edilməsi üçün nisbi səmərəli amillərdir. Ancaq, qısa aralıq vaxtda həmin amillər o saat mənzilin konkret bazarında öz səmərəliliyini itirir. Bazar səhvləri xüsusi mülkiyyətçilər tərəfindən torpaq üzərində inhisar nəzarətin nəticəsi ola bilər. Bundan əlavə, bazara dövlət nəzarəti mexanizmi təsir edir. Məsələn, yerli hakimiyyət orqanları bazarın artmasını və ya icarə haqqının səviyyəsini saxlaya bilər, çoxlu digər üsullarla bazarın fəaliyyət mexanizminə dəyişikliklər edə bilər.

Təklif satıcıların arzusu və qabiliyyəti kimi bazara satış üçün mənzillərin təqdim edilməsini və mənzillərin müxtəlif növləri üzrə bazarların doydurulmasını müəyyən edir. Makrosəviyyədə tələb və təklifin nisbətini formalaşmış kimi hesab etmək olar. Hal-hazırda bazar kifayət olan qədər mənzillərlə doydurulub, eyni vaxtda da tələbin təklifin üzərində sabit artımı mövcuddur. Konkret bazarların stimullaşdırılması və inhisar bazarlarının tənzimlənməsi mənzil bazarında tələb və təklifin uyğunluğuna nail olmağa yönəldilməlidir. Belə aspektdə tələb və təklifin amilləri firmaya (şirkətə) nisbətən xarici amil kimi baxılır.

F.Kotlerin işində bazar şəraitində qiymətin əmələgəlməsi strategiyasının seçilməsinə imkan verən, qiymətin ilk hesablama metodikası verilir [4, səh.287]. Birinci növbədə o firmanın davranışını müəyyən edir və “orta xərclər müsbət mənfəət”, təhlilə, zərərsizliyə və məqsədli mənfəətin təmin edilməsinə əsasən qiymətləri formalaşdıra bilər, bu da alıcıların davranışı ilə müəyyən edilir. Müasir marketinq prosesində qiymət mühüm göstərici kimi qalır və hər hansı bir firma xüsusi əmtəə kimi qiymət mövqeyinə əsasən rəqiblərin qiymətlərini öyrənir ki, gələcəkdə onları istifadə etsin.

**Nəticə.**

Konkret vaxt ərzində reallaşdırılmış evin (mənzilin) ümumi sahəsinin miqdarı və qiyməti arasındakı əlaqə tələb əyrisini xarakterizə edir. Beləliklə, tələb, təklif və qiymət arasındakı asılılıq qeyri-mütləqdir, yəni mənzil bazarında qiymət yüksəldikcə, tələb azalır və təklif isə artır.

Səhər tikintisinin inkişafının modelləşdirilməsinin tələb və təklifin strukturuna söykənməsinin, gələcəkdə mənzilləri əldə edənlərin gəlirlərinin səviyyəsinin artması və müxtəlif tipli yaşayış evlərinin (mənzillərin) səmərəli qiymətləndirilməsi nəzərə alınmalıdır.

**ƏDƏBİYYAT:**

1. Самуэльсон П. Экономика. Т.1. – М.:МГП «Алгон» ВНИСИ, 1992, 500 стр.
2. В.М.Ширалиев, А.М.Новрузова. Развитие рынка жилья в Азербайджане. Баку – «Нурлан» - 2005. 426 стр.
3. Экономика. Учебник// Под ред.А.С.Булатова. Изд-во Бек. Москва, 1995. 490 стр.
4. Котлер Ф. Основы Маркетинга. М.: Прогресс, 1990, 567 стр.

**Abstract**

## THE MAIN ELEMENTS OF MARKET MECHANISMS IN URBAN PLANNING



**Israfil MAMMADOV**

*Ph.D. student, Azerbaijan State University of Architecture and Construction*



**Key words:** issues, economy, reduction, price, city, construction, growth, value

The article studies the main elements of market mechanisms in urban planing. The author makes analyses based on measures such as population growth, zoning, land use, natural resources, transportation and infrastructure. The article studies the codependence between price, demand and supply in urban planning.

**Резюме**

## ОСНОВНЫЕ ЭЛЕМЕНТЫ РЫНОЧНОГО МЕХАНИЗМА В ГОРОДСКОМ СТРОИТЕЛЬСТВЕ



**Исрафил МАМЕДОВ**

*докторант, Азербайджанского Архитектурно – Строительного Университета*



**Ключевые слова:** проблема, экономика, снижение, стоимость, объект, город, строительство, фактор, рост, цена, удорожание

В основу современных систем ценообразования положена концепция договорной цены, базирующейся на учете взаимных интересов заказчика (инвестора), подрядчиков и других участников инвестиционного процесса.

Таким образом, уровень цен зависит от многих объективных и субъективных факторов и устанавливается исходя из конкретных условий и ограничений, главные из которых: конъюнктура, спрос и предложения.

В работе представлена зависимость между ценой и сложившимся уровнем спроса и предложения на городском строительном рынке.

# AZƏRBAYCANDA İQTİSADİ RESURSLARDAN İSTİFADƏNİN EFFEKTİVLİK MƏSƏLƏLƏRİ

**Natəvan QORÇİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, dissertant*

**Rəyçi:** Mahmudova Lalə Fəqail qızı, iqtisad üzrə fəlsəfə doktoru, Sumqayıt Dövlət Universiteti
**Açar sözlər:** İqtisadi resurslar, əmək və insan resursları, yanacaq-enerji resursları, milli iqtisadiyyat, effektivlik, resurslardan istifadə

**Giriş.** Azərbaycan keçmiş SSRİ-nin tərkibində olarkən iqtisadi resurslardan istifadə sistemi mərkəzdən idarə olunurdu və bu resurslara çıxışlar respublikalararası bölgü prinsipinə əsasən təşkil olunurdu. Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra, 1990-cı illərin əvvəllərindən başlayaraq milli iqtisadi resursların formalaşdırılması və mübadiləsi mexanizmlərini yaratmalı, ondan səmərəli istifadə yollarını müəyyənləşdirməli idi. Bu proseslər, xüsusilə, 1995-ci ildən başlayaraq nisbətən sistemləşdirilmişdir. Belə ki, həmin dövrə qədər ölkənin iqtisadi resursları üzrə tənzimləmə mexanizmləri və prosedurları pozulmuş, işlək iqtisadi mexanizmlər bu prosesləri nizamlamağa imkan verməmişdir. Əmək resurslarından məhsuldar istifadə olunması isə böhran həddinə çatmışdı, iri müəssisələr bir-birinin ardınca bağlanmaqda idi, giperinfilyasiya şəraitində müəyyənləşdirilmiş əmək haqları dəyərdən düşdükcə, ödəmə sistemində gərginlik yarandıqca əmək resurslarının kütləvi şəkildə işlədikləri müəssisələrdən uzaqlaşması baş verirdi.

**Ölkəmizdə milli iqtisadiyyatın resurs potensialından və əmək resurslarından səmərəli istifadənin təşkili**

Qeyd edək ki, 2000-ci illərin əvvəllərindən başlayaraq, ölkəmizdə milli iqtisadiyyatın resurs potensialından sistemli və effektivli istifadənin iqtisadi-təşkilati tədbirləri gücləndirilmişdir. Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi prosesləri, bunlarla bağlı iqtisadi islahatlar, o cümlədən struktur islahatları genişləndirilmiş, hasilat sənayesi ilə yanaşı, digər iqtisadiyyat və fəaliyyət sahələrinin resurslarından səmərəli istifadə mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması tədbirləri həyata keçirilmişdir [1]. Bunlarla bağlı olaraq məqsədli dövlət proqramları, strategiyalar və konsepsiyalar hazırlanmış, geniş miqyaslı prioritet və strateji hədəflər müəyyənləşdirilmişdir [2]. Əmək resurslarından səmərəli istifadənin təşkili məqsədilə ölkə iqtisadiyyatının bütün sahələrində iş yerlərinin optimallaşdırılması tədbirləri həyata keçirilmiş, yeni və daimi iş yerləri açılmış, bu mühüm sosial-iqtisadi məsələ xüsusilə diqqət mərkəzində saxlanılmışdır. Tədricən ölkədə işsizliyin və yoxsulluğun azaldılması istiqamətində müsbət nəticələrin əldə edilməsinə, o cümlədən ölkə regionlarının əmək ehtiyatları və işçi qüvvəsi resurslarından səmərəli istifadə olunması təmin edilmişdir. Bundan əlavə, enerji sektoruna fəal investisiyalar axını nəticəsində ölkənin enerji resurslarından səmərəli və sistemli istifədə prinsiplərini və bunlarla bağlı yeni me-

xanizmləri müasir tələblər baxımından yaratmaq mümkün olmuşdur. Enerji resurslarının işlənməsi, hasilatı, istehsal və emal proseslərinin təşkili, regionlararası və milli iqtisadiyyatın sahələrarası səmərəli mübadiləsinin (bölgüsünün təşkili), enerjidaşıyıcılardan qənaətlə istifadə mexanizmlərinin tətbiqi və tədbirlərinin görülməsi, bu proseslədə metodoloji və praktiki yanaşmaların təkmilləşdirilməsi və modelləşdirilməsi tədbirləri həyata keçirilmişdir [3]. Professor T.Quliyev ölkəmizin iqtisadi inkişaf resursları içərisində insan resursları və bununla bağlı digər əlaqəli resursların müasir vəziyyəti barədə kompleks tədbirlərin davamlı təşkilini vacib hesab etmişdir. Belə ki, ölkənin əmək bazarının dinamikliyi və tarazlığı insan resurslarından maksimum səmərəli istifadəyə əlverişli şərait yaradır [4]. Ölkəmizdə 4,7 mln. nəfərdən çox iqtisadi fəal əhali vardır və bunlardan 2013-cü ilin yekununa görə 4,5 mln. nəfərindən çoxu iqtisadiyyatda məşğul olan insanlardır [5]. Bu qədər məşğul əhalinin insan potensialının reallaşdırılması və onlardan səmərəli istifadə edilməsi aktuallığı ilə diqqəti cəlb edir. Cədvəl 1-də ölkəmizdə əmək ehtiyatlarının ümumi göstəriciləri verilmişdir.

***Cədvəl 1.***

**Azərbaycan Respublikası üzrə əmək ehtiyatları, min nəfər (1990-2014-cü illər)**

| | 1990 | 1995 | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|---|---|---|
| Əmək qabiliyyətli, yaşda əmək qabiliyyətli əhalinin sayı | 3859,9 | 4068,0 | 4530,8 | 5304,0 | 5875,7 | 5974,6 | 6042,0 | 6132,0 |
| İqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı şəxslər | 143,0 | 149,5 | 142,8 | 103,8 | 133,1 | 126,6 | 124,9 | 128,1 |
| İqtisadiyyatda məşğul olan yeniyetmələr | 11,6 | 10,3 | 12,2 | 13,5 | 6,2 | - | - | - |
| Cəmi: | 4014,5 | 4227,8 | 4685,8 | 5421,3 | 6015,0 | 6101,2 | 6166,9 | 6260,1 |

***Mənbə: ARDSK. http://stat.gov.az***

Qeyd etmək lazımdır ki, 2013-cü ilin yekunu üzrə ölkəmizdə əmək qabiliyyətli yaşda olan insanların sayı 6,1 mln. nəfərdən çox olmuşdur və bu tendensiya ilbəil artımla müşayiət edilir [6]. Bu baxımdan mühüm resurs kimi insan resurslarından daha səmərəli istifadənin ölkə üzrə əmək qabiliyyətli insanların artımı kontekstində uzlaşdırılması və adekvat tədbirlərin görülməsi aktuallığı qalmaqdadır.

1990-2013-cü illər ərzində dövlət müəssisələrində işləyən əhalinin payı 2,2 dəfədən çox azaldığı halda qeyri-dövlət müəssisələrində həmin dövr ərzində bu rəqəm 3,1 dəfə olmuşdur. Bu, bir daha onu göstərir ki, ölkəmizdə insan resurslarından istifadənin modelləşdirilməsi yollarında özəl sektorun inkişafının genişləndirilməsi tədbirləri mühüm əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif istiqamətli fəaliyyət sahələri ilə məşğul olan özəl müəssisələrdə, firma və təşkilatlarda insan resurslarından onların bacarıq meyarlarına görə istifadəsinin səmərəli təşkilinə daha çox imkanlar yaranır. İnsan resurslarından istifadənin əsas göstəricilərindən biri də kadr axıcılı və işçi qüvvəsinin hərəkətidir. Cədvəl 2-də ölkə üzrə 2013-cü ildə işçi qüvvəsinin hərəkəti verilmişdir.

*Cədvəl 2.*

**Azərbaycan Respublikası 2013-cü ildə işçi qüvvəsinin hərəkəti, nəfər**

| | İl ərzində işə qəbul edilmiş işçilər | İl ərzində işdən çıxmış işçilər | o cümlədən: | | |
|---|---|---|---|---|---|
| | | | işçilərin sayı və ya ştatları ixtisar edilməklə əlaqədar işdən çıxanlar | öz xahişi ilə işdən çıxanlar | digər səbəblərə görə |
| Cəmi: | 211575 | 172104 | 5938 | 130446 | 35720 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 6293 | 4892 | 84 | 3505 | 1303 |
| Mədənçıxarma sənayesi | 4232 | 4089 | 20 | 3221 | 848 |
| Emal sənayesi | 22468 | 17220 | 338 | 13605 | 3277 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 6006 | 4818 | 18 | 2081 | 2719 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 6049 | 4073 | 161 | 3667 | 245 |
| Tikinti | 34709 | 35795 | 405 | 25250 | 10140 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 45988 | 43300 | 3142 | 35662 | 4496 |
| Nəqliyyat və anbar təsərrüfatı | 9844 | 7481 | 169 | 6270 | 1042 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 7992 | 5967 | 147 | 5149 | 671 |
| İnformasiya və rabitə | 2783 | 2575 | 55 | 2090 | 430 |
| Maliyyə və sığorta fəaliyyəti | 6963 | 3216 | 81 | 2380 | 755 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 1935 | 1391 | 4 | 1249 | 138 |
| Peşə, elmi və texniki fəaliyyət | 9549 | 6860 | 55 | 5556 | 1249 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 4161 | 3294 | 25 | 2740 | 529 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 11231 | 6463 | 189 | 5251 | 1023 |
| Təhsil | 12152 | 9964 | 414 | 5320 | 4230 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 7415 | 5060 | 191 | 3305 | 1564 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 6894 | 2645 | 275 | 1786 | 584 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 4911 | 3001 | 165 | 2359 | 477 |

***Mənbə: ARDSK. http://stat.gov.az***

Cədvəl 2-dən göründüyü kimi, ölkənin əmək bazarında il ərzində işdən çıxanların intensivliyi heç də zəif deyildir. Bu isə kadr axıcılığının əsas əlamətlərindən biri kimi qiymətləndirilə bilər. Buna görə də, ölkənin əsas sənaye sahələrində - mədənçıxarma və emal sənayesində işçi qüvvəsinin hərəkətinin insan resurslarından maksimum səmərəli istifadə edilməsi prizmasından balanslaşdırılmasının, bunlarla bağlı kompleks tədbirlərin və proqramların həyata keçirilməsi zərurəti vardır.

**Ölkədə yanacaq-enerji resurslarından istifadənin mövcud vəziyyəti**

Müasir dövrdə ölkədə yanacaq-enerji resurslarından istifadənin mövcud vəziyyəti üzrə təhlilini, ilk növbədə, əsas yanacaq-enerji resursları olan neft və təbii qazın hasilatının müqayisəli təhlilini şərtləndirir (bax: Şəkil 1.).




**Şəkil 1. Azərbaycan Respublikasında 1990-2014-cü illər üzrə neft və təbii qaz hasilatının dinamikası (ARDSK-nın məlumatlarına görə müəllif tərəfindən hazırlanmışdır).**

Şəkil 1-ə baxdıqda görürük ki, 1990-2014-cü illər ərzində qaz kondensatı daxil olmaqla, neft hasilatı 3,4 dəfəyə yaxın artmış və 2014-cü ilin yekunu üzrə hasilat 42,1 mln. ton təşkil etmişdir. Bununla belə, 2010-2014-cü illərdə neft hasilatının aşağı düşməsi tendensiyası diqqət çəkir. Belə bir vəziyyət tükənən resurs kimi xarakterizə olunan neftdən istifadənin səmərəliliyinin yüksəldilməsi məsələlərinə uzunmüddətli perspektivlər və proqnozlar nəzərə alınmaqla strateji səviyyədə baxılması və kompleks tədbirlərin, proqramların hazırlanması vacib sayılır [7]. Həmin dövr ərzində təbii qaz hasilatı 3 dəfəyə yaxın artmış və 2014-cü ilin yekunu üzrə 29,6 mlrd. kub. m.-ə yaxın olmuşdur. Bununla belə, son 2 il ərzində təbii qazın hasilatında ciddi artım yoxdur [8]. Təhlillər göstərir ki, ölkəmizdə mühüm yanacaq-enerji resursları olan neft və təbii qazın hasilatının artırılması dinamikasının təmin edilməsinə iri investisiya resurslarının, xüsusilə, xarici investisiyaların cəlbinin intensivləşdirilməsi vacibdir.

**Azərbaycan Respublikasında enerji məhsullarının istehsalının təhlili**

Azərbaycanda enerji resurslarından qənaətlə istifadə edilməsinin vacibliyi nəzərə alınmaqla, mühüm yanacaq-enerji xammal resurslarının hasilatı və emal edilməsi məsələlərinə kompleks və sistemli yanaşma təmin olunmalıdır. Cədvəl 3-də neft və təbii qaz yanacaq-enerji məhsulları ilə yanaşı, bu sahənin digər məhsullarının da istehsalı barədə göstəricilər verilmişdir.

***Cədvəl 3.***

**Azərbaycan Respublikasında enerji məhsullarının istehsalı (natura ifadəsində)**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|
| Xam neft, min ton | 42 597,5 | 44 514,0 | 50 415,9 | 50 838,2 | 45 626,2 | 43 374,8 | 43 457,4 | 42 075,7 |
| Təbii qaz, milyon kub m. | 16 850,0 | 23 399,0 | 23 598,0 | 26 312,0 | 25 728,0 | 26 796,0 | 29 245,0 | 29 555,0 |
| Neft zavodlarının qazı, min ton | 174,7 | 217,2 | 276,0 | 262,4 | 244,9 | 262,5 | 276,1 | 246,5 |
| Mayeləşdirilmiş neft qazları, min ton | 186,6 | 203,4 | 193,4 | 240,2 | 249,8 | 214,8 | 262,5 | 201,9 |
| Avtomobil benzini, min ton | 1 129,7 | 1 319,9 | 1 235,0 | 1 248,9 | 1 295,5 | 1 296,6 | 1 407,1 | 1 238,3 |
| Ağ neft tipli reaktiv mühərrik yanacağı, min ton | 760,9 | 730,8 | 603,2 | 600,4 | 621,4 | 626,4 | 703,1 | 709,0 |
| Dizel yanacağı, min ton | 2 108,5 | 2 525,5 | 2 366,9 | 2 488,4 | 2 483,3 | 2 368,8 | 2 495,4 | 2 946,2 |
| Az kükürdlü mazut, min ton | 2 949,3 | 1 624,1 | 286,9 | 231,4 | 253,8 | 286,5 | 285,2 | 206,7 |
| Nafta, min ton | 575,8 | 611,5 | 257,3 | 238,9 | 219,0 | 148,7 | 125,1 | 235,3 |
| Neft koksu, min ton | 84,7 | 169,0 | 127,2 | 396,4 | 268,6 | 231,0 | 223,0 | 251,9 |
| Neft bitumu, min ton | 182,9 | 220,4 | 236,4 | 241,5 | 265,7 | 288,1 | 312,7 | 241,9 |
| Sürtkü yağları, min ton | 54,9 | 66,0 | 46,0 | 87,2 | 91,1 | 63,2 | 47,2 | 54,1 |
| Digər neft məhsulları, min ton | 94,2 | 128,7 | 167,3 | 283,2 | 205,9 | 269,4 | 237,6 | 205,3 |
| İstilik enerjisi, min Qkal | 1 471,3 | 1 489,3 | 1 108,1 | 904,9 | 1 083,4 | 1 195,2 | 1 298,4 | 1 618,7 |
| Elektrik enerjisi-cəmi, milyon kVt saat | 21 847,2 | 21 642,6 | 18 869,1 | 18 709,5 | 20 293,8 | 22 988,1 | 23 354,4 | 24 727,7 |
| ondan: | | | | | | | | |
| SES-in elektrik enerjisi, milyon kVt saat | 2 364,1 | 2 232,2 | 2 308,4 | 3 446,3 | 2 675,8 | 1 821,0 | 1 489,1 | 1 299,7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Külək enerjisi, milyon kVt saat | - | - | 2,1 | 0,5 | - | - | 0,8 | 2,3 |
| Günəş fotoelektrik enerjisi, milyon kVt saat | - | - | - | - | - | - | 0,8 | 2,9 |
| Bələdiyyə tullantılarından alınan elektrik enerjisi, milyon kVt saat | - | - | - | - | - | - | 134,1 | 173,5 |
| Odun, min ton | 175,2 | 167,7 | 144,8 | 179,3 | 192,9 | 194,6 | 202,9 | 1 |

***Mənbə: ARDSK. http://stat.gov.az***

Qeyd edək ki, 1995-2014-cü illər ərzində ölkədə energetika sənayesi sahəsində fəaliyyət göstərən müəssisələrin sayı 2,5 dəfə artaraq, 2014-cü ildə 343 təşkil etmişdir. Həmin dövr ərzində məhsul istehsalı üzrə cari qiymətlərlə 23 dəfəyə yaxın artaraq, 2014-cü ilin yekununda 26,6 mlrd. manata yaxın olmuşdur, amma 2011-2014-cü illər ərzində istehsal olunmuş məhsulun fiziki həcm indeksi əvvəlki ilə nisbətən artım tempini itirmiş və ya zəifləmişdir.

**Ölkədə enerji səmərəliliyi tədbirlərin təşkili və genişləndirilməsinin təhlili**

Bunlarla bərabər, ölkədə enerji səmərəliliyi tədbirlərin təşkili və genişləndirilməsi diqqət çəkir. Cədvəl 4-də isə ölkədə 2007-2014-cü illər üzrə enerji səmərəliliyi göstəriciləri verilmişdir.

***Cədvəl 4.***

**Azərbaycan Respublikasında 2007-2014-cü illər üzrə enerji səmərəliliyi göstəriciləri**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 kq istehsal olunan enerji məhsulunun ÜDM-ə dəyəri (1 manat/kq neft ekvivalenti 1) | 1,6 | 1,6 | 2,0 | 2,1 | 1,9 | 1,9 | 2,0 | 2,0 |
| Yanacaq və enerji xərclərinin ümumi istehsal xərclərində xüsusi çəkisi, faizlə | … | … | 7,0 | 5,9 | 4,1 | 4,0 | 3,7 | 5,8 |
| Elektrik enerjisinin xərclərinin ümumi istehsal xərclərində xüsusi çəkisi, faizlə | … | … | 2,6 | 1,8 | 0,9 | 1,2 | 0,9 | 1,3 |
| Enerji asılılığı, faizlə | -300,1 | -306,3 | -399,2 | -416,2 | -345,4 | -308,0 | -306,7 | -295,6 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Alternativ mənbələrdən alınan elektrik enerjisinin ümumi elektrik enerjisi istehsalında xüsusi çəkisi, faizlə | 10,8 | 10,3 | 12,2 | 18,4 | 13,2 | 7,9 | 7,0 | 6,0 |
| Elektrik və istilik enerjisinin istehsalı zamanı yanacağın istifadə səmərəliliyi, faizlə | 33,6 | 34,2 | 34,8 | 35,5 | 36,0 | 35,2 | 36,4 | 37,5 |

***Mənbə: ARDSK. http://stat.gov.az.***

Cədvəl 4-dən görünür ki, əgər 2007-ci ildə elektrik və istilik enerjisinin istehsalı zamanı yanacağın istifadə səmərəliliyi 33,6 % təşkil etmişdirsə, bu göstərici 2010-cu ildə 35,5 %, 2013-cü ildə 36,4 % və 2014-cü ildə isə 37,5 % təşkil etmişdir. Göründüyü kimi, ölkəmizdə elektrik və istilik enerjisinin səmərəlilik səviyyəsinin artırılması tendensiyası mövcuddur və bu tendensiyanın daha da dərinləşdirilməsi tədbirlərinin əhatəsinin genişləndirilməsi məqsədəuyğun hesab olunur.

**Nəticə.** Beləliklə, ölkəmizdə mühüm iqtisadi resurslardan olan əmək, insan və yanacaq-enerji resurslarının istifadəsinin səmərəliliyinin artırılması mühüm məsələlər kimi çıxış edir və bir sıra prioritet vəzifələri şərtləndirir:

- ilk növbədə, ölkəmizdə əmək ehtiyatlarından maksimum istifadə, onların səmərəli və məhsuldar yerləşdirilməsi təmin olunmalıdır;
- insan resurslarından daha effektivli istifadənin təşkili üçün layiqli iş yerlərinin yaradılması və əmək şəraitinin yaxşılaşdırılması, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, sahibkarlığın genişləndirilməsi və s. istiqamətlər üzrə tədbirlər intensivləşdirilməlidir;
- ölkədə yanacaq-enerji resurslarından, o cümlədən, neft və qaz xammallarından maksimum əlavə dəyər yaratmaqla, emal şəbəkəsinin təşkil edilməsi, bu resurslara qənaət rejiminin təmin olunması kimi mühüm strateji tədbirlərin genişləndirilməsi vacibdir və s.

**ƏDƏBİYYAT:**

1. Hacızadə E.M. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Bakı, "Elm", 2003.- 512 s.

2. Алиев Ш.Т. Важнейшие детерминанты устойчивого развития экономики Азербиджана. Баку: «Элм», 2010.- 196 с.

3. Bayramzadə Y.K. Yanacaq-enerji sərvətlərindən istifadə və enerji sənaye kompleksinin inkişafı. İ.ü.f.d. dissertasiyanın Avtoreferatı. Bakı, 2013. –26 s.

4. Quliyev T.Ə. İnsan resursların idarə edilməsi. Bakı, 2013.-828 s.

5. Azərbaycanın statistik göstəriciləri – 2014. Azərbaycan Respublikasının Dövlət Sta-

tistika Komitəsi. Bakı – 2014. – 812 s.

6. Əmək bazarı. Statistik məcmuə. Bakı, 2014. - 162 s.

7. Əliyev N.A. Azərbaycan neft-qaz sənaye kompleksinin perspektiv inkişafının idarə edilməsi problemləri. İ.ü.e.d. dissertasiyasının Avtoreferatı. Bakı, 2008.-46 s.

8. Azərbaycanın energetikası. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015. – 158 s.

**Abstract**

**THE EFFECTIVE USE OF ECONOMIC RESOURCES IN AZERBAIJAN**

**Natavan GORCHIYEVA**

*Ph.D. student, Azerbaijan State University of Economy*

**Key words:** economic resources, labor and human resources, fuel and energy resources, national economy, efficiency, use of resources

The effective use of economic resources in Azerbaijan is explored in the article. The issues of resource potential of the national economy are analyzed with this purpose. The effective use of human resources, energy resources, especially oil and gas resources were studied.

A number of suggestions and recommendations for effective use of economic resources in the current conditions of the country are given at the end of the article.

**Резюме**

**ВОПРОСЫ ЭФФЕКТИВНОСТИ ИСПОЛЬЗОВАНИЯ ЭКОНОМИЧЕСКИХ РЕСУРСОВ В АЗЕРБАЙДЖАНЕ**

**Натаван ГОРЧИЕВА**

*диссертант Азербайджанского Экономического Университета*

**Ключевые слова:** экономические ресурсы, трудовые и человеческие ресурсы, топливно-энергетические ресурсы, национальная экономика, эффективность, использование ресурсов

В статье исследованы вопросы эффективности использования экономических ресурсов в Азербайджане. С этой целью анализированы вопросы ресурсного потенциала национальной экономики. Изучены эффективности трудовых ресурсов, человеческие ресурсы, топливно-энергетические ресурсы, особенно, нефтегазовое сырье. Рассмотрены проблемы их эффективного использования.

В конце статьи дан ряд предложений и рекомендаций относительно эффективного использования экономических ресурсов в современных условиях в стране.

# SƏNAYE SAHƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİK SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNİN PROQNOZ MODELLƏRİ

**Rafiq QARAYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dissertant*

**Rəyçi:** ADNSU, Sənaye, iqtisadiyyat və menecment kafedrasının müdiri prof. Q.Ə. Səfərov

**Açar sözləri:** innovasiya, rəqabət, sənaye, müəssisə, model, investisiya

Sənaye sahələrinin rəqabətədavamlı iqtisadi inkişafının strateji istiqamətlərinin elmi cəhətdən əsaslandırılması və ölkənin inkişafında rolunun qiymətləndirilməsi aktualdır.

Bu məqsədlə, məqalədə beynəlxalq təcrübəyə əsaslanaraq, sahənin rəqabətədavamlı iqtisadi inkişaf göstəricilərinin qiymətləndirilməsinin başlıca prinsipləri müəyyənləşdirilir və bu prinsipləri özündə birləşdirən innovasiyalı iqtisadi inkişafın proqnoz modelləri təklif edilir.

Məqalənin sonunda isə, təklif edilmiş proqnoz modeli əsasında ölkəmizin sənaye sahələrinin iqtisadi inkişafının strateji istiqamətləri elmi cəhətdən əsaslandırılır. Eyni zamanda, bu istiqamətlərin həyata keçirilməsinin ölkənin sosial-iqtisadi həyatında verə biləcəyi səmərəlilik göstəriciləri müəyyənləşdirilir.

**Giriş.** İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq belə nəticəyə gəlinir ki, sənaye sahələrinin rəqabətqabiliyyətliyinin qiymətləndirməsinin başlıca prinsiplərinə aşağıdakılar daxildir [1,2]:

- təhlilin, proqnozlaşdırmanın, normalaşdırmanın müasir metodlarından istifadə;
- qiymətləndirmənin kəmiyyət metodlarına yönəlmə.

Sənaye sahələrinin rəqabətqabiliyyətinin qiymətləndirmə modelləri onların konstruksiyasını müəyyən edən faktorların çəkisini nəzərə almalıdır. Bununla belə, modelin konstruksiyasını formalaşdıran faktorlar (göstəricilər) ya nisbi ya da xüsusi olmalıdır.

Müasir dövrdə sənaye sahələrinin rəqabətqabiliyyətinin ümumi qəbul edilmiş qiymətləndirmə metodikası mövcud deyil. Lakin, sahənin rəqabətqabiliyyətliyinin qiymətləndirməsi aşağıdakı metodiki xüsusiyyətləri irəli sürür:

- rəqabətqabiliyyəti səviyyəsini konkret bazarlarda seçilmiş əmtəələrin rəqabətqabiliyyəti göstəriciləri üzrə orta kəmiyyət kimi hesab etmək;
- hər bir bazarda hər bir əmtəənin rəqabətqabiliyyəti və səmərəliliyindən çıxış edərək təşkilatın fəaliyyətinin səmərəliliyinin ayrıca təhlilini keçirmək;
- sahənin fəaliyyətinin dayanıqlılıq göstəricilərini ayrıca hesablamaq;
- verilmiş kompleks göstəriciləri minimum 5 il müddətinə proqnozlaşdırmaq.

## Rəqabətqabiliyyətliliyin qiymətləndirilməsi meyarları və metodları

Müxtəlif mövcud metodikaların tətbiqi imkanlarını nəzərə almaqla, müəssisənin rəqabətqabiliyyətliliyinin başlıca meyar kimi müəssisənin maliyyə-iqtisadi göstəricilərinin

reytinq qiymətləndirməsindən istifadə etmək məqsədəuyğun olar. Bu meyarın başlıca üstünlüyü qismən sadəliyi və müəssisənin xarici mühasibat hesabatlılığı (gəlir və zərər haqqında hesabat) əsasında lazımi hesablamaların aparılması imkanının olmasıdır.

Ayrıca göstəricilərin təhlili və hesablanmasının əlverişliyi üçün, hər şeydən əvvəl, müəssisənin ümumiləşdirilmiş mühasibat balansını tərtib etmək lazımdır. Bu zaman aktivlər likvidlik dərəcəsinə görə qruplaşdırılmalı və azalan qaydada verilməlidir, passivlər isə onların qaytarılma müddətinə görə və ödəniş müddətinin artması qaydasında yerləşdirilməlidir.

Lakin, müəssisənin rəqabətqabiliyyətinin qiymətləndirməsinin dinamik metodunun üstünlüyü onunla bağlıdır ki, bazar iqtisadiyyatı şəraitində gəlirin əldə olunması üçün başlıca vasitə kimi məhsulun satışı və əlavə gəliri çıxış edir. Bu zaman istehsal və satış məhdud iqtisadi resurslardan istifadə yolu ilə həyata keçirilir.

Burdan belə nəticə çıxır ki, bazar iqtisadiyyatı şəraitində gəlirin əldə olunması iqtisadi resursların səmərəli istifadəsindən, yəni gəlirin əldə olunması üçün həyata keçirilən əldə olunmuş nəticə və xərclərin nisbətindən asılıdır. Deməli, bazar rəqabətinin mahiyyəti iqtisadi resurslardan maksimum səmərəli istifadə etmək yolu ilə maksimum gəlirin əldə olunması üzrə fəaliyyətdən ibarətdir.

Müəssisə tərəfindən iqtisadi resurslardan səmərəli istifadə dərəcəsi (ictimai istehsalın məhsuldar qüvvələrinin əldə etdiyi inkişaf səviyyəsindən və əlbəttə ki, istehsal və digər münasibətlərin) rəqiblər tərəfindən resursların səmərəli istifadəsindən asılı olaraq müəyyən olunur. Beləliklə, bazar iqtisadiyyatı şəraitində müəssisənin rəqabətqabiliyyətliliyi (rəqiblər tərəfindən iqtisadi resurslardan istifadənin səmərəliliyindən asılı olaraq) təsərrüfat subyekti tərəfindən iqtisadi resursların səmərəliliyinin səviyyəsini əks etdirən ümumiləşdirilmiş xarakteristikadır.

Məlumdur ki, rəqabətqabiliyyətinin iki mənbəyi vardır: əməliyyat səmərəliliyi və strateji mövqe. Uyğun olaraq müəssisə tərəfindən iqtisadi resurslardan səmərəli istifadə son nəticədə onun əməliyyat səmərəliliyinin və strateji mövqeyi ilə qiymətləndirilə və xarakterizə oluna bilər. Şübhəsiz, verilmiş qiymətləndirmə tədqiq olunan təsərrüfat subyektinin və rəqiblərin uyğun göstəricilərinin müqayisəsi əsasında həyata keçirilməlidir. Axtarılan göstəriciləri əməliyyat səmərəliliyi və strateji mövqe əmsalları kimi müəyyən edək. Sonra göstərilmiş əmsalları vahid göstəricidə birləşdirməklə, tədqiq olunan müəssisənin rəqabətqabiliyyətinin qiymətləndirməsini aparaq. Bu halda müəssisənin rəqabətqabiliyyətliliyi (K) aşağıdakı kimi hesablanır:

$$K = K_r \cdot K_I \qquad (1)$$

Burada, K – tədqiq olunan müəssisənin rəqabətqabiliyyəti; $K_r$ – əməliyyat səmərəliliyi əmsalı; $K_I$ – strateji mövqe əmsalı.

Əməliyyat səmərəliliyi əlavə dəyərin satışı prosesində gəlirin əldə olunmasını təmin etməklə oxşar fəaliyyət növlərini rəqiblərdən daha yaxşı yerinə yetirməyi nəzərdə tutur. Bu onu ifadə edir ki, əməliyyat səmərəliliyinin başlıca nəticəsi və meyarı müəssisənin gəliri hesab olunur. Eyni zamanda, gəlir həcmlərinin birbaşa müqayisəsi iri müəssisələrin böyük rəqabətqabiliyyətini və müxtəlif fəaliyyət miqyaslı müəssisələrin müqayisələrinin mümkün-

süzlüyünü şərtləndirir. Müvafiq olaraq, gəlirin həcmini deyil, təsərrüfat fəaliyyətinin "gəlirliliyini" müqayisə etmək lazımdır.

Gəlirlilik göstəricisi kimi məhsulun satışından əldə olunan gəlirin onun istehsalına və satışına çəkilən xərclərə nisbətindən istifadə edilir (istehsalın və məhsulun satışının rentabelliliyi nəzərdən keçirilə bilər). Lakin, əməliyyat səmərəliliyinin gəlir üzrə rentabellilik əsasında müəyyən olunması dəyişən işarəli xarakter daşıyır ki, bu da rəqabətqabiliyyəti göstəricisini təhrif edəcək (məs., əməliyyat səmərəliliyinin qiymətləndirilməsi verilmiş situasiyaların müxtəlif iqtisadi tərkibdə olmasına baxmayaraq, həm nəzərdən keçirilən müəssisənin zərərlə çalışması və seçmə gəlirliliyi halında olduğu kimi, həm də baxılan müəssisənin gəlirliliyi və seçməsinin zərəri halında eyni mənfi qiymətə malik ola bilər). Bu şəraitdə əməliyyat səmərəliliyinin daha həcmli və universal göstəricisi məhsulun realizasiyasından əldə olunan gəlirin onun istehsalı və realizasiyası üçün sərf olunan xərclərə nisbəti kimi müəyyən olunur. Bunları riyazi olaraq ifadə edək:

$$S=G/X, \qquad (2)$$

S – müəssisənin əməliyyat səmərəliliyi; G – müəssisənin məhsulunun satışından əldə olunan gəlir; X – müəssisənin məhsulunun istehsalına və satışına sərf olunmuş xərclər.

Seçmə üzrə əməliyyat səmərəliliyi göstəricisi aşağıdakı kimi olar:

$$Ss=Gs / Xs \ , \qquad (3)$$

Ss –seçmə üzrə əməliyyat səmərəliliyi; G s –seçmə üzrə məhsulun satışından əldə olunmuş gəlir; X s – məhsulun seçmə üzrə istehsalına və satışına sərf olunmuş xərclər.

Qeyd edək ki, seçmə adı altında baxılan təsərrüfat subyekti ilə müqayisəsi üçün lazımi olan və kifayət edən rəqiblərin məcmusu başa düşülür. Seçmə bir rəqib müəssisədən ibarət ola bilər, bu zaman baxılan müəssisənin seçilmiş rəqiblə müqayisədə rəqabətqabiliyyətinin fərdi göstəricisi müəyyən olunur, bir neçə rəqib müəssisə olduğu zaman müəssisənin rəqabətqabiliyyəti seçilmiş rəqiblər qrupu ilə müqayisədə nəzərdən keçirilir, sahənin bütün rəqib müəssisələrindən ibarət olduqda isə müəssisənin sahənin bütün fəaliyyət göstərən müəssisələri ilə müqayisədə rəqabətqabiliyyətinin sahə göstəricisi "müəyyən olunur".

Qeyd etmək lazımdır ki, tədqiqatın məqsədlərindən asılı olaraq, seçimin formalaşdırılması təkcə sahə rəqiblərindən deyil, həm də tədqiq olunan müəssisə ilə rəqabət aparan digər istənilən təsərrüfat subyektlərindən mümkün ola bilər. Təsərrüfat fəaliyyətinin səmərəliliyinin müqayisəsi nöqteyi-nəzərindən seçimin tərkibinə birbaşa rəqabət aparmayan müəssisələrin daxil edilməsi istisna olunmur.

Mikroiqtisadi təhlil məqsədilə seçimin tərkibi üzrə aşkar məhdudiyyət istehsal olunan və satılan məhsulun növüdür. Bundan başqa, bir sıra hallarda seçimin ərazi əlaməti və müqayisə olunan müəssisələrin miqyasına görə məhdudlaşdırılması imkanı yarana bilər [5].

Xərclər dedikdə, müəssisənin həm maya dəyərini, həm də kommersiya, idarəetmə və

digər xərclərini, eyni zamanda, göstərilmiş xərclər kateqoriyasına daxil olmayan büdcəyə müxtəlif səviyyəli ödənişlərinin məcmusunu özündə əks etdirən istehsala və məhsulun satışına sərf olunmuş bütün xərclər başa düşülür. Bu onunla izah olunur ki, müəssisənin məhsulun maya dəyərinə daxil olmayan xərcləri bir sıra hallarda əvvəllər də qeyd olunduğu kimi əməliyyat səmərəliliyinin başlıca göstəricisi olan gəlirin həcminə böyük təsir göstərir. Burdan nəticə çıxararaq, göstərilən xərclərin müəssisənin rəqabətqabiliyyətinin qiymətləndirilməsi zamanı nəzərə alınmaması alınmış nəticələrin adekvat olmamasına səbəb olacaq. Eyni zamanda, təhlilin məqsədlərindən asılı olaraq, xərclər qismində məhsulun maya dəyərinin də nəzərə alınması yol veriləndir [3,4].

Aydındır ki, əməliyyat səmərəliliyinin göstəricisi düz xəttin müsbət oxunda qiymətlər çoxluğuna malikdir, yəni sıfırdan aşağı ola bilməz. Əgər əməliyyat səmərəliliyi göstəricisi vahiddən kiçikdirsə, bu xərclərin gəlirləri üstələməsini, yəni təsərrüfat fəaliyyətinin zərərlə işlədiyini ifadə edir. Əks təqdirdə (əməliyyat səmərəliliyi vahiddən böyükdür) təsərrüfat fəaliyyəti gəlirlidir.

Əməliyyat səmərəliliyinin qiymətləndirilməsi üçün tədqiq olunan təsərrüfat subyektinin baxılan göstəricisinin kəmiyyətini seçmə üzrə uyğun göstərici ilə müqayisə etmək lazımdır:

$$Ks = S / Ss , \qquad (4)$$

Ks - əməliyyat səmərəliliyinin əmsalı.

Beləliklə, bizim tərəfimizdən tədqiq olunan müəssisənin əməliyyat səmərəliliyinin qiymətləndirilməsi həyata keçirilmişdir.

Strateji mövqe əmsalının müəyyənləşdirilməsi isə əməliyyat səmərəliliyinin qiymətləndirilməsi zamanı istifadə olunan mülahizələr və mühakimələr analoji olacaqdır.

Strateji mövqe yaradılan istehlak dəyərinin unikal təbiətini təmin edən fəaliyyət növlərinin həyata keçirilməsini ifadə edir və rəqiblərin fəaliyyətindən fərqli olan fəaliyyət növlərinin uzlaşdırılmasına əsaslanan unikal və sərfəli mövqenin yaradılmasından ibarətdir. Strateji mövqe satış bazarlarını yaratmaqla, dəstəkləməklə və genişləndirməklə əlavə dəyərin formalaşması prosesinin başvermə imkanını təmin edir.

**Müəssisənin bazar payı göstəricilərinin qiymətləndirilməsi**

Strateji mövqe başlıca nəticəsi və meyarı məhsulun satışından əldə olunan gəlirin bütün bazarın həcminə nisbəti ilə müəyyən olunan bazar payı hesab olunur.

Bu zaman aydınlaşdırmaq lazımdır ki, bazar dedikdə, müəyyən məhsulun konkret iqtisadi məkanı deyil, tədqiq olunan müəssisənin və seçmə iqtisadi fəaliyyətinin həyata keçirildiyi iqtisadi sektorların məcmusu başa düşülür. Başqa sözlərlə, bu, hipotetik, həm tədqiq olunan təsərrüfat subyekti, həm də seçmə üçün eyni olan şərti anlayışdır.

Eyni zamanda, bazar paylarının bilavasitə müqayisəsindən belə nəticə çıxır ki, iri paya sahib olan müəssisələr az miqyaslı fəaliyyətə sahib olan müəssisələrdən daha rəqabətqabiliyyətli olur, bunu da strateji mövqe qiymətləndirməsi üçün adekvat hesab etmək olmaz.

Yuxarıda qeyd olunan strateji mövqe göstəricisi qismində bazar paylarının xalis ifadəsinin nisbəti deyil, bazar paylarının əvvəlki dövrlə müqayisədə dəyişikliyini nəzərdən keçirmək təklif olunur.

Müəssisənin bazar payı aşağıdakı nisbət şəklində müəyyən oluna bilər:

$$Bp = G/Bh , \qquad (5)$$

Bp – müəssisənin bazar payı; G –müəssisənin məhsulunun satışından əldə olunan gəlir; Bh – bazarın həcmi.

Seçmə üzrə bazar payı aşağıdakı kimi olar:

$$B^{s}_{p} = G_{s} / B^{s}_{h} , \qquad (6)$$

$B^{s}$ – seçmə üzrə bazar payı; $G_{s}$ – seçmə üzrə məhsulun realizasiyasından əldə olunan gəlir; $B^{s}_{h}$ – bazarın həcmi.

Müəssisənin bazar payının dəyişməsini aşağıdakı formuldan tapmaq olar:

$$B^{d}_{p} = (G^{*}\ B^{ə}_{h})/(B_{h} {*}G^{ə}), \qquad (7)$$

$B^{d}_{p}$ – müəssisənin bazar payının dəyişməsi; $G^{ə}$ – tədqiq olunan müəssisənin keçmiş dövrdə məhsulunun satışından əldə olunan gəlir; $B^{ə}_{h}$ – keçmiş dövrdə bazar payı.

Seçmə üzrə bazar payının dəyişməsi:

$$B^{sd}_{p} = (G^{s} *\ B^{ə}_{h})/(B_{h} {*}G^{sə}), \qquad (8)$$

$B^{sd}_{p}$ – seçmə üzrə bazar payının dəyişməsi; $G^{sə}$ – keçmiş dövrdə seçmə üzrə məhsulun satışından əldə olunan gəlir; $B^{ə}_{h}$ – keçmiş dövrdə bazar payı.

Müəssisənin strateji mövqe qiymətləndirməsi üçün tədqiq olunan təsərrüfat subyektinin axtarılan göstəricinin kəmiyyətini seçmə üzrə uyğun göstərici ilə müqayisə etmək lazımdır. (7) və (8) ifadələrinin uçotu ilə aşağıdakılar alınır:

$$B^{d}_{p} / B^{sd}_{p} = (G *\ G^{sə})/(G^{ə} * G^{s}), \quad (9)$$

Qeyd etmək lazımdır ki, təhlil olunan dövrün gəlirinin keçmiş dövrün gəlirinə nisbəti gəlirin dəyişməsi indeksi hesab olunur. Beləliklə, strateji mövqe göstəricilərinin nisbəti gəlir həcmlərinin dəyişmə indekslərinin nisbətinə oxşardır.

Lakin, mənfəət həcmləri öz təbiətinə görə əməliyyat səmərəliliyin göstəricilərindən daha çox tərəddüdə malikdir. Ona görə də strateji mövqe göstəricilərinin böyük çeşidi vardır. Bu onu şərtləndirir ki, strateji mövqe qiymətləndirməsi müəssisənin rəqabətqabiliyyəti göstəricisinin formalaşdırılması üçün başlıca amilə çevrilir. Eyni zamanda, əməliyyat səmə-

rəliliyinin və strateji mövqe göstəriciləri ilk əvvəl eynigüclü kimi qəbul edilir. Ona görə də müəssisənin rəqabətqabiliyyətinə verilmiş göstəricilərin təsirini müqayisə olunan qiymətlərlə ifadə etmək lazımdır ki, bunun üçün mənfəət həcmlərinin dəyişmə indekslərinin nisbətindən kvadrat kök almaq təklif olunur:

$$K_I = \sqrt{\frac{I}{I^S}} \qquad (10)$$

$K_I$ – strateji mövqe əmsalı; I – verilmiş müəssisənin mənfəət həcmlərinin dəyişmə indeksi; $I^s$ – seçmə üzrə mənfəət həcmlərinin dəyişmə indeksi.

Bu zaman:

$$I = G/G^ə , \qquad (11)$$

$$I^s = G^s / G^{əs} , \qquad (12)$$

Beləliklə, bizim tərəfimizdən tədqiq olunan müəssisənin strateji mövqe qiymətləndirilməsi həyata keçirilmişdir.

Riyazi şəkildə müəssisənin rəqabətqabiliyyətinin göstəricisi aşağıdakı şəkildə yazıla bilər:

$$K = K_r \cdot K_I$$

K – tədqiq olunan müəssisənin rəqabətqabiliyyəti; $K_r$ – əməliyyat səmərəliliyi əmsalı; $K_I$ – strateji mövqe əmsalı.

$$K_r = S^ə / S^s .$$

$K_r$ – əməliyyat səmərəliliyinin əmsalı; $S^ə$ –müəssisənin əməliyyat səmərəliliyi;

$S^s$ – seçmə üzrə əməliyyat səmərəliliyi.

Tədqiq olunan müəssisənin əməliyyat səmərəliliyi Sə (r) öz növbəsində aşağıdakı formul üzrə müəyyən olunur:

$$S^ə = G^s / X^s = r.$$

$S^ə$- müəssisənin əməliyyat səmərəliliyi; $G^s$ – müəssisənin məhsulunun realizasiyasından gəlir; $X^s$ – müəssisənin məhsulunun istehsalına və satışına çəkilən xərclər.

Seçmə üzrə əməliyyat səmərəliliyinin göstəricisi R aşağıdakı şəkildə ifadə oluna bilər:

$$S^{sə} = G^{ss} / X^{ss} = R.$$

$S^{sə}$ – seçmə üzrə əməliyyat səmərəliliyi; $G^{ss}$ – seçmə üzrə məhsulun satışından əldə olunan gəlir; $X^{ss}$ –seçmə üzrə məhsulun istehsalına və satışına sərf olunan xərclər.

Müəssisənin strateji mövqe əmsalı aşağıdakı kimi hesablanır:

$$K_I = \sqrt{\frac{I}{I^S}}$$

$K_I$ – strateji mövqe əmsalı; I – verilmiş müəssisənin gəlir həcmlərinin dəyişməsi indeksi;

$I^s$ – seçmə üzrə gəlir həcmlərinin dəyişmə indeksi.

$$I= G/G^ə$$

$G^ə$ – keçmiş dövrdə verilmiş müəssisənin məhsulunun satışından əldə olunan gəlir;

Burada , $I^s= G^s /G^{əs}$ hesablanır.

$G^{əs}$ –seçmə üzrə keçmiş dövrdə məhsulun satışından əldə olunan gəlir;

Bu halda (4) və (10) düsturunun köməyi ilə müəssisənin rəqabətqabiliyyətlilik əmsalını hesablamaq olar:

$$K = \frac{r}{R} \cdot \sqrt{\frac{I}{I^s}} \qquad (13)$$

Əgər, K göstəricisi nə qədər yüksək olarsa tədqiq olunan müəssisə seçməyə münasibətdə daha rəqabətqabiliyyətli olar. Aydındır ki, $0 < K < \infty$ ola bilər. Bu zaman əgər, $0 < K < 1$ olarsa, müəssisənin seçməyə münasibətdə rəqabətqabiliyyəti aşağı olar (sıfıra yaxın oldquca rəqabətqabiliyyəti aşağı olur). $K = 1$ olduqda müəssisənin rəqabətqabiliyyəti seçmə rəqabətqabiliyyətinə bərabərdir. $K > 1$ olduqda müəssisənin rəqabətqabiliyyəti seçmədən yüksək olur.

**Rəqabətqabiliyyətliliyin dinamik qiymətləndirilməsi metodunun üstünlüyü**

Müəssisənin rəqabətqabiliyyətinin dinamik qiymətləndirmə metodunun başlıca üstünlüyü ondan ibarətdir ki, qiymətləndirmə rəqabətqabiliyyətinin yekun meyarlarına, yəni müəssisənin həyat fəaliyyətini, onun fəaliyyət göstərməsinin və inkişafının perspektivlərini müəyyən edən gəlirliliyə və müəssisənin bazarda payına görə həyata keçirilir.

Dinamik yanaşma çox zaman ayrıca amillərin qiymətləndirilməsində səhvlərin, həmçinin hesablamada istifadə olunan göstəricilərin şərtiliyi və subyektivliyi səbəbindən çox vaxt qeyri-adekvat olan rəqabətqabiliyyətinin faktorlu qiymətləndirməsindən fərqli olaraq, əldə olunmuş nəticələrin maksimum dəqiqliyini təmin edir. Doğrudan da, müəssisənin gəlirlilik və bazar payı göstəriciləri özündə təsərrüfat subyektlərinin fəaliyyətinə təsir edən tamamilə bütün makro və mikroiqtisadi, obyektiv və subyektiv faktorları birləşdirir. Bundan başqa, dəyər qiymətləndirməsi müqayisə oluna bilməyən müxtəlif göstəricilərin qiymətləndirməsi və təhlili zamanı çətinliklərdən azad edə bilər.

Təklif olunan metodika müəssisənin rəqabətqabiliyyətinin qiymətləndirməsi üçün lazımi informasiyanın toplanması məsələsini kifayət qədər asanlaşdırır. Çox vəsait tələb edən və həmişə əlverişli olmayan marketinq tədqiqatlarının aparılmasına, müxtəlif bilik sahələrində ekspert və mütəxəssislərin cəlb olunmasına ehtiyac qalmır. Bütün lazımlı olan informasiya mühasibat və statistik uçotun və hesabatlılığın göstəricilərindən əldə oluna bilər. Şübhəsiz, bu, rəqabətqabiliyyətinin belə qiymətləndirilmə metodikasının praktiki tətbiqinin əhəmiyyətini kifayət qədər artırır.

Bundan əlavə, dinamik metodun üstünlüklərinə onun universallığını da aid etmək olar, çünki o, təhlilin məqsədlərindən və cari verilənlərdən asılı olaraq, rəqib müəssisələrin seçməsinin istənilən həcmini və tərkibini formalaşdırmağa imkan verir.

Qeyd olunan universallıq bu və ya digər bazarın coğrafi və əmtəə sərhədlərini müəyyənləşdirmək, rəqiblər çevrəsini təyin etmək mümkün olmadığı zaman və həmçinin onlar haqqında informasiyanın olmaması vəziyyətində xüsusi əhəmiyyət kəsb edir.

Verilmiş metodika eyni sahəyə aid olmayan, lakin istehsal olunan məhsulun qarşılıqlı əvəzlənməsi şəraitində rəqabət aparan müəssisələrin müqayisəsinə imkan verir. Nəzəri olaraq, sahələrarası rəqabətqabiliyyəti göstəricilərinin hesablanması da mümkündür. Metodikanın universallığı rəqabətqabiliyyəti göstəricisinin hesablanması zamanı nəzərə alınan (ya da nəzərə alınmayan) müəssisənin gəlirləri və xərcləri nisbətində də özünü büruzə verə bilər.

Təklif olunmuş yanaşma müəssisənin rəqabətqabiliyyətliyinin qiymətləndirməsində bazisi mövqeyindən üstünlüklərə də malikdir. Dinamik metod çərçivəsində rəqabətqabiliyyətinin qiymətləndirməsi üçün əsas qismində mücərrəd etalon müəssisələr deyil , bazarda fəaliyyət göstərən real təsərrüfat subyektlərindən istifadə olunur. Yanaşmanın üstünlüyü ondan ibarətdir ki, o, diqqəti (“qara qutuların” statikada tədqiqindən fərqli olaraq) proseslərin tədqiqinin dinamikasında cəmləşdirir .

Sadalanmış üstünlüklər o səbəbdən mümkün olur ki, rəqabətqabiliyyətinin qiymətləndirilməsinin dinamik metodu bu cür digər metodlardan fərqli olaraq, öz əsasında dəqiq ifadə olunmuş riyazi aparata malikdir. Bu, təyin olunan göstəricinin rəqabətqabiliyyətinin faktorlarından qeyri-qiymət və şərti asılılığı deyil, sərt funksional əlaqəni verir.

**Nəticə.** Metodika müəssisənin rəqabətədavamlılıq göstəricilərinin geniş riyazi emalını həyata keçirir ki, bu da öz növbəsində tədqiq olunan sənaye müəssisələrinin hərtərəfli təhlilinə imkan verir. Beləliklə, müəssisələrin rəqabətqabiliyyətinin qiymətləndirilməsinin dinamik metodu həm nəzəri tədqiqatlarda, həm də iqtisadi təhlilin praktikasında istifadə oluna bilən sənaye müəssisələrinin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin sadə və universal aləti hesab olunur.

**ƏDƏBİYYAT:**

1. Абрамов В.Л. Управление конкурентоспособностью экономических систем. М., 2009

2. Еленева Ю.Я. Обеспечение конкурентоспособности промышленных предприятий. М., 2011

3. Качалина Л.Н. Конкурентоспособный менеджмент. М., Изд-во. Эксмо, 2006, 508 с.

4. Корленов Ю. О повышении конкурентоспособности экономики. М.,2006

5. Кучуков Р., Савка А. Проблемы конкурентоспособности народного хозяйства. Экономист. 2008, № 9, с.3-8

**Abstract**

**THE FORECASTING MODELS OF INCREASING THE COMPETITIVENESS OF INDUSTRIAL SECTORS**

**Rafig GARAYEV**

*Ph.D. student, Azerbaijan State University of Oil and Industry*

**Key words:** innovation, competitiveness, industry, enterprise, model, investment

Scientific justification of the strategic direction of economic development of industrial sectors' competitiveness and estimate of its role in development of the country is acute.

For that purpose, the article defines the basic principles of economic competitiveness, assessment of the industry based on international experience and offers innovative forecasting model of economic development, which includes these principles.

At the end of the article, on the basis of the offered forecasting model, the strategic directions of our country's industrial sectors are scientifically proved. At the same time, indicators of efficiency of use of these directions in social and economic life of the country are defined.

**Резюме**

**ПРОГНОСТИЧЕСКАЯ МОДЕЛЬ ПОВЫШЕНИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ ПРОМЫШЛЕННЫХ ОТРАСЛЕЙ**

**Рафик ГАРАЕВ**

*диссертант Азербайджанского Государственного Университета Нефти и Промышленности*

**Ключевые слова:** инновация, конкуренция, промышленность, предприятие, модель, инвестиция

Научное обоснование стратегического направления экономического развития конкурентоспособности промышленных отраслей и оценивание его роли в развитии страны актуально.

С этой целью, опираясь на международный опыт, в статье определяются основные принципы оценивания показателей развития экономической конкурентоспособности промышленных отраслей и предлагаются модели прогнозирования инновационного экономического развития, включающих в себя эти принципы.

В конце статьи научно обосновываются стратегические направления экономического развития промышленных отраслей нашей страны на основе предложенной модели прогнозирования. В то же время, определяются показатели эффективности использования этих направлений в социально-экономической жизни страны.

# AZƏRBAYCANDA GƏLƏCƏK YAŞAYIŞ EVLƏRİNİN İNKİŞAFININ XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**Ruslan ƏLİYEV**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant*

**Rəyçi:** i.ü.f.d. Ə.A Hüseynov
**Açar sözlər:** yaşayış evləri, cəmiyyət, inkişaf, irs, mexaniki köçürmə, forma, müasir, milli, yanaşmalar, üsullar, tənzimləmə, şəhər, torpaq

**Giriş.** Azərbaycanda müasir mənzilin (evin) milli xüsusiyyətləri müstəqil deyil, ancaq bütünlüklə, dünya yaşayış evlərinin yaradıcılıq istiqaməti haqqında böyük məsələnin üzvi hissəsini təşkil edir. Ona görə də müasir yaşayış evlərinin milli məsələlərinin dərindən elmi əsaslandırılmasına ancaq onların bütünlüklə dünya yaşayış evlərinin (mənzilləri) mövqeyindən baxmaq olar. Tarixi və mədəni əlaqələrin qüvvətləndirilməsi, onların yaşayış evlərinin qarşılıqlı zənginləşdirilməsinə və təkmilləşdirilməsinə əlverişli şərait yaratmışdır. Yaşayış evlərinin dünya tarixindən məlumdur ki, nə vaxt bir xalqın evləri, "xüsusi" özünə xas ənənələri ilə inkişaf etdirsək, eyni vaxtda milli hədləri aradan götürərək, digər xalqların evlərinin nailiyyətlərini götürmüşdü. Belə halda müxtəlif xalqların evlərinin qarşılıqlı zənginləşdirilməsi prosesi baş vermişdi və əksinə, ancaq özünə xas ənənələr çərçivəsində yaşayış evlərinin məhdudlaşdırılması onun konservativ olduğunu göstərir, belə ev cəmiyyətin hökmran edən təbəqəsinin milli ideologiyasını göstərir, yəni milli üstünlük xəttini həyata keçirir, milli yaşayış evlərinə, digər xalqların qabaqcıl, mütərəqqi ənənələrinin daxil olmasının yolunu kəsir. Bu, milli evlərin inkişafında durğunluğu göstərir, onun dünyada tikilən evlərin təcrübəsindən mənimsənilməsindən tam izolyasiya olunduğunu bildirir.

**1. Mənzil sferasında yaşayış evlərinin milli xüsusiyyətləri və yerli spesifikası.**

Digər xalqların mənzil irsinin mənimsənilməsi prosesi və mənzillərin (evlərin) nailiyyətlərinin qarşılıqlı tədavülü müxtəlif tarixi şəraitdə müxtəlif surətdə baş verir. Bir ölkə müharibə nəticəsində digərini alanda adətən güclə mədəniyyətini, o cümlədən alanların (islah edənlərin) arxitekturasını yayır. Bu, Azərbaycan xalqının tarixinin müxtəlif dövrlərində müşahidə olunur (nə vaxt ona ərəb və fars ölkələrinin dilini və mədəniyyətini güclə qəbul etdirirdilər). Mənimsəmənin zorlu metodları xalq kütləsinin həyacanına səbəb oldu. Ən yaxşı xarakter onların iqtisadi, siyasi və mədəni əlaqələrinin genişləndirilməsi nəticəsində baş verən, xalqlar arasındakı mədəni nailiyyətlərin sülh tədavülü yoludur. Məhz belə yol bizim ölkədə xalq mədəniyyətinin və yaşayış evlərinin inkişafına öz əlverişli təsirini göstərdi.

Beləliklə, özünə xas ənənələrinin inkişafı və eyni vaxtda digər xalqların yaşayış evlərinin nailiyyətlərinin mənimsənilməsi milli yaşayış evlərinin tədrici inkişafında xarakterik şərtlərdir, müxtəlif millətlərin yaşayış evlərinin ümumi yaşaması üçün ilkin şərtlərin yaradılmasını, milli özünəməxsus təkmilləşdirilməsini və zənginləşdirilməsini təmin edəndir. İctimai

inkişaf prosesində ənənələrin bir hissəsi tədricən köhnəlir və ölür, digər hissəsi, inkişaf edərək, millətlərarası xarakter əldə edir. Bununla bağlı Azərbaycanın müasir evlərində hansı mənzillərin ənənələrindən söhbət getməsinə baxaq. Həyatın və məişətin köhnə şərtləri pəncərələrdə dar yarıqların, qapıların kiçik şəkillərlə örtülməsini – "şəbəkəni" yaratdı. Həmin şərtlərlə evlərin yuxarı mərtəbələrin ağac balkonlarının bağlanması ilə izah olunur və s.

Tamamilə təbiidir ki, ailənin müasir mahiyyəti, cəmiyyətin ayrılmaz sosial özəyi kimi ailə və nigah məsələlərinə insanların baxışında köhnə münasibətlərin ləğvi, əhalinin həyat tərzi və məişətində kökündən keyfiyyət dəyişiklikləri müasir yaşayış evlərində köhnə ənənələrin təkrar olunmasına imkan vermir.

Azərbaycan xalqının yaşayış evlərində konkret sosial mühit, ideologiya, dövlətçilik forması iz qoyub. Özünün ictimai inkişafı prosesində Azərbaycan xalqı onun mədəniyyətində ifadə olunan, milli xarakteri, davranışları, adətləri, ona məxsus məişətin spesifiki xüsusiyyətlərini əldə edib.

Bizim respublikada müasir mərhələdə yaşayış evlərinin milli xüsusiyyətləri necə nəzərə alınmalı və onun yeri spesifikası necə ifadə olunmalıdır. Burada iqtisad elmi həmin məsələnin izahını verməyə borcludur. Bu elm milli müasir yaşayış evlərinin inkişafının gələcək yollarını göstərməlidir. Yaşayış evlərinin milli xüsusiyyətləri haqqındakı məsələyə, tarixi gerçəkliyə, ictimai inkişafın konkret şərtlərinə əsasən baxmaq lazımdır.

Azərbaycanda yaşayış evlərinin gələcək inkişafı məsələlərini düzgün başa düşmək üçün milli münasibətlər sahəsində nəyi nəzərə almaq lazımdır?

Birincisi, tarixi inkişaf dövründə Azərbaycan əhalisində ictimai münasibətlərin yeni tiplərinin yaranması nəticəsində ruh yüksəkliyinin ümumi xüsusiyyətləri yarandı və onların milli xarakterində də bəzi ümumi xüsusiyyətlər əmələ gəldi və yaşayış evlərinin milli xüsusiyyətləri hər bir millətin psixi xarakteri ilə sıx bağlıdır. O, Azərbaycanda yaşayış evlərinin inkişafının bütün tarixi gedişində təsdiq edilir.

İkincisi, bizim cəmiyyətimizdə millətlərin sosial inkişafı, məişətin, mənəviyyatın, mədəniyyətin ümumi xüsusiyyətlərinin inkişafına səbəb olaraq, həmçinin Azərbaycanın milli yaşayış evlərinin ümumi xüsusiyyətlərini yaratdı.

Mənzil sferasında milli yaşayış evlərinin gələcək inkişafının xarakterik xüsusiyyətləri, onlara yeni keyfiyyətin, təkmilləşdirmənin və ayrıca hallarda isə yaşayış evlərinin milli formalarının daha da yaxınlaşdırılmasının əldə edilməsi, onların yeni həyat tərzinə ziddiyyətli və köhnə olanlardan azad edilməsi olacaqdır. Milli yaşayış evlərinin özünün yüksək inkişafını təkcə milli ənənələr deyil, həm də hər bir millətin yaşayış evlərinə məxsus, beynəlmiləl xarakter daşıyan mütərəqqi ənənələri öz yerini tutacaqdır.

Bütün Azərbaycan milləti üçün ümumi olan yaşayış evlərinin beynəlmiləl arxitekturası müəyyən dərəcədə onun yerli məzmununu nəzərə almaqla inkişaf edəcək. Milli məzmun gələcəkdə də Azərbaycanın yaşayış evlərinin beynəlmiləl əsaslarını möhkəmləndirəcək, bununla yanaşı, bizim cəmiyyət üçün xarakter olan, yaşayış evlərinin (mənzillərin) gələcək tiplərinin formalaşması baş verəcəkdir. Ancaq tipli yaşayış evlərinin formalaşması mürəkkəb və uzun prosesdir, o özünün inkişafını bir neçə mərhələdən sonra tapacaqdır.

Müasir mərhələdə yaşayış evlərinin beynəlmiləl xarakterinin gələcək inkişafı baş verir. Spesifiki yerli və regional şəraiti bazasında millətlərin ayrıca qrupları üçün xarakter olan, yeni formalar inkişaf edir. Həmin prosesin həyata keçirilməsi üçün mühüm ilkin şərtlər ölkələr arasında mədəni və iqtisadi əməkdaşlıqdır. Onun əsasında yaşayış evlərinin yerli arxitektura formaları əmələ gəlir, milli xüsusiyyətlər haqqında anlayış isə yaşayış evlərinin yerli və regional xüsusiyyətləri ilə üzvü uyğunlaşır. Sonrakı mərhələlər üçün müəllifin fikrincə, yaşayış evlərinin regional xüsusiyyətlərinin daha da yaxınlaşması, onun milli xüsusiyyətlərinin zənginləşdirilməsi olacaq və onun əsasında gələcək yaşayış evləri formalaşacaqdır.

Bizim cəmiyyət, hazırda gələcək yaşayış evlərinin müxtəlifliyinin nəzərdə tutulmasını inkar etmir, əksinə, istəyir. Həmin müxtəliflik yaşayış evlərinin həm funksional, həm də estetik məsələlərinin həllində ifadə olunacaqdır [1, səh.112].

**2. Yerli şəraitin yaşayış evlərinin inkişafına təsiri.**

Mənzil sferasında hansı spesifiki yerli şərait yaşayış evlərinin inkişafına həmişə təsir edir və gələcəkdə təsir edəcəkdir?

Biz yerli şəraitin üç qrupa bölünməsi imkanını təsəvvür edirik.

1. Sosial – iqtisadi şərait – dövlət hakimiyyətinin və ictimai quruluşun xarakteri.
2. Maddi – texniki şərait – təsərrüfatın profili, tikintinin maddi – texniki və iqtisadi bazası.
3. Təbii – iqlim şəraiti – təbiətin ətraf yerləri, yerli tikinti materialları.

Həmin başlıca üç amil, birgə fəaliyyət göstərərək, eyni vaxtda, cəmiyyəti maddi olaraq formalaşdırır, xalqın əməyinə, məişətinə və mədəniyyətinə, yəni sosial proseslərə çox təsir göstərir.

Bazar iqtisadiyyatında ölkənin müxtəlif rayonlarının ixtisaslaşması baş verə bilər [2, səh.92]. O isə yaşayış evlərinin inkişafına güclü təsir göstərəcək, birinci növbədə şəhərsalmanın əsas məsələlərinin həll edilməsinə, qismən, iqtisadi rayonların (regionların) ərazisində yerləşmə məsələlərinin həlli ilə bağlıdır. Təsərrüfatın profili ilə şəhərlərin baş planlarının strukturu, habelə şəhərin seliteb və sənaye rayonlarının qarşılıqlı əlaqəsi və prinsiplərinin həlli müəyyən ediləcəkdir.

İstehsal profilinin təsiri təkcə şəhərsalma məsələlərinin həlli ilə məhdudlaşmayacaqdır. O, fəaliyyət göstərən maddi amil kimi cəmiyyətin üzvlərinin ictimai şüuruna daima təsir edərək, həmçinin yaşayış və ictimai binaların memarlığında əks olunacaqdır.

Gələcək yaşayış evlərinə mühüm təsirin edilməsi və onda yerli özünəməxsus cəhətlərin formalaşmasına təbii iqlim şəraiti təsir göstərəcək. Onlara təbii ətraf yerləri (yerli relyef, təbii landşaft, seysmiklik və s.), iqlimi və yerli tikinti materiallarının mövcudluğunu aid edək.

Təbii ətraf yerlər həm bütün şəhərlərin, həm də ayrıca binaların formalaşmasına daima təsir göstərərək, yaşayış evlərinin spesifiki yerli simasını yaradacaqdır.

İqlim yaşayış evlərinə təsir göstərən, ən sabit amillərdən biridir. Havanın istiliyi və nəmişliyi, təbii yağıntının xarakteri və miqdarı, küləyin gücü və istiqaməti – onların hamısı yaşayış evlərinin mühüm məsələlərinin həllində böyük əhəmiyyətə malikdirlər.

Küçə şəbəkələrinin planlaşdırma strukturu, xarakteri və istiqaməti, şəhərlərin daxili

məkanının təşkili, sosial – iqtisadi, maddi – texniki və funksional amilləri ilə yanaşı, müəyyən iqlim şəraiti ilə də müəyyən edilir [3, səh.143].

İqlim binaların daxili məkanına, onların təmizlənməsinə, işıqlanmasına və s. çox təsir edir. Soyuq iqlimi olan ölkələrdə evlərin kompakt, qapalı təşkili xarakterikdir, eyni zamanda da isti iqlim də yaşayış evlərinin daxili məkanının açıq, yaxşı təmizlənməsi, şüşəbəndlərin, eyvanların, gündən müdafiə pərdələrinin və s. olması xarakterikdir.

Ona görə də eyni tipli yaşayış evlərinin tikintisinə respublikanın müxtəlif, rayonlarında material xərclərin sərfi fərqlənirlər. Məsələn, xaricdə istehsal olunan, tikinti texnologiyası ölkənin regionlarının təbii – iqlim şəraitinə uyğun gəlmir, onu uyğunlaşdırmaq tələb olunur, bununla bağlı mənzil sferasının son tikinti məhsulunun qiyməti artır.

Yerli şərait, torpağın quruluğu, torpaq sularının olması, tikinti materiallarının tikinti meydançasına daşınması və s. mənzil tikintisinə təsir edir.

Yaşayış evlərinin və onların infrastrukturunun beynəlxalq standart keyfiyyətinə uyğunlaşdırmaq üçün mənzil tikintisinin inkişafının səmərəli idarə edilməsi təşkil edilməlidir.

Tikintinin inkişafı ilə əlaqədar mənzillərə iqlimin təsiri tədricən zəifləyir. Havanın soyudulması və süni nəmişləndirilməsi, elektrik məişət və elektrik qızdırıcı cihazları, günəşdənmüdafiə və küləkdənqorunma iqlim asılılığından insanın azad olmasına yönəldilibdir.

Beləliklə, iqlim mənzillərə güclü iz qoyur və sonra da onda gözə çarpan müxtəliflik əmələ gətirir.

Yerli tikinti materialları həmişə binaların forma və tiplərinə xüsusilə onların milli özünəməxsusluğunun formalaşmasına böyük təsir göstərən amil olmuşdur. Gürcüstanda kərpic, Azərbaycanda əhəng daşı sözsüz olaraq həmin respublikaların yaşayış evlərinin milli xüsusiyyətlərinin inkişafına təsir etmişdir. Ancaq yaşayış evlərinin inkişafına yerli tikinti materiallarının təsiri dəyişilməz və həmişə şərtləndirilmiş olmur. Elmin və texnikanın inkişafı, tikinti istehsalının təkmilləşdirilməsi nəticəsində yaşayış evlərinin inkişafına yerli tikinti materiallarının təsiri tədricən zəifləyir. Xaricdən gətirilən və yerdə istehsal edilən yeni tikinti materialları təbii növdə tikinti işlərində köhnə yerli tikinti materiallarını sıxışdırır. Baxmayaraq ki, yeni mütərəqqi tikinti materialları mənzil tikintisinin yerli tikinti materiallarının təsirini tədriclə "azad edir", onların rolu tikinti işində həmişə kənar edilməyəcəkdir. Onlar gələcək yaşayış evlərinin formalaşmasında öz əhəmiyyətini tamamilə itirməyəcəkdir.

Eyni vaxtda bizim təsəvvürümüz yerli tikinti materiallarının möhkəmliyi və bədii imkanları haqqında doldurulur. Əvvəllər yerli əhəng daşlarının fiziki – mexaniki keyfiyyətləri haqqında təsəvvürümüz üç–beş mərtəbəli binaları 80–100 sm qalınlığı olan divarlarla tikməyə imkan verirdi. İndi isə biz həmin daşla divarın qalınlığı 40 sm olan hündür binaları tikməyi öyrənmişik Əlbətdə, o yerli əhəng daşının yeni imkanlarının axtarışının son həddi deyil. Ehtimal var ki, tikintidə təbii daşın istifadəsinin yeni imkanları açıqlanacaqdır. Bunların hamısı, əlbətdə, daş evin planlaşdırma həllinə təsir edəcəkdir.

Yerli tikinti və bəzək materialları, onların əhəmiyyətinin zəifləməsinə baxmayaraq tikintidə binaların keyfiyyətinin həm konstruktiv və həm də estetik həllərinin ən mühüm elementlərindən biri olacaqdır. Deməli, yerli tikinti və üzlük materialları, gələcək yaşayış

evlərinin müxtəlifliyində müəyyən rol oynayacaqlar.

**3. Mənzil sferasında torpaq münasibətlərinin tənzimlənməsi.**

İri şəhərlərin inkişafında torpaq münasibətlərinin tənzimlənməsi böyük əhəmiyyətə malikdir. O, bir tərəfdən, iqtisadi, təşkilati, hüquqi, normativ, inzibati, büdcə və vergi tədbirlərinin cəmi hesab edilir, digər tərəfdən isə – şəhərin inkişafının funksional iştirakçılarının maraqlarını sosial – iqtisadi strukturun maraqlarına uyğunlaşdırır. Şəhərin inkişafı üçün dünya təcrübəsində torpaq – bazar tənzimləyiciləri universal rol oynayır.

Torpaq münasibətləri və tikinti şəhərsalmanın strategiyasını əmələ gətirir və bir-biri ilə qiymət vasitəsilə həm keyfiyyət və həm də kəmiyyətcə asılıdırlar.

İnkişaf etmiş ölkələrdə şəhərsalmanın torpaq bazarı və torpaq tənzimləyicisi sosial – iqtisadi siyasətin əsasını təşkil edir və şəhərin inkişafında torpaqdan istifadənin bazar mexanizmləri mənzil sferasının inkişafının resurs bazasını təşkil edir. Torpaq tənzimlənməsi normativ aktlara və qanunvericilik bazasına əsaslanır. Torpağın bazar dəyəri mənzil tikintisinin nəticəsində nəzərə alınır və mənzil sferasında əmələ gələn dəyişikliklərə stimul kimi çıxış edir.

Mənzil sferasında sosial – iqtisadi siyasətin ən mühüm vəzifələrindən biri torpaq siyasətinin düzgün inkişaf etdirilməsidir. Şəhərlərin torpaq siyasətinə aşağıdakıları aid etmək olar:

- torpaq sahəsinə bina tikən (investor) tərəfindən sərəncam verilməsini;
- şəhərin baş planına uyğun ayrıca ərazilərin tikintisinin aparılmasını;
- mənzil sferasında müxtəlif investisiya layihələrinin və sosial proqramların reallaşdırılmasını;
- mədəni və tarixi irsin saxlanmasını;
- torpaqdan istifadə edənlərin iqtisadi təhlükədən qorunmasını;
- alqı – satqı məqsədilə torpaq alverində əmələ gələn mənfi nəticələrin məhdudlaşdırılmasını.

Mənzil sferasının inkişafı üçün mühüm əhəmiyyəti olan torpaqdan istifadənin iqtisadi mexanizminin müasir iqtisadiyyatda roluna baxılması zəruridir. Müəyyən ərazidə torpaq istifadəçiləri arasında qarşılıqlı əlaqələri və qarşılıqlı münasibətləri əks edən və torpaq sahələrinin ekoloji vəziyyətinin müəyyən edilməsi torpaqdan səmərəli istifadənin iqtisadi mexanizmini təyin edir.

Şəhər təsərrüfatının idarə edilməsi sisteminə torpaqdan istifadə mexanizmi daxildir və aşağıda göstərən prinsiplərə əsaslanır [4, səh.56]:

1. Şəhərdə torpaqdan istifadənin istiqamətlərinin müəyyən edilməsi;
2. Torpaqdan səmərəli istifadə edilmənin iqtisadi normativlərinin müəyyən edilməsi;
3. Səmərəli istifadə edilmə şərtilə evin tikintisinin altına yeni torpaq sahələrinin ayrılması;
4. Ərazidə ekoloji vəziyyətə nəzarətin gücləndirilməsi;
5. Şəhərdə torpaq sahəsinin qorunması üzrə planlaşdırma və maliyyələşdirmə tədbirlərinin həyata keçirilməsi;

Əgər şəhərdə torpaqdan istifadəolunma yaxşı tənzimlənmirsə, onda mənfi nəticələr alınır [5, səh.134]:

**Tənzimlənmənin bazar üsulları**

| Tənzimləmə yanaşmaları: | Tənzimləmə üsulları: |
|---|---|
| - havanı çirkləndirən maddələrin ayrılmış yerlərə atılması hüquqi yanaşma;<br>- tullantıların əmələ gəlməsinin qarşısının alınması üçün tədbirlərin hazırlanması;<br>- ekoloji məsuliyyətliliyinin könüllü sığortalanmasının həyata keçirilməsi. | - ətraf mühitinin qorunması üçün hazırlanan tədbirlərin həyata keçirilməsi, müəssilərə güzəştli kreditlərin verilməsinin təşkil edilməsi;<br>- torpaqdan istifadə olunmasına ödəmənin həyata keçirilməsi;<br>- torpaq sahələrinin icarəyə verilməsi şərtlərinin qanunvericiliyin prinsiplərinə uyğun hazırlanması. |

**İnzibati üsulları**

| Tənzimləmə yanaşmaları: | Tənzimləmə üsulları: |
|---|---|
| - ekoloji proqnozların öz vaxtında verilməsinin təşkil edilməsi;<br>- məqsədli ekoloji proqramların hazırlanması və öz vaxtında həyata keçirilməsi;<br>- şəhərin baş planına uyğun planlaşdırma-nın həyata keçirilməsi;<br>- mütəxəssislər tərəfindən ekoloji ekspertizanın dəqiq aparılması;<br>- ekoloji auditin aparılmasının təşkil edilməsi. | - şəhərdə torpağın zonalara bölünməsinin təşkil edilməsi;<br>- ərazinin ekoloji qiymətləndirilməsinin həyata keçirilməsi;<br>- çirkli maddələrin atılmasının qarşısının alınmasına nəzarətin gücləndirilməsi;<br>- ekoloji cəhətdən əlverişli olmayan müəssisələrin ləğv edilməsi və ya şəhərdən kənarda ayrılmış yerə köçürülməsi. |

**Qarışıq üsulları**

| Tənzimləmə yanaşmaları: | Tənzimləmə üsulları: |
|---|---|
| - çirklənmənin qarşısını almaq məqsədilə ekoloji fondların yaradılması;<br>- məcburi ekoloji sığortalanmanın həyata keçirilməsi;<br>- havanın çirklənməsinə müəssisələr tərəfindən ödənişlərin həyata keçirilmə-sinə nail olunması. | - torpağın qorunmasının həyata keçirilməsinə güzəştli kreditlərin və yardımların verilməsi;<br>- ətraf mütitin qorunmasını təşkil etmək üçün sürətləndirilmiş amortizasiya fondlarından istifadə edilməsi;<br>- cərimə sanksiyalarının hazırlanması və həyata keçirilməsi. |

**Şəkil 1. İri şəhərdə torpaqdan səmərəli istifadə edilməsi məqsədilə dövlətin tənzimlənməsinin yanaşmaları və üsulları.**

- mühəndis kommunikasiyaların miqyası artır;
- şəhərdə yeni torpaq sahələrinin mənimsənilməsi xərcləri yüksəlir;
- şəhərin genişlənməsi hesabına tikintisinin altına kənd təsərrüfatı əhəmiyyətli torpaqlardan istifadə artır;
- mühəndis infrastrukturu obyektlərinin tikintisinin dəyəri yüksəlir;
- yaşayış evlərinin tikintisinin və istismarının dəyəri artır;
- əhalinin nəqliyyatdan istifadə vaxt xərcləri artır.

Torpaq bazarının tənzimlənməsi torpaq resurslarının istifadəsi səmərəliliyinin yük-

sədilməsi üçün ən mühüm amilidir. Torpaq münasibətləri sisteminin bir hissəsini torpaq bazarı təşkil edir və mülkiyyət hüququ onun tənzimləyicisi hesab edilir. Mülkiyyət hüququnun verilməsi imkanı – icarə, satış, girov və s. rəqabət, torpağa vergisinin qiymətləndirilməsi də mənzil bazarının tənzimləyicisi hesab edilir. Göstərdiyimiz tənzimləyicilər torpaqdan səmərəli istifadənin iqtisadi mexanizminə daxildirlər.

Torpaqdan istifadənin iqtisadi mexanizmində, vəziyyətin idarə edilməsində və nəzarətdə dövlət iştirak etməlidir. Şəhərdə torpaqdan istifadəolunma həm iqtisadi və sosial, həm də ekoloji cəhətdən səmərəli olmalıdır.

Ayrılan torpaq sahəsinin səmərəli istifadə edilməsini, ətraf mühitin qorunmasını, yaşayan sakinlərin əmək şəraitinin və mənzil tikintisinin keyfiyyətinin yaxşılaşdırılmasını şəhərdə torpaqdan istifadənin idarə edilməsi meyarları kimi baxmaq olar.

Torpaqdan istifadənin üsullarından biri ondan ibarətdir ki, yaşayış evlərinin tikintisi ərazisində və tikintidə istifadə olunan texnologiya, tikinti materialları və konstruksiyalarının istehlakçıları xüsusi əhəmiyyətə malik olurlar.

Bununla bağlı mənzil tikintisinin inkişafına təsir edən ekoloji amillərin qeydə alınması iri şəhərdə torpaqdan istifadənin tənzimlənməsinin üsulları və yanaşmalarına stimullaşdırıcı təsir göstərir (Şəkil 1).

Torpaqdan istifadənin bazar üsullarının tənzimlənməsinin əsasını yeni tikintinin altı üçün torpağın ayrılmasına ödəmə, torpaqdan istifadə üçün vergilər kimi büdcəyə ödəmələr, torpağın qorunması məqsədilə və s. güzəştli kreditlərin verilməsi təşkil edir.

İnzibati üsullar dövlət və cəmiyyət tərəfindən torpaqdan istifadə qaydalarını müəyyən edir. Həmin qaydalar ətraf mühitin çirklənməsinin qarşısını almağa köməklik edir, torpaqdan istifadəyə nəzarəti gücləndirir.

İnzibati və bazar üsullarına qarışıq üsullar, yanaşmalar uyğunlaşdırılır. Məlumdur ki, maliyyələşdirmə olmasa, torpaqdan istifadənin səmərəsini yüksəltmək məqsədilə hazırlanan ekoloji proqramları həyata keçirmək olmaz.

Yeni tikintinin altına torpaq sahələrinin verilməsi mexanizminin səmərəliliyi yüksəldilməlidir və torpaq sahələrinin müsabiqəyə əsasən verilməsi həyata keçirilməlidir.

**Nəticə.** Azərbaycanda indiki kimi gələcəkdə də yaşayış evlərinin (mənzillərin) növləri müxtəlif olmalıdır. Yaşayış evlərinin regional xüsusiyyətlərinin yaxşılaşdırılması məqsədilə onların milli xüsusiyyətləri zənginləşdirilməli və bunun əsasında gələcək evlər formalaşmalıdır. Evlərin inkişafına təsir edən şərait üç qrupa bölünür: sosial, maddi və təbii.

Mənzil sferasında yaşayış evlərinin yerləşməsində torpaq resurslarının istifadəsi problemləri xüsusi əhəmiyyətə malikdir. Belə halda torpaq üzərində mülkiyyət hüququnun təkmilləşdirilməsi zəruridir. Bununla bağlı torpaq bazarının formalaşmasında mühüm rol torpaq mülkiyyəti hüququ institutlarıdır, yəni hər şeydən əvvəl torpaq kadastrıdır.

**ƏDƏBİYYAT:**

1. Ильин И. Условия осуществления жилищной реформы//экономист 2010, № 5, 166 стр.

2. Карлов А.В. Проблемы реформирования жилищного комплекса// общество и эко-

номика, 2011, № 1, 258 стр.

3. Чернышев А.Н. Опыт европейских стран в реформировании жилищной политики. М., 2016, 320 стр.

4. Кириллов С.Н. Эколого–экономический механизм городского земле-пользования. – М.: ТЕИС. 2005, 254 стр.

5. Лексин В., Швецов А. Региональная политика и формирование земельного рынка//Российский экономический журнал – 2014, № 2, 398 стр.

## Abstract

## THE SPECIFIC PROGRESSIVE CHARACTERS OF FUTURE DWELLING HOUSES IN AZERBAIJAN

**Ruslan ALIYEV**

*Ph.D. student of Azerbaijan Architecture and Construction University*

**Key words:** dwelling houses, society, progress, heritage, mechanical transfer, form, modern, national, approaches, methods, regulation, city, land

In this article we mentioned the dwelling houses of our country: fisrt, the progress of dwelling houses by the society, second the presentation of the highest point of development of world dwelling houses.

We must recognize the genetics of dwelling house being critical and creative; we should refuse the mechanical transfer of old dwelling housing forms under the new situations. But in this point of view we must achieve the correct solvation of historical genetics of national dwelling houses.

State regulation approaches and methods about effective land using in cities also described.

## Резюме

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ ЖИЛИЩА В БУДУЩЕМ В АЗЕРБАЙДЖАНЕ

**Руслан АЛИЕВ**

*Азербайджанский Архитектурно-Строительный Университет, докторант*

**Ключевые слова:** жилище, общество, развитие, механическое перенесение, наследие, подходы, форма

В статье отмечается, что жилища нашего общества должны явиться во-первых, закономерным развитием жилища, выработанного человечеством веками, во-вторых, наиболее развитой ступеню мирового жилища.

Мы должны критически и творчески относится к жилищному наследию, решительно отвергать механическое перенесение старых жилищных форм в новые усло-

вия. Только лишь с этой позиции возможно правильно решить проблему использования исторического наследия в современном жилище в целом, и в национальном жилище в частности.

Рассмотрены также подходы и способы государственного регулирования рационального землепользования в городах и регионах.

# QEYRİ-NEFT SƏNAYESİ MÜƏSSİSƏLƏRİNDƏ RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ METODOLOGİYASI

**Natavan FEYZİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, doktorant*

**Rəyçi:** prof. Q.S. Süleymanov
**Açar sözləri:** risk, qeyri-müəyyənlik, qiymətləndirmə, səmərə, metod

Məqalədə risklərin qiymətləndirilməsinin metod və mexanizmləri verilmişdir. Onların tətbiqinin müsbət və mənfi cəhətləri göstərilir. Məqalədə eyni zamanda, risklərin qiymətləndirilməsində dünya alimlərinin nəzəri və praktiki yanaşmaları verilir.

Məqalənin sonunda isə risklərin qiymətləndirilməsi mexanizmlərinin düzgün seçiminin sənaye müəssisələrinin iqtisadi fəaliyyətində verdiyi səmərəlilik göstəriciləri əsaslandırılır.

**Giriş.** Araşdırmalar göstərir ki, beynəlxalq aləmdə baş verən dəyişikliklər, dünya maliyyə böhranı və digər məsələlər istər milli hüdudlar çərçivəsində, istərsə də beynəlxalq iqtisadi fikirdə sahibkarlıq fəaliyyətinin inkişafında mühüm rol oynayan sahədə biznes layihələrinin təhlili və qiymətləndirilməsi probleminə marağı xeyli artırmışdır. İdarəetmə və layihələrin təhlili sahəsində mütəxəssislərin yetişdirilməsinin vacibliyini nəzərə alaraq Ümumdünya bankı hələ XX əsrin 90-cı illərin sonlarında bir sıra elmi seminarlar keçirmiş, Müstəqil Dövlətlər Birliyi iştirakçılarını dünya paraktikasında qəbul edilmiş tədqiqat metodları və layihələrin qiymətləndirilməsi kriteriyaları ilə tanış etmişdir. Elə bunun nəticəsidir ki, o zamandan etibarən MDB-yə daxil olan respublikaların mütəxəssisləri tərəfindən biznes layihələrinin təhlili, risklərin analizi, qiymətləndirilməsinə dair metodiki tövsiyələr işlənilmiş, elmi-tədqiqat işləri aparılmışdır və bu zaman da layihələrin təhlilinin xarici təcrübəsi nəzərə alınmışdır [1, c 198].

**Riskin qiymətləndirilməsi metodları**

İstənilən biznes layihəyə yatırılan vəsait müəyyən risklə müşayiət olunur ki, bu da öncə qeyd edildiyi kimi faiz dərəcəsinin kəmiyyətində öz ifadəsini tapır. Nəticədə layihə reallaşdırılmaya bilər, səmərəsiz və ya gözləniləndən az gəlirlə nəticələnə bilər. Məhz bunun üçün də istənilən biznes layihəsində risk faktorlarını nəzərə almaq, mümkün olduqca çox risk növünü müəyyənləşdirmək və layihənin bütöv riskini minimumlaşdırmaq zəruridir. Bu zaman riskə meyillilik baxımından rəhbərlər (biznesmenlər) aşağıdakı qruplara ayrılır:

- Riskə meyilli (riskə getmək üçün ödəməyə hazırdırlar);
- Riskə meyilli olmayan (riskdən yayınmaq üçün ödəməyə hazırdırlar);
- Riskə neytral olan (riskin mövcudluğuna və ya yoxluğuna neytral-biganə olanlar).

Əlbəttə ki, riskə münasibət biznesmenlərin məqsədləri ilə yanaşı onların maliyyə imkanlarından da asılı olur. Düzgün biznes planın qəbul olunması üçün təkcə gözlənilən gəliri, riskin səviyyəsini, onun qiymətini müəyyən etmək kifayət etmir, bu zaman həm də gözlənilən gəlirin mümkün riski kompensasiya etmək imkanları da araşdırılmalıdır. Problemin

mürəkkəbliyi onunla bağlıdır ki, layihənin digər parametrlərinin qiymətləndirilməsi ilə müqayisədə riskin qiymətləndirilməsi daha çox formal xarakter daşıyır. Bununla belə risklərin təhlili layihə ekspertizasının zəruri və olduqca vacib mərhələsidir. Onu da qeyd etmək lazımdır ki, çox təəssüf ki, biznes layihələrinin müasir biznes-planlarında risklərin təhlili bölməsi yalnız maliyyə və ya bank risklərinin təhlili ilə məhdudlaşdırılır, bu da layihə risklərinin bütün miqyasını əks etdirmir [2, səh-126].

Yerli və xarici ədəbiyyatlarda bu sahədə yaranan risklərinin təhlili və risklərin qiymətləndirilməsinin ayrı-ayrı nəzəri cəhətləri geniş tədqiq olunmuşdur. Layihə risklərinin təhlili ilə bağlı əsas fikir ondan ibarətdir ki, təhlil zamanı ilk öncə layihənin bütün "risk amillər"inin mümkün dəyişmə sərhədləri müyyən olunmalı, sonra dəyişənlərin yol verilən qiymətlərində sınaq hesablamalar aparılmalıdır. Çoxlu sayda dəyişənlər üzərində aparılan hesablamalar əsasında layihə risklərinin təhlili layihənin ayrı-ayrı variantlarının dəyərini və paylama ehtimalını qiymətləndirməyə imkan verir. Müasir dövrdə risklərin idarə olunmasında istifadə olunan üsulları araşdıraq: ekspert qiymətləndirməsi metodu, SWOT –təhlili, risk "spiralı", analogiyalar və ya konservativ proqnozlar metodu, risk əlavəsi üzrə faizqoyma metodu, "həllər ağacı", hissiyyat təhlili, ssenarili yanaşma [3, səh-125].

SWOT metodu. SWOT- təhlilin nəticələrini cədvəl şəklində aşağıdakı kimi təqdim edə bilərik (Cədvəl 1)

Bu cədvəl özündə layihənin zəif və güclü tərəflərini, onun mümkünlüyü şərtlərini və təhlükəli tərəflərini ehtiva edən 4 bölmədən ibarətdir.

**Cədvəl 1. SWOT-təhlilinin strukturu**

| Layihənin güclü tərəfləri (strength) | Layihənin zəif tərəfləri (weakness) |
|---|---|
| İstehsal güclərinin mövcudluğu<br>İşçi heyətin təcrübəsi.<br>Texnoloji biliklərin və rəqiblərin tədqiqi. | Maliyyə mənbələrinin qeyri-müəyyənliyi.<br>Bazarın qeyri-dəqiq tədqiqi. |
| İmkanlar (opportunity) | Təhlükələr (threat) |
| Digər bazarlara çıxış. Digər təchizatçıların cəlb edilməsi. | Güclü rəqibin meydana çıxması.<br>Layihə komandasının dağılması. |

***Mənbə:[3, səh-127]***

Quruluş təhlilinin əsasında sonrakı araşdırmalar aparılır, bu isə özündə aşkar olmuş amillərin vacibliyinə görə sıralanması, həmçinin layihənin zəif və güclü cəhətlərinin, onun imkanları və təhlükəli tərəflərinin ikili müqayisəsini ehtiva edir. Bunların hamısı 4 siyahının hazırlanması zamanı öz əksini tapır:

- Layihənin güclü tərəflərinə əsaslanan imkanlar;
- Layihə təhlükələri ucbatından azalma və ya məruz qalan güclü tərəflər;
- Layihə imkanlarından istifadə etməyə imkan verməyən zəifliklər;

- Firmanı təhlükəli vəziyyətə salmaq iqtidarında olan layihə zəiflikləri;

Daha sonra aşağıdakı tədbirlər işlənib hazırlanır:

- Ən ciddi zəifliklərin aradan qaldırılması (və ya onlardan qaçma);
- Ən güclü təhlükələrə müqavimət göstərilməsi (və ya onlardan qaçma);

SWOT – təhlilin əsas təyinatı – antirisk tədbirlər sisteminin işlənilməsi, layihə risklərinin idarə edilməsi prosesinin ayrılmaz hissəsinə çevrilir.

Ekspert qiymətləndirmə. Ekspert qiymətləndirməsi əsasında mövcud layihənin risklik dərəcəsinin qiymətləndirilməsinin əyani metodu işlənib hazırlanmışdır və şərti olaraq risk "qızılgül"ü ( "ulduz"u) adlandırılır. Ekspertlər araşdırılan layihənin sənədləşməsi və biznes-planı ilə yaxından tanış olduqdan sonra, onun risk amillərinin yoxlanılması əsasında bal sistemilə (məsələn, 10 ballıq sistemlə) qiymətləndirilməsini aparırlar. Buna mütənasib olaraq balın yüksək olması yüksək risklik səviyyəsindən xəbər verir [3, səh-274].

Biznes layihələrinin idarə edilməsi üçün aşağıdakı işlərin olması vacibdir. Layihənin idarə edilməsi üzrə müvafiq konsepsiyanın mövcudluğu, bazarın öyrənilməsi, maya dəyərinin təhlili, maliyyələşmə, işçi heyətin həvəsləndirilməsi (motivasiyası), biznes planın işlənməsi, rəqiblərin təhlili, istehsal planı.

Bu metodun davamı olaraq risk amillərini nizama salan risk "spiral"ı qurulur.

Ekspert sorğusunun aparılması yalnız o halda səciyyəvi və nəticə etibarilə daha səmərəli olar ki, onu aşağıdakılar müşayiət etsin:

1. ekspert qiymətləndirməsinin təhlili;
2. daha çox gözlənilən risk amillərinin aşkara çıxarılması, digərlərinin kənarlaşması;
3. verilmiş çəki sistemlərində bal sisteminin təhlili (o cümlədən layihə reytinqi, xüsusən alternativ layihələrin mövcudluğu şəraitində).

Risklərin ekspert qiymətləndirməsi metodunu onun müxtəlifliyi ilə tamamlamaq lazımdır, bu isə Delfi metodudur. O, anonimliyi və əks-əlaqə ilə idarə olunması ilə xarakterizə olunur. Bu halda komissiya üzvlərinin fiziki olaraq bölüşdürülməsi risklərin qiymətləndirilməsinin aparıldığı vaxt anonimliyi təmin edir, belə ki, bu vəziyyətdə ekspertlər irəli sürülmüş suallara verilən cavabları müzakirə etmək imkanından məhrum olurlar.

Bənzətmə metodu. Bənzətmə metodunun mahiyyəti firmanın keçmişdə reallaşdırdığı layihələrdə itkilərin meydana çıxmasının hesablanması nöqteyi nəzərindən mövcud bütün məlumatların təhlilinə əsaslanır. Bənzətmə metodu daha çox təkrarlanan, adət halını almış layihələrin reallaşdırılması zamanı tətbiq edilir. Məsələn, tikintidə. Əgər tikinti şirkəti analoji olaraq artıq reallaşdırılmış bir layihəni üzərinə götürübsə, o zaman risklərin dəyərləndirilməsi vaxtı öncəki layihənin statistik göstəricilərindən istifadə etməsi təqdirəlayiq hal hesab edilir. Bu məqsədilə yuxarı və aşağı sərhəddi məhdud olan risk oblastı müəyyən edilir.

Analogiya metodu. Analogiya metodu hər şeydən əvvəl digər risk qiymətləndirmə metodları əlçatmaz olduqda və analoji layihə risklərinin verilənlər bazasının istifadəsinə ehtiyac duyulduqda tətbiq edilir [3, səh-281].

Faizqoyma metodu. Risk üzərinə faizqoyma metodu risk amillərinin layihə effektivliyini

nəzərə alaraq öyrənilməsinə imkan verir. Bu zaman risksiz faizqoyma risk əlavəsi (mükafatın) zirvəsinə yüksəlir. Məsələn, innovasiya layihəsi zamanı risk əlavəsi 10-20%-ə çata bilər. Biznes fəaliyyətində risklərin qiymətləndirilməsini Cədvəl 1-də göstərilmiş metodlarla həyata keçirmək olar.

Adətən risksiz faizqoyma olaraq, qısamüddətli dövlət istiqrazlarına olan faizqoyma nəzərdə tutulur. Bazarın risk mükafatı (premiyası) statistik göstəricilərə əsaslanan keçmiş və proqnozlaşdırılan informasiya əsasında qiymətləndirilir.

Böhran anlayışları metodu. Böhran anlayışları metodu – dəyişən risk amillərinin və layihə parametrlərinin elə mənalarının tapılmasına əsaslanır ki, həmin mənalar müvafiq layihə effektivliyi meyarını və böhran həddini hesabi kəmiyyətə gətirir. Kəmiyyət yanaşması mərhələsində ona həmçinin risk təhlili aləti kimi də baxmaq olar. Belə ki, hər hansı risk amilinin proqnozlaşdırıla bilən dəyişmə dinamikasının tapılması üçün virtual layihənin yaxınlıq həddi qiymətləndirilməsi tələb edilir.

**Riskin qiymətləndirilməsinin alətləri**

Sadalanan yanaşmalardan savayı, təcrübədə riskin qiymətləndirilməsinin aşağıdakı alətlərindən istifadə olunur:

1. hissiyyat təhlili;
2. ssenari təhlili və s.

Ümumi şəkildə riski aşağıdakı formulla təsvir etmək olar [2, səh-256]:

$$Risk=(P;L;Y)$$

L-itki-zərər

P-itkinin başvermə ehtimalı

Y- riskə dözümlülük.

Risklərin qiymətləndirilməsi zamanı əsasən aşağıdakı statistik kriteriyalardan-göstəricilərdən istifadə olunur:

Hadisənin (E) ehtimalı (P) – əlverişli nəticələrin sayının (K) mümkün nəticələrin sayına (M) olan nisbətidir və həm obyektiv, həm də subyektiv metodla hesablana bilər.

$$P(E)= K / M,$$

Variasiya amplitudu (R)- amilin maksimum və minimum qiymətləri arasında olan fərqdir və riskin “ kobud” qiymətləndirilməsini verir, yəni yalnız kənar qiymətlərə əsaslanır.

Dispersiya-müvafiq ehtimallarla ölçülmüş təsadüfi kəmiyyətin orta qiymətindən kvadratik kənarlaşmasının məbləğidir.

$$V_{ar}(E)=\sum_{\kappa=1}^{\kappa=n} p_\kappa (X_\kappa - M(E))^2$$

Burada M(E)- diskret təsadüfi kəmiyyətin (E) orta və ya gözlənilən (riyazi gözləmə) qiymətidir və onun qiyməti təsadüfü kəmiyyətin qiymətinin müvafiq başvermə ehtimalına olan hasilləri cəmindən ibarətdir.

$$M(E)=\sum_{\kappa=1}^{\kappa=n} X_K P_K$$

Riyazi gözləmə-təsadüfi kəmiyyətin çox vacib xarakteristikası olub, onun ehtimallı paylanması mərkəzi rolunu oynayır və beləliklə amilin həqiqətə uyğun qiymətini göstərir.

Praktikada dispersiyanın istifadəsi rahat olmadığı üçün daha çox standart (orta kvadratik) kənarlaşmadan σ(E) istifadə olunur:

$$\sigma(E) = \sqrt{Var(E)}$$

Lakin bütün bu sadalanan göstəricilərin ümumi çatışmazlığı da vardır ki, bu da onların amillərinin mütləq qiymətləri ilə müəyyən olunan mütləq kəmiyyət olmalarıdır. Ona görə də variasiya əmsalından (CV) istifadə daha məqsədəuyğundur:

$$CV = \frac{\sigma(E)}{M(E)}$$

Variasiya əmsalına görə layihələr qiymətləndirildikdə variasiya əmsalı kiçik olan layihə alternativləri ilə müqayisədə daha az riskli və arzuolunan hesab edilir.

Bütün ədəbiyyatlarda risklərin təhlilinin 2 metodu- keyfiyyət və kəmiyyət metodları öyrənilmişdir. M.Qraçevanın fikrincə, riskin keyfiyyət analizinin əsas vəzifəsi – bu və ya digər biznes layihəsi ilə bağlı riskin növlərini aşkarlamaq, riskin amillərini və potensial sahəsini müəyyən etməkdir. Keyfiyyət metodu ekspert səviyyəsində 3 mərhələni icra etməyə imkan verir [4, səh-215].

- Mümkün risklərin inventarlaşdırılmasını;
- Riskin həyata keçməsinin nəticələrini və bu nəticələrin likvidliyi ilə bağlı itkilərin təsvirini;
- Riskin minimumlaşdırılma tədbirlərini və bunun üçün tələb olunan vəsaitləri müəyyən etməyi.

Bir qayda olaraq layihə risklərinin təhlili keyfiyyət təhlili ilə başlayır və keyfiyyət təhlilinin əsas məqsədi risklərin identifikləşdirilməsidir ki, bu da aşağıdakı vəzifələrdə öz əksini tapır:

- Cari biznes layihəsində riskin bütün spektrini-miqyasını müəyyən etmək;
- Risklərin təsviri;
- Risklərin təsnifatı və qruplaşdırılması;
- Nəticəvi ehtimalların təhlili.

MDB ölkələrində biznes layihələrinin hazırlanması zamanı mütəxəssislər daha çox risklərin keyfiyyət metodu ilə təhlili üzərində dayanırlar, halbuki bu metod bütöv təhlilin yalnız başlanğıc fazası rolunu oynayır.

**Risklərin təsnifatı.**

Öncə də qeyd etdiyimiz kimi risklərin keyfiyyət metodu ilə təhlili baxımından ən uğurlu təsnifatını M.Qraçeva vermişdir. Tədqiq olunmuş bütün elmi işlər içərisində keyfiyyət metodu ilə layihə risklərinin təhlilinin öyrənilməsi də məhz onun adı ilə bağlıdır. M.Qraçeva keyfiyyət metodu ilə təhlil zamanı riskləri öncə qeyd etdiyimiz şəkildə təsnifləşdirməyi və hər bir risk növünə 3 mövqedən yanaşmağı təklif edir [4, səh-249]:

- Verilmiş risk növünün yaranma səbəbi –mənbəyi nədir?
- Verilmiş risk növünün reallaşması hansı mənfi nəticələrə səbəb ola bilər?
- Baxılan risk növünün minimumlaşdırılması tədbirləri nədən ibarətdir?

Maliyyələşdirmə baxımından layihə o zaman riskli hesab edilə bilər ki, bunu ilk növbədə aşağıdakı səbəblər şərtləşdirmiş olsun: ölkədə iqtisadi qeyri-stabitlik, inflyasiya, sahədə ödənişlərin aparılmaması ilə bağlı situasiya, büdcə vəsaitlərinin defisiti.

Layihə riskinin digər növü olan marketinq riskləri isə aşağıdakı səbəblərdən yarana bilər:

- Məhsul təklifi bazarlarının düzgün seçilməməsi, bazar əməliyyatları ilə bağlı strategiyanın düzgün müəyyən edilməməsi, bazar tutumunun düzgün hesablanmaması, istehsal gücünün düzgün müəyyən edilməməsi;
- Nəzərdə tutulmuş bazarlarda düşünülməmiş məhsul ehtiyatı şəbəkəsinin varlığı və yaxud yoxluğu;
- Bazara daxilolmada gecikmələr.

Marketinq riskləri kreditləri örtə biləcək lazımi gəlirlərin ixtisarına və məhsulun nəzərdə tutulan dəyər ifadəsində və nəzərdə tutulan zamanda reallaşdırılmamasına səbəb olurlar.Bu cür risklərin reallaşması tam gücdə olmayan iş vaxtında, tam layihə gücünün alınmamasında və aşağı keyfiyyətli məhsul istehsalında özünü əks etdirir.Texniki risklər isə layihələndirmədə səhv və nöqsan; texnologiyanın çatışmazlığı və avadanlığın düzgün seçilməməsi; istehsal gücünün səhv təyini; idarəetmədə çatışmazlıqlar; ixtisaslaşdırılmış işçi qüvvəsinin çatışmaması; yerli işçi heyətinin idxal edilmiş avadanlıqla bağlı təcrübəsinin olmaması; xammalın, kompleksləşdirici məmulatların, tikinti materiallarının təchizində problemlər kimi səbəblərdən yarana bilər. Nəticədə layihənin dəyəri artır. Bu növ risklər daha çox layihə iştitakçılarının qeyri-stabil maliyyə durumu, dəyişmiş situasiyada və rəhbərlikdə idarəetmə siyasətinin dəyişməsi, qeyri-peşəkarlıq səbəbindən layihə çərçivəsində öhdəliklərini yerinə yetirməməsi nəticəsində də əmələ gəlir [5, səh-278].

Kreditorlar tərəfindən öhdəliklərin yerinə yetirilməməsi riski kredit valyutasının məcburi dəyişdirilməsi, valyuta limitinin ixtisarı, kreditdən istifadənin dayandırılması, faizlərin ödənilməsi və kreditin qaytarılma müddətinin qısaldılması nəticəsində biznes layihəsinin tam maliyyələşməməsi, onun reallaşmasında və yatırılmış vəsaitdən daxilolmalarda dayanmalara səbəb olur.

Risklərin keyfiyyət təhlilində siyasi risklərin yaranma səbəbi kimi gömrük siyasətində və ticarət siyasətində olan dəyişikliklər, ölkə iqtisadiyyatının xarici siyasətində, vergi sistemi, valyuta tənzimlənməsi fəaliyyətində dəyişikliklər, ixracın maliyyələşdirilməsi sistemində dəyişikliklər, ölkənin qeyri-sabitliyi, geosiyasi və sosial risklər, mənfəətin bir ölkədən digərinə ötürülməsi ilə bağlı və investisiyalar haqda qanunvericilikdəki dəyişikliklər, hüquqi risklərin yaranma səbəbi kimi icarə və mülkiyyət hüquqlarını təsdiq edən sənədlərdəki nöqsanlar, ekoloji risklərin yaranma səbəbi kimi isə layihəyə güc strukturlarının münasibətinin dəyişməsi, ətraf mühitin mühafizəsi ilə bağlı qanunvericiliyin qeyri-stabilliyi, qəzalar göstərilir. Layihə risklərinin keyfiyyət təhlilinin təsnifləşdirmə mərhələsi tamamlandıqdan sonra risklərin minimumlaşdırılma tədbirləri-diversifikasiya, sığortalama və s. müəyyənləşdirilir.

Riskin minimumlaşdırılma tədbirlərinin növbəti fəsildə öyrənilməsi nəzərdə tutulduğu üçün layihə risklərinin keyfiyyət təhlili haqda nəzəri fikirləri bu cür yekunlaşdırmaq olar: layihə risklərinin keyfiyyət təhlili zamanı ilk olaraq layihənin konkret riskləri, onların yaranma səbəbləri müəyyən olunur, sonra bu risklərin reallaşmasından zərərin məbləği və onların minimumlaşdırma tədbirləri ilə bağlı xərclər hesablanılır [6, səh-238.].

**Nəticə.**

Beləliklə, risklərin analizinin kəmiyyət metodu istər ayrı-ayrı risklərin və istərsə də bütövlükdə layihənin riskliliyinin, layihə amilləri ilə əlaqədar layihə göstəricilərindəki dəyişikliklərin kəmiyyət ölçüsüdür. Bu metod risklərin ölçülməsi və qiymətləndirilməsi üçün müxtəlif alətlər təklif edir, daha çox mürəkkəb riyazi hesablamalara əsaslandığı üçün riskin ciddi əsaslandırılmış riyazi qiymətləndirməsini irəli sürür.

**ƏDƏBİYYAT:**

1. Хохлов Н.В,"Управление рисков",- Мосва. Юнити 1999, с 198.
2. Салин В.Н. и др., Математико-экономическая методология анализа рисковых видов страхования, -М., Анкил 2007 ,с 126.
3. Ковалев В.В., Методы оценки инвестиционных проектов,-М.-2009. с. 125, с.127,с.274,с.281
4. М.В.Грачева, "Анализ проектных рисков",-М.Финстатинформ, 2009,с 215,с.249
5. Балабанов И.Т., Риск менеджмент,-.: Финансы и статистика.М.-2006, с 278.
6. Уткин Э.А. , Риск-менеджмент, М.-2007, с. 238.

**Abstract**

**RISK ASSESSMENT METHODOLOGY AT THE ENTERPRISES OF NON-OIL INDUSTRY**

**Natavan FEYZIYEVA**
*Azerbaijan State Oil and Industrial University, Ph.D. student*

**Key words:** risk, uncertainty, evaluation, efficiency, method

The article presents the methods and mechanisms of risk assessment. It includes positive and negative aspects of their application.The article also shows the theoretical and practical approaches of risk assessment by scientists around the world.

The perfomance indicators of economic activities of industrial enterprises in choosing the correct risk assesment tools are reflected at the end of the article.

**Резюме**

**МЕТОДОЛОГИЯ ОЦЕНКИ РИСКОВ НА ПРЕДПРИЯТИЯХ НЕНЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ**

**Натаван ФЕЙЗИЕВА**

*Азербайджанский Государственный Университет Нефти и Промышленности, докторант*

**Ключевые слова:** риск, неопределённость, оценка, эффективность, метод

В статье даны методы и механизмы оценки риска.Представлены также положительные и отрицательные аспекты их применения. В статье также показаны теоретические и практические подходы  оценки риска учеными мира.

В конце статьи даны показатели производительности хозяйственной деятельности промышленных предприятий при выборе правильных механизмов оценки рисков.

# YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYALARIN RƏQABƏT POTENSİALINDAN İSTİFADƏYƏ TƏSİRİ

**Ceyhun VƏLİYEV**
*Sumqayıt Dövlət Universiteti, doktorant*

**Rəyçi:** i.e.f.d. Elçin Süleymanov
**Açar sözlər:** rəqabət, səmərə, əmtəə, infrastruktur, innovasiya, tələbat, təklif

Yüngül sənaye müəssisələrinin rəqabətli inkişafı bazar mühitində dayanıqlı fəaliyyətin əsasını təşkil edir. Həmçinin müəssisələr rəqabət mübarizəsi hesabına deyil, potensial elementlərin olması, məhsul istehsalı və satışının qarşılıqlı balanslaşdırılmış proseslərinin əlaqələndirilməsi, bütün növ istifadə edilmiş resursların təkrar istehsalı hesabına üstün olur. Təbii sərvətlər ən yeni texnologiyalardan istifadə edilmədiyi halda istehsalatda itkilər artır, səmərəlilik aşağı düşür. Bu səbəbdən də rəqabətqabiliyyətliliyinin yüksəldilməsi mümkün olmur. Belə olan halda innovasiyaların tətbiqi mühüm şərtlərdən birinə çevrilir.

Bazar iqtisadi münasibətlərinin tələblərinə uyğun olaraq yüngül sənaye məhsulları bazarı üçün azad rəqabət şəraitində onun forma və üsullarının kəskinləşməsi xarakterikdir. Bu baxımdan rəqabət qabiliyyəti müəssisənin sabitliyini və uzun müddətli maliyyə dayanıqlılığını təmin edərək onun əsas müvəffəqiyyət amillərini müəyyən edir. Rəqabət üstünlüklərini istehlakçıları cəlb etməyə və onların əmtəələrə sadiqliyini qoruyub saxlamağa imkan verən hər hansı bir sahədə müəssisənin yüksək səlahiyyətliliyi kimi müəyyənləşdirmək olar.

Ümumiyyətlə rəqabət resursların bölüşdürülməsinin ən səmərəli vasitəsi kimi də şərh edilir və bütövlükdə iqtisadi inkişafın təkanverici amilinə çevrilir. İqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi baxımından sənayenin inkişafı ölkədə aparılan iqtisadi siyasətin əsas prioritetlərindən biridir [1].

Hazırda səmərəli rəqabət üçün zəruri hüquqi mühit yaradılsa da bazar infrastrukturun inkişaf etmiş institutlarının kifayət səviyyədə olmaması bu sahədə müəyyən problemlərin hələ də mövcudluğu ilə müşayiət olunur. Bu da öz növbəsində müəssisələrin xərclərinin artmasına və bazar iştirakçılarının rəqabət səylərinin səmərəliliyini əhəmiyyətli dərəcədə aşağı salan əsas amillərdən birinə çevirir.

Yüngül sənaye müəssisələrinin rəqabətli inkişafı mənfi meyillərin aradan qaldırılması üçün əsaslı şərtlərdəndir. Bu baxımdan iqtisadi inkişaf strategiyasının əsasında resurs yeniləşməsinin təməl prinsipi durur. Qeyd etmək lazımdır ki, resurslardan istifadə səviyyəsinin dəyişdirilməsinin xüsusiyyətləri müəssisənin onun bazar mühitində dayanıqlı fəaliyyətinin əsasını təşkil edir. Eyni zamanda müəssisələr rəqabət mübarizəsi hesabına deyil, potensial elementlərin olması, məhsul istehsalı və satışının qarşılıqlı balanslaşdırılmış proseslərinin əlaqələndirilməsi, bütün növ istifadə edilmiş resursların təkrar istehsalı hesabına üstün olur [2].

Bazar mühitində müəssisələrin sabitliyini təmin etmək üçün müvəfəqiyyətlə rəqabət aparmağa imkan verən innovasiya strategiyaları işlənib hazırlanması ən vacib məsələlərdəndir. Müəssisələrin səmərəli fəaliyyət göstərməsi ona yeni məhsul və texnologiyaların axtarışı və ya işlənib hazırlanması ilə məşğul olmağa imkan verir. İnnovasiya siyasətinin hazırlanması potensial imkanlarının qiymətləndirilməsindən və müvafiq resurslarla təminatından irəli gələrək onun perspektivdə inkişafının məqsəd və strategiyasının müəyyən edilməsini nəzərdə tutur.

Bütövlükdə iqtisadi inkişafın əsas səbəbi qismində texniki və texnoloji yeniliklərin tətbiqi durur. Texnoloji baxımdan inkişaf etmiş ölkələrin iqtisadiyyatında baş verən proseslər elmi-texniki tərəqqi və innovasiya fəaliyyəti ilə qarşılıqlı əlaqənin səmərəliliyinə əsaslanır. Texniki - texnoloji yeniliklər mövcud problemlərin mənfi nəticələrinin qarşısının alınmasına və daha səmərəli inkişaf mexanizmlərinin işlənib hazırlanmasına əsaslar yaradır. Hazırda mövcud texnoloji vəziyyət texniki-iqtisadi ölçülərlə müqayisədə rəqabət üstünlüklərinin təmin olunmasının əsas şərtidir. Ona görə də texnoloji innovasiyaların prioritetləri əsasında innovasiyaların tədbiqinə geniş yer vermək lazımdır. Bu, istehsal xərclərini əhəmiyyətli dərəcədə azaltmağa, müəssisənin rəqabət qabiliyyətini artırmağa imkan verir.

İnnovasiyaların tətbiqi məhsulun diversifikasiyası üçün də ilkin şərait yaradır. Bu baxımdan istehsal xərclərini azaldan investisiyalara xüsusi yer ayrılmaqla istehsal istiqamətlərinin dəyişdirilməsi üçün zəmin yaranır. Qeyd etmək lazımdır ki, innovasiyaların inkişafı yeni biliklərin toplanması, yeni texnologiyaların yaradılması və məhsuldar istifadəsi şəraitində baş verir.

Yüngül sənayedə istehsalın inkişafı sistemlərinin yaradılması mövcud investisiya resurslarının innovasiya elementlərinə yönləndirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Bununla əlaqədar inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə olunması xüsusi əhəmiyyətə malikdir.

İnvestisiya resursları əksər hallarda mövcud olan istehsal fondlarının yeniləşdirilməsinə deyil, əvvəlki formada bərpa edilməsinə sərf edilir. Belə məqamları nəzərə aldıqda yüngül sənaye sahəsində istehsal güclərinin bərpa olunmasına yönəldilən investisiyaların innovasiya fəaliyyətinin formalaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsində sistemliliyə əməl olunmasının zəruriliyini qeyd etmək olar [3].

Bazar münasibətləri şəraitində istənilən istehsal sahəsində iqtisadiyyatın səmərəliliyinin artırılması innovasiya fəaliyyətinin tənzimlənməsini önə çəkir. Burada dövlət iqtisadi siyasətinin mühüm aləti olan innovasiya siyasəti xüsusi yer tutur. Bu, əsasən kəmiyyət və keyfiyyət xarakteristikalarına təsir göstərən ənənələrlə, həmçinin konkret sosial-iqtisadi vəziyyətlə və müvafiq olaraq müəyyən zaman dövründə formalaşan məsələlərlə bağlıdır. Bununla belə, innovasiya fəaliyyətinin tənzimlənməsi mexanizmləri bütün ölkələr üçün xarakterik olan ümumi cəhətlərə malikdir.

Rəqabət qabiliyyətinin artırılmasına innovasiyalı yanaşma, risklərlə də əhəmiyyətli dərəcədə bağlıdır. Bununla bağlı yerli istehsalçının rəqabət qabiliyyətinin artırılması üzrə əsaslandırımış şəkildə hazırlanmış konsepsiya lazımdır.

Bunun üçün aşağıdakılar zəruridir: rəqabət qabiliyyətinin inkişafının səmərəli qiymətləndirilməsi üçün müəssisənin fəaliyyətini müəyyən edən yeni kəmiyyət və keyfiyyət göstəricilərinin işlənib hazırlanması; marketinq tədqiqatlarının aparılması, müəssisənin rəqabət strategiyasının hazırlanması yolu ilə innovasiya qərarlarının uyğunlaşdırılması; müəssisələrin inkişaf potensialının müəyyən edilməsi; risk səviyyəsinin minimuma endirilməsinə istiqamətlənən tədbirlərin hazırlanması; rəqabət qabiliyyətinin yüksəldilməsinə imkan yaradan innovasiyaların iqtisadi səmərəliliyinin təmin olunması; innovasiya amillərinin sistemləşdirilməsi hesabına rəqabət qabiliyyətinin yüksəldilməsi və s.

İnnovasiya siyasətinin köməyi ilə həll edilən məsələlərə intellektual kapitalın toplanması üçün ölkənin seçilməsi, yeni texnologiyaların verilməsi, innovasiya proqramları üçün maliyyə resurslarının, güzəştlərin və intellektual resursların alınmasını və s. göstərmək olar. Bu məsələlərdə başlıca məqsəd innovasiyalar əsasında rəqabətin son məqsədi gəlirin maksimum səviyyəyə çatdırılmasıdır [4].

İnnovasiyalar beynəlxalq rəqabətqabiliyyətlilik üçün də çox mühüm istiqamətlərdəndir. İnnovativ inkişafın beynəlmiləlləşdirilməsi innovasiyalı inkişafın ən çox yayılmış mərhələlərindən hesab edilir. Bu prosesin əsas səbəbləri istehsal miqyasında iqtisadiyyatın artımının əhəmiyyəti və istehsal olunan əmtəələrin həyat dövrünün qısaldılması ilə bağlıdır.

Ümumiyyətlə ölkənin elmi-texniki potensialının genişlənməsinə, mövcud olan rəqabətqabiliyyətlilik amillərinin istifadənin səmərəliliyinin yüksəlməsinə, innovasiya prosesinin intensivləşməsinə və nəticə olaraq qəbul edən ölkənin beynəlxalq rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb olur. İqtisadiyyatın müasir inkişaf dövründə innovasiya layihələrinin həyata keçirilməsi üçün lazım olan əsas komponentləri olan kapitalın, yüksək ixtisaslı kadrların, yeni ideya və tədqiqatların yerlərinin dəyişməsinə nəzarət etmək yolu ilə əhəmiyyətli dərəcədə təsir göstərirlər. Beləliklə, innovasiya siyasəti ölkələrin rəqabətqabiliyyətliliyinin yüksəldilməsində vacib rol oynayır.

Məlum olduğu kimi, təbii sərvətlər ən yeni texnologiyalardan istifadə edilmədiyi halda rəqabətqabiliyyətliliyinin yüksəldilməsi faktoru və dövlət siyasəti prioriteti kimi baxıla bilməz. İnnovasiya siyasətinin məqsədi innovasiya potensialının səmərəli istifadəsi mexanizmləri olmalıdır və eləcə də müasir xarici texnologiyaların cəlb olunması zəngin təbii sərvətlərlə, insan və elmi-texniki potensialla əlaqədə olaraq ölkənin ümumi rəqabətqabiliyyətliliyini yüksəltmək qabiliyyətindədir. Bu mərhələdə innovasiyalar sahəsində dövlət siyasətinin həyata keçirilməsi vasitələri özlərində investisiyalar səviyyəsinin qeyri-optimal olması şərtində texnologiyalar sistemi vasitəsi ilə müdafiə olunmasını və müxtəlif güzəştləri şərtləndirər. Belə şəraitdə innovasiyaların istehsalata tətbiqi hesabına rəqabətqabiliyyətli istehsalın stimullaşdırılmasına xidmət edə bilər.

**ƏDƏBİYYAT:**

1. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı.

2. Иванова Е. А. Конкурентоспособности предприятия: учебное пособие. –Изда-

тельство «Феникс» 2008. с. 298.

3. Бездудный Ф.Ф. Проблемы использования инновационпых факторов и технологий в отраслях текстильной и легкой промышленности. М, 2003.

4. Фатхутинов Р.А. Конкуреспособность в кризисной положение предприятие. Москва, Маркетинг, 2004, с.247.

**Abstract**

**THE INNOVATION AND ITS IMPACT ON THE USE OF COMPETITIVENESS OF THE ENTREPRIZES OF LIGHT INDUSTRY**

**Jeyhun VALIYEV**

*Ph.D. student of the Sumgait State University*

**Key words:** competitiveness, efficiency, trade, infrastructure, innovation, demand, supply.

Competitive development of light industry is the foundation of a stable market environment. In addition, the superiority of enterprises is not the result of competition, but the presence of the potential elements of a balanced coordination of the processes of production and sales of products, re-use of all resources. Lack of use of the latest technologies in production leads to increased costs and reduced efficiency. For this reason, it is not possible to increase the competitiveness. Hence the use of innovation has become one of the most important factors.

**Резюме**

**ВЛИЯНИЕ ИННОВАЦИЙ НА ИСПОЛЬЗОВАНИЕ ПОТЕНЦИАЛЬНОЙ КОНКУРЕНЦИИ В ПРЕДПРИЯТИЯХ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ**

**Джейхун ВЕЛИЕВ**

*Докторант Сумгайытского Государственного Университета*

**Ключевые слова:** конкурентоспособность, эффективность, торговля, инфраструктура, инновации, спрос, предложение

Конкурентное развитие предприятий легкой промышленности является основой стабильной рыночной среды. Кроме того, превосходство предприятий проявляется не за счет конкурентной борьбы, а наличия потенциальных элементов, сбалансированной координации процессов производства и продажи продукции, повторного использования всех видов ресурсов. Отсутствие использования новейших технологий в производстве приводит к росту издержек и снижению эффективности. По этой причине, не представляется возможным повысить конкурентоспособность. Следовательно применение инноваций становится одним из важнейших факторов.

# ОЦЕНКА ЭФФЕКТИВНОСТИ СИСТЕМЫ ВНУТРЕННЕГО АУДИТА НА НЕФТЕХИМИЧЕСКИХ ПРЕДПРИЯТИЯХ

**Баяз АБДУЛЛАЕВА**
*докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности*

**Отзыв:** Алиев Шафа Тифлис оглы, доктор философии по экономике, доцент Сумгайытского Государственного Университета

**Ключевые слова:** внутренний аудит, нефтехимическая промышленность, эффективность, производительность, перерабатывающая промышленность, экономическое развитие

**Введение.** Проблемы планирования оценки эффективности системы внутреннего аудита в нефтехимических предприятиях имеют ряд сложностей и особенностей, поэтому перед планированием подобных работ необходимо тщательно рассматривать все вопросы и элементы эффективности системы внутреннего аудита. До утверждения нормативных документов и регламентов, критерий и принципов, основные мероприятия внутреннего аудита следует рассмотреть и определить важные компоненты по повышению эффективности системы внутреннего аудита на практики. Дело в том, что действия внутреннего аудита должны быть уверенными, качественными, системными, так как качество внутреннего аудита – систематический, независимый и документированный процесс получения соответствующих результатов по реальным деятельностям предприятия с оценкой результатов проверкой и представлением их к рассмотрению высшему руководству нефтехимического предприятия. В первую очередь, внутренний аудит должен проводиться планированно и целенаправленно, адекватно стратегическим целям и задачам предприятия. Поскольку система внутреннего контроля полностью не может обеспечить эффективность всей системы внутреннего контроля корпоративного управления, пока внутренний аудит не будет осуществлять объективную оценку эффективности контроля. А так, если рассмотреть разграничения компетенции внутреннего контроля и внутреннего аудита, то можно увидеть, что основными компетенциями внутреннего контроля являются ответственность за общее состояние контроля, разработка процедур контроля, утверждение политики и процедуры контроля, осуществление ежедневного контроля и прочие, а главной компетенцией внутреннего аудита считается оценка эффективности всей системы внутреннего контроля над нефтехимическими предприятими [1].

Поэтому для объективной оценки всей системы внутреннего контроля предприятия необходимо обеспечить регулярность проведения внутреннего аудита, с оценкой эффективности системы внутреннего контроля, определить подходы риск-менеджмента и прочих нежеланных тенденций в деятельности предприятия, разработать новые механизмы и более действенные инструменты выполнения аудиторских заданий и про-

цедур, обеспечение проведения основных мероприятий внутреннего аудита согласно с предварительным планированием, определить приоритетные процедуры мониторинга и контроля за устранение допущенных ошибок со стороны персонала и менеджмента предприятия и в том числе за устранение выявленных аудиторами разного рода нарушений с ведением общего реестра выявленных нарушений и недостатков по финансово-хозяйственной деятельности предприятия, и наконец, разработать и применить специальные формы анализов и отчётов для руководства и собственников нефтехимического предприятия. В.Хромов и Д.Пашковский подчёркивают, что в последние десятилетия профессия внутреннего аудитора становится востребованной и динамично развивается на просторах экономической жизни хозяйствующих субъектов. Постепенно уходит в прошлое образ ревизора и на смену ему приходит качественно новый специалист, основной задачей которого является помощь руководства компаний в повышении эффективности её деятельности. Каждая организация самостоятельно определяет перечень параметров, характеризующих эффективность и методику планирования оценки службы внутреннего аудита, разрабатывая процедуру расчёта и оценки ключевых показателей с тем, чтобы получить объективную оценку [2].

7. Розничный товарооборот. Доля непродуктовых товаров в общем товарообороте. Министерство Экономики и Промышленности Азербайджанской Республики. http://www.economy.gov.az.

8. Внешняя торговля. Экспорт в страны СНГ. Министерство Экономики и Промышленности Азербайджанской Республики. http://www.economy.gov.az.

9. Внешняя торговля. Экспорт в страны СНГ. Министерство Экономики и Промышленности Азербайджанской Республики. http://www.economy.gov.az.

10. Внешнеторговые связи Азербайджана. Государственный Статистический Коммитет Азербайджанской Республики. Баку, 2016.- 1042 с.

11. Эйвазов А.А. Динамика развития торговых связей между Азербайджнаской и Украинской Республиками//Молодой учёный.-2010.-№3.-С. 143-146.

12. Агаев С.Г., Алиев Ш.Т. Проблемы и перспективы торгово-экономических связей Азербайджана с Россией. Баку: Элм, 2004.-280 с.

13. Алиев Ш.Т. Влияние финансового кризиса мира на экономические процессы Азербайджанской Республики//Журнал Финансы и кредит, №8(344), Москва, 2009.-С. 78-82.

14. Азербайджан наращивает торговые связи с СНГ. International Centre for Trade and Sustainable Development. http://www.ictsd.org.

## Xülasə

## MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN MDB ÖLKƏLƏRİ İLƏ TİCARƏT ƏLAQƏLƏRİNİN MALİYYƏ SABİTLİYİNƏ TƏSİRİ

**Aynur ƏLİYEVA**

*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi,*
*iqtisad üzrə fəlsəfə doktoru*

**Açar sözlər:** Azərbaycan, MDB, ticarət əlaqələrinin inkişafı, maliyyə sabitliyi, ixrac, idxal, effektivlilik

Məqalədə müasir dövrdə Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin maliyyə sabitliyinə təsiri məsələləri tədqiq edilmişdir. Ticarət münasibətlərinin müasir istiqamətləri və SSRİ-nin dağılmasından sonra Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin inkişaf

etdirilməsi üzrə vəzifələri təhlil olunmuş, Azərbaycanın MDB ölkələri ilə ticarət dövriyyəsinin real vəziyyətinə baxılmışdır. Azərbaycanla Rusiya arasında ticarət əlaqələri təhlil edilmiş və iki ölkə arasında ticarət dövriyyəsinin həcminin artırılması üzrə perspektivli istiqamətlər açıqlanmışdır. Məqalənin sonunda Azərbaycanın MDB ölkələri ilə ticarət əlaqələrinin perspektiv istiqamətləri və bunun indiki şəraitdə maliyyə sabitliyinə təsiri ümumiləşdirilmişdir.

**Abstract**

**THE DEVELOPMENT OF AZERBAIJAN'S TRADE RELATIONS WITH CIS COUNTRIES AND ITS IMPACT ON FINANCIAL STABILITY**

**Aynur ALIYEVA**
*Ph.D. of economics, lecturer of Azerbaijan State Economic University*

**Key words:** Azerbaijan, CIS, the development of trade relations, financial stability, export, import, efficiency

The problems and directions of development of trade relations of Azerbaijan with CIS countries and its impact on financial stability is investigated in the article. The current trends of development of trade relations and the main challenges facing Azerbaijan for the development of trade relations with the CIS countries after the collapse of the USSR are analyzed. We consider the real situation of the dynamics of Azerbaijan's trade turnover with the CIS countries. The trade relations between Azerbaijan and Russia and a number of promising areas for trade between two countries are analyzed. The more promising areas of development of trade relations of Azerbaijan with CIS countries in the current environment are given in the end of the article.

# TANAP LAYİHƏSİ VƏ ONUN STRATEJİ ƏHƏMİYYƏTİ

**Təkməz Kulu KORKMAZ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant*

**Rəyçi:** i.e.n., dos. Böyükkişi Nərimanov
**Açar sözlər:** TANAP layihəsi, "Şahdəniz" yatağı, ARDNŞ, BOTAŞ, TPAO şirkətləri, "Statoyl", "Total", BP şirkətləri, "Şahdəniz-2" layihəsi, Ərdəhun, Posot, Türközü, Ərzurum, Asnala, Sivas marşrutu, Yıldizeli, Sıcım, Yüksəl, Akkord ortaqlığı, " TEKFEN" şirkəti

Məqalədə TANAP Layihəsinin yaranmasının zəruriliyi, yaranma tarixi, Türkiyə və Azərbaycan dövlətləri tərəfindən təsdiqlənməsi, göstəriciləri, əhəmiyyəti təhlil olunur. Xüsusilə TANAP layihəsinin hazırlanma mərhələsi, Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanması və Milli Məclis tərəfindən təsdiqlənməsi vurğulanır. Məqalədə TANAP layihəsinin parametrinə, onun həyata keçiriləcəyi dörd mərhələyə, qazın Avropa və Türkiyə arasında bölünməsinə diqqət yetirilir. Məqalədə ARDNŞ-la Türkiyənin BOTAŞ və TPAO şirkətləri arasında investisiyanın, mənfəətin pay bölgüsünə xüsusi əhəmiyyət verilir. Bundan əlavə TANAP layihəsinin Türkiyə ərazisindən keçdiyi marşrut və bu layihəni həyata keçirəcək Türkiyə şirkətlərinin adları açıqlanır. Digər tərəfdən məqalədə Azərbaycanın "Şahdəniz-2" yatağından çıxan qazın hansı ölkələrin marşrutu üzrə nəqli də qeyd olunur.

**Giriş.** TANAP (Trans Anatolian Pipeline) və TAP (Trans Adriatik Pipeline) enerji layihələri istehsalçı ölkələr tərəfindən təklif olunan enerji layihələridir. TANAP layihəsi "Şahdəniz" yatağından çıxarılan qazın Türkiyənin qərb sərhəddinə qədər, TAP isə Yunanıstandan başlamaqla Albaniyadan və İtaliyanın cənubuna kimi nəqlini təmin edən layihələrdir.

Bu layihələrin aktuallığı və zəruriliyi onunla izah olunur ki, idxalçı ölkələrin irəli sürdüyü digər layihə - "Nabuko" layihəsi həm siyasi, həm də iqtisadi təzyiqlərə görə iflasa uğradı. Bəzi siyasi ekspertlər bunu Rusiyanın təzyiqi ilə əlaqələndirsə də, burada digər məqamlar da var. Hər şeydən əvvəl mövcud iqtisadi böhran nəticəsində Yunanıstanda və İtaliyada iqtisadi geriləmə və işsizliyin sayının durmadan artması müşahidə olunur. Belə ki, iqtisadi geriləmə Yunanıstanda ÜDM- də (ümumi daxili məhsul) 2013 - cü ildə 6 %, İtaliyada 7% olmuşdur. Yunanıstanda işsizlik 2013 - cü ilin mart ayına 26,8%, İtaliyada isə 11,4% olmuşdur. Hazırda İtaliyada böhranın qarşısının alınması üçün geniş islahatlar aparılır. Bəzi ekspertlər qeyd edirlər ki, İtaliya böhrandan artıq çıxmışdır və ÜMM (ümumi milli məhsul) defisiti 2% - ə enmişdir. Amma bu, inandırıcı deyil. Çünki Avropa Birliyinin gələcək taleyi böhrandan daha əziyyət çəkən Yunanıstan, İtaliya kimi dövlətlərin iqtisadi sabitliyinin bərpası və işsizliyin aradan qaldırılması ilə müəyyən olunacaq. Bu baxımdan TANAP və TAP layihələri Avropa Birliyi ölkələrinin marağını əks etdirir. Burada əsas məqsəd Avropa Birliyinin böhran üçün ən həssas olan ölkələrin iqtisadiyyatlarını bərpa etməyə şərait yaratmaqdır.

Son zamanlar Şimali Afrikanın və Asiyanın bir sıra ölkələrindən, o cümlədən Əfqanıstan-

dan, Suriyadan, İraqdan, İrandan və s. Avropaya miqrant axını da bu layihələrin aktuallığını zərurətə çevirmişdir.

**Tədqiqat.** Azərbaycan və Turkiyənin siyasi liderlərinin çox mühüm hesab etdikləri TANAP layihəsi məlumdur ki, Azərbaycan qazının bir neçə istiqamət üzrə Avropaya nəqlini nəzərdə tutur.

TANAP layihəsinin hazırlanmasına qısa tarixi ekskursiya edək.

2011- ci ilin dekabrn 29 - da Azərbaycan və Türkiyənin energetika nazirləri TANAP-ın tikintisi üzrə konsorsiunun yaradılmasına dair memorandum imzalamışdır. 2012-ci ilin avqustunda isə Hollandiyadada TANAP Co. şirkəti təsis edildi. Bunun məqsədi boru kəmərinin tikintisini həyata keçirmək, sonra isə onu istismar etməkdir.

2012 ci ilin 26 iyun tarixində Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan Transanadolu təbii qaz kəməri – TANAP müqaviləsini imzaladı [1].

Yeddi milyard dəyərində olan anlaşma, qeyd olunduğu kimi Azərbaycanın Şahdəniz yatağının ikinci fazasında çıxarılan 16 milyard kub metr təbii qazın Türkiyəyə çatdırılmasını nəzərdə tutur.

Baş nazir (hazırda Türkiyə prezidenti) Rəcəp Tayyib Ərdoğan imzalanma mərasimindən sonra bəyan etdi ki, "Bu layihə Türkiyə ilə Azərbaycan arasında strateji əlaqələri dərinləşdirməklə yanaşı, Azərbaycanla Avropa arasında Türkiyə üzərindən üzvi bir əlaqəni təmin edəcək" [1].

Prezident İlham Əliyev isə deyib ki, TANAP yalnız Türkiyə-Azərbaycan layihəsidir və iki ölkənin gücü, maddi və texniki imkanları ilə icra olunacaq. Onun fikrincə, "Bu layihənin reallaşması nəticəsində Türkiyəyə daha çox qaz ixrac edəcəyik və Türkiyə üzərindən Avropanın enerji ehtiyaclarını qarşılayacağıq". Prezident İlham Əliyev həmçinin bildirib ki, müqavilə ilə bağlı rəsmi Ankara ilə heç bir fikir ayrılığı olmayıb. O, xüsusi vurğulayıb ki, "Bu kəmər yüzilliklər boyu maraqlarımızı təmin edəcək" [2].

2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev "Azərbaycan və Türkiyə hökumətləri arasında təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gələn təbii qazın Türkiyəyə satışı və Azərbaycandan gedən təbii qazın Türkiyə ərazisi vasitəsi ilə tranziti haqqında və təbii qazın Türkiyə ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" sazişin təsdiq edilməsi haqqında qanun imzalamışdır.

Eyni zamanda Azərbaycan Respublikasının Milli Məclisin 2012-ci ilin noyabrın 20-si də keçirilən iclasında TANAP layihəsi ilə bağlı iki sazişi təsdiqləmişdir.

Milli Məclis "Azərbaycan Respublikasının hökuməti və Türkiyə Respublikasının hökuməti arasında təbii qazın Türkiyə Respublikasına satışı və Azərbaycan Respublikasından gələn təbii qazı Türkiyə Respublikasının ərazisi vasitəsi ilə tranziti haqqında və təbii qazın Türkiyə Respublikasının ərazisindən nəql edilməsi üçün müstəqil boru kəmərinin inşasına dair" Sazişin təsdiq edilməsi haqqında məsələyə baxmış və sənəd layihəsi səsverməyə çıxarılaraq qəbul edilmişdir. Beləliklə, 2011-ci il oktyabrn 25-də İzmir şəhərində imzalanmış bu saziş təsdiq edilmişdir.

Bundan əlavə Milli Məclisdə "Azərbaycan Respublikası hökuməti və Türkiyə Respublikası hökuməti arasında Trans-Anadolu təbii qaz kəməri sisteminə dair" Sazişin təsdiq edilməsi haqqında məsələ müzakirəyə çıxarılıb və qəbul olunmuşdur. Beləliklə, "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında Trans-Anadolu təbii qaz kəməri sisteminə dair" 2012-ci il iyunun 26-da İstanbul şəhərində imzalanmış saziş təsdiqlənmişdir.

Qeyd etmək lazımdır ki, 2012-ci ilin iyunun 26-da İstanbulda imzalanmış Azərbaycan və Türkiyə arasında TANAP layihəsi 5 il ərzində reallaşacaq və 7 mlrd. ABŞ dollarına başa gələcəkdir. Boru kəmərinin diametri 56 düym və ya 1,4 metr nəzərdə tutulmuşdur. ARDNŞ-ın məlumatına görə kəmərin ölçülərinin belə seçilməsi gələcəkdə onun gücünün tədricən artırılmasına imkan verəcəkdir: "Nəticədə, gələcəkdə kəmərin gücünün artırılması barədə qərar veriləndə bu, yalnız kompressor stansiyalarının gücünün və sayının artırılması hesabına həyata keçiriləcəkdir".

Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaqdır. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd. kubmetrə, 2023-cü ildə 23 mlrd. kubmetrə, 2026-cı ildə isə 31mlrd.kubmetrə çatdırılacaqdır. İlk dövrlərdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd.kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaqdır. Avropa üçün nəzərdə tutulan qaz Turkiyə - Bolqarıstan və Türkiyə -Yunanıstan sərhəddində təhvil veriləcəkdir.

TANAP layihəsində ARDNŞ 80% , Türkiyənin BOTAŞ (15%) və TPAO şirkətləri (5%) və birlikdə 20% paya malikdir. ARDNŞ ona məxsus olan səhmlərin 29% -ni "Şahdəniz" konsorsiumundakı tərəfdaşlarına – BP, "Statoyl" və "Total" şirkətlərinə təklif etmişdir. BP və "Statoyl" bu layihədə hər biri 12% , "Total" şirkəti isə 5% pay əldə etmişdir.

Lakin hüquqi prosedurlar başa çatdıqdan sonra TANAP səhmdarlarının tərkibi aşağıdakı kimi olacaqdır: SOCAR -58%, BOTAŞ -30%, BP-12%.

2015-ci ilin 17 mart tarixində Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçıları Türkiyənin Qars şəhərində TANAP qaz kəmərinin özülünü qoydular [3].

TANAP layihəsi "Şahdəniz" yatağından Türkiyə-Gürcüstan sərhəddindən Türkiyənin qərb sərhədinə qədər nəql edilməsini nəzərdə tutur.

TANAP qaz kəmərinin ilkin buraxılış qabiliyyəti, gözlənildiyi kimi ildə 16 mlrd. kubmetr təşkil edəcək. Altı milyard kubmetrə yaxını Türkiyəyə, qalan hissəsi isə Avropaya nəql ediləcəkdir. Qaz Türkiyəyə artıq 2018-ci ildə çatdırılacaq, TAP qaz kəmərinin tikintisi başa çatdıqdan sonra, təxminən 2020-ci ilin başlanğıcında Avropaya daxil olacaqdır.

BP şirkəti və TANAP konsorsiumu 2015-ci ilin 13 mart tarixində Türkiyədə səhmdar müqaviləsi imzalamışlar. Bu müqaviləyə uyğun olaraq BP TANAP səhmdarlarının tərkibinə daxil olmuşdur. Bu müqavilə TANAP Layihəsində BP-nin paya malik olması üzrə təsis sənədlərdən biridir.

Türkiyə ərazisində TANAP qaz kəmərinin inşasını həyata keçirəcək şirkətlər seçilib.

Türkiyə mətbuatına istinadən verilən məlumata görə, "Şahdəniz-2" layihəsi çərçivəsində çıxarılacaq təbii qazın Türkiyə üzərindən Avropaya nəqlini həyata keçirəcək TANAP boru

kəmərinin inşası ilə bağlı "TANAP Doğalqaz iletim A.Ş" şirkəti tərəfindən açılan 3 lot üzrə tenderin qaliblərini açıqlayıb.

Boru xəttinin Gürcüstan sərhədindən Əskişəhərə qədər olan 1337 km-lik hissəsinin inşası ilə bağlı 2014-ci ilin aprel ayında elan edilmiş tenderə 15 yerli və xarici şirkət dəvət olunmuşdur [4].

Tenderin yekunlarına əsasən birinci lot üzrə kəmərin 375 km-lik ilk hissəsinin (Ərdahan-Posot-Türközü-Ərzurum-Askala) inşasını "Fernas İnşaat A.Ş" , ikinci lot üzrə 375-825 km-ləri əhatə edən hissəsini (Ərzurum-Askala-Sivas-Yıldızeli) inşasını "Sıcım- Yüksəl-Akkord" ortaqlığı, üçüncü lot üzrə 825-1334 km-ləri əhatə edən hissəsinin (Sivas-Yıldızeli-Əskişəhər) inşasını isə "TEKFEN İnşaat və Tesisat A.Ş" şirkətləri həyata keçirəcəkdir.

Qeyd etmək lazımdır ki, TANAP layihəsi çərçivəsində inşa olunacaq qaz kəməri Azərbaycanın "Şahdəniz-2" yatağından çıxan qazın Gürcüstan-Yunanıstan-Albaniya-İtaliya marşrutu üzrə nəqlini nəzərdə tutur.

ARDNŞ-dan bildirilib ki, TANAP layihəsinin reallaşması nəticəsində ARDNŞ-ın Türkiyəyə qoyduğu investisiyaların həcmi 17 mlrd. dollara çatacaqdır. Məlumata görə, bu layihənin reallaşması nəticəsində Türkiyə sənayesinə ən çox investisiya yatıran şirkət ARDNŞ, ən böyük ölkə isə Azərbaycan olacaqdır. ARDNŞ rəhbərliyi layihənin uğurla reallaşdırılacağını əlavə etmişdir: "TANAP layihəsinə vaxtında və heç bir problem yaratmadan tamamlanacağına heç kimin şübhəsi olmasın" [5].

TANAP layihəsinin işə düşməsi "Şahdəniz-2" layihəsi üzrə qaz hasilatına başlaması vaxtı ilə uzlaşdırılıb və 2017-ci il üçün nəzərdə tutulmuşdur.

Qeyd etmək lazımdır ki, "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunacaq təbii qazın nəqlini təmin etmək üçün Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin Azərbaycan və Gürcüstan hissələrinin (Səngəçaldan tutmuş Gürcüstan-Türkiyə sərhəddinədək olan hissə) buraxılış gücünün artırılması da nəzərdə tutulmuşdur.

Azərbaycanın Energetika Nazirliyinin nümayəndələri Almaniyanın tədqiqatçı alimləri ilə görüş zamanı ölkəmizdə neft-qaz hasilatı, emalı, ixracı, enerji layihələri, qeyri-neft sektorunun əsas inkişaf istiqamətləri haqqında məlumat verərək bildirmişdilər ki, Xəzər hövzəsi və Orta Asiya təbii qazının ölkəmizin ərazisindən Avropaya nəqlini nəzərdə tutan "Cənub qaz dəhlizi" layihələri Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayacaqdır. Rəsmi olaraq Azərbaycan hökuməti bu layihələri fəal şəkildə dəstəkləyir. Gündəmdə olan TANAP layihəsinin reallaşması Azərbaycana ilk dəfə Avropa sərhədlərinə çıxmağa imkan verəcəkdir.

Azərbaycanda 2020- ci ildə qaz hasilatının həcmi 54 mlrd. kubmetrə çatdırılacağı nəzərdə tutulmuşdur. Nəzərə almaq lazımdır ki, 2014-cü ildə qaz hasilati 28 mlrd. kubmetr təşkil edib. 2010-cu ildən Azərbaycan qaz idxalatçısından qaz ixracatçısına çevrilmişdir. Azərbaycan Rusiya, İran,Türkiyə, Gürcüstan kimi ölkələrə qaz ixrac edir.

TANAP layihəsi bölgə dövlətləri üçün mühüm siyasi və iqtisadi əhəmiyyət kəsb edir və enerji təminatında bir sıra dəyişikliklərə səbəb ola bilər.

Tədqiqatçıların fikrincə, bu layihə Türkiyə ilə Azərbaycan arasında imzalanmış növbəti

tarixi sazişdir. Hər iki ölkə bölgədə siyasi qətiyyət nümayiş etdirərək ən strateji layihələrə imza atıblar. TANAP-dan əvvəl, 2012-ci ildə İstanbulda imzalanmış strateji əhəmiyyət kəsb edən qaz sazişi regionda əməkdaşlıq və təhlükəsizlik dəhlizinin möhkəmlənməsi üçün yeni təməllər yaratdı. Dünya dövlətləri iki qardaş ölkənin böyük qətiyyət nümayiş etdirərək əsrin ən nəhəng tranzit sazişlərindən birini imzalaması təkcə bu regionun ölkələrinin enerji təhlükəsizliyi üçün deyil, bütövlükdə bütün Avropa üçün strateji əhəmiyyətə malik trans-kommunikasiya şəbəkəsi sistemi kimi qiymətləndirildi. Sazişin imzalanmasından sonra ABŞ hökuməti Azərbaycanın müəllifi olduğu enerji marşrutlarının sırasının daha da genişlənməsini xüsusilə təqdiredici bir bəyanatla çıxış etdi. Həmin sazişin məntiqi davamı olaraq TANAP-la bağlı razılıq əldə olundu.

İqtisadçılar hesab edirlər ki, saziş Azərbaycanın yeni qaz resurslarının dünya bazarlarına geniş həcmli nəqlini nəzərdə tutur. Başqa sozlə, TANAP "Şahdəniz" , "Ümid", "Abşeron", "Alov", "İnam" və digər zəngin qaz yataqlarının uzunmüddətli, bir neçə onilliklər ərzində Avropaya nəqlinə imkan verən ən strateji nəhəng kommunikasiya infrastrukturu deməkdir. Layihə Xəzər regionu ölkələrinin hər birinin əməkdaşlığı üçün əla bir fürsət deməkdir: TANAP layihəsinin seqmentləri o qədər genişdir ki, burada hər bir təchizatçıya geniş yer var, o cümlədən Rusiya və İran da bu layihəyə qoşulmaqla nəhəng bir qaz platforması yaratmış ola bilərlər. Bu marşrutlar şəbəkəsi ilə Avropaya il ərzində 5-dən çox ölkənin qaz ehtiyatlarını nəql etmək olar ki, bu isə illik 50-60 mlrd. kubmetr yanacaq deməkdir. Rusiyanın bu layihəyə qoşulması reallaşdığı halda, "Cənub qaz dəhlizi" ilə vəhdət təşkil edən böyük bir kontinental sistem yaranmış olacaqdır".

**Nəticə.** Nəticə olaraq hər şeydən əvvəl TANAP layihəsinin əhəmiyyəti qeyd edilməlidir. Azərbaycan və Türkiyə arasında imzalanan TANAP layihəsi dünyada enerji təhlükəsizliyinin təmin olunmasına öz töhfəsini verəcək.

TANAP layihəsinin üç ciddi əhəmiyyətini vurğulamaq olar.

Birincisi, bu layihə iki qardaş, dost ölkə arasında, yəni həm Türkiyə, həm də Azərbaycanın enerji təhlükəsizliyi layihələrinin reallaşması istiqamətində iqtisadi vəziyyətin yaxşılaşdırılmasına, iki ölkənin bu sahədə tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə, iqtisadi cəhətdən bir-birinə daha da sıx bağlanmasına istiqamətlənmişdir.

İkincisi, TANAP layihəsi Xəzər dənizinin Azərbaycan sektorunda çıxarılan zəngin qaz ehtiyatlarının (onların miqdarı az deyil, Azərbaycanın hazırda 2,6 trilyon kub metr qaz ehtiyatı var) Türkiyə vasitəsilə Avropa bazarına çıxarılması, birinci əldən reallaşması əldə olunan gəlirin Azərbaycanın və müvafiq olaraq Türkiyənin inkişafına yönəldilməsidir.

Üçüncüsü isə dünyada enerji təhlükəsizliyinin təmin olunmasında, cənubi Qafqaz, o cümlədən Xəzər hövzəsində Azərbaycanın Türkiyə və Gürcüstan, Türkmənistan və digər ölkələrin əməkdaşlıq sahəsinin şaxələndirilməsi, qaz bazarlarına daha çox maye qazın çıxarılması və üçüncü minillikdə dünyada enerji təhlükəsizliyinə töhfənin verilməsidir.

**ƏDƏBİYYAT:**

1. www.tusiab.org/tr/page/6-projelerimiz

2. 2018 Bitiş Tarihi. TANAP.com. Erişim: 21 şubat 2013

3. Pipeline to Ship Azeri Gas to Central Europe, Balkans, WSY Says Bloomberg.com.23 aralık 2011, Erişim: 26 aralık 2011

4. Trans Anadolu Hatt- ında imzalar atıldı Radikal.com.tr.erişim: 26 aralık 2011.

5. Sia.az/sesnews/2014/sesnews-19-09-2014-590.pdf

**Abstract**

**TANAP PROJECT AND ITS STRATEGICAL IMPORTANCE**

**Tekmez Kulu KORKMAZ**

*Ph.D. student of the Azerbaijan Architecture and Construction University*

**Key words:** TANAP Project, "Shah Deniz" field, SOCAR, BOTAS, TPAO companies, "Statoil", "Total", BP companies, "Shah Deniz-2" project, Erdehun, Posot, Turkozu, Erzurum, Asnala, Sivas route, Yildizeli, Sicim, Yuksel, Akkord partnership, "TEKFEN" company

The article mostly focuses on issues such as the importance of the project, its history and approval by Turkey and Azerbaijan, performance, and significance. The preparation phase of the project, its signing by the President of the Republic of Azerbaijan and approval by the National Assembly are particularly underlined. The article also focuses on the parameters of TANAP project, four stages that will be implemented and the distribution of gas between Europe and Turkey. Some issues having the vital importance such as investment and profit-sharing between SOCAR and Turkish BOTAS and TPAO are also stressed in the article. In addition, the route of the project in the territory of Turkey and the names of Turkish companies implementing the TANAP Project is announced in the article. On the other hand, the article focuses on the route of "Shah Deniz 2" project.

**Резюме**

**ПРОЕКТ TANAP И ЕГО СТРАТЕГИЧЕСКОЕ ЗНАЧЕНИЕ**

**Текмез Кулу КОРКМАЗ**

*Азербайджанский Архитектурно-Строительный Университет, докторант*

**Ключевые слова:** проект TANAP, месторождение «Шахдениз» компании ГНКАР, BOTAŞ, TPAO «Statoil», «Total», BP, проект «Шахдениз-2», маршрут Ардахан ПОСОФ,Тюркозу, Эрзурум, Аскала, Сивас, товарищество Йылдызели, Сыджым, Юксел, Аккорд, компания «TEKFEN»

В статье анализируется необходимость создания подписание соглашение проекта TANAP лидерами Турции и Азербайджана и утверждение парламента этих государств, показатели, значение проекта TANAP. В частности акцентируется внимание не подписание президентом Азербайджанской Республики и утверждение Милли Меджли-

сом данного проекта. В статье особое внимание уделяются параметрам и четырем этапам проекта TANAP, а также распределение Азербайджанского газа между Европой и Турцией. Особое значение в статье выделено паевое распределение прибыли и инвестиции между ГНКАР и компаниями BOTAŞ и TPAO. Кроме того раскрывается название маршрута, который будет проходить через территорию Турции, а также названия компаний Турции, которые будут реализовать данный проект. С другой стороны, в статье излагается,  маршрут, по которому будет транспортироваться газ, добывыющийся из месторождений “Шахдениз-2”.

# RƏŞAT NURİ GÜNTƏKİNİN ROMANLARINDA ŞƏXSİYYƏT VƏ CƏMİYYƏT PROBLEMİ

**Günel ZEYNALLI**
*Sumqayıt Dövlət Universiteti, doktorant*

**Rəyçi:** fil.üz.fəl.dok. T.K. Məmmədova
**Açar sözlər:** yazıçı, roman, insan, ictimai mühit

**Giriş.** İnsan xarakterinin inkişafında, onun bir şəxsiyyət olaraq formalaşmasında mühitin çox böyük rolu və təsir gücü vardır. Hər bir şəxs öz fərdi həyatını yaşamaqla yanaşı, cəmiyyətin bir üzvü kimi böyük miqyaslı ictimai proseslerin də iştirakçısı olur. Əlbəttə, bu şans hamıya eyni dərəcədə verilmir. Kim isə ictimai hadisələrdə aparıcı rol oynayaraq bəşər tarixinə daxil olduğu halda minlərlə insan ictimai həyatda subyektdən daha çox bir obyekt olaraq iştirak edir və tarixdə heç bir iz qoymur. İnsan azad doğulur, lakin o, hər yerdə buxovlanır. İnsan o zaman böyük şəxsiyyətə çevrilə bilər ki, onun qərarlaşmış ictimai şüurdan kənara çıxan fərqli ideyası olsun. İnkişafın dialektikası belədir. Eyni səviyyədə olanlar, tamamilə identik olanlar bir-birini inkişaf etdirə bilməzlər. İnkişaf fərqdən yaranır. Əgər yüzlərlə, minlərlə insan içərisində bircə nəfər də “standart” dan kənara çıxa bilsə, yeni ideya verə bilsə hamının bu ideyaya yiyələnməsi, səviyyəcə yüksəlməsi, ictimai inkişaf səviyyəsinin də yüksəlməsi şansı yaranır. Böyük insan xarakterləri, sarsılmaz iradələrin kəskin və dəhşətli mübarizəsi, həyat və tale haqqında mənalı və dərin mülahizələr, ictimai həyat və şəxsiyyət problemi Rəşat Nuri Güntəkin romanlarında başqa bir təravət, başqa bir yenilik qazanmışdır. İyirminci yüz il türk realist ədəbiyyatının ən qüdrətli yaradıcılarından biri olan Rəşat Nuri Güntəkinin bir çox dillərə tərcümə edilərək geniş oxucu auditoriyasının marağına səbəb olmuş əsərlərinin bu və ya başqa səpkidə müzakirə və mübahisə obyektinə çevrilməsi onun yaradıcılıq kredosunu şərtləndirən bəşəri amalların türk millətinin insanlıq anlayışına söykənməsindədir. Əsərlərində əsas konflikt kimi seçilmiş fərd və cəmiyyət qarşıdurması onun yaratdığı qəhrəmanların taleyini müəyyənləşdirən ən mühüm amillərdən biridir. Rəşad Nurinin romanlarını mövzularına görə iki qrupa bölmək olar. Birincisi məhəbbət mövzusunda yazılmış, ikincisi isə ictimai məsələlərə həsr edilmiş romanlardır. Yazıçı istər məhəbbət mövzusunda yazdığı, istərsə də ictimai məsələlərə həsr etdiyi romanlarında dövrün mühüm ictimai-siyasi məsələlərinə toxunmuş, aşağı təbəqədən olan xalqın həyatını, dövlət idarələrindəki haqsızlığı, ümumiyyətlə türk həyatının canlı, real, təbii mənzərəsini vermişdir.

XX əsrin birinci rübündə Türkiyədə roman janrında bir boşluq hiss edilirdi. Hələ İstanbul hüdudlarını aşıb Anadolu həyatından bəhs edən, xalq həyatını əks etdirən sırf milli türk romanı yaranmamışdı. Bu sahədə ilk addımı Rəşad Nuri atdı. O, “Xarabaların çiçəyi” və “Gizli əl” romanlarından sonra 1922-ci ildə nəşr olunan məşhur “Çalı quşu” əsəri ilə roman janrında olan boşluğu doldurdu, Anadolu həyatını türk romanına gətirdi. Bu roman əsrlərdən bəri hüquqsuz və məhkum türk qadınının həyatından bəhs edən ilk milli türk romanı idi. Romanın

baş qəhrəmanı Fəridədir. Xarakter etibarilə şən, şıltaq, çılğın, duyğusal bir qız olan Fəridənin xarakteri düşdüyü çətin vəziyyətlərdə daha da yetkinləşir. Müəllif bu sevimli qəhrəmanı diyar-diyar gəzdirməklə ilk növbədə yaşadığı cəmiyyətin eybəcərliklərini təqdim edir, dövrün ictimai-siyasi panoramasını canlandırır, digər tərəfdən Fəridə diyar-diyar gəzməklə düşdüyü ən ağır vəziyyətlərdə oxucu onun necə iradəli və dözümlü olmasının şahidi olur. Kamranla toylarına üç gün qalmış aldığı məktubun təsiri altında Kamranı tərk edir, müəllimlik ümidi ilə Anadoluya qaçır. Bu yolda onun qarşısına çətinliklər çıxır, tez-tez məktəb dəyişdirmək məcburiyyətində qalır. Bu məcburiyyətlər isə onun gözəl və gənc olmasından irəli gəlir. Namuslu, əxlaqlı olduğundan harada olmasından asılı olmayaraq haqqında artıq söz çıxarılan yerdə qalmır, dərhal başqa yerdə işləməyə gedir. Əsərdə fərdin arzu, istəkləri, durumu ilə cəmiyyət arasındakı ilk konflikt maarif şöbəsində baş verir. Fəridə Maarif Nazirliyində hörmətlə qəbul olunacağını, Anadolunun gözəl məktəbinə düzələcəyini təsəvvür edirdi. Lakin hər şey onun düşündüyü kimi olmur, bir ay nazirliyə gedib gəldikdən sonra çox çətinliklə Anadolunun uzaq qəsəbələrindən birinə müəllim təyin olunur, lakin təyin olunduğu qəsəbədə də süründürülür, maarif müdiri haqsızlıq edib Fəridənin yerinə başqa bir qadın təyin edir, onu isə uzaq bir kəndə göndərir. Əsərin qəhrəmanı nazirlikdən başlamış məktəblərədək ölkənin maarif ocaqlarını gəzdikdə buradakı maarif işçilərinin kobudluğu, riyakarlığı, haqsızlığı, pozğunluğu, yaltaqlığı və s. kimi yaramaz sifətləri oxucunun gözləri qarşısında canlanır və bu qənaətə gəlirsən ki, irəli getmək istəyirsənsə, yaxud arzularının gerçək olmasını istəyirsənsə ya mütləq cəmiyyətdə nüfuzu olan yaxının olmalıdır, ya da pozğun əxlaqlı dövlət məmurlarının yemi olmalısan.

Rəşad Nuri yaşadığı cəmiyyətdə qadınlara ögey münasibəti heç cürə qəbul edə bilmirdi. O, qadınları bütün mənəvi hüquqlardan məhrum etmiş cəmiyyəti ittiham etməkdən çəkinmirdi. Ona görə də bu roman dövrün ictimai-siyasi mənzərəsi fonunda qadın hüquqsuzluğunu əks etdirmək baxımından əhəmiyyətlidir. Ən ağır günlərində belə sınmayan, gələcəyə ümidlə baxan Fəridə harada olmasından asılı olmayaraq xoşbəxt olmağın yolunu tapa biləcəyini düşünür: "Ümidsiz xəstəliklərin, kədərli fəlakətlərin son bir əlacı vardır: təhəmmül və təvəkkül. Qəm-qüssədə sanki gizli bir şəfqət var. Şikayət etməyənlərə, onları gülərüzlə qarşılayanlara qarşı daha az zalım olarlar. Zeynilərdəki bir ay içində elə saatlarım vardı ki, həyatdan bezib: "Əlləşmək nahaqdır, daha dayana bilməyəcəyəm!"-deyirdim. Bax o zaman bu peyğəmbər kimi sözlər mənim dadıma çatırdı [1, səh-153].

Rəşad Nuri Fəridənin timsalında təhsilli, savadlı və sərbəst yaşamaq arzusu ilə həyatın qoynuna atılan hər bir ağıllı, namuslu qadının üzləşdiyi çətinlikləri göstərə bilmişdir və bütün bu çətinliklərə baxmayaraq Fəridə dözümlülük, səbr nümayiş etdirməklə çətinliklərin öhdəsindən gələ bilmişdir. Ayrı-ayrı əyalətlərdə baxımsız, şəraitsiz məktəblərdə müəllimlik edən Fəridə müxtəlif xarakterli insanlarla üzləşir. Hətta özü haqqında belə deyir: "Pis qız deyiləm, kiçik, əhəmiyyətsiz adamları çox sevirəm, amma sərvətləri, yaxud qondarma kübarlıqları ilə öyünənlərə qarşı daim zalımam" [1, səh-249].

Əsərin ilk fəsillərini oxuduqda Fəridədə hələ milli hissin, vətənpərvərliyin olmadığı nəzərə çarpır. Lakin Anadoluda yoxsul kənd uşaqlarının acınacaqlı vəziyyətini gördükdən və bu uşaqların taleyi ilə oynayan bürokrat və savadsız maarif işçilərini yaxından tanıdıqdan sonra

Fəridənin qarşısında həll edilməsi vacib olan ciddi bir məsələ-xalqı savadlandırmaq məsələsi durur. Fəridə qarşısına çıxan çətinliklərə cəsarətlə sinə gərərək, sarsılmaz bir inadla yoxsul kəndli balalarına yardım etmək istəyir. Yazıçı Fəridəni məğrur, dövlətlilər qarşısında əyilməyən, hətta ona göstərilən yardımdan belə imtina edən bir qız kimi təsvir edir.

Rəşad Nurinin romanlarının çoxu üçün belə bir ideya hakimdir ki, yaramaz cəmiyyətdə namuslu, vicdanlı insanların yaşamağı çox müşküldür. Onlar ya bu cəmiyyətin eybəcərliyi ilə barışıb onun quluna çevrilməli, ya da həyatda məhv olmalıdırlar. Yazıçının “Damğa”, “Acımaq”, “Yarpaq tökümü” romanları ictimai quruluşun şikəst və məhv etdiyi namuslu adamların taleyinə həsr olunmuşdur. “Damğa” romanının qəhrəmanı İffət evində dərs dediyi tacirin arvadı Vədiə ilə gizli eşq macərası yaşayır. Bir dəfə İffət Vədiənin yanında olarkən evin bağbanı evə oğru girdiyini zənn edərək polis çağırır. İffət sevgilisinin namusuna ləkə gəlməsin deyə evə oğurluq üçün gəldiyini deyir və polisə təslim olur. Burjua məhkəməsi ona oğru damğasnı vurur. İffət bu damğanın əsl acısını həbsxanadan çıxdıqdan sonra hiss etməyə başlayır. Hər kəs, ən yaxınları, qardaşı belə ondan üz döndərir. İş üçün hara müraciət edirsə onun oğurluq damğası aşkara çıxarılır. İffət burjua quruluşunun ömürlük məhv etdiyi, damğaladığı bir səfildir. O, səfil insanların arasına düşür, ac yatdığı gecələr də olur. Bu gəncin damğası ona hər yerdə mane olur, onu sevmək, ailə qurmaq hüququndan məhrum edir. Onun damğalı olmadığını bilən, vaxtilə İffətin özünü uğrunda fəda etdiyi Vədiədir. Lakin İffət burada da aldanmışdır. Vədiə bu zavallı gəncin namuslu olduğunu bildiyi halda onu rədd edir. Müəllif bu vəziyyəti özünəməxsus paradoksal xüsusiyyətləri ilə diqqətə çatdıra bilir. Namuslu adamlar yaramaz cəmiyyəti ittiham etməkdənsə, həmin cəmiyyət namuslu adamları ittiham edir, onları həyatda artıq insanlara çevirir [2, səh-245]. Yaşadığı cəmiyyətin bütün eybəcərliklərini sükutla qarşılayan İffət “həyatını bir vəhmə qurban etdiyini” başa düşür. İffət namuslu olduğu üçün həyatda özünə lazım olan yeri tuta bilmir. Çünki pulun və zorakılığın hökm sürdüyü cəmiyyətdə namuslu, halal əməklə yoxsulluq və səfalətdən xilas olmaq mümkün deyildir. İffətin məktəb yoldaşı Cəlal onun bədbəxtliklərinin səbəbini belə izah edir: “Bilirsənmi, sənin əsl fəlakətin haradan gəlir? Doğulan gündən bəri namuslu bir adam olmağından...” [3, səh-64]. Acından ölməyib ailəni dolandırmaq istəyirsənsə insana xas olan bütün yaxşı sifətləri-namusu, vicdanı, əxlaqı atmalısan, əks təqdirdə acından ölərsən. Burjua cəmiyyətinin həyat fəlsəfəsi belədir. Sonda İffət də dostu Cəlala qoşulub möhtəkirliklə məşğul olur. Müəllif bu gəncə bəraət qazandırmasa da, lakin müqəssir də saymır. Çünki onları bu vəziyyətə salan mühit, ictimai-siyasi həyatdır.

“Acımaq” romanının qəhrəmanı Mürşüd bir sıra müsbət xüsusiyyətləri ilə diqqəti cəlb edir. Məktəbi bitirdikdən sonra çətinliklə də olsa Anadolu qəsəbələrindən birinə məmur təyin olunan Mürşüdün həyat proqramı bu maddələrdən ibarət idi: vicdanlı olmaq, qanun xaricində iş görməmək, rüşvət almamaq, yalan danışmamaq, yalnız işdə deyil, ümumiyyətlə həyatında da daim namuslu olaraq qalmaq, vəzifəsini şəxsi mənafeyindən üstün tutmaq. Əsəri oxuduqca onun çox çətinliklərlə, haqsızlıqlarla üz-üzə gəldiyinin şahidi oluruq. Anadolunun bütün şərq vilayətlərini gəzən Mürşüd namusla işlədiyi, haqsızlığa, rüşvətxorluğa qarşı mübarizə apardığı üçün dəfələrlə işdən qovulur, iftiralara məruz qalır, məhkəməyə verilir.

Onun bütün fəlakətlərinin səbəbi isə vicdanının səsini dinləməsi və yaşadığı cəmiyyətdəki yaramazlıqlarla barışa bilməməsidir.

M...qəsəbəsində su olmadığı üçün əhali bataqlıqdan su içir. Bu isə uşaqlar arasında yoluxucu xəstəliklərin yayılmasına səbəb olur. O buna göz yuma bilmir, vicdanının səsini dinləyərək qəsəbəyə su çəkdirmək üçün canla-başla işə girişir. Onun bu nəcib hərəkətindən xəbər tutan hakim dairələr onu qanunsuzluqda və dövlət pulunu israf etməkdə təqsirləndirib işdən çıxarırlar. "Proqramdakı iki maddə toqquşurdu. Elə işlər olacaqdı ki, vicdan "et" dediyi halda, qanun "etmə" deyə qadağan edəcəkdi. Həmçinin qanunun tələb etdiyi bəzi şeylər də vicdana toxunacaqdı. Bu vəziyyət qarşısında nə etmək lazımdır?" [4, səh-61]. Mürşüdün yaşadığı kapitalizm dünyasında "vicdan və qanun" bir-birinə tam əks olan məfhumlardır. Vicdanın qəbul etdiyi şeyə qanun yol vermir, qanunun qəbul etdiyini isə vicdan qəbul etmir. Beləliklə, bu çirkin həyat böyük arzularla, nəcib hisslərlə yaşayan Mürşüdün bütün ümidlərini qırır. Mürşüd təkcə ictimai həyatda deyil, şəxsi həyatda da uğursuzluğa düçar olur. "Mələk" kimi tanıdığı arvadı və qaynanasının murdar və əxlaqsız əməllərinin qurbanı olur. Onlar Mürşüdün dövlət pulunu mənimsəməsinə, oğurluq etməsinə, həbsxanaya düşməsinə, səfil həyat keçirməsinə səbəb olurlar. Murdar təbiətli qaynanası və arvadı onu qızları Fərihə və Zəhranın gözündən salmış, uşaqlarda atalarına qarşı nifrət hissi oyatmışdır. Mürşüd yaşadığı mühitin eybəcərliklərinə qarşı mübarizə aparır, lakin mühit bu mübarizənin davamlı olmasına imkan vermir. Hakim quruluş onun alçalmasına, cinayətkar olmasına, səfil həyat keçirməsinə, nəhayət acınacaqlı bir şəkildə ölməsinə səbəb olur. Rəşad Nurinin "Gizli əl" romanında Şərəf bəy, "Damğa" romanında İffət cəmiyyətin məhv etdiyi nəcib, namuslu, təmiz fikirli gənclərdir. Mürşüd də onlardan biridir, amma onlardan fərqli olaraq Mürşüd də bu çirkinliyə qarşı üsyankar ruh hiss olunmaqdadır.

Rəşad Nurinin romanlarında toxunduğu ən mühüm məsələlərdən biri ideal qiymətlərlə real şərtlər arasındakı toqquşmadır. Qəhrəmanlardan bəziləri bu mübarizədə qalib gəlir, bəziləri məğlub olurlar. Əxlaq normalarına sadiq qaldıqları üçün ictimai mövqelərini itirənlər var. Onlar oxucuda dərin məhəbbət hissi oyadırlar. Mürşüd yaşadığı mühiti "böyük zindan" adlandırır. Həbsxana onun üçün daha yaxşı və rahatdır. "Burada nə qədər rahat idim. Gecə-gündüz çalışmağa, çırpınmağa məcbur deyildim. Arağı da buraxmışdım. Əsəblərim düzəlmişdi. Hazır yemək, hazır yataq, qəm yox, qüssə yox. Təəssüf ki, bir həftədən sonra ümumi həbsxanadan çıxıram, böyük zindanıma qayıdıram. İşgəncələrim yenidən başlayacaq, təkrar iş axtarmaq üçün ora-bura getmək, əl-ətək öpmək, ən ağır həqarətlərə boyun əymək lazım gələcək" [4, səh-88].

Digər adı "Xəzan" olan "Yarpaq tökümü" romanı yazıçının digər əsərləri ilə mövzu, problem, xarakter yaradıcılığı baxımından səsləşir. Əsərin əvvəlində əvvəl dövlət idarəsində işləyən, lakin aldığı əməkhaqqı ilə ailəsini dolandıra bilmədiyi üçün işdən çıxaraq ticarətlə məşğul olan sabiq məmurun dilindən verilən sözlərlə müəllif dövrünün real mənzərəsini açıb göstərir. O, namuslu əməklə dolanmağın mümkün olmadığını, pulsuz nə cəmiyyətdə, nə də ailədə səadətin ola bilməyəcəyini söyləyir. Bu sözlər əsərin qəhrəmanı, əxlaqi dəyərlərə hədsiz dərəcədə bağlı olan mənəviyyat sahibi Əlirza bəyin hiddətlənməsinə səbəb olur. Anadolunun bir çox qəsəbələrində, İstanbulda müxtəlif vəzifələrdə çalışan Əlirza bəy işlədiyi müddətdə

bir sıra haqsızlıq və ədalətsizliklərin şahidi olur. Lakin yenə də güman edir ki, namuslu əməklə ailəsini dolandırıb xoşbəxt edə biləcəkdir. Lakin getdikcə yanıldığını görür. Yaşadığı cəmiyyətlə onun həyata baxışı, əxlaqi dəyərləri arasında ziddiyyətlər var. O, aldığı cüzi təqaüdlə ailəsini dolandıracağını, əxlaqlı, tərbiyəli uşaqlar yetişdirəcəyinə inanır. Lakin hadisələrin gedişi bunun tam əksini göstərir. İşdən çıxdıqdan sonra ailəsinin gözündən düşməyə başlayır, evdə heç kim onunla hesablaşmır. Qızları əxlaqca pozulur, oğlu həbsxanaya düşür. Əlirza bəy oğlunun həbsxanaya düşməsini böyük bir ləkə hesab edir və bundan kədərlənir. Bunu görən Şövkət atasına yaşadıqları mühitdə namuslu əməklə dolanmağın onlara heç nə vermədiyini bildirərək: "İnsan olmağa çalışmaq sənə də, mənə də zərərdən başqa bir şey vermədi. Bir az da heyvanlığı təcrübə edək!" deyir [5, səh-80]. "Bir atanın övladlarına buraxacağı ən böyük miras təmiz addır" prinsipi ilə yaşayan Əlirza bəyin uşaqları payız xəzanında ağacdan qopan yarpaqlar kimi bir-bir ailədən ayrılıb məhv olurlar. Əlirza bəy mənən təmiz, saf, bütöv xarakterə malik insan olsa da, mənsub olduğu cəmiyyətin şərtləri daxilində nəinki öz ailəsinin əxlaqını, mənəviyyatını qoruya bilmir, həm də ömrü boyu həyat devizinə çevirdiyi əxlaq prinsiplərindən tədricən vaz keçməyə məcbur olur. Roman oxucuda namuslu türk ailələrini miskin, səfil hala salan və məhv edən ictimai quruluşa qarşı nifrət və qəzəb hissi doğurur.

Rəşad Nurinin demək olar ki, əsərlərinin əksəriyyətində burjua cəmiyyətində pulun insanların mənəviyyatca pozulmasına, insani keyfiyyətləri itirməsinə səbəb olması kimi əhəmiyyətli bir məsələyə toxunulmuşdur. "Atəş gecəsi" romanının qəhrəmanı Kamal əsərin birinci hissəsində namuslu, təmiz qəlblə sevən bir gənc kimi təsvir olunur. Özündən beş yaş böyük olan ailəli xanım Əfifəni dəlicəsinə sevir. O da Kamalı sevsə də, zahirən bu hissini gizlədib onun sevgisini rədd edir, ərinə xəyanət etmir. Vaxtilə hərb möhtəkirliyindən iyrənən, bunu namuslu qazanc yolu hesab etməyən Kamal sonradan həmkarlarının da bu yolla varlandığını gördükdə yumşalır. Varlandıqca mənəviyyatı yoxsullaşır. Vaxtını qadınlarla keçirir, bir sıra əxlaqsızlıqlar törədir. Əsərin ikinci hissəsində on il ayrılıqdan sonra Kamal Əfifə ilə yenidən görüşür. Əfifə yenə də Kamalı böyük məhəbbətlə sevir, amma Kamal buna əhəmiyyət verməyərək onu yenidən sevməyi öz təkəbbürünə sığışdırmır, ondan bir qadın kimi istifadə etməyə çalışır. Göründüyü kimi, müəllifin romanlarından belə nəticəyə gəlinir ki, burjua cəmiyyətində hakim mövqe tutan pul insanları əxlaqsızlıq bataqlığına sürükləyir, onlardakı ən ali insani hissləri öldürür.

Yaradıcılığında tənqidi realizm metodunu əsas götürən, otuz ildən artıq ədəbi fəaliyyət göstərən, ədəbiyyatın bütün janrlarında qiymətli əsərlər yazan Rəşad Nuri Güntəkin xalq həyatından bəhs edən realist milli türk romanının yaradıcılarından və görkəmli nümayəndələrindən biri olmuşdur [6, səh-167]. Romanları ilə türk ədəbiyyatında yeni bir səhifə açdığı üçündür ki, Rəşad Nurinin əsərləri bu gün də öz əhəmiyyətini itirməmişdir.

**ƏDƏBİYYAT:**

1. Rəşad Nuri Güntəkin. Çalı quşu. Bakı, 2006
2. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı, 2014

3. Rəşad Nuri Güntəkin. Damğa. İstambul, 1957
4. Rəşad Nuri Güntəkin. Acımaq. İstambul, 1941
5. Rəşad Nuri Güntəkin. Yaprak dökümü. İstambul, 1944
6. Əhmədov Ə. Rəşad Nurinin romanları. Bakı, 1965

**Abstract**

**THE PROBLEM OF PERSONALITY AND SOCIETY IN THE NOVELS OF RESHAD NURI GUNTEKIN**

**Gunel ZEYNALLI**

*Ph.D. student of Sumgait State University*

**Key words:** writer, novel, man, social environment

Reshad Nuri Guntekin is an outstanding representative of Turkish realist literature. The main theme of his novels is human and social environment, personality and society and conflict between them. According to the writer, being honest and supporting family on your own is difficult in bourgeois society and this society destroys the highest senses of human. People is gradually becoming a part of this ugly society. In the novels of "The Wren", "Stigma", "Sympathize", "Cantor", "The night of fire" the author has reflected of these topical themes.

**Резюме**

**ПРОБЛЕМА ИДЕНТИЧНОСТИ И ОБЩЕСТВА В РОМАНАХ РЕШАД НУРИ ГЮНТЕКИН**

**Гюнель ЗЕЙНАЛЛЫ**

*докторант Сумгайытского Государственного Университета*

**Ключевые слова:** писатель, роман, человек, социальная среда

Решад Нури Гюнтекин является выдающимся представителем турецкой релистической литературы. Главной темой его романов является человек и социальная среда, личность, общество и противоречия, конфликты между ними. По словам писателя, чтобы быть честным и поддерживать собственную семью очень трудно в буржуазном обществе и это общество разрушает самые высокие человеческие чувства. В романах "Королек птичка певчая", "Стигма", "Сочувствовать", "Листопад", "Ночь огня" автор отразил актуальные проблемы жизни народа.

# HEYDƏR ƏLİYEV VƏ SOSİALİZM REALİZMİ ƏDƏBİYYATININ SİMALARI

**Salatın ƏHMƏDOVA**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti, filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçi:** f.e.d. Məhəmmədəli Mustafayev
**Açar sözlər:** Heydər Əliyev, sosialist realizmi, Cəfər Cabbarlı, dramaturq, ədəbi-tarixi proses, ədəbi irs

Heydər Əliyev ümumən XX əsr ədəbiyyatında üç böyük sənətkarı xüsusi qiymətləndirirdi: Sabir, Cəlil Məmmədquluzadə və Cəfər Cabbarlı, Hüseyn Cavidə isə onun rəğbəti misilsiz idi.

H.Əliyevin 1982-ci ildə Cəfər Cabbarlının abidəsinin açılışında söylədiyi nitq müasir Cabbarlışünaslığın nəzəri-tarixi əsaslarını müəyyənləşdirir. Artıq 30 ildir ki, bu nitqdə deyilən nəzəri-tarixi fikirlər elmimizə səmərəli xidmət göstərməkdədir. Onun C.Cabbarlı haqqında əsas qənaətləri öz obyektivliyi ilə elmimiz üçün dəyər kəsb edir: "Cabbarlının həyatı öz böyük istedadını xalqa xidmət göstərməyə həsr etmiş möhkəm əqidəli və coşğun ehtiraslı döyüşçünün, alovlu vətəndaşın həyatıdır.

Şəxsiyyəti dövr, zaman yetişdirir. Çox böyük, orijinal və parlaq istedad sahibi olan Cəfər Cabbarlını da Azərbaycanda Sovet hakimiyyətinin yaradılması və möhkəmləndirilməsi uğrunda mübarizədə günahlandırırdılar.

Cəfər Cabbarlı Azərbaycanda sosializm realizminin banilərindən biridir. Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni tipli sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız real həyatı əks etdirmək vasitəsi deyildir, həm də həyatın mürəkkəb inkişafına fəal müdafiə etmək vasitəsi idi.

Cəfər Cabbarlı vahid, çoxmillətli sovet ədəbiyyatının banilərindən, təməl daşlarını qoyanlardan biri idi... Cabbarlının həyat yolu və yaradıcılıq tarixi heyrətamiz idi. Onun az yaşamasına baxmayaraq qoyub getdiyi zəngin ədəbi irs Azərbaycan ədəbiyyatı və incəsənətinin tarixində bütöv bir dövrü təşkil edir" [1, səh-171].

H.Əliyev C.Cabbarlının çoxşaxəli yaradıcılığının əsas istiqamətlərinə toxunur, onu şair, nasir və dramaturq kimi səciyyələndirir. Onun yaradıcılığını yorulmaz əmək fədaisinin hünəri kimi qiymətləndirir. H.Əliyevin fikrincə müasir Azərbaycan dramaturgiyasının əsasını qoymuş dram əsərləri – "Aydın", "Oqtay Eloğlu", "Sevil", "Almaz", "1905-ci ildə", "Yaşar", "Dönüş" və s. ümumsovet teatr mədəniyyətini zənginləşdirmişdir. M.F.Axundzadə və Mirzə Cəlil ənənələri kontekstində yaranmış C.Cabbarlı dramaturgiyası "Azərbaycan səhnəsində bu gün də gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur" [2, səh-166].

Bu gün xalq şairi, Sosialist Əməyi Qəhrəmanı S.Rüstəmin yaradıcılığına həm ədəbi tənqidin, həm də oxucuların münasibətinin birmənalı olmadığı – ziddiyyətli olduğu bir dövrdə H.Əliyevin onun barəsində bir sovet şairi kimi hələ 1981-ci ildə - 30 il öncə söylədiyi fikir-

lərə nəzər salmağa ehtiyac vardır. Süleyman Rüstəm bir tərəfdən sırf sovet şairi – bolşevizm ideallarına xidmət etmiş şair kimi pislənilir, digər tərəfdən isə qəzəllərinə, müharibə əleyhinə yazılmış əsərlərinə, xüsusən Cənub şeirlərinə görə milli şair kimi təqdir olunur. H.Əliyevin onun haqqında qənaətləri belədir: "Süleyman Rüstəmin şeir sənəti qədim tarixi olan zəngin Azərbaycan poeziyası əsasında, Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin, Vaqifin gözəl ənənələri əsasında, böyük rus klassik poeziyasının təsiri altında dünyaya gəlmiş və inkişaf etmişdir. Onun yaradıcılığı rus sovet poeziyasının nəcib təsiri altında püxtələşmiş, Azərbaycan xalqının milli sərvətinə, Azərbaycan ədəbiyyatının, bütün çoxmillətli sovet ədəbiyyatının incilərindən birinə çevrilmişdir. Səməd Vurğun və Rəsul Rza ilə birlikdə Süleyman Rüstəm ədəbiyyatımızın tarixinə Azərbaycan sovet poeziyasının banilərindən biri kimi daxil olmuşdur" [3, səh-159]. H.Əliyev müəllif mövqeyinin dəqiqliyini, beynəlmiləlçiliyi, baş verən hadisələrə çevik müdaxiləni, Cənubi Azərbaycanın dərdlərindən yazmasını S.Rüstəm yaradıcılığının başlıca xüsusiyyətləri hesab edib dəyərləndirir.

70 illik sovet ədəbiyyatı XX əsr Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsidir. Əsrin ilk 20 ili bizim həm tariximizin, həm istiqlalımızın, həm də dövlətçiliyimizin şərəf zirvəsi idi. Bu zaman milli mətbuat, milli ideologiya, maarif və mədəniyyət yenicə öz məcrasına düşmüşdür. Milli mətbuatımızın "Əkinçi"dən başlayan təşəkkülü yüzlərlə mətbu orqan yaradaraq "Molla Nəsrəddin"də və "Füyuzat"da zirvə məqamına yüksəldi.1920-ci ildə bolşevik işğalı nəticəsində yeni dövlət, onunla birlikdə yeni ictimai-siyasi formasiya yaransa da, 20-30-cu illərdə milli özünüdərk prosesi hələ davam edirdi. 1937-ci ildə bu proses amansızcasına dayandırıldı. Ədəbiyyatımız öz milli varlığını mətnaltı mənalarla, simvollar və rəmzlərlə qorumalı oldu.1934-cü ildə SSRİ Yazıçılarının Birinci Qurultayı və 1936-cı ildə sosializmin tam qələbəsi sovet ədəbiyyatını da bərqərar etdi.SSRİ-yə daxil olan bütün respublikalarda sovet ədəbiyyatı – sosialist realizm ədəbiyyatı və estetikası hökmfərma oldu. H.Əliyev 1980-ci ildə Yazıçıların Ümumittifaq Yaradıcılıq Konfransında bu ədəbiyyatı belə səciyyələndirirdi: "Sovet yazıçıları Vətən və dünya klassikasında ən yaxşı, ən nəcib nə varsa hamısını əxz etmişlər. Onlar özlərinin tarixi vəzifəsini, sosialist cəmiyyəti qarşısında, sovet xalqı qarşısında borcunu, yeni dünyanın ədəbiyyatını təmsil etmək məsuliyyətini heç vaxt unutmurlar. Sovet yazıçısı cəmiyyətin dəyişdirilməsi kimi böyük işdə partiyanın fəal köməkçisidir. Sovet yazıçılarının bir-biri ilə mənəvi doğmalığının çoxəsrlik dərin kökləri vardır. Ölkəmizin müxtəlif xalqlarının övladları olan görkəmli yazıçılar və şairlər humanist dostluq və qardaşlıq ideyalarının carçısı kimi çıxış etmişlər" [4, səh-104].

H.Əliyevin ədəbi-tarixi proses konsepsiyasına "Sovet ədəbiyyatı" anlayışı bədii-fəlsəfi, tarixi-ideoloji mahiyyəti ifadə edən bütöv bir sistem kimi daxil olurdu. Çoxmillətlilik, başqa sözlə desək çoxədəbiyyatlılıq, ümumbəşəriliyi, beynəlmiləlliyi, tolerantlıq, həm xristian, həm də müsəlman əxlaqının qarşılıqlı təması, yüksək humanizm, eyni zamanda gerçəkliyin sərt təsviri bu anlayışı H.Əliyevin yozumunda şərtləndirən başlıca cəhətlər məzmun-məna aspektləri idi.

H.Əliyevin bütün fikirləri mükəmməl məntiqə bağlı olub obyektiv tarixiliyin və müasirliyin açımına xidmət edirdi. O, sovet ədəbiyyatının bədii-fəlsəfi dəyərini də tarixi qüsurlarını

da aydın görür, hansı milli idealları təhrif etdiyini yaxşı bilir, çıxış, nitq və məruzələrində cəsarətlə qeyd edirdi.

Ulu öndər ədəbi-bədii və milli mənəvi dəyərlərə qiymət verilərkən sosioloji amilin şişirdilməsini sovet ədəbi tənqidinin estetik meyarlarındakı naqislik və metodoloji sapıntı kimi tənqid edirdi. Lakin bir başlıca cəhət – keçmişin irsini obyektiv-tarixilik əsasında qiymətləndirmək, yaxşıya yaxşı, pisə pis demək, yəni həqiqəti olduğu kimi göstərmək onun əsas nəzəri-estetik tələblərindən idi. Onun "Sovet ədəbiyyatı" nəzəriyyəsi də məhz belə tələbkarlıq üzərində bərqərar olmuşdur.

**ƏDƏBİYYAT:**

1. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər: Çinar-çap, 2007. - 136 s.
2. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Bakı: Ozan, 1999.- 495s.
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Şərq-Qərb, 2009, 248 s.
4. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə. C.1. : 1969-1982, 1993-1996. Nurlar, 2008. - 504 s.
5. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə. C.2 : 1997-1998. Nurlar, 2008. - 520 s.
6. Heydər Əliyev və mədəniyyət: müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 cilddə.C.3. : 1999-2003. - Nurlar, 2008. - 536 s.

**Abstract**

**HEYDAR ALIYEV AND REPRESENTATIVES OF SOCIALIST REALISM**

**Salatin AHMADOVA**

*Ph.D. on philology, Azerbaijan State University of Architecture and Construction*

**Key words:** Heydar Aliyev, socialist realism, Jafar Jabbarli, playwright, literary-historical process, literary heritage

The attitude of the national leader Heydar Aliyev to the creative work of the representatives of socialist realism of Azerbaijan is studied in the article. Special attention and care of Heydar Aliyev for the personality of great dramatist Jafar Jabbarli is especially emphasized.

**Резюме**

## ГЕЙДАР АЛИЕВ И ПРЕДСТАВИТЕЛИ ЛИТЕРАТУРЫ СОЦИАЛИСТИЧЕСКОГО РЕАЛИЗМА

**Салатын АХМЕДОВА**

*д.ф.ф.н. Архитектурно-Страительного Университета*

**Ключевые слова:** Гейдар Алиев, социалистический реализм, Джафар Джабарлы, драматург, литературно-исторический процесс, литературное наследие

В статье изучается отношение Национального лидера Гейдара Алиева к творчеству представителей литературного направления Азербайджанского социалистического реализма XX века. Здесь, в основном, на первый план выступают особое внимание и забота Гейдара Алиева к гениальному драматургу Джафару Джаббарлы.

# ƏFSANƏ VƏ ROMANTİK METOD: M.FÜZULİNİN "LEYLİ VƏ MƏCNUN" POEMASI

**Sona VƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru*

**Rəyçi:** f.e.d., prof. Qorxmaz Əliyev
**Açar sözlər:** Füzuli, Leyli, Məcnun, əfsanə, romantik metod, dağ, ceyran, maral, çıraq, pərvanə, ay, səba

**Giriş.** Qüdrətli Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvidən sonra Şərqdə çoxlu "Xəmsə" yaranıb. Özbək şairi Əlişir Nəvai, hind şairi Əmir Xosrov Dəhləvi də daxil olmaqla Şərqin onlarla dahi sənətkarı Nizami ənənələrini davam etdirərək dünya ədəbiyyatı və mədəniyyətinə böyük incilər bəxş ediblər. M.Füzuli də bu sıradadır, amma bir fərq var ki, o, Nizami ənənələrinə uyğun olaraq yalnız bir əsər – "Leyli və Məcnun"nu yazıb. Elm və sənət aləminə yaxşı bəllidir ki, M.Füzulinin "Leyli və Məcnun"u Azərbaycan dilində yazılan bütün "Leyli və Məcnun"ların ən parlağı və ən qiymətlisidir. Füzulinin tədqiqatçıları bütün dövrlərdə onun "Leyli və Məcnun" əsərini yüksək qiymətləndirmişlər [1; 2:3]. Amma bir sual ətrafında düşünmək olar ki, niyə Füzuli Nizaminin "Xəmsə"sindən digər əsərləri yox, məhz "Leyli və Məcnun"u seçib?

Bir həqiqət var ki, M.Füzuli kimi dahi bir sənətkar lirik şeirləri ilə nə qədər məşhurlaşsa da, Nizami ənənələrini davam etdirməyə bilməzdi. Ona görə ki, orta əsrlərdə N.Gəncəvinin adı və əsərləri əsl yaradıcılıq meyarı idi. Həmçinin Füzuli Nizamidən sonra öz ruhu, ideyası, geniş mənada dolğunluğu ilə Nizamiyə layiq olan bir əsərin də yazılmasını yaxşı başa düşürdü. Bu mənada o, "Leyli və Məcnun"u seçdi. Əslində "Leyli və Məcnun"un seçilməsini "rum zərifləri", yəni yunan şairləri də ondan xahiş etmişdir:

*"Lütf eylə! - dedilər, - ey süxənsənc!*
*Faş eylə cəhanə bir nihan gənc!*
*Leyli-Məcnun əcəmdə çoxdur,*
*Ətrakdə ol əfsanə yoxdur.*
*Təqrirə gətir bu dastanı,*
*Qıl tazə bu əski bustanı" [4, səh-40].*

Başqa bir amil də ondan ibarətdir ki, gərək sənətkar yazacağı əsərə mənəvi cəhətdən hazır olsun. Füzuli İlahi eşqi əks etdirən «Leyli və Məcnun»u yazmağa tam hazır idi, çünki o, İlahi eşqə bağlı bir şair kimi tanınırdı. Onun daxilində o qədər İlahi və irfani məhəbbət, o qədər mükəmməl bir eşq var idi ki, bunlar "Leyli və Məcnun"u yazmağa tam yetərli idi.

Eyni zamanda Füzuli məhəbbət haqqında xeyli sayda qəzəl yazandan və cəmiyyətdə xeyli məşhurlaşandan sonra "Leyli və Məcnun"u yazmağı qərarlaşdırmışdır. Füzulinin qəzəllərində İlahi eşq də, irfani məhəbbət də kifayət qədər özünə yer tutmuşdu. "Məni candan usandırdın, cəfadan yar usanmazmı?" qəzəlini dərslikdən öyrənənlər, yaxud onu muğam

üstə oxuyanlar və yaxud da "Füzuli" kantatası kimi bir musiqini dinləyənlər çox vaxt bu əsərin bir qıza, bir qadına yazıldığını güman edirlər. Amma bu qəzəldə irfani bir eşq var. Füzulinin başqa qəzəlləri də belədir. Deməli, Füzuli "Leyli və Məcnun"a irfani eşqin dərkindən gəlib və əsas məqsədi də irfani eşqi əks etdirməkdir. Əsrin əvvəllərində tənqidçi Abdulla Sur yazırdı: "Leyli ismətpərvər bir mələkeyi-məhəbbət, Məcnun dəxi sədaqətgüstər bir şeydayi-həqq surətində göstərilməyə çalışılmışdır. Sənətpərdəzanə yazılmış bu əsər sənət və səlasət nöqteyi-nəzərindən ədəbi əsərlərimizin ən mühümlərindən ədd oluna bilir. Ruhşünasə bir tərz ilə bunda bir çox gizli-gizli eşq pərdələri, rəngin-rəngin sevda səhfələri təşhir edilmişdir" [5, səh-487]. M.Füzulidə formalaşmış mükəmməl irfani təlim və mükəmməl irfani təfəkkür "Leyli və Məcnun" mövzusunu yazmağa imkan verirdi. Hətta bu barədə Ə.Hüseynzadənin ayrıca bir məqaləsi də vardır [6]. Məhz bütün bu amillər Füzulinin N.Gəncəvinin "Xəmsə"sindən "Leyli və Məcnun"u seçməsini kifayət qədər şərtləndirir.

Füzulinin "Leyli və Məcnun"u Nizaminin "Leyli və Məcnun"undan fərqlənirdi. Bunun bir səbəbi Füzulinin əsəri ana dilində yazması, digər səbəbi isə poemanın lirik şeirlərlə zənginləşməsi idi. Füzulinin "Leyli və Məcnun"da Nizamidən fərqli olaraq, əsrarəngiz lirika ilə irfani düşüncə birləşdi. Dərin lirika ilə mənalanan eşq təlimi Tanrı sevgisinin dərk olunmasında oxucunun yoluna işıq sala bildi. "Şəriət ibadətlərindən könül ibadətini üstün tutan, haqqa eşqin yaratdığı vəcdlə, həyəcanla, özündən keçməklə qovuşmağın mümkünlüyünə inanan sufilər bunları sistemləşdirərək təriqət adlanan Allaha çatmaq yolunu qurdular" [7, səh-54]. Həqiqət belədir ki, "Füzuli eşqinin təsəvvüfü mahiyyətini inkar etmək olmaz" [8, səh-195]. Əslində Füzulinin "Leyli və Məcnun" əsərində Məcnunun simasında daha qabarıq görünən irfani düşüncə və İlahi eşq məsələsi sənətkarı qırılmaz tellərlə romantik metoda bağlayırdı. Poemanın mətninə hopan, obrazların daxili aləmini zənginləşdirən, oxucunu da öz arxasınca aparan irfani düşüncə romantik əhvali-ruhiyyənin inikası idi.

Nizamidə Məcnunun ahuları və maralı ovçu torundan xilas etmək faktına dayanan təbiətə doğma münasibət bəsləmək, Allahın bütün yaratdıqlarını sevmək ideyası Füzulinin "Leyli və Məcnun"unda daha da dərinləşərək yeni məzmun qazanır. Bu məzmun Məcnunun dağla, ceyranla, maralla söhbətində ifadə olunmuşdur. Yəni artıq Nizaminin Məcnunundan fərqli olaraq, Füzulinin Məcnunu Allahın yaratdıqları ilə söhbət etmək qüdrətinə malikdir. Bu qüdrət öz gücünü məhz irfani düşüncədən alır.

Türk mifologiyasında Dağ obrazının xüsusi yeri var. Folklorşünas alim Cəlal Bəydili yazır: "Kosmik nizamın bütün parametrlərini özündə əks etdirərək dünyanın tam mərkəzində ucalıb sakral güc qaynağı və ulu başlanğıc, soyun əsası, ana yurdun rəmzi kimi qavranılmış dağ mifopoetik dünya modelində dünyanın öz obrazıdır. Etnogenetik miflərdə vurğulanan bir başlıca fikir də ilkin əcdad obrazlarının göy mənşəli olmaqla yanaşı, eləcə də dağla bağlılıqlarıdır. Bu mənada dağlara tapınma türk kosmoqonik görüşlər sistemində əhəmiyyətli yer tutmuşdur. Türk xalqlarının mifoloji ənənəsində sistemli şəkildə qorunması dağa tapınmanın türk tanrıçılığındakı yerini aydın göstərir" [9, səh-160].

Dağın özündə İlahidən gələn bir güc, bir qüvvə var. Dağ Tanrının yaratdığı bir ucalıqdır, böyüklükdür. Quranda Yeri daha da möhkəmləndirmək üçün Allahın dağları yaratmasına dair

ayə də var. Dağın mifoloji təfəkkürdə yer tutması irfani, İlahi bir təfəkkürlə bağlıdır. Dağın danışması, dağdan səs gəlməsi kimi xalq arasında yaşayan və yayılan inamlar onun müqəddəsliyini daha da artırır. Füzuli də poemada Məcnunun vəziyyətini təsvir edərkən dağdan "əksi-avaz" gəldiyini açıqca yazır:

*"Bir dağə irişdi yolda nagah,*
*Qəddinə libasi-vəhm kutah...*
*Məcnun ona eyləyib təmaşa,*
*Bir odlu sürud qıldı inşa.*
*Olduqda sürud ilə nəvasaz,*
*Ondan həm eşitdi əksi-avaz" [4, səh-90].*

Füzulinin "Leyli və Məcnun"unda Dağ həm də cəmiyyətdən uzaqlaşmaq faktıdır. Məcnun camaatın qınağına hədəf olduqdan sonra insanlardan kənar durmağa çalışmış və təbiətə üz tutmuşdur. Digər tərəfdən Məcnunun üzünü dağa tutub onunla danışması Məcnunun özünün də İlahiyə bağlılığını göstərən əlamətdir. Dağ ona qulaq asandan sonra Məcnunun həqiqi aşiq olduğunu dilə gətirir:

*"Bir aşiqi-mübtəla imişsən,*
*Dərd əhlinə aşina imişsən.*
*Sənsən mənə həmdəmi-müvafiq,*
*Dağ ilə olur həmişə aşiq" [4, səh-90].*

Füzulinin "Leyli və Məcnun" əsərində Məcnunun qəzali-ceyran balasını ovçudan alıb azad etməsi Nizamidəki ahuların azad olunmasına bənzəyir, amma fərq ondadır ki, Məcnun ceyran balası ilə danışır, hətta onu özünə yaxın bilir:

*"Ey çeşmi-nigar yadigari*
*Səhl eylə mənə qəmi-nigari!*
*Qıldıqda xəyali-çeşmi-Leyli,*
*Sən ver məni-xəstəyə təsəlli" [4, səh-93].*

Məcnunun ceyran balasına müraciəti cavabsız qalmır. Ahu da ona cavab verir və bu ünsiyyət təbiətdəki digər ahuların da Məcnunla ünsiyyətə qoşulmasına müsbət təsir göstərir:

*"Çün ol, bəşəriyyətin unutdu,*
*Ahu həm onunla üns tutdu,*
*Onun səbəbilə həm çox ahu,*
*Səhradə onunla tutdular xu" [4, səh-93].*

Məcnun kəbutərlə-göyərçinlə də ünsiyyətdə olur. Onda da qəm nişanəsi olduğunu söyləyir. Kəbutəri onunla həmdərd olmağa çağırır:

*"İzhar qılır nişaneyi-qəm,*
*Kim qıldı səni əsiri-matəm?*
*Gər aşiq isən, sən ey cahangərd,*
*Qaçma ki, mənəra səninlə həmdərd.*
*Bir ləhzə mənimlə həmnişin ol,*
*Gəncineyi-razimə əmin ol!*

*Başım tükün aşiyanə qılğıl,*
*Göz yaşımı abü danə qılğıl,*
*Sən qasid imişsən, ey həmamə,*
*Məndən həm ilət nigarə namə!” [4, səh-94-95].*

Dağ kimi ahu da, göyərçin də müəyyən qədər mifoloji təfəkkürdə özünə yer tutubdur. Mişk-ənbərin ahu qanından hazırlanması mifologiyanın açılmayan sirridir. İnsanın göyərçinə dönməsi də mifoloji bir element kimi əfsanə və nağıllarda geniş yayılıb. Bir yerdə başmaq qalıbsa, deməli, kimsə göyərçinə dönüb: “Uçdu getdi, yerdə qaldı başmağı”.

Məcnunun dağ, ahu və göyərçinlə söhbəti, onların dilini başa düşməsi irfani bir təbiətə malik olmaqdan irəli gəlir. Onun təbiətindəki romantik əhvali-ruhiyyə, “Leyli və Məcnun” mövzusu ilə gələn əfsanəvi obrazlar – dağ, ahu, göyərçin Füzulinin mənsub olduğu romantik metodun əsasıdır.

Leylinin Çıraq, Pərvanə, Ay və Səba ilə ünsiyyətdə olması əfsanə və romantik metodun vəhdətini göstərən əyani faktlardır. Bu obrazlar yalnız romantik təbiətli insanın rastlaşdığı obrazlar ola bilərdi. Leyli özünü Çıraqla müqayisə edəndə daha qəmli, daha kədərli olmasını nəzərə çarpdırır.

Füzilinin qəzəllərində çırağı əvəzləyə bilən şam daha geniş yer tutur. Hətta belə demək olar ki, Füzuli qəzəllərində şam onun poeziyasına lirizm gətirən bir xətt kimi keçir. Leylinin bir otaq çərçivəsində - məhdud bir məkanda yaşaması onun məhz həmin məkanda olan əşya və hadisələrə baxışını formalaşdırır. Ona görə də Füzulinin lirik qəhrəmanlarının şama, yaxud da Leylinin çırağa müraciəti son dərəcə təbiidir və onun düşdüyü vəziyyətin əks-sədasıdır.

Şamın da başına pərvanə dolanır və “Şam, sən yanarkən yanıb qurtarırsan, zülümdən azad olursan, amma mən bu iqtidarda deyiləm” – söyləyir. İnsan ölüb hər şeyə son qoya bilər, amma Leyli deyir ki, mən yanıram, amma bu zülmün sonu yoxdur. Yana-yana böyümək nicat əldə edərək eşqə qovuşmaq deməkdir, eyni zamanda Leylinin də eşqinin İlahi eşq olmasına sübutdur. Bu mənada Çırağın yalnız gecələr, Leylinin isə həm gecə, həm də gündüz yanması Leyliyə görə, vəfada və sədaqətdə Çıraqdan neçə mərtəbə yuxarıda dayanmağın nümunəsidir:

*“Mən suxtədən həm olma qafil,*
*Məndə dəxi var bir qəmi-dil.*
*Mən həm sənə bənzərəm vəfadə,*
*Bəlkə neçə mərtəbə ziyadə.*
*Sən gecə həmin yanarsan, ey zar!*
*Mən gecəvü gündüzəm giriftar” [4, səh-98].*

Leyli Pərvanəyə müraciətində Pərvanənin daha sərbəst olmasını, istədiyi yeri rahat seyr etməsini onun xoşbəxtliyi hesab edir. Pərvanənin xoşbəxtliyi bir də ondadır ki, istədiyi vaxt özünü oda vurub məhv edə bilir, amma Leyli bunlardan məhrumdur:

*“Məncə ola səndə şövqi-didar.*
*Sən seyrdəsən həmişə sərməst,*
*Mən dami-bəladə dərdə pabəst.*
*Dünlər sənə dust həmnişindir,*

*Hicran mənə müttəsil qərindir.*
*Bir şöləyə sən nisar edib can,*
*Düşvar qəmin qılırsan asan.*
*Mən can ilə istərəm çəkəm qəm,*
*Min can dilərəm qəm içrə hər dəm" [4, səh-100].*

Leyli Aya müraciətində isə birinci növbədə onu eşq möhnətindən xəbərdar olan bir obraz kimi tanıdığını söyləyir. Nizamidə Məcnun Leylinin gözəlliyini ayla müqayisə edir, Fizulidə isə Leyli özü ayla ünsiyyətdədir. Leyli ona bildirir ki, sən gəzirsən, azadsan, amma mən dörd divar arasındayam. Leylinin Aya müraciəti sevgisini içində gizlətməsinin, özündən başqa bir kimsəyə aça bilməməsinin, hətta gizli üsyan etməsinin ifadəsidir.

Fürsət düşmüşkən Ayın onun dərdinə bir çarə qılmasını arzulayır. Leyli həm Ayın dünyanın hər tərəfini gəzməsinə qibtə edir, həm də Ayın onun qəm-kədərlə dolu vəziyyətini Məcnuna çatdırmasını istəyir:

*"Ey möhnəti-eşqdən xəbərdar,*
*Gör, Tanrı üçün, nə möhnətim var!*
*Qıl şöleyi-ahimə nəzarə*
*Gər var isə rəhmin, eylə çarə!*
*Seyr eylə fəzayi-hər diyari,*
*Gəz cümleyi-dəştü kuhsari.*
*Gör qandadır ol mənim pənahim*
*Şahim, mahim, ümidgahim!*
*Hali-dilim ona ərz eylə,*
*Billah, necə gördün isə söylə!" [4, səh-102].*

Səbaya gəldikdə isə Leyli onun bir yerdən başqa yerə getməyinə həsəd aparır və düşdüyü halının Məcnuna çatdırılmasını istəyir:

*"Mən bərgi-xəzanəm, olmuşam xar,*
*Sən tazə baharəsən tələbkar.*
*Hər necə ki, xarü xakisarəm,*
*Həm şəfqətinə ümidvarəm" [4, səh-103].*

Bütün bunlar Leylinin romantik duyğulu bir obraz olmasının əlamətidir. Çıraq, Pərvanə, Ay və Səba ilə danışmaq Fizulinin lirikasında tarixi bir yenilik idi. Leylinin bu obrazlara müraciəti onların Leylini dinləyib başa düşəcəklərinə inamdan irəli gəlirdi. Bu isə Leylinin Məcnun kimi irfani təbiətə malik olmasının təsdiqi deməkdir.

M.Füzulinin "Leyli və Məcnun" poemasında romantik düşüncə ilə həqiqətin toqquşması "Leyliyə anasının nəsihəti" fəslində daha bariz şəkildə özünü göstərir. Leylinin anası qızının məhəbbəti ilə bağlı söz-söhbətin yayılmasından narahat olaraq Leyliyə nəsihət verir, onu bu yoldan çəkindirmək istəyir:

*"Key şux! Nədir bu köftügulər,*
*Qılmaq sənə tənə eybculər?*
*Nəyçün özünə ziyan edirsən?*

*Yaxşı adını yaman edirsən?*
*Nəyçün sənə tənə edə bədgu?*
*Namusuna layiq işmidir bu?*
*Nazik bədən ilə bərgi-gülsən,*
*Əmma nə deyim ikən yünülsən!*
*Lalə kimi səndə lütf çoxdur,*
*Əmma nə deyim, üzün açıqdur.*
*Təmkini cününə qılma təbdil!*
*Qızsan, ucuz olma, qədrini bil!" [4, səh-55].*

Qız tərbiyəsi bütün dövrlərdə ananın adı və şərəfi ilə bağlıdır. Bir qız öz anasının yeni təzahürüdür. Anasının Leyliyə nəsihəti Leylinin anası tərəfindən yüngül olmamasına çağırışdır. Gül yarpağı kimi zərif olan bir qızın özünü ucuz tutması, yaxşı adını yaman etməsi bağışlanmazdır. Anası ona su kimi hər tərəfə axmamağı, külək kimi hər yana əsməməyi, bir kimsə ilə oturub-durmamağı məsləhət görür. Aşiqlik işinin qızlara yox, oğlanlara aid olduğunu söyləyir:

*"Oğlan əcəb olmaz olsa aşiq,*
*Aşiqlik işi qıza nə layiq?" [4, səh-56].*

Anasının Leyliyə olan bu nəsihətinə bir türk düşüncəsi hakimdir. "Leyli və Məcnun" ərəb əfsanəsidir, Leylinin anası da ərəb qızıdır, amma onun qızına nəsihətində gözlərimiz qarşısında türk əxlaqına yiyələnmiş bir türk xanımı canlanır. Anasının Leyliyə nəsihəti bu ailənin bir türk ailəsi olması təsəvvürünü də yaradır. Bu, böyük türk sənətkarı Füzulinin özünün poetik gedişidir.

Əslində Leylinin anası da Leylinin xoşbəxt olmasını arzulayır. Amma bununla yanaşı, ortada əsil-nəcabət, bir ailənin qızının adının dilə-dişə düşməsi məsələsi var. Yerli-köklü qıza veriləcək bir nəsihətdə dövrün əxlaqi tələbi də mühüm rol oynayır: qız ağır olmalıdır, qoy onu istəsinlər, dərdindən dəli-divanə olsunlar, amma qız bu istəyə açıq şəkildə münasibət ifadə edə bilməz. Ailə namusu, ailə şərəfinin bütün məhəbbətlərdən üstün tutulması kimi bir öyüd-nəsihətin olması türkün ailəyə, namusa, qadına olan tarixi düşüncəsinin ifadəsidir və Leylinin anasının dili ilə sonrakı nəsillərə, hətta tarixə mesaj kimi ötürülür.

Leylinin atasına gəldikdə isə o, şərəfli bir qəbilənin başçısı kimi birinci özünü düşünür: "Məcnun deyə tən eləyir xəlayiq, Məcnuna mənim qızım nə layiq?" – deyir. Xalqın deyəcəyindən başqa bu gün də «Ata bilsə nə deyər?» - ifadəsini tez-tez işlədirik. Əslində bu da türk düşüncəsidir.

Bu gün bütün türk düşüncəsində, türk ədəbiyyatında həmişə "ata bilsə nə olacaq?" söhbəti var. Ona görə də real həyatda müəyyən bir məsələ ataya gedib çatana qədər ana onu həll etməyə çalışır. Bu baxımdan professor Şamil Vəliyev Abdulla Surun "Füzuliyə bir nəzər" məqaləsini təhlil edərkən çox doğru olaraq yazır: "Abdulla Sur Füzuli poeziyasında saf və səmimi məhəbbət hisslərinin tərənnümünü müsbət qəhrəmanla əlaqələndirir, sənətkarlıqla işlənmiş "Leyli və Məcnun"əsərinin baş qəhrəmanlarını bu baxımdan təhlilə çəkirdi. Füzuli lirikasından gələn həzinlik və müqəddəslik daşıyıcıları olan Leyli və Məcnunun bədii obrazı

tənqidçini əxlaqi-mənəvi baxımdan düşündürürdü" [10, səh-190-191].

Gördüyünüz kimi "Anasının Leyliyə nəsihəti" fəslində Fizuli türk əxlaqını və ailə gələnəklərini, türk düşüncəsini ustalıqla gələcəyə ötürə bilib. Ata səviyyəsinə qalxınca məsələni ana həll etmək istəyir. Amma həll edə bilməz, çünki burada əfsanələşmiş bir ilahi sevgi var. Leyli bu sevgini boynundan atır və ona görə də: «Mən şəm kimi içimdə yanıram» - deyir. Qəribə burasıdır ki, Leyli özü də bəzən nələrin baş verdiyini anlaya bilmir. Çünki o, eşq missiyasının daşıyıcısıdır, əks təqdirdə ərə getdiyi adama təslim olardı. Leyli bu eşqi zəmanəsinə tanıtmalıdır. Tanrıdan verilən təmiz ruhunu o, Tanrıya qaytarmalıdır.

**ƏDƏBİYYAT:**

1.Araslı H.Böyük Azərbaycan şairi Füzuli. Bakı,"Uşaqgəncnəşr", 1958, 312 s.
2.Cəfərov M.C. Füzuli düşünür. Bakı, "Uşaqgəncnəşr", 1959, 236 s.
3.Kərimli Teymur. Görünməyən Füzuli. Bakı, "Elm", 2003, 112 s.
4. Füzuli Məhəmməd. Əsərəri, II cild, "Şırq-Qərb", 2005.
5.Sur Abdulla. Füzuliyə bir nəzər.-"Füyuzat" jurnalı, 1907, N31, s.481-489
6.Hüseynzadə Ə. Füzuli və təsəvvüf. –"Maarif və mədəniyyət" jurnalı, N 1.
7.Bayat Füzuli. Tarixi gerçəklik.-Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, X11 cild, s.47-72.
8.Əliyeva Gülşən Kəngərli. Azərbaycan füzulişünaslığı. Bakı, Çaşıoğlu, 2007, 312 s.
9.Bəydili Cəlal. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı, Mütərcim, 2007, s.160.
10.Vəliyev Şamil (Körpülü). Füyuzat ədəbi məktəbi. Bakı, "Elm", 1999, 443 s.
11.Mir Cəlal. Füzuli sənətkarlığı. Bakı, "Maarif", 1994, 252s.

**Abstract**

**THE LEGEND AND ROMANTIC METHOD:**
**THE POEM OF "LEYLA AND MAJNUN" BY M.FUZULI**

**Sona VELIYEVA**
*Ph.D on philology*

**Key words:** Fuzuli, Leyla, Majnun, legend, romantic method, mountain, gazelle, deer, lamp, moth, moon, zephyr

The poem of "Leyla and Majnun" by Fuzuli is a worthy continuation of Nizami's traditions in native language. Majnun saves gazelles and deer from the hunter's net. His talk with mountain, gazelle, deer is extraordinarily impressing. Leyla's conversation with lamp, moth, moon and zephyr plays an important role in the opening of her character. The unity of legend and romantic method, lyrics and mystic thought are clear in the poem. Fuzuli achieved the revival of Turkish thought and Turkish morality with the poem of "Leyla and Majnun".

**Резюме**

**ЛЕГЕНДА И РОМАНТИЧЕСКИЙ МЕТОД: ПОЭМА «ЛЕЙЛИ И МЕДЖНУН» М.ФИЗУЛИ**


**Сона ВЕЛИЕВА**

*Доктор философии по филологии*



**Ключевые слова:** Физули, Лейли, Меджнун, легенда, романтический метод, гора, газель, олень, лампа, бабочка, луна, ветер

Поэма «Лейли и Меджнун» М.Физули достойное продолжение традиций Низами на родном языке. Меджнун спасает газелей и оленя из сети охотника. Его беседа с газелем, с горой, с оленем создает необычное впечатление. Также общение Лейли с лампой, бабочкой, луной и ветром играет большую роль в раскрытии ее характера. В поэме явным образом чувствуется союз легенды с романтическим методом, лирики с мистическим мышлением. В поэме «Лейли и Меджнун» Физули смог олицетворить тюркское мышление и тюркскую мораль.

# UŞAQ NİKAHI, ERKƏN NİKAH VƏ YETKİNLİK YAŞINA ÇATMAYAN UŞAQLARIN NİKAHI ANLAYIŞLARININ MÜQAYİSƏLİ TƏHLİLİ

**Cavad MUSTAFAZADƏ**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** Sosial iş fakültəsinin dekanı, iqtisad üzrə fəsəfə doktoru Musayeva Aygün Akif qızı

**Açar sözlər:** uşaq nikahı, erkən nikah, yetkinlik yaşına çatmayan şəxslərin nikahı, sosioloji sorğu, nikah yaşı

Keçmişdən çağdaş dövrümüzə qədər insanların daim rastalaşdığı müxtəlif məsələlər, problemlər, hallar və s. olmuşdur. Müasir cəmiyyətlər üçün narahatedici mövzulardan biri də tamamilə yetişkin orqanizmə və psixoloji duruma sahib olmayan uşaqların evləndirilməsidir. Fiziki və psixoloji cəhətdən tam yetişməyən uşaqların evləndirilməsi hər bir cəmiyyət üçün yeni problemlərin (məsələn, təhsil, səhiyyə, hüquqi, iqtisadi) yaranma mənbəyinə çevrilir. Mövzunun aktuallığı məhz bu cür şəxslərin evləndirilməsi nəticəsində cəmiyyətin inkişafına mane olan halların yaranması və Azərbaycanda olan bir çox media qurumlarının nümayəndələri, yazarlar, müəlliflər, bloqqerlər, müstəqil jurnalistlər, sosial işçilər tərəfindən işlədilən "erkən nikah" və "yetkinlik yaşına çatmayan şəxslərin nikahı" anlayışlarının "uşaq nikahı" anlayışı ilə əvəz edilməsini tövsiyə etməklə əlaqədardır. Məqalənin əsas yeniliyi "uşaq nikahı", "erkən nikah" və "yetkinlik yaşına çatmayan şəxslərin nikahları" anlayışlarının müqayisəli təhlili və hansına üstünlük verməli olduğumuzun əsaslandırılmasından ibarətdir.

Azərbaycan Respublikasında ailə ilə bağlı münasibətlərin tənzimlənməsinin əsasında Azərbaycan Respublikasının Konstitusiyası dayanır. Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsinin 1-ci bəndinə əsasən cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir [1]. Bu o deməkdir ki, ailə cəmiyyətin əsasını təşkil edən bir institut hesab edilir. Fiziki və psixoloji cəhətdən tam yetişməmiş uşaqların ailə qurmağa meyillənməsi və ya onların ailə qurmağa məcbur edilməsi (ailə üzvləri, qohumları, olduğu icmanın digər üzvləri tərəfindən) cəmiyyət üçün təhlükə mənbəyidir. Bu təhlükənin qarşısının alınması məqsədilə bu sahədə peşəkar maarifləndirmə prosesinin həyata keçirilməsi zəruriyyəti var. Bu məqalə ilə qeyd olunan problemin müvafiq anlayışla ifadə edilməsini müəyyən etməyə çalışmaq cəmiyyətin bu problemə diqqətini yönəltmək üçün əhəmiyyətlidir.

Sosial iş ixtisası üzrə Azərbaycan Universitetində təhsil alan tələbələrlə sosioloji sorğu keçirilib. Sosial iş ixtisası üzrə təhsil alan 39 tələbə arasında aparılan sosioloji sorğu nəticəsində aşağıdakı statistik göstəricilər ortaya çıxmışdır.

| 18 yaş altında olan şəxslərin evlənməsini hansı anlayışla ifadə etmək istərdiniz? | | |
|---|---|---|
| Uşaq nikahı | Yetkinlik yaşına çatmayan şəxsin nikahı | Erkən nikah |
| 1 | 11 | 27 +1 |

Aparılan sorğunun nəticəsinə əsasən, sosial iş ixtisası üzrə təhsil alan 11 tələbə yetkinlik yaşına çatmayan şəxslərin nikahı anlayışına, 27 nəfəri erkən nikah anlayışına üstünlük vermiş, 1 tələbə isə uşaq nikahı anlayışı ilə erkən nikah anlayışı arasında seçim edə bilməmişdir. Sorğudan bizə məlum olur ki, 18 yaş altında olan şəxslərin evlənməsini "uşaq nikahı" anlayışı ilə ifadə etmək barədə sosial iş ixtisası üzrə təhsil alan tələbələrin bilgiləri yoxdur. Sosial işçilərin daha çox bu problemlə maraqlandığını nəzərə alaraq qeyd edə bilərik ki, cəmiyyət üzvlərinin böyük bir qismi bu problemi "uşaq nikahı" anlayışı ilə ifadə etmək təsəvvürünə malik deyildir.

Bəs fiziki və psixoloji cəhətdən yetişkin olmayan uşaqların nikaha girməsini hansı anlayışla ifadə etmək doğru olar?

20 noyabr 1989-cu il tarixli BMT-nin "Uşaq hüquqları Konvensiya"sının 1-ci maddəsinə əsasən, hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın [2].

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 49-cu maddəsinin 1-ci bəndinə əsasən, 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar [3].

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunun 1-ci maddəsinə əsasən, uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxsə aid edilir [4].

Azərbaycan Respublikası Konstitusiyasının 17.2-ci maddəsinə əsasən, uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Azərbaycan Respublikası Konstitusiyasının 34-cü maddəsinə əsasən, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur [5].

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 28.2-ci maddəsinə əsasən, fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti, o, yetkinlik yaşına, yəni on səkkiz yaşına çatdıqda tam həcmdə əmələ gəlir [6].

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər [3].

Qeyd olunan normalardan aydın olur ki, həm milli qanunvericilik aktlarına, həm də beynəlxalq sənədlərə əsasən 18 yaşı tamam olmamış şəxslər uşaq hesab edilir və onların tam

fəaliyyət qabiliyyəti olmur. Yalnız istisna hallarda nikah yaşı uşaqlar üçün 1 yaş azaldıla bilər.

Azərbaycan Respublikasının qanunvericilik aktlarının normalarından bəlli olur ki, uşaqların nikaha daxil olması ilə bağlı münasibətlərə konkret anlayış verilməmişdir. Lakin qanunvericiliyə ümumi nəzər yetirdikdə görünür ki, uşaqların nikaha daxil olması ilə bağlı münasibətlər "yetkinlik yaşına çatmayan şəxslərin nikahı" və ya "nikah yaşına çatmayan şəxsin nikahı" adlandırılır. Cəmiyyətimizdə ümumişlək anlayış olan "erkən nikah" anlayışına isə milli qanunvericilik aklarımızda rast gəlinmir. Hər üç anlayış uşaqların nikaha girməsi problemini özündə ehtiva etsə də, hesab edirik ki, uşaq nikahları anlayışı bu anlayışlar arasında ən məqbul olanıdır.

Belə ki, müxtəlif ölkələrin qanunvericilik aktlarına nəzər yetirdikdə məlum olur ki, ayrı-ayrı ölkələrdə nikah yaşı fərqli müəyyən edilmişdir. Məsələn, Əlcəzairdə nikah yaşı qadınlar üçün 18, kişilər üçün 21, Avstriyada həm kişilər, həm də qadınlar üçün 16, Kamerunda qadınlar üçün 15, kişilər üçün 18, Finlandiyada hər iki cins üçün 21, Paraqvayda hər iki cins üçün 16, Tailanda hər iki cins üçün 17, Venesuellada qadınlar üçün 14, kişilər üçün 15, Yəməndə hər iki cins üçün 16 yaş, Qvineyada isə hər iki cins üçün 12 yaş müəyyən edilmişdir. Maldiv və Qambiada hər iki cins üçün, İranda isə yalnız kişilər üçün yaş limiti qoyulmamış, qadınlar üçün isə nikah yaşı 15 yaş müəyyən edilmişdir [6] . Qeyd olunanlardan görünür ki, müxtəlif cəmiyyətlərdə nikah yaşı həmin cəmiyyətlərin öz normalarına uyğun olaraq müəyyənləşdirilir. Əlavə olaraq qeyd edək ki, UNİCEF-in verdiyi informasiyaya görə bu gün bütün dünyada 700 milyon qadın eviliyi uşaq kimi yaşayır. Onlardan 250 milyonu isə 14 yaşına çatmamış evləndirilir. Həmçinin UNİCEF-in qarşısına qoyduğu məsələlərdən biri 2030-cu il tarixədək uşaq nikahlarının sayını 570 milyona, 2050-ci il tarixədək isə 450 milyona çatdırmaqdır [7].

Nikah yaşının bütün mövcud cəmiyyətlər üçün standart olmaması və ümumqəbul olunmuş beynəlxalq sənədlərdə 18 yaşınadək şəxslərin uşaq hesab edilməsini nəzərə alaraq 18 yaşadək şəxslərin nikaha girməsi anlayışının "uşaq nikahı" anlayışı ilə ifadə edilməsinin daha məqsədə müvafiq hesab etmək olar.

"Uşaq nikahı" anlayışını məqsədə müvafiq hesab etməyimizə əsas təkanverici səbəblərdən biri cəmiyyətin "erkən nikah" anlayışına laqeyd yanaşması, "yetkinlik yaşına çatmayan şəxslərin nikahı" anlayışının isə çox sözdən ibarət olması, ancaq hüquq yönümlü insanlar arasında ümumişlək olmasıdır. Həmçinin "yetkinlik yaşına çatmayan şəxs" anlayışı tamamilə hüquqi kateqoriyadır və sadəcə 18 yaşadək insanların müəyyən hüquqlar əldə edə bilməsini sistemləşdirmək üçün yaranmış bir anlayışdır.

İstər "yetkinlik yaşına çatmayan şəxslərin nikahı" , istərsə də "erkən nikah" anlayışları insanlara bir o qədər də emosional təsir etmir. Yəni insanların artıq qulaqları bu anlayışlara öyrəşdiyindən yeni, daha çox emosianal təsiretmə gücünə malik anlayışdan istifadə edilməsi müsbət nəticələrə gətirib çıxarır. Lakin cəmiyyətimizdə uşaqlara xüsusi məhəbbətin, diqqətin və qayğının olması bir çox fərdlərə psixoloji cəhətdən də təsir edə bilər ki, uşaqların nikaha daxil olmasının qarşısının alınması tədbirlərində aktiv fəaliyyətə qoşulsunlar. Bununla yanaşı

bu anlayışın daha geniş yayılması 18 yaşadək şəxslərin uşaq hesab edilməsi ilə bağlı halın insanlar arasında populyarlaşmasına gətirib çıxaracaq.

Həmçinin apardığımız sorğunun nəticəsində də bəlli olmuşdur ki, "uşaq nikahı" anlayışı Azərbaycan cəmiyyətində bilinmir. Azərbaycan cəmiyyətində əsasən 18 yaşadək şəxslərin nikaha girməsi "erkən nikah" anlayışı ilə ehtiva olunur. Hesab edirik ki, "uşaq nikahı" anlayışının gündəmə gətirilməsinə xüsusi ehtiyac var. Yazılan məqalələrdə, esselərdə, dissertasiya işlərində, monoqrafiyalarda, milli qanunvericilik aktlarında və s. sənədlərdə "uşaq nikahı" anlayışının işlədilməsi bu problemin həlli istiqamətində faydalı olacaqdır.

Beləliklə, 18 yaşınadək şəxslərin nikaha girməsi probleminin "uşaq nikahı" anlayışı ilə ehtiva olunmasının Azərbaycan cəmiyyətində aşağıdakı faydası ola bilər:

1. Uşaqlara qarşı xüsusi simpatiyası olan daha çox şəxsin bu problemin qarşısının alınması istiqamətində fəallaşmağa vadar edə bilər;

2. Yeniyetməlik dövründə olan uşaqların özlərinin bu problemə diqqətinin artırılması ilə nəticələnə bilər.

**ƏDƏBİYYAT:**

1. http://data.un.org/Data.aspx?d=GenderStat&f=inID:19 - 24 oktyabr 2016, 12:42
2. http://www.miqrasiya.nakhchivan.az/ru/images/stories/konvensiyalar/7.pdf - 24 oktyabr 2016, 12:29
3. http://e-qanun.az/code/10 - 24 oktyabr 2016, 12:29
4. http://e-qanun.az/framework/3292 - 24 oktyabr 2016, 12:31
5. http://e-qanun.az/framework/897 - 24 oktyabr 2016, 12:27
6. http://e-qanun.az/code/8 - 24 oktyabr 2016, 12:28
7. http://www.unicef.org/protection/57929_58008.html - 24 oktyabr 2016, 12:43

**Abstract**

**COMPARATIVE ANALYSIS OF THE CONCEPTS OF CHILD MARRIAGES, EARLY MARRIAGES AND MARRIAGES OF UNDERAGE PEOPLE**

**Javad MUSTAFAZADA**
*Graduate student of Azerbaijan University*

**Key words:** child marriage, early marriage, marriage of the underage people, sociological survey, the age of marriage

In modern society there are used a number of different concepts in order to name the family relations. As we know, in many countries, as well as in Azerbaijan, people under the age of 18 are getting married either voluntarily or forcibly. With the purpose of defining such types of marriages, the concepts such as "child marriage", "marriage of the underage people", and "early marriage" are used.

Within the presented article, the above-mentioned three concepts are analyzed comparatively. It mentiones that the family exists as one of the main columns of the society. Namely

from this point of view, it is necessary to use the appropriate term for proper call of the children under the age of 18. The article presents the results of the sociological survey made among the students of the Azerbaijan University. The attitude of the students to the concept of “child marriage” is identified there. The information on marriage age in different countries is given related to the research topic. The article referres to the national and international documents on the concept of “child marriage”. The concepts of “child marriage”, “marriage of the underage people”, and “early marriage” are analyzed comparatively, proved the necessity of making one of this concepts more common and its benefit is identified.

**Резюме**

**СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ПОНЯТИЙ "ДЕТСКИЙ БРАК", "РАННИЙ БРАК" И "БРАК НЕСОВЕРШЕННОЛЕТНИХ ДЕТЕЙ"**

**Джавад МУСТАФАЗАДЕ**

*Магистрант Университета "Азербайджан"*

**Ключевые слова:** детский брак, ранний брак, брак несовершеннолетних детей, социологический опрос, возраст для брака

В современном обществе для обозначения семейных отношений принято использовать ряд различных понятий. Как известно, во многих странах, в том числе и в Азербайджане дети, не достигшие 18-летнего возраста, добровольно или принудительно вступают в брак. Для обозначения такого типа брака используются такие понятия, как "детский брак", "ранний брак" и "брак несовершеннолетних детей".

В данной статье анализируются вышепредставленные три понятия. Здесь отмечается, что семья выступает как одна из базовых основ общества. Именно с этой точки зрения необходимо использовать соответствующий термин для обозначения брака детей, не достигших 18-летнего возраста. В статье представлены результаты социологического опроса, проведенного среди студентов Университета "Азербайджан". Выявляется отношение студентов к понятию "детский брак". Представляется информация, связанная с возрастом вступления в брак в различных странах. Автор ссылается на национальные и международные документы, в которых выражено отношение к понятию "детский брак". Приводится сравнительный анализ понятий "детский брак", "ранний брак" и "брак несовершеннолетних людей". Определяется, какой из этих терминов является наиболее общеупотребимым и обосновывается практическая значимость данного термина.

# XIX ƏSR ƏDƏBİYYATINDA MARK TVEN VƏ CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞI

**Günay ƏLƏSKƏROVA**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** f.e.d., prof. Qorxmaz Quliyev
**Açar sözlər:** M. Cəlil, M.Tven, müqayisə, ədəbiyyat, əsər, publisistika, satira

**Giriş:** XIX əsirin II yarısı çox haqlı olaraq həm ABŞ, həm də Azərbaycan ədəbiyyatının dirçəliş dövrü hesab edilir. Hər iki ədəbiyyatda klassik ənənələr yeni müstəviyə qədəm qoymuş, məhz bu dövrdə yazıb yaratmış, öz milli ədəbiyyatlarının formalaşması prosesinə layiqli töhfələrini vermişlər. ABŞ ədəbiyyatında Səmuel Lənqhorn Klemens – Mark Tven, Azərbaycan ədəbiyyatında isə Cəlil Məmmədquluzadə olmuşdur.

Qeyd etmək lazımdır ki, ABŞ ərazisində ilk nəsr əsərləri XVII-XVIII əsrlərdə yaradılsa da, həmin əsərlər haqlı olaraq ABŞ ədəbiyyatının müstəqil deyim yoluna qədəm qoymalarından xəbər vermir – bir qayda olaraq, xarici ölkələrdə böyümüş, təhsil almış, müəyyən dini-əxlaqi dəyərlər əsasında formalaşmış insanlar sonradan Amerikaya köçərək orada ədəbi yaradıcılıqla da məşğul olmağa başlamışlar. Sırf ABŞ ədəbiyyatı öz təşəkkül yolunu yalnız XIX əsrin ilk onilliyindən başlamışdır və bu baxımdan ABŞ və yeni Azərbaycan nəsrinin yaranma tarixi təxminən eyni dövrə düşür. Həmin əsrin II yarısında ABŞ və Azərbaycan realist ədəbiyyatında satirik publisistika, pamflet və felyeton janrları daha aparıcı mövqeyə çıxmışdır. Daha bir maraqlı cəhət isə bu janrların yazıçılıq tarixi möcüzəli sürətdə bir-birinə bənzəyən M.Tven və C.Məmmədquluzadənin misilsiz xidmətləridi.

Mark Tven ilk növbədə Amerikan yazıçısı idi. O, ABŞ ədəbiyyatında tənqidi realizmin banisi, dünya ədəbiyyatının tanınmış satira və yumor ustasıdır. İlk növbədə tom Soyer və Heklberri Finnin başlarına gələn macəraları qələmə alan yazıçı kimi tanınmışdır. C.Məmmədquluzadə isə Azərbaycan ədəbiyyatında realist satiranın banisidir. Mark Tveni və Mirzə Cəlili sələflərindən və müasirlərindən fərqləndirən əsas cəhətlərdən biri onların satira və yumorunu – publisistik məqalələr, pamflet və felyetonlarının cəsarətlə hakim dairələrin ifşasına yönəltmələri idi. Hər iki sənətkar cəmiyyətdəki ədalətsizlikləri görür, onları törədən ünvanları aşkara çıxardır. Həmin ünvan sahiblərinin geniş səlahiyyətlərindən qətiyyən çəkinmədən öz həyatlarını tez-tez təhlükə qarşısında qoysalar da, öldürücü gülüşlərini məhz həmin ünvana yönəldirdilər.

M.Tven və C.Məmmədquluzadə gülüşünün spesifikliyi orasındadır ki, onlar yaşadığı cəmiyyətlərin eybəcərliklərindən bəhs etsələr də, gülüş hədəfi təkcə Amerika və Azərbaycan sərhədləri ilə məhdudlaşmır, bütün cəmiyyətlər üçün tipik səslənirdi. Onların hələ sağlığında ikən canlı klassikə çevrilməsinin sirri də məhz bununla bağlıdır – Tvenin əsərləri ABŞ-da çap olunan kimi dünyanın bir çox dilinə tərcümə edilmişdir. M.Cəlilin "Molla Nəsrəddin"inin hər nömrəsini isə bütün Qafqaz və Şərq ölkələri səbrsizliklə gözləyir, onun çox vaxt acı göz

yaşları əskik olmayan satira və yumorundan bəhrələnirdilər. Amerika ədibləri arasında məhz Azərbaycana ilk gələndə Mark Tven olmuşdur. Mark Tvenin ən populyar romanları "Tom Soyyerin macəraları" "Heklberri Finnin macəraları" "Şahzadə və dilənçı" dilimizə tərcümə olunmuşdur. Xüsusilə onun romanları Azərbaycan dilində təkrar- təkrar çap olunmuşdur.

Bir-birindən xeyli uzaqda müxtəlif ictimai quruluşlu cəmiyyətlərdə və bir qədər fərqli tarixi mərhələdə yaşasalar da M.Tven və C.Məmmədquluzadənin həyatı şəxsiyyəti və yardıcılığı arasında müxtəlif paralellər aparmaq mümkündür. Həm M.Tven, həm də C.Məmmədquluzadənin yaradıcılıq uğurlarında onların həyat yoldaşlarının da müstəsna rolu olmuşdur.

M.Tvenin uşaqlıq və erkən gənclik illərinin necə böyük ehtiyac içərisində keçdiyi hər bir Azərbaycan oxucusuna yaxşı məlumdur. Çoxları yaxşı bilir ki, məşhur "Tom Soyyerin macəraları" və "Heklberri Finnin macəraları" romanlarında Mark Tven əsasən öz həyatını qələmə almışdır. Lakin onun ədəbi taleyində ailəsinin oynadığı rola münasibət bildirməsi indiyədək diqqətdən kənarda qalmışdır.

Mark Tvenin gələcək həyat yoldaşı Oliviya Lənqdona ilə evlənmək istəyinə qızın valideyinləri və qardaşı da ciddi etirazlarını bildirərək, yeganə qızlarını yaxından bələd olmadıqları bu gənc qəzet əməkdaşına ərə vermək istəməmişdilər. Markın kasıblığı onun yaxşı ailə başçısı olacağını şübhə altına qoyurdu. Lakin Markın daxilində qaynayıb qarışan həyat eşqini, yaradıcılıq həvəsini duyan və yüksək qiymətləndirən Oliviya çətinliklə də olsa valideynlərinin razılığını ala bilmişdi.

Cəlil Məmmədquluzadə Qarabağın məşhur xanlarından olan Əhmədbəy Cavanşirin qızı, tanınmış qadın ziyalı Həmidə Məmmədquluzadə ilə ailə həyatı qurmuşdur. Həmidə xanımın simasında Mirzə Cəlil təkcə həyat yoldaşı və uşaqlarının anasını deyil, həm də güclü bir məsləkdaş tapmışdı. Həmidə xanımın xatirələrindən, Cəlil Məmmədquluzadənin məktublarından və digər mənbələrdən aydın olur ki, Mirzə Cəlil yazmağı planlaşdırdığı bütün əsərləri haqqında fikirləri Həmidə xanımla məsləhətləşirdi.

Cəlil Məmmədquluzadənin realist sənətkar kimi M.F.Axundov ənənələri məcrasında yetişdiyini qeyd edən ədəbiyyatşünas-alim İsa Həbibbəylinin çox haqlı olaraq onun öz personajlarına qeyri-adi intensiv daxili dinamika verməsindən bəhs edir.

Mark Tven öz əsərlərində və dostlarına yazdığı məktublarda yenə də yumor hissinə sadiq qalırdı. İstirahətdən daha artıq dərəcədə başını qatmaq üçün tez- tez səyahətə çıxan və ya yuxarıda bəhs etdiyimiz kimi, "izlənmə maniyası"nın qorxusu altında Bermud adalarına sığınan yazıçı onun ünvanını soruşanlara yenə də yumorla cavab verirdi. "God knows where" - "Allah bilir harada" [1].

M.Tven təhkiyəçinin özünü gülüş obyekti kimi verməklə dünya ədəbiyyatına yeni ədəbi priyom gətirmiş, sonralar bir sıra gülüş ustaları da məhz bu yolla getmişdir. Bu mənada məşhur aktyor və rejissor Çarli Çaplinin filmlərini və ya dünya şöhrətli türk yazıçısı Əziz Nesinin bir sıra əsərlərini xatırlatmaq kifayətdir.

M.Tvenin qiymətli əsərləri arasında çəkilən "Günahsızlar xaricdə" ("The İnnocents Abroad)" əsərinin yaranması üçün özül, istinad nöqtəsi rolunu oynamışdır. O, müxtəlif

lətifələrdən, xalq yaradıcılıq nümunələrindən istifadə edərək qəribə, ağlasığmaz əhvalatları qələmə alır. "Tenessidə jurnalistik", "Mən kənd təsərrüfatı qəzetini necə redaktə etdim", "Saatlar" əsərləri bu məzmundadır [2].

Sonralar qələmə aldığı bioqrafiyasında M.Tven qeyd edirdi: "Qırx il ərzində yetmiş səkkiz Amerika yumoristi ilə eyni dəstədə olmuşam. Onların hamısı mənim vaxtımda yüksəlmiş, mənim vaxtımda da xırda-xırda yox olmuşdur. Çünki onların hamısı yumorçu idilər. Sadəcə yumorçu olanlar sağ qala bilməzdilər [3].

Mark Tveni və Mirzə Cəlili bir-birinə bənzədən digər cəhətlər də mövcuddur. Məsələn, onların hər ikisi həm də naşir olmuşdur, lakin əgər bu, M.Tvendə ötəri xarakter daşımırdısa, M.Cəlildə ömürlük davam etmişdir.

Mark Tvenin əsərləri "Günahsızlar xaricdə"("The İnnocents Abroad" ,1869 )," Avara adam xaricdə" ("A Tramp Abroad", 1880) və "Ekvator boyu" ("Following the Equator", 1872) xarici səfərlərin, ikisi isə - "Missisipi üzərində həyat" ("Life on the Missisipi", 1893) və " Ara qarışdırmaq" ("Roughing It ", 1897)" əsərləri öz ölkəsindəki səyahətlərin birbaşa təəssüratları haqqında müəllifin bədii hesabatıdır.

M.Tvenin uşaqlıq və yeniyetməlik illəri məhz Missisipi çayı ilə bağlı olmuşdur. Sonralar həmin uşaqlıq və yeniyətməlik illəri "Tom Soyyerin macəraları" və "Heklberri Finnin macəraları" romanlarının mövzusuna çevrilmişdir. "Missisipi üzərində həyat" isə bədii əsərdən daha artıq dərəcədə reallığı əks etdirən tarixi-satirik-publisist esse xarakteri daşıyırdı.

XIX əsrin 60- cı illərində ədəbiyyata gəlmiş Mark Tvenin ən böyük xidməti ABŞ ədəbiyyatına realizm ənənələrini gətirməsi oldu. Öz satira və yumoru ilə qoyduğu məsələlərin mahiyyətinə gülməyi bacaran Tven sələflərindən və müasirlərindən həm də bütün oxucularına bəslədiyi ümumi münasibəti ilə fərqlənirdi. Bütün yaradıcılığı ərzində o, Amerikada yaşayan hər bir millətin nümayəndəsinə eyni cür münasibət bəsləmiş, heç bir ayrıseçkilik etməmişdir. Mark Tven uzun illərin müşahidəsindən sonra öz yaradıcılıq ampluasını müəyyənləşdirmişdir. Cəlil Məmmədquluzadənin yaradıcılıq istiqaməti isə dərhal aydın olmuşdur. O, tutduğu vəzifə pilləsindən və səlahiyyətlərindən qətiyyən çəkinmədən cəmiyyətin inkişafına mane olan hər kəsi kəskin ifşa obyektinə çevirirdi.

Cəlil Məmmədquluzadənin mövzu spektri nə qədər çoxşaxəli olsa da, ana dilinin problemləri onu daim düşündürmüş və dönə-dönə bu mövzuya qayıtmışdır. 1920-ci ildə yazılan "Anamın kitabı" əsəri, ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsidir. Əsərdə Gülbaharın monoloqu ən mükəmməl vətənpərvərlik himnidir.

Mark Tveni və Cəlil Məmmədquluzadəni yaradıcı insan kimi bir-birinə bağlayan daha bir amil onların öz bioqrafiyalarını qələmə almalarıdır. Mark Tvenin və Cəlil Məmmədquluzadənin həyatı dərk etməsi, insan əqidəsinin formalaşmasında dinin rolu, dini kitablarda Allahın təsviri və təqdim olunması, dini ehkamların insanın bəd əməlləri vasitəsi ilə dəyişdirilməsi və təəssüf ki, eybəcərləşdirilməsi haqqında ən geniş mühakimələri onların hər ikisinin avtobioqrafiyasında özünə yer almışdır. Heç bir xronoloji ardıcıllığa əsaslanmayan bu əsər bioqrafiyadan daha artıq dərəcədə müəllifin həyata, insanlara, təbiətə və Yaradana dialektik münasibətinə həsr olunmuşdur. O öz naşirinə yazdığı məktublarda gah bio-

qrafiyasının tam mətninin yalnız onun ölümündən sonra çap edilməsinə icazə verir, gah əlli il, gah yüz il üzərində dayanırdı [4].

Cəmiyyətin həyatındakı neqativ hallara-ictimai bərabərsizlik, irqi ayrı seçkilik, saxtakarlıq, riyakarlıq və s. M.Tvenin ən böyük etirazı 1884-cü ildə çapdan çıxmış və haqlı olaraq müəllifin şah əsəri hesab edilən "Heklberri Finnin macəraları" romanında öz bədii həllini tapdı, lakin bu əsərə doğru gəldiyi yolda yüzlərlə kiçik həcmli əsərlər, "Qızıl əsri"(1873), "Tom Soyyerin macəraları" (1876) və "Missisipi üzərində həyat" (1883) romanları yazılmalı idi.

Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" satirik hekayəsi və onun əsasında hazırladığı dörd pərdəli "Danabaş kəndinin müəllimi" komediyası haqlı olaraq müəllifin ən qiymətli bədii əsərləri sırasında layiqli yer tutur.1903-cü ildən başlayaraq işlədiyi "Şərqi- Rus" qəzetində, sonralar "Molla Nəsrəddin" jurnalında və digər mətbu orqanlarda xalqın maariflənməsi və təhsillə bağlı olan onlarca felyetonu, pamfleti və essesi çap edilmişdir. Bütün təhdidlərə baxmayaraq, o, maariflənmənin yolunda keçilməz əngələ çevrilmiş dini fanatizmlə ardıcıl mübarizəyə başlamışdır. Onun"Yeni əlifba komitəsinin görmüş və görəcəyi işlər", "Yeni ibtidai məktəbdə Azərbaycan dili", "Bəs Aspisova xanımın müsəlman qızları üçün məktəbi necə oldu?", "Yeni əlifba nə istəyir?", "Ərəb əlifbası", "Maarif", "Türk kitabları" və s. məqalə, felyeton və pamfletləri məhz bu ali məqsədə xidmət etmişdir [5].

Cəlil Məmmədquluzadənin "Danabaş kəndinin məktəbi" satirik hekayəsi və onun əsasında hazırladığı dörd pərdəli "Danabaş kəndinin müəllimi" komediyası müəllifin ən qiymətli bədii əsərləri sırasında layiqli yer tutur.

"Heklberri Finnin macəraları" romanını oxuculara sevdirən daha bir amil bu əsərin Amerika xalq danışıq dilinə əsaslanan rəngarəng üslubudur. Beləliklə, M. Tven "Heklberri Finnin macəraları" romanının sonunda çox cəsarətli bir ümumiləşdirmə apararaq öz qəhrəmanlarını Amerika reallığından imtinaya məcbur edir. Bu romanın sonluğu haqlı olaraq Mark Tvenin böyük yaradıcılıq uğuru hesab edilir.

**Nəticə.** Mark Tvenin və Cəlil Məmmədquluzadənin müraciət etdikləri satirik publisistika, pamflet və felyeton janrları onların yaşadıqları dövrün siyasi ictimai durumunun tələbləri əsasında ortaya çıxmışdı. Hər iki müəllifin bütün əsərləri yaşadıqları cəmiyyətlərin reallıqlarına realistcəsinə tənqidi baxışın bədii yekunu olmuşdur.

Mark Tven, Cəlil Məmmədquluzadə də öz əsərlərində doğma cəmiyyətlərinə xas olan eybəcərliklərdən-insanların vəhşi xislətindən, riyakarlıqdan, sosial bərabərsizliklərdən, irqi ayrı seçkilikdən, siyasi intiriqalardan və s. ən cəsarətlə danışan qələm ustaları olmuşlar.

Bu məqaləni yazarkan mən belə qənaətə gəldim ki, Mark Tvenin təxminən 130-140 il, Cəlil Məmmədquluzadə isə 110-120 il qabaq acı istehza ilə güldüyü reallıqlar təkcə həmin məkanın və həmin tarixi mərhələnin problemləri olaraq qalmamışdır. Təəssüf ki, həmin neqativ hallar bu və ya digər dərəcədə hər bir cəmiyyətin həyatında bu gün də müşahidə oluna bilər. Nə qədər ki, yer üzərində ideal cəmiyyət qurulmamışdır, nə qədər ki, cəmiyyətlərdə təbəqələşmə vardır, ideal ədalət, bərqərar olmasından söhbət gedə bilmir, Mark Tven və Cəlil Məmmədquluzadə satirasının, acı, kədər yükü ilə dolu olan gülüşünün ömrü bir o qədər uzun olacaqdır.

**ƏDƏBİYYAT:**

1. Ağayev Z. Böyük sənətkar. M.Tven – 150. "Ədəbiyyat və incəsənət" qəz.,Bakı,1985,29 noyabr
2. Ağayev Z. Gülüşlə, qəhqəhəylə öldürən sənətkar / M.Tven. Seçilmiş əsərlər.Bakı: Öndər nəşriyyat,2005,s.4-8
3. Ağayev Z. Tom, Heklberii və bütün Amerika /M.Tven.Tom Soyyerin macəraları. Bakı: Yazıçı, 1989,s.3-6
4. Məmmədquluzadə C. Əsərləri: 4 cildə, 1c. Bakı : Öndər nəşriyyat, 2004, 584
5. Məmmədquluzadə C. Xatiratım. Bakı: Gənclik, 1971, 112 s.

**Abstract**

**THE WORKS OF MARK TWEN AND JALIL MAMMADQULUZADA IN THE LITERATURE OF 19-TH CENTURY**

**Gunay ALASKAROVA**

*Graduate student of Azerbaijan University*

**Key words:** M.Jalil, M.Twen, comparison, literature, work, publicity, satire

The article studies the realism in American and Azerbaijan literature in 19-th century, the roles of Mark Twen and Jalil Mammadquluzada in the growth of work, satire and publicity and compares the work of M.Twen and M.Calil.

**Резюме**

**ТВОРЧЕСТВО ДЖАЛИЛ МАМЕДКУЛИЗАДЕ И МАРК ТВЕНА В ЛЕТЕРАТУРЕ XIX ВЕКА**

**Гюнай АЛЕСКЕРОВА**

*магистр Университета "Азербайджан"*

**Ключевые слова:** Дж. Мамедкулизаде, М.Твен, сравнение, литература, произведение, публичностъ, сатира

XIX век реализм в Азербайджанской и Американской летературе. Роль в развитие сатиры и юмора Джалил Мамедкулизаде и Марк Твена. Сравнителные факты в произведении Джалил Мамедкулизаде и Марк Твена.

# XX ƏSRİN 50-ci İLLƏRİNDƏ AMERİKA-YƏHUDİ ƏDƏBİYYATI

**Bahar MƏMMƏDOVA**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** fil.ü.f.d. Ülviyyə Əliyeva
**Açar sözlər:** Amerika, yəhudi, mənəvi, roman, milli

**Giriş:** XIX əsrin sonlarında ABŞ-da Şərqi Avropadan köçən mühacirlərin hesabına yəhudi əhalisinin sayı artmağa başladı. Bu, Amerika yəhudi ədəbiyyatının inkişafına da təsir göstərdi. Həmin dövrdə M.Vinçevski, D.Edelbştadt, M.Rozenfeld kimi proletar şairlərin yaradıcılığında istismara və yoxsulluğa qarşı etiraz səsləri ucalırdı. Yazıçılar - L.Kobrin, Z.Libin, D.Pinski, Solom Aş, dramaturq və ABŞ yəhudi teatrının reformatoru Y.Qordin kapitalizm şəraitində xalq kütlələrinin həyatını təsvir edirdilər.

ABŞ-da doğulan və XX əsrin 30-cu illərində fəaliyyətə başlayan ikinci nəsil yəhudi yazıçılarının əsərlərində ətraf aləmin onlara qarşı soyuqluq və düşmənçilik hisslərinin təsviri daha güclü idi. Bu yazıçıların bir çoxları özlərini "proletar" ədəbiyyatının nümayəndələri hesab edir və onun sərt normalarını əsas tuturdular. 1930-cu illərdə sol qruplaşmanın ən yaddaqalan nümayəndələri sırasında M.Qoldun və C.Frimenin adlarını çəkmək mümkündür. M.Qoldun "Pulsuz yəhudilər" (1930), Ş.Omistanm "Bud, qarın və çənələr" (1923), I.Şnayderin "Zərurilik çarlığından" (1933) adlı romanları yırtıcı kapitalistlərin, mürtəce müəllimlərin və ideal fəhlələrin obrazları ilə zəngin idi. Bu yazıçılar üçün ədəbiyyat sosial ifadə vasitəsi idi. Məsələn, Q.Fast kasıbların həyatını təsvir edərkən yaşadıqları həyatın mənəvi məzmununu ön plana çəkirdi. M.Levin realist metoduna sadiq qalaraq, yəhudi əhalisinin ayrı-ayrı qrupları arasındakı mürəkkəb münasibətləri, nəsillər arasındakı münaqişələri, yəhudi mühacirləri narahat edən problemləri ifadə etməyə çalışırdı ("Öz uşaqlarımız", 1937). M.Levinin "Yəhuda" (1931) romanı kibbusdakı həyata həsr olunmuşdu.

50-ci illərin sonlarında yəhudi mənşəli S.Bellou, B.Malamud və İ.Başevis Zinger kimi Amerika yazıçılarının bədii nəsri Amerika ədəbiyyatı tarixində parlaq bir dövrü təşkil edirlər. Hər üç yazıçının əsərləri üçün yumor, etika və əxlaq məsələlərinə böyük diqqət, Köhnə və Yeni dünyanın yəhudi icmalarının həyatının bədii təcəssümü xarakterikdir. Ümumiyyətlə, zənci ədəbiyyatı kimi yəhudi ədəbiyyatı da ABŞ ədəbiyyatının ayrılmaz bir hissəsidir. Amerika yəhudi ədəbiyyatının bütöv bir hissəsi yəhudi mühacirlərin (xüsusilə Şərqi Avropadan) Amerikaya axın, onların həyat təcrübələri ilə sıx bağlıdır. Yeni Dünyada vərdiş etmədikləri adətlər, yoxsulluq, ingilis dilinin öyrənilməsi ilə bağlı çətinliklər, ənənəvi həyat tərzindən uzaqlaşmaq - bütün bunların hamısı Amerika yəhudi yazıçılarının birinci nəslinin yaradıcılığında əks olunurdu. Bu sahədə ilk roman A.Kaxın "Yekl. Nyu-York gettosu haqqında hekayə" (1896) romanı idi. İst-Saydın ağır yəhudi həyatının realist mənzərəsini A.Ezerska "Ac ürəklər" (1920) romanında təsvir edir. Bunun ardınca yazıçının "Çoxmərtəbədən olan Salomeya" (1922), "Təkliyin uşaqları" (1923) kimi romanları da

yəhudu mühacirlərin acı həyatından bəhs edirdi.

50-ci illərin sonu-60-cı illərin əvvəlləri ABŞ ədəbiyyatına "yəhudi onilliyi", "yəhudi intibahı" kimi daxil olmuşdur. Bu dövrdə Amerika yəhudilərinin artıq üçüncü nəsli ədəbiyyat səhnəsində çıxış etməyə başlayır. Onlar artıq mühacir gettosundan mənən ayrılmış ailələrdə böyümüşdülər, uşaqlıqdan ehtiyacın nə olduğunu bilmirdilər, özlərinin yüksək intellektuallığı, təhsillərinin səviyyələri ilə fərqlənirdilər. Bütün bunlar yəhudi yazıçılarının dünyagörüşlərində öz əksini tapırdı.

Yəhudinin Amerika cəmiyyəti ilə təkbaşına üz-üzə gəldiyi vaxtlardan fərqli olaraq, müasir dövrdə bu ölkədə yaşayan yəhudilərin həyatı daha yaxından nəzərdən keçirilir, hətta ayrı-ayrı qrupların maraqları da önə çəkilirdi. Təsadüfi deyildi ki, bəzi yazıçılar keçmişin ideoloji axtarışlarına müraciət edirdilər. Belə ki, MLLibsen (1911-1975) müharibəyə qədərki dövrün sol radikal qruplaşmaları arasındakı amansız müharibəyə həsr oplunmuş və "Həqiqətə əsaslanan aclıq" adı altında doqquz hekayə və povest nəşr etdirdi. T.Olsenin "Mənə tapmaca tap!" (1961) hekayəsi uzun illərin kasıbçılığından amansızlaşmış qoca yəhudi qadınla onun artıq orta təbəqəyə məxsus uşaqları arasında gedən münaqişəyə həsr olunmuşdu. S.Epstayn ABŞ-da yəhudi mühacirlərin ilk nəslinin həyatına həsr olunmuş "İanə üçün penni" (1965) hekayələr toplusunu çap etdirdi.

Molotov-Ribbentrop müqaviləsinin Nyu-Yorklu gənclərə göstərdiyi təsir S.Epstaynın 1967-ci ildə yazdığı "Bu musiqi ilə bağlanmış" romanının başlıca mövzusu idi. P.Kotlovits "Yenə də haradasa" (1972) romanı vasitəsilə Şərqi Avropa yəhudilərinin mənəvi dünyası haqqında təsəvvür yaratmağa çalışırdı.

Bu dövrdə Amerikanın yəhudi mənşəli yazıçılarından biri də Harlan Ellison idi. Harlan Ellison 1934-cü il 27 may tarixində Amerikada dünyaya göz açıb. Onun yəhudi amerikalı ailəsi sonralar qaldıqları yeri tərk edir. 1949-cu ildə atasının ölümündən sonra ailə Klivlendə qayıdır. Uşaq yaşlarından tamaşalarda oynayan Harlanın yeniyetmə çağlarından işi ilə əlaqədar ailədən kənarda keçirdiyi günlər də onun həyatında dərin izlər buraxır. Zamanla Şimali Karolinada yük maşını sürücüsü, kitab satıcısı, mağaza administratoru kimi işləsə də, ədəbiyyatla da məşğul olur. Ellison 1955-ci ildə Nyu-Yorka köçərək burada yaradıcılıqla daha müntəzəm məşğul olmağa başlayır. Əsərlərində elmi fantastikaya üstünlük verən yazıçı iki il ərzində 100-dən çox hekayəni nəşr etdirir. Sonrakı yaradıcılıq məhsulları ilə Ellison kütlənin problemlərini üzə çıxardı. Cordvainer Bird təxəllüsü ilə nəşr etdirdiyi hekayələr silsiləsi çılğın obrazları ilə seçilməyə, sevilməyə başlayır. "Tanrı Eybəcər Bakirə qıza xeyir-dua verir" və "Avara" kimi qələm məhsulları Ellisonu şöhrətin zirvəsinə qaldırdı. Jurnal və qəzetlərdə işıq üzü görən kiçik həcmli əsərlər də onun karyerasında növbəti cığır idi. Bu gün də onun adını fantastik ədiblər sırasında xüsusi qeyd etmək olar.

Bu dövrün Amerika yəhudi ədəbiyyatının xüsusiyyətlərindən biri də ABŞ-da yəhudilərin qarşısında açılan imkanlara diqqətin verilməsi idi. Artıq bu adamlar başa düşürdülər ki, yəhudi olaraq qalmaqla yanaşı, əsl amerikalı kimi yaşamaq, həyatın bütün sahələrində müvəffəqiyyət qazanmaq mümkün idi. F.Rotun "Tərsinə həyat" (1986) və C.Nuqebomun "Oğurlanmış yəhudi" (1981) romanlarında iki qardaşın müxtəlif həyat tərzindən danışılırdı. Hər iki ro-

manda ənənəvi yəhudi dini ideallarına və mənəviyyatına riayət edilməsi maddi nailiyyət qazanmaq cəhdi ilə qarşı-qarşıya qoyulurdu [1, səh-95].

Yəhidi yazıçısı Sintiya Ozikin yaradıcılığına yəhudi dəyərlərinə sədaqət hissi hopmuşdur. Amerika yəhudisinin mənəvi axtarışlarının müxtəlif istiqamətləri, istənilən ölkədə bir yəhudi olaraq qalmaq istəyi X.Potokun populyar romanlarının əsas məzmununu təşkil edirdi. A.Koxenin "Siumon Stemin günlərində" romanı (1973) Sabbatay Tsvinin tarixini, "Öz zəmanəsinin qəhrəmanı" (1976) romanı SSRİ-də yaşayan yəhudi ailələrinin daxili imkanlarını, onların daxili, mənəvi mübarizəsini ifadə edirdi.

Digər bir yazıçı Rebekka Qoldşteynin yazılarında fəlsəfə və satira birlikdə ifadə olunur. Əsasən Birbohm və Milan Kunderaya oxşadılan Qoldşteyn Nyu-Yorkda doğulub. Prinston Universitetində fəlsəfədən doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru adını alıb. Kolumbiya Universitetində, fəlsəfə və yaradıcı aura, Bamard və Ratgers Universitetlərində isə yaradıcı ədəbiyyat dərslərindən mühazirələr oxuyub. Aralarında Beynəlxalq Yəhudi Kitab Mükafatı və Mak Artur Vəqfi Dahilər təqaüdü mükafatlarının da olduğu bir sıra mükafatlara layiq görülüb. Qoldşteynin kitabları arasında "Ağıl-bədən problemləri"(1983), "Ağıllı qadının yay sonundakı vurğunluğu" (1989), "Qaranlıq bacı" (1991) və "Mazel" (1995) kitabları xüsusi ilə diqqətə layiqdir. "Rayzel Kaydişin mirası: "Bir hekayə" hekayəsi pislik haqqında məlumat, əxlaqın işığı və Holokost dövründə və ondan sonrakı dövrdə baş verənlər haqqındadır. Bu, yəhudi-Amerika ədəbiyyatında hekayə janrında yaradılmış ən yaxşı nümunələrdən biri kimi qəbul olunur [2, səh-320].

XX əsrdə yəhudilərin çoxəsrlik tarixi M.Xelprinin əsərlərinin mövzusu idi. Onun "Şərqin göyərçini" (1975) adlı hekayələr məcmuəsinin əsas mövzularından biri şəxsi itkilərə məruz qalmış bir yəhudinin həyatda özünü tapmaq, öz yerini tutmaq cəhdlərindən söhbət açırdı. Onun "Marşal Perlin həyatı və macəraları" (1977) romanı 1938-ci ildən 1973-cü ilədək olan dövrü əhatə edirdi. Gizli şəraitdə, mühacirlərin getdiyi gəmidə dünyaya gələn və ABŞ-da böyüyən baş qəhrəmanın gözləri önündən onun coşqun həyatının müxtəlif epizodları keçir. X.Nissensonun "Sülhün hökmranlığı" (1972) adlı hekayələr məcmuəsində "Mənim torpağım" (1976) romanında ABŞ-a köçən yəhudu mühacirlərin və onların bu ölkədə dünyaya gəlmiş yeni nəsillərinin, o cümlədən İsrail şəhərlərinin və kibbuchlərinin həyatı təsvir olunur.

**Nəticə:** Yəhudi yazıçılarının yaradıcılığı XX əsr Amerika ədəbiyyatında böyük əks-səda doğurmuşdu. Bunların ən məşhurları Bernard Malamud, Sol Bellou, Filip Rot idi. Tədqiqatlar göstərir ki, 50-70-ci illərdə yaradıcılığa başlayan yazıçılar da amerikalı yəhudiyə Amerika cəmiyyətində özününküləşməyə və eyni zamanda tarixi-milli köklərinə daha da sıx yaxınlaşmağa söz verirdilər. Onlar bir tərəfdən məskunlaşdıqları ölkədə yerləşməyə çalışır, digər tərəfdən isə etnik mənsubiyyətlərini araşdırmağa və başa düşməyə çalışırdılar.

## ƏDƏBİYYAT:

1. Денисова Т.Н. Современный американский роман. Социално-критические тенденции. Киев,1976, 250 с.

2. Засурский Я.Н. Американская литература XX века. Москва: МГУ, 1966, 524 с
3. Маламуд Б. Рукописи Гонзаги. Журнал «Нева»,1961,№ 7
4. Маламуд Б. Шляпа Рембрандта. Москва: Книжное издательство, 1990,92 с

**Abstract**

**AMERICAN JEWISH LITERATURE IN THE FIFTIES OF THE XX CENTURY**

**Bahar MAMMADOVA**

*Graduate student of Azerbaijan University*

**Key words:** American, jewish, moral, novel, national

American jewish literature in the fifties of XX century is researched in this article.

The researches show that the writers starting their career in fifties-seventies provided the American jewish a chance to be distinguished, as well as to return to their roots. They also tried to settle in a country with different history, but to keep their ethnic origins.

**Резюме**

**ЕВРЕЙСКАЯ ЛИТЕРАТУРА АМЕРИКИ 50-Х ГОДОВ XX ВЕКА**

**Бахар МАМЕДОВА**

*Магистр Университета “Азербайджан”*

**Ключевые слова:** Америка, еврей, духовный, роман, национальный

В этой статье исследуется еврейская литература Америки 50-х годов XX века. Исследования показали, что писатели, начавшие свою деятельность в 50-70-х годах, в еврейском обществе Америки, дали слово присвоить и еще ближе подойти к историко-национальным истокам. С одной стороны, они хотели обосноваться в той стране, исследовать и понимать этническую притяжательность.

# İNGİLİS ƏDƏBİYYATINDA KULİNARİYA TERMİNLƏRİNİN YARANMA TARİXİ

**Nigar MƏMMƏDLİ**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** f.ü.e.d., prof. Ç.M.Qaraşarlı
**Açar sözlər:** kulinariya, sadə terminlər, düzəltmə terminlər, mürəkkəb terminlər, leksika semantika

**Giriş:** İlk kulinariya terminləri lüğəti Roma imperiyasının ən güclü inkişaf dövrünə təsadüf edir. B.e II yüzilliyində Artemidor Dal Duamuson tərəfindən tərtib olunmuş bu lüğət ilk kulinariya lüğətidir. Sonradan daha məşhur kulinariya terminləri lüğəti XVII əsrdə Almaniyada, İngiltərədə və Belçikada yaranıb. XX əsrdə isə belə lüğətlər dünyanın bir çox ölkələrində də çap olunmağa başladı. Bəziləri ingilis mətbəxinin olmadığını sadəcə ingilis yeməklərinin olduqlarını düşünürlər, hətta bəziləri britaniyalıların qızardılmış ət və doğranılmış tərəvəzdən başqa bir şey yemədikləri qənaətindədirlər. Halbuki, ingilis xalqının kulinariyasının tarixi də elə xalqın tarixi qədər qədimdir, olduqca ənənəvi və bir çox ölkələr tərəfindən mənimsənilmiş çox zəngin yemək çeşidləri vardır. İngilis mətbəxi çox qarışıq ərzaqlar üzərində qurulmuş bir mətbəx deyil. Əsas olaraq 5 ərzaqdan istifadə edilir: ət, kartof, kök, yumurta və çörək əvəzinə daha çox tükətilən makaron. Yeməklərin ən məhşuru isə təbii ki, fish chips və shepherd piedir. Shepherd pie ət, soğan və sarımsağın qızardılmasının qarışığından hazırlanır və çox ləzzətli olur. Yeməkləri daha da ləzzətli edən bir sıra məhşur ingilis aşbazlarını da misal göstərmək olar: Jamie Oliver, Gardon Ramsay, Nigella Lavlos və başqaları. Qida həmişə ümumi ictimaiyyət üçün cazibədar bir mövzu olmuşdur. Buna çox saylı yemək kitablarının nəşri, həmçinin qida mövzusunun ədəbiyyatda çox gözəl əsərlərin mərkəzi olması sübut ola bilər [1. Səh-2].

Əsrlər boyu reseptlər və tariflər ədəbi nəşriyyatın köklü hissəsi olmuşdur, son bir neçə on il ərzində resept tarixində böyük partlayış oldu. Bu partlayış nəticəsində isə reseptlər yalnız kulinariya kitabları ilə kifayətlənmədi, həm də indi televiziya proqramları, internet, qəzet, jurnal, film və roman kimi bir çox kütləvi informasiya vasitələrində nümayiş etdirildi [2. Səh-1].

Qida xalqın maddi mədəniyyətinin mühüm elementlərindən biri kimi, onun tarixini, adət-ənənəsini dərk etməkdə zəngin mənbədir. Mətbəxin yaradılmasına və inkişafına təsir göstərən ən mühüm amillərdən biri də iqlimdir. Azərbaycan Respublikasının ərazisindən doqquz iqlim zonası keçir ki, bu da öz növbəsində bu regionun flora və faunasının növ müxtəlifliyini və zənginliyini artırır. Bütün heyvanların və bitkilərin yaşayışları və inkişafları üçün əlverişli şərait yaradır. Bunlar isə zəngin mətbəx yaradılması üçün əsas baza sayılır. Azərbaycan milli mətbəxinin tarixi də elə xalqın tarixi qədər qədimdir. Azərbaycan kulinariyası öz tarixi kökləri və özünəməxsusluğu ilə o birilərindən xeyli fərqlənir. Azərbaycan

xörəkləri yüksək dad-tam keyfiyyətləri ilə dünyada məşhurdur. Onları başqaları ilə qarışıq salmaq olmaz.

Azərbaycan xörəkləri dadı, hazırlanması, həmçinin tünd ədviyyə və tamlı əlavələr qatılmasına görə daha çox Şərq mətbəxinə yaxındır [3. Səh-14].

Azərbaycan milli mətbəxinin rəngarəngliyini bu xalqın tarixi haqqında zəngin material verən mühüm elementlərdəndir. Ölkənin fərqli bölgələrində mövcud olan zərif süfrə mədəniyyəti yaşadığımız torpaqlarda insanların həyat tərzini əks etdirməklə yanaşı, həm də onların yüksək qonaqpərvərlik hisslərindən xəbər verir. Azərbaycan mətbəxinin ləziz təamlarının tamı zaman – zaman bura yolu düşən hər kəsin damağında qalıb. XVII əsrdə məhşur Osmanlı səyyahı Evliya Çələbi o dövrdə Azərbaycanda gördüklərini belə qələmə almışdır: “burada 12 imamın adı ilə bağlı 12 aşbazxanada minlərcə adam işləyirdi”. Səyyah bunları çörəkçi, yuxa yayan, şatır, aşçı, piti bişirən, kababçı, çayçı, şərbətçi və başqa adlarla qeyd edir. XVI əsr ingilis səyyahı Antoni Cenkinson isə xatirələrində yazır ki, Şamaxıda Abdulla xanın qonağı olarkən nahar süfrəsinə 150 çeşiddə xörək gətirilmiş, süfrə yığışdırıldıqdan sonra isə daha 140 şirniyyat məmulatı təqdim olunmuşdur [4. səh-13].

Qida məhsulları əhalinin həyatında aparıcı rol oynayır, hətta məişətində əsaslı dəyişikliklərdən baş verdikdə belə aradan çıxmır. Ənənəvi qida məhsulları sırasına tədricən yeniləri əlavə olunur, onların növləri zənginləşir. Qida kulinariya mədəniyyətinin əsasında durur. Bütün terminlərin meydana gəlməsinin dilxarici amillərin, şübhəsiz, müəyyən tələbatla, insanın ərzağa olan ehtiyacı ilə bağlıdır.

Böyük Britaniya üç hissəyə bölünür: İngiltərə, Şotlandiya və Uels. Və hər bir bölgənin oxşar və fərqli adət-ənənələri olduğu kimi, fərqli və eyni mətbəx mədəniyyətləri də var. Saksonlar İngiltərənin qədim tayfalarından biri olmuşdur və onlar əla fermerlər idilər, geniş çeşiddə meyvə, tərəvəz və bir çox sayda otlar becərirdilər .

İngilis dilində elə söz və ifadələr mövcuddur ki, onlar hamı tərəfindən işlədilir və dərk edilir. Bu kimi söz və ifadələr dilin məişət leksikasına daxildir. Adətən məişət leksikası deyəndə hər hansı bir xalqın məişətinə daxil olan sözlərin ümumi məcmusu nəzərdə tutulur. Milli xörək adları da məişət leksikasına daxildir. Hər xalqın özünəməxsus, eyni zamanda digər xalqlarla ümumi olan xörək, şirniyyat və s. növləri mövcuddur. Bu kimi xörək adlarının, kulinariyanın tarixinin necə yarandığını, kulinariya terminlərinin indiki səviyyəyə necə gəlib çatdığını, ingilis dilində mövcud olan kulinariya terminlərinin ingilis dilinin lüğət fonduna necə daxil olduğunu bilmək üçün keçmişə nəzər salaq. Qədim dövrdə insanlar öz aclıqlarını ödəmək üçün təbiətin onlara bəxş etdiyi meyvələri və ov zamanı əldə etdikləri heyvanları yeməklə ehtiyaclarını ödəyirdilər. Onlar barmaqları ilə yeməyə başlamışdılar. Belə şüurlu addım onlara başqa üstünlüklər də verdi. İnsanlar inkişaf etməkdə olan beyinlərində yemək haqqında bildiklərini və onları əldə etmək metodları inkişaf etdirdilər. Onlar öz yeməklərini yaxşılaşdırma, indiki səviyyəyə çatdırmaq üçün əllərindən gələni etdilər. İnsanlar əti evə gətirdikdən sonra ondan yemək bişirməkdə istifadə etdilər və gördülər ki, odda bişən ət çiy ətdən daha dadlı olur. Bu da insanların yaxşı qidalanmasına səbəb oldu. Əti və balığı uzun müddət saxlamaq üçün qurutmağa və hisə verməyə başladılar. İlk dəfə balıq qurutma

texnikasını İngiltərə tarixinə Vikings və Danes gətirmişdir, bu gün də Şotlandiyanın şimal şərqinə ən yaxşı kipperləri tapmaq olar. 1066 – cı ildə Norman kralı Vilyam tərəfindən İngiltərənin ərazisi işğal edildikdən sonra, İngiltərənin ərazisi ilə yanaşı mətbəx mədəniyyəti də Normanlar tərəfindən mənimsənilib gələcəkdə isə öz zövqlərinə uyğun dəyişdirildi. İllər keçdikcə insanlar mətbəxin bütün sirlərini öyrənməyə başladılar. Kəşf olunan yeməklərin böyük bir qismi təsadüf nəticəsində yaranmışdır. Onlar hazırladıqları hər bir yeməyin, yeməyə qatılan ədviyyatların kulinariyaya salınmasına, heç özlərinin də xəbəri olmadan müəyyən bir şəraitdə terminlərinin yaranmasına səbəb olmuşdur. Bu terminlərdə müəyyən dəyişikliyə uğramışdır. Məsələn, “meat -ət” sözünü götürək. Bu söz ingilis dilinin lüğət tərkibinə daxil olanda, yazılışı və deyilişi fərqli idi, yəni “mats” kimi yazılırdı. İllər keçdikcə o, “mete” sözünə çevrilmiş sonra isə yenə assimilyasiyaya uğramış və “meat” kimi yazılmış və hal-hazırda bu cür də yazılır [5. Səh-146].

İngilis dilində kulinariya terminlərinin yaranması üçün ən məhsuldar üsullardan biri də morfoloji üsuldur. Sözlərin yaranmasında morfoloji prosesin əsas mahiyyəti ondan ibarətdir ki, burada birinci növbədə, köklərə şəkilçilər artırmaqla yeni düzəltmə sözlər əmələ gətirir. Tarix etibarı ilə morfoloji yolla yeni terminlərin yaranması sintatik yolla söz yaradıcılığının bir mərhələsini təşkil etmişdir. Daha doğrusu, bu proses sintatik yolla söz yaradıcılığı prosesində yaradılmışdır .

Müasir ingilis dilində morfoloji yolla kulinariya terminlərinin yaranması prosesinin özünə məxsus çox zəngin, istər semantik, istərsə də formal xüsusiyyətləri meydana gəlmişdir. İngilis dilində yeni-yeni kulinariya terminləri yaratmaq üçün sözlərin sonuna bir sıra şəkilçilər artırılır. Ümumiyyətlə kulinariya terminləri morfoloji quruluşuna görə üç yerə bölünür: sadə kulinariya terminləri; düzəltmə kulinariya terminləri; mürəkkəb kulinariya terminləri .

Aşağıda bir çox ingilis yeməklərinin və ərzaqlarının Azərbaycan dilinə olan ekvivalenti verilmişdir:

1) Bake-soba qızartması;

2) Barbecue – kömür üzərində və ya şişə çəkilmiş ət qızartmasını mövsümi sous ilə basdırma etmək;

3) Compote –şəkər şərbətində meyvələrin pörtlədilməsi;

4) Croquettes -doğranılmış ərzaq adətən ağ sous ilə süfrəyə verilir, üzərinə çoxlu yağda qızardılıb doğranılmış yumurta əlavə edilir;

5) Drippings-mal və ya quş əti qaynadılıb bulyonu alınır;

6) Lard -toyuq, mal və ya balıq ətini zolaqlayıb və ya dilimləmək, dərisinin altına yağ qoyduqdan sonra xüsusi iynə ilə tikmək;

7) Macedoine-meyvə və ya tərəvəzlərin qarışığı;

8) Roast - sobada sərt istidə, açıq şəraitdə, maye əlavə edilmədən xüsusi ilə ətin bişirilməsinə deyilir;

9) Boil- yeməyin yüksək dərəcədə sürətli qaynadılması;

10) Aspic – bulyon və tomat şirəsinin qarışığından alınır.

**Nəticə:** Kulinariya terminləri Roma imperiyasının ən güclü inkişaf dövründən yaranmağa

başlamışdır. İlk kulinariya terminləri lüğəti b.e II yüzilliyində Artemidor Dal Duamuson tərəfindən tərtib olunmuşdur. XVII əsrdə isə mətbəx mədəniyyətinin inkişafı nəticəsində kulinariya terminləri lüğəti bir çox ölkələrdə, o cümlədən Almaniyada, İngiltərədə və Belçikada yaranıb-yayılmağa başladı.

**ƏDƏBİYYAT:**

1.Food and culture. Colore Counihan, Penny Van Esterik (Southeast Asia: Greenwood Press, 1997, 241 )

2. Floyd's Indiya .Keith Floyd (Berkshire: Harper Collins, 2001, 306)

3.Mətbəx dastanı. Tahir Əmiraslanov (Bakı: Nurlar, 2010, 220)

4.Azərbaycan kulinariya mədəniyyətinin beşiyidir. Azadlıq qəzeti (Bakı: 2010 noyabr 23)

5. Новый большой англо-русский словарь. ред. Апресян, Ю.Д.; Медникова, (Э.М. 2001 ,s ,146)

**Abstract**

**THE HISTORY OF CULINARY TERMS IN ENGLISH LITERATURE**

**Nigar MAMMADLI**

*Graduate student of Azerbaijan University*

**Key words:** culinary, simple terms, derivative terms, complex terms, semantics, lexic

The article studies the historical formation of the culinary terms, morphological structure of culinary terms and its peculiarities. The first known culinary book called " The Art of Cooking " was written by Apicius about in 4-5th centuries . Jane Grigson's book – " English food " can be given an example as a famous English culinary book. We can meet many simple, derivative and compound culinary terms in this and other books.

**Резюме**

**ИСТОРИЯ ЗАРОЖДЕНИЯ КУЛИНАРНЫХ ТЕРМИНОВ В АНГЛИЙСКОЙ ЛИТЕРАТУРЕ**

**Нигяр МАМЕДЛИ**

*Магистр Университета "Азербайджан"*

**Ключевые слова:** кулинарные, простые термины, производные термины, сложные термины, семантика

В этой статье рассматривается история образования кулинарных терминов, морфологические структуры кулинарных терминов и его особенностей. Первая кулинарная книга под названием " The Art of Cooking " была написана Апикусом в IV-V-ом веке. Книга Джейн Григсона в - "English food " может быть дан пример в качестве известной английской кулинарной книги. Мы можем встретить много простых, производных и сложных кулинарных терминов в этой и других книгах.

# AFRO-AMERİKAN DİALEKTİNİN REGİONAL VARİANTLARI

**Nurlanə ƏYYUBOVA**
*Azərbaycan Universiteti, magistr*

**Rəyçi:** f.e.n., dos. Hüseyn Hüseynli
**Açar sözlər:** Afro-Amerikan dialekti, regional fərqliliklər, qrammatik struktur

**Giriş.** Dialekt, eyni dil tərkibində qrammatika, lüğət tərkibi və tələffüz fərqləri ilə ortaya çıxan dilçilik formasıdır. Dialektləri, dilin "yarım-formaları" daha dəqiq desək "qarşılıqlı anlaşması" kimi də qeyd etmək olar. Müxtəlif ölkələrdə və regionlarda yaşayan insanlar, ingilis dilində çox sayda fərqli ləhcələrdən (tələffüz sistemində) istifadə etsələr də, özlərinə məxsus olan söz və qrammatik qaydaları da ixtisara salmırlar. Bir çox müxtəlif dialektlər bu amillər əsasında müəyyən edilə bilər. Dialektlər, təsnifata görə geniş və dar səviyyəyə bölünürlər: belə ki, regional variantlar geniş, yerli variantlar isə dar səviyyə hesab edilir. Dialektlər yalnız regionlarla deyil, sosial qruplarla da əlaqəli ola bilər [1.səh.8]. İngilis dilində danışılan bir ölkədə, ən çox istifadə edilən forma Standart ingilis dilidir, lakin bu dili də müxtəlif ölkələrdə fərqli dialekt hesab edirlər. Standart ingilis dilindən daha çox təhsilli cəmiyyətlərdə istifadə edilir.

İngilis dili dünyada ən çox danışılan 2-ci və ya 3-cü dil hesab olunur. Ümumi olaraq, gündəlik 600-700 milyon insan ingilis dilinin müxtəlif dialektlərində danışır. Təxminən 377 milyon insan ingilis dilinin hər hansı bir variantını ana dili və eynən bu qədər insan da, ingilis dilini ikinci dil və ya xarici dil kimi istifadə edir. Dünyanın 100-dən çox ölkəsində ingilis dili istər ictimai, istərsə də gündəlik danışıqda geniş şəkildə işlədilir. Bundan əlavə, bu dil beynəlxalq və akademik icmalarda da əsas yer tutur. Hal-hazırkı dövrdə ingilis dili keçmiş minillikdəki latın dilinin funksiyalarını daşıyır. İngilis dili İngiltərə, Avstraliya (Avstraliya ingilis dili), Barbados, Baham adaları ( Karib ingilis dili), Bermud, Beliz, Kanada (Kanada ingilis dili), Dominikan, İrlandiya (İrandiya ingilis dili), Yamayka, Montserrat, Yeni Zelandiya, Müqəddəs Elena, Müqəddəs Lusia, Müqəddəs Kitts və Nevis, Trinidad və Toboqo, Cənubi Afrika və Amerika Birləşmiş Ştatları kimi ölkələrdə birinci dil kimi istifadə edilir. İngilis dillində danışan əhalinin böyük hissəsi (67-70%) Amerikada yaşayan insanların payına düşür [2. səh.55].

İngilis dilinin regional olaraq yayıldığı əraziləri və bu səbəbdən də dildə yaranan dəyişikliklərə nəzər salaq:

1. Standart ingilis dilinin şimal ərazilərdə istifadə edilən formaları. Məsələn, Like sözü lic /li:k/ və ya lic /li:tʃ/ cənuba doğru isə /li:/ şəklində tələffüz edilir. Şimal dialekti, cənubi Şotlandiya dialekti ilə bir çox oxşarlıqlara sahibdir. Bəzi xüsusiyyətləri aşağıdakılardır:

- -er > /æ/ kimi oxunur- father > /fædhæ/.
- /ou/ > /o:'/ kimi oxunur- boat > /bo:'t/.
- talk > /ta:k/, work > /work/, book > /bu:k/, my > me, me > us, our > wor, you plural

> youse şəklində tələffüz edilir.

2. Kokney dialekti Şərqi İngiltərədə fəhlə sinfinin istifadə etdiyi dialektlərdən biridir.

- Sözdəki ilk "h" hərfi düşür, ona görə də house sözü /aus/ (yaxud /a:s/) kimi oxunur.
- /th/ və /dh/, /f/ və /v/ kimi tələffüz edilir: think > /fingk/, brother > /brœv'/.
- İki sait səs arasında "t" hərfi knoklauta çevilir: water > /wo?'/.
- Diftonqlarda dəyişikliklər: time > /toim/, brave > /braiv/ və s.

3. Şotldand ingilis dili variantında çox sayda xüsusiyyətlər vardır. Buraya fonetik, qrammatik qaydalardan əlavə ənənəvi variantlar da daxildir. İlk öncə fonetik xüsusiyyətlərə nəzər salaq:

- oi/, /ai/ diftonqları və son hecadakı /ei/ diftonqu > /'i/ kimi oxunur. Məsələn: oil, wife, tide.
- Söz sonundakı /ai/ > /i/ kimi oxunur. Məsələn: ee (eye), dee (die), lee (lie).
- /ou/ > /ei/ kimi oxunur. Məsələn: ake (oak), bate (boat), hame (home), stane (stone), gae (go).
- /au/ > /u:/ kimi oxunur. Məsələn: about, house, cow, now.
- /o/ > /a:/ kimi oxunur. Məsələn: saut (salt), law, aw (all).
- /ou/ > /a:/ kimi oxunur.Məsələn: auld (old), cauld (cold), snaw (snow).
- /æ/ > /a/ kimi oxunur. Məsələn: man, lad, sat... [3, səh-43].

Qrammatik xüsusiyyətlər:

- İndiki zamanda bütün şəxslərdə 3-cü şəxsin təkinə məxsus olan "s" şəkilçisi əlavə edilir (they wis);
- Keçmiş zamanda qaydalı feil şəkilçisi-"ed" t,k,p,d,g,b kimi samitlərdən sonra –t kimi oxunur (big > biggit); -"ed" kimi saitlərdən və bütün cingiltili samitlərdən sonra oxunur. (luv > luved);
- Keçmiş zaman qaydasız feilləri isə: come > cam, gang > gaed kimi dəyişir;
- Bəzi köməkçi feillərin inkar formaları "–na"şəkilçisi ilə düzəlir: am > amna, hae (have) > hinna, dae (do) > dinna, can > canna;
- İşarə əvəzlikləri: this/thir, that/thae, thon/thon, yon/yon;
- Nisbi əvəzliklər: tha yaxud at;
- Sual əvəzlikləri: hoo, wha, whan, whase, whaur, whatna, whit;
- Saylar: ane, twa, three, fower, five, sax, seeven, aucht, nine, ten, aleeven, twal;
- Bir neçə digər sözlər: lass, bairn (child), kirk (church), big (build), bonny, greet (weep), ingle (household fire), aye (yes), hame (home)...

4. Avstraliya ingilis dili, əsasən Britaniya ingilis dilinin özəlliklərinin çox hissəsini daşıyır. Daha çox Kokney dialekti ilə, Amerikan ingilis dilinin birləşməsi kimi də deyilə bilər. Amerikan ingilis dilində, hindu dilinin bir çox sözləri olduğu kimi, Avstraliya ingilis dilində də yerli əhali aborigenlərin bir çox sözlərini görmək olar [4.53].

- corroboree -- a ceremony (mərasim);
- wallaby -- small kangaroo (kenquru balası);
- kangaroo, boomerang, and koala kimi sözlərdə bu sıraya daxildir.

5. Kanada ingilis dili Şimali və Qərbi Amerikan ingilis dilinə oxşar çox sayda xüsusiyyətlərə malikdir. Kanada ingilis dilinin, xüsusilə də Ontorio əhalisinin tələffüz qaydaları Amerikan tələffüzü ilə eynilik təşkil edir. Ən önəmli xüsusiyyətlərdən biri /ai/ və /au/ hərf birləşmələrinin /œi/ və /œu/ kimi oxunmasıdır. House- hoase, out- oot, caught- cot, collar-caller. Kanadalıların bir çoxu t səsini d kimi tələffüz edirlər. Məsələn: ölkənin paytaxtını "Oddawa" kimi tələffüz edirlər. Kanada ingilis dilində standart tələffüz qaydaları yoxdur. Ümumilikdə isə Britaniya ingilis dilinə xarakterik olan çox sayda oxşarlıqları vardır.

6. Afro-Amerikan ingilis dialekti, Amerikanın cənubunda yaşayan qaradərili kölələr tərəfindən danışılan və müasir dövrümüzə qədər gəlib çatan, ənənəvi ingilis dilinin bir variantıdır. Danışıq dilində buna misal ola biləcək çox sayda nümunələr mövcuddur:

Tələffüz zamanı r-özündən əvvəl gələn sait səsi uzadır və özü oxunmur, məsələn: car [ka:] və party [pa:ti], söz sonundakı səslərin ixtisarı, məsələn: test [tes] , desk [des], söz sonundakı /l/ səsinin ləğvi, məsələn: help [hep], "th" hərf birləşməsi [d] kimi oxunur məsələn: this [d̠ıdis], there [d̠ɛ:]. Sözlərin sonundakı /θ/, /ð/ səsləri [f], [v] kimi oxunur. Məsələn: bath [ba:f], teeth [ti:f], brother [brʌvə].

AAVE variantına məxsus morfologiyada da fərqliliklər mövcuddur. Belə ki, bir cümlə daxilində təkrarlanan inkarlığın olması, I ain´t goin´ to give nothin´ to nobody. There əvəzliyi it əvəzliyi ilə əvəz edilə bilər. It ain´t no football pitch at school. Feilin sonuna əlavə edilən "s" şəkilçisi istifadə edilmir. She like my brother. Vurğulu been feili keçmiş zamanı ehtiva edir. I been travel to New York. ´I travelled to New York a long time ago.´ Vurğusuz bitmiş zaman forması olan do, done [dʌn], indicə baş verib bitmiş hadisələri bildirmək üçün istifadə edilir: The mirror done broke.

7. Amerikan ingilis dili ilə Britaniya ingilis dili arasında çox sayda oxşar və fərqli cəhətlər mövcuddur. Burada az da olsa söz önləri arasında da fərqliliklər mövcuddur. Amerikan variantında yazılmış bir kitabı oxuduğumuz zaman bəzi sözlərin səhv yazıldığını düşünə bilərik. Belə ki, söz sonundakı "-our", "-re", "-or", "-er" kimi də yazıla bilər (color, labor, center, theater) Qoşa "l" hərfini traveller, traveling və s. kimi sözlərdə görə bilmərik [5. səh.39].

Britaniya ingilis dili dilin xüsusiyyətlərini ilk gün olduğu kimi saxlasa da, Amerikan ingilis dili müqayisədə daha çox inkişaf edə bilmişdir. Amerikan ingilis dilində tələffüz zamanı yaranan bəzi dəyişikliklərə nəzər salaq:

- /-r/ səsi, sözün sonunda, yaxud özündən sonra samit səs gəldikdə belə tələffüz edilir (farm, force, work);
- /-o/ səsi, o qədər açıq tələffüz edilir ki, bəzən bizə /-a/ səsi kimidə gələ bilir. (on, not, dollar);
- /-a:/ səsi, class, past half, after, can't dance kimi sözlərdə qısa "a" kimi oxunur.
- [Λ] səsi Amerikan ingili dilində [o] səsi isə Britaniya ingilis dilində oxunur; body, shot, hot;
- [t] səsi saitlər arasında və "l" səsindən əvvəl cingiltili oxunur - letter, little, bitter, battle;
- [t] səsi "n" səsindən sonra oxunmur; twenty, wanted [5. səh.58].

**Nəticə:** Sonda onu qeyd etmək istəyirəm ki, Afro-Amerikan ingilis dilinin regional variantları, bir-birindən fərqli fonetik və qrammatik struktura malik olsa da dil daşıyıcısı tərəfindən yetəri qədər anlaşıqlı qəbul edilə bilir. Bir dilin bu qədər çox sayda regional variantlarının olması onun zənginliyinin göstəricisi hesab edilir.

**ƏDƏBİYYAT:**

1. Caroll E.R. Dialects of American English.N.Y.:Penguin books,1999 [p.8]

2. Crystal, David. The Cambridge Encyclopedia of the English Language. (2nd ed.), Cambridge: Cambridge University Press, 2002 [p.55]

3. Wells, J. C. Accents of English: An Introduction. Cambridge University Press, 1998. [p.43]

4. Hammarstroem, Goeran. Australian English: Its Origin and Status. Hamburg, 1980.[p.53]

5. Hinton, L.N. & Pollock, K.E. Regional variations in the phonological characteristics of African American Vernacular English. World Englishes 19, 2000. [p.39,58]

**Abstract**

**REGIONAL VARIANTS OF AFRO-AMERICAN DIALECT**

**Nurlana AYYUBOVA**

*Graduate student of Azerbaijan University*

**Key words:** Afro-American Vernacular English, regional varieties, grammatical structure

This article is to analyze the regional variants of the Afro-American dialect to its phonetical, grammatical and lexical features. The English is one of the most widely spoken language in the world. People who live in different countries and regions, use the English language in different dialects,with their own words and grammatical rules of the language.

**Резюме**

**РЕГИОНАЛЬНЫЕ ВАРИАНТЫ АФРО-АМЕРИКАНСКОГО ДИАЛЕКТА**

**Нурлана ЭЮБОВА**

*Магистр Университета “Азербайджан”*

**Ключевые слова:** Афро-Американский диалект, региональные варианты

Данная статья анализирует разные варианты Афро-Американского диалекта и его фонетические, грамматические и лексические свойства. Английский язык один из широко использованных языков мира. Люди, которые проживают в разных странах и регионах говорят на английском языке с различными диалектами и со свойственными им словами, а также грамматическими правилами данного языка.

# "İPƏK YOLU" JURNALINA MƏQALƏLƏRİN TƏQDİM OLUNMA QAYDALARI

***HÖRMƏTLİ MÜƏLLİFLƏR,***

Azərbaycan Universitetinin (AU) məqalələr toplusu "İpək yolu" jurnalında elmin bütün sahələri üzrə məqalələr dərc olunur. Beynəlxalq, elmi, ictima-siyasi və çoxprofilli "İpək yolu" jurnalı rübdə bir dəfə nəşr edilir. Müxtəlif ölkələrin alimləri redaksiya heyətinin üzvüdür.

"İpək yolu" jurnalına Azərbaycan, türk, ingilis və rus dillərində məqalələr aşağıdakı şərtlərlə qəbul olunur:

I. Məqalələrdə müəllif(lər)in adı, soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı və əlaqə nömrələri göstərilməlidir.

II. Məqalənin həcmi 20 səhifəyə qədər, Word proqramında, 1.5 aralıq, Times New Roman şrifti ilə, 12 pt. hündürlüyündə olmalıdır. Məqalənin əvvəlində mövzunun aktuallığı əsaslandırılmalı, sonunda isə işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

III. Məqalədə açar sözlər (3-5 söz), başlıqdan sonra qara hərflərlə qeyd olunmalıdır, xülasələrə də tərcümə olunaraq əlavə edilməlidir.

IV. Məqalə onun və rəyi jurnalın elektron ünvanına göndərilməli və ya CD-də redaksiyaya təqdim edilməlidir.

V. Azərbaycan və türk dillərində yazılan məqalələrin ingilis və rus, ingilis dilində yazılan məqalələrin Azərbaycan və rus, rus dilində yazılan məqalələrin isə Azərbaycan və ingilis dillərində xülasələri də yazı ilə birlikdə göndərilməlidir. Xülasələr minimum 500 simvol olmalıdır. Xülasədə məqalənin qısa məzmunu, məqsədi və nəticə yer almalıdır. Bundan başqa xülasələrdə müəllif(lər)in adı, titulları və məqalənin adı da göstərilməlidir.

VI. İstifadə olunan ədəbiyyat məqalənin sonunda yer almalı və iqtibaslar məqalənin içərisində [1, səh-342], [2, səh-78] və s. şəklində göstərilməlidir.

- İstifadə olunan ədəbiyyat iqtibas olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməlidir.
- İnternetdən (saytlardan) istifadə olunmuşdursa link tam şəkildə, götürüldüyü tarixlə birgə yer almalıdır.

*Nümunə:*

Ədəbiyyat:

1. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə iqtisadi inkişafı dövlət Proqramı// "İqtisadiyyat" qəzeti. 29 aprel - 5 may 2009-cu il.
2. Azərbaycan tarixi: 7 cilddə, IV cild., Bakı: "Elm", 2000, 456 s.
3. Həbibov İ. Romantik lirikanın imkanları, Bakı: "Yazıçı", 1984, 167 s.
4. http://palm.newsru.com/finance/11mar2009/defolt.html - 11 mart 2009, 19:00.
5. tr.wikipedia.org/wiki/Türkiye-Avrupa_Birliyi_ilişkiləri - 9 iyun 2009, 21:35.

VII. Jurnala göndəriləcək məqalələr başqa yerdə yayımlanmamış və ya yayım üçün təqdim edilməmiş olmalıdır.

VIII. Məqalənin yayımlanmasına müvafiq (o cümlədən anonim) rəylər alındıqdan sonra jurnalın redaksiya heyəti qərar verir.

IX. Məqalənin hər səhifəsi 4 azn məbləğində qiymətləndirilir.

Qeyd: Azərbaycan Universitetinin magistrləri tamamilə pulsuz, müəllimləri, dissertant və doktorantları isə 50% güzəştlə (yəni səhifəsi 2 azn olmaqla) məqalələrini təqdim edə bilərlər.

**Məqalələrin göndəriləcəyi ünvan:**

Azərbaycan Universiteti
Nəsimi rayonu, Tbilisi pr-72,
Bakı, Azərbaycan
Tel: *(+99412) 431-41-12, 13, 16, 17*
E-mail: venera.sharifzade@au.edu.az

## RULES OF SUBMISION OF ARTICLES TO IPEK YOLU PUBLICATION

***DEAR AUTHORS,***

Articles from all fields of science can be submitted to Ipek Yolu publication of AU. Being an international, scientific, public-politic publication, Ipek Yolu is published once in a term. Editorial board includes scientists for different countries.

Articles in Azerbaijani, Russian and English can be submitted to Ipek Yolu according to the following rules:

I. Name, surname, employer and office address and email address of the author will be indicated.

II. The article will be submitted up to 20 pages in Word program, with 1.5 intervals, Times New Roman, 12 pt. The importance of the article will be indicated in the beginning with the novelty, use and economic benefits noted at the end.

III. Key word (3-5 words) will be written in bold after the name of the article and their translations will be added to the abstracts.

IV. The article will be sent to the email address of the publication or be presented in CD. The review of the article will be included.

V. Resumes for the article in Azerbaijani will be in Russian and English; for articles in Russian will be in Azerbaijani and English; and for articles in English will be in Azerbaijani and Russian respectively. The abstracts will be 500 symbols at least. The abstract will include the short summery, purpose and results of the article, as well as the name(s), title of the author and the name of the article.

VI. The used literature will be indicated at the end of the article with quoted indicated in the article as (1, p 342), (2, p 78).

- The literature will be numbered according to the order of the quoted literature.
- The data taken from websites will be added to the end of the list with the whole link and the date of the use indicated. Example:

Literature:

1. State Program (years of 2009-2013) on economic development of the regions of the Republic of Azerbaijan/"Economy" newspaper, April 29-May 5 2009
2. Azerbaijan history in 7 volumes, IV volume, Baku: "Science", 200, 456 pages.
3. Hebibov I. Options of romantic literature. Baku. "Yazichi", 1984, 167 pages.
4. http://palm.newsru.com/finance/11mar2009/defolt.html - 11 mart 2009, 19:00.
5. tr.wikipedia.org/wiki/Türkiye-Avrupa_Birliyi_ilişkiləri - 9 iyun 2009, 21:35.

VII. The articles published in or submitted to other publications are not accepted.

VIII. The editorial staff of the publication decide on the article after obtaining reviews (including anonym reviews).

IX. Each  page of the article costs 4 azn

Note: Graduate students of AU can submit their articles for free, while AY faculty members and Ph. D. students will have 50% discount (2 AZN per page).

**Articles will be send to:**

Azerbaijan University
Nesimi district, Tbilisi av-72
Baku, Azerbaijan
Phone: *(+99412) 431-41-12, 13, 16, 17*
Email: venera.sharifzade@au.edu.az

Jurnal Azərbaycan Respublikası Prezidentinin yanında Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin Siyahısı”na daxil edilmişdir.

♦♦♦

Журнал включён в «Список научных изданий, рекомендуемых для публикации основных результатов диссертаций в Азербайджанской Республике», утверждённый Высшей Аттестационной Комиссией при Президенте Азербайджанской Республики.

♦♦♦

The magazine was inscribed in “The scientific edition list, recommended to publication of main results of the dissertations in Azerbaijan Republic”, confirmed by Superior Examination Board under President of Azerbaijan Republic.

♦♦♦

Dergi Azerbaycan Cumhuriyyeti Cumhurbaşkanı yanında Yüksek Tasnif Komisyonu tarafından onaylanmış Azerbaycan Cumhuriyyetinde bilimsel araştırmalarının genel sonuçlarının yayınlanması önerilen bilimsel yayınların listesine dahil edilmişdir.